


downloaded from KitabYurdu.org

**Dr. JOHN COLEMAN**

**Üçyüzlər Komitəsi**

**KOMİTET 300**

**Dünya Hökumətinin sirləri**

Bu kitab – dəhşətli həqiqəti görməsi üçün bəşəriyyətin gözünü açmağa cəhddir. «Həqiqət isə ondan ibarətdir ki, biz müstəqil ölkə və müstəqil xalq deyilik və heç vaxt da müstəqil olmamışıq, çünki bizi həmişə gözəgörünməz hökumət – «Üçyüzlər komitəsi» idarə edib», – kitabın yazarı, Böyük Britaniya Xüsusi Xidmətinin keçmiş zabiti Con Koleman yazır.

Təxribatın miqyası dəhşətə gətirir: dövlət, maliyyə-iqtisadi, təhsil və digər ictimai institutların hamısı ələ keçirilərək sərt nəzarət altına alınıb. Üstəlik, total nəzarət təkcə ictimai miqyasda həyata keçirilməyib, həm də hər bir şəxsin fərdi şüuruna nəzarət səviyyəsinə çatdırılıb.

Kitab, sadaladığı faktlarla oxucunu dəhşətə gətirir, bu gün dünyada baş verən qlobal hadisələri, içində olduğumuz prosesləri anlamaq üçün ona yeni imkanlar yaradır. Çıxış yolu isə sirli və qara niyyətli «Üçyüzlər komitəsi» təşkilatının birbaşa öz nəzarəti altına almağa çalışdığı bizlərin hər birimizin öz əlindədir.

ÖN SÖZ

Oxucuların diqqətinə təklif olunan bu kitab bəşəriyyətə qarşı qatı düşmən mövqedə duran qüvvələrin dağıdıcı fəaliyyətini qərəzsiz, obyektiv və dəlil-sübutlu işıqlandırır. Fərdi məqsədlər güdən bu qüvvələrin taktiki vəzifələrindən birini dünya miqyasında insanların əsarət altına alınması təşkil edir. Həmin vəzifə qlobal idarəçilik və nəzarət sistemi vasitəsilə yerinə yetirilməlidir ki, bu sistem çoxlarına «Yeni Dünya Nizamı» adı altında bəllidir.

Bu qlobal ideyanın icraçılarının təşkilati-sosium strukturu, cəmiyyətin idarə edilməsi və insanların fərdi və kollektiv şüuruna təsir göstərmək üsulları, insanlarla manipulyasiyanın miqyasları, əhatə dairəsi Göbbelsin heç yuxusuna belə girməyən aqressiv informasiya-təbliğat fəaliyyətinin metodları kitabda çox zəngin faktiki material əsasında açılır, gizlin və çağırılmamış gələn dünya hökuməti tərəfindən həyata keçirilən ən aşkar cinayətlər sadalanır.

TƏXRİBATIN MİQYASLARI dəhşətə gətirir: dövtət, maliyyə-iqtisadi, təhsil və digər ictimai institutların HAMISI ələ keçirilmiş və sərt nəzarət altındadır. Üstəlik, TOTAL NƏZARƏT təkcə ictimai səviyyədə həyata keçirilməyərək, həm də hər bir şəxsin fərdi şüuruna nəzarət səviyyəsinə çatdırılıb. Bu qüvvələr öz dağıdıcı fəaliyyətlərinin əsası qismində DƏYİŞDİRMƏK prinsipini götürüblər. Hər şey – insanın gen tipindən və onu əhatə edən mühitdən tutmuş,

downloaded from KitabYurdu.org

insanların mentaliteti və şüuru, insanın davranışının təbii və ənənəvi stereotiplərinədək hər şey məqsədyönlü, planlaşdırılmış və dönməz şəkildə dəyişdirilir. Bununla yanaşı, müəllif bu qüvvələrə gözəçarpmamağa və cəzasız qalmağa imkan verən əsas qanunauyğunluğu da çox dəqiq qeyd edir – bu qanunauyğunluq bəşəriyyətin düşmənlərinin həyata keçirdikləri dəyişikliklərin tədriciliyi və hissolunmazlığıdır. Onların fasiləsiz destruktiv fəaliyyətinin bəşəriyyət üçün törətdiyi neqativ nəticələr özünü uzun illərdən və onilliklərdən sonra büruzə verir.

Kitabın məzmunundan birmənalı nəticə çıxır: «demokratların» və «liberalların» bizi cidd-cəhdlə daxil etmək istədikləri Qərb cəmiyyətinin bütün sahələri, o cümlədən də ilk növbədə siyasi-dövlət quruluşu VAHİD MƏRKƏZ tərəfindən yaradılmış və idarə olunan açıq və bağlı (gizlin və məxfi) təşkilatlardan, kütləvi informasiya vasitələrindən və digər strukturlardan ibarət ümumdünya şəbəkəsinin **tam nəzarəti altındadır**. Müəllif bu mərkəzi «Komitet 300» adlandırır. Komitet 300 artıq Şərq və Asiya cəmiyyətlərinə sözəbaxan «nökər» rolunu ayırıb, odur ki, indi bütün dünya onun ayaqları altındadır.
Bu kitab Rusiyada və MDB ölkələrində baş verən hadisələrlə bağlı oxucularımız üçün xüsusilə aktualdır və Qərbdə, ümumiyyətlə, bütün dünyada vaxtilə səs-küy salmış hadisələr və hazırda ölkəmizdə baş verənlər arasında çoxsaylı paralellər və analogiyalar aparmağa imkan verir. Rusiyanın və keçmiş SSRİ ölkələrinin maliyyəi-qtisadi və «demokratik» ideologiyalı ümumdünya sisteminə «daxil edilməsi» kənardan genişmiqyaslı təsirlərə, insanların şüurunun manipulyasiyasına və «dünya hökumətinin» agentlərinin bizim xalqlarımızı idarə etməsinə geniş yol açıb. Kitab vətənpərvər ruhda olan oxucunun şüurunu müəyyən yüksəkliyə qaldıraraq müasir dövrdə və yaxın keçmişdə baş verən bir çox hadisələrə və təzahürlərə sistemli və kompleks şəkildə, necə deyərlər, «quşun uçduğu yüksəklikdən» baxmağa imkan verir.

Müəllif öz mövqeyini gizlətmir – Amerikada yurd salan ilk ağdərili sakinlərin ingilis-sakson, protestant, azadlıqsevər və müəyyən dərəcədə hətta qiyamçı ruhu kitaba sirayət edib və bu mənada o, sözsüz ki, öz ölkəsinin və xalqının patriotudur. Lakin milli maraqların müdafiəsinə yönəlmiş olan elə həmin bu niyyət onu, həm də məhdudlaşdırır: problemə ali, həqiqətən də qlobal səviyyəli baxış müəllif üçün əlçatmaz olub. **HƏQİQƏT** isə ondadır ki, tamamilə məxfi Komitet 300-ün arxasında (söz düşmüşkən, müəllif onu «ALİ nəzarət orqanı» adlandırır – sual meydana çıxır: «nəyin və ya kimin orqanı?») həqiqətən də **GİZLİN,** qüdrətli və bəşəriyyətə qarşı son dərəcə düşməncəsinə köklənmiş qüvvələr mövcuddur. Bu qüvvələr ötəri forına və təşkilati strukturlara bağlı deyillər, onlar üçün Komitet 300-ün özü və ona daxil olan, onun nəzarət etdiyi çoxsaylı təşkilatlar da pərdə,

downloaded from KitabYurdu.org

onların qeyri-insani planlarının həyata keçirilməsi üçün əlverişli və zamanında yaradılan bir formadır. Tarix göstərdiyi kimi, bu GlZLİN qüvvələrin ələkeçməzliyi məhz elə onların, dəfələrlə nümayiş etdirilən, formanı konkret həyati, tarixi-sosial və digər şəraitlərə münasibətdə asanlıqla dəyişmək qabiliyyətindən ibarətdir.
Sözsüz etiraf olunmalıdır ki, GİZLİN qüvvələrin fəaliyyətinin müasir formalarının, təşkilati strukturlarının təsvir olunmasından və onların fəaliyyətlərinin metodlarından tutmuş, bəşəriyyətin düşmənləri tərəfindən onun üçün hazırlanan sonrakı inkişaf yolunun uzunmüddətli planlaşdırılmasının və proqramlaşdırılmasının müəyyən edilmiş aspektlərinə qədər – bütün bunlar müəllifin xidmətidir. Bu da dəyərlidir ki, müəllifin söhbəti – bu, Amerika cəmiyyətinin, bütün Qərb dünyasının qalası və mərkəzi oxu olan bir cəmiyyətin içindən gələn şahidlikdir.

Kitab bir çox hallarda dərin düşüncələrə, gerçəkliyin yenidən dərk olunmasına təkan verən vəsait kimi qəbul olunur və nəhayət, vətənpərvər və müstəqil düşüncəli insanları dərhal və gecikmədən fəaliyyətə sövq edir. Əks təqdirdə həqiqətən də SABALI GEC OLACAQ!

Çünki SABALI bütün bəşəriyyət üçün açılmaya da bilər!

Kitabın tərcüməsi, 1992-ci il tarixli 2-ci nəşri üzrə edilib.

KOMITET 300

Bank işini, sığortanı, kömür hasilatını, tibbi preparatların ticarətini, neft sənayesini özündə birləşdirən, hər hansı bir milli sərhəd tanımayan ƏN QÜDRƏTLİ QRUPU təsəvvür edin və bunu da təsəvvür edin ki, onun üzvləri istisnasız olaraq yalnız bu qrup qarşısında məsuliyyət daşıyırlar. Bu, KOMİTET 300-dür.

## I HİSSƏ

SUİQƏSDÇİLƏRİN İERARXİYASI:

KOMİTET 300-ün TARİXİ

ÖN SÖZ

Kəşfiyyatda kadr zabiti karyeram ərzində mənim ciddi məxfilik səviyyəsi olan sənədlərlə dəfələrlə işləmək imkanım olub. Lakin Anqolada zabit-politoloq qismində xidmət etdiyim dövrdə mənə məzmunu qeyri-adi dərəcədə açıq olan bir sıra tamamilə məxfi sənədləri

downloaded from KitabYurdu.org

öyrənmək imkanı nəsib oldu. Gördüklərim mənim hiddət və narazılığımı daşırdı və mən bir daha heç vaxt geri dönmədiyim yola qədəm qoydum. Bu məqamdan sonra mənim həyatımın məqsədi Böyük Britaniyanın və Birləşmiş Ştatların hökumətlərinə nə cür qüvvənin nəzarət və idarə etdiyini hamıya göstərmək oldu.
Mən məlum olan bütün gizlin cəmiyyətlərlə – məsələn, «Beynəlxalq İşlər üzrə Kral İnstitutu» (BİKİ = RRLA, Royal Institute for International Affairs), «Beynəlxalq Münasibətlər üzrə Şura» (BMŞ = CFR, the Council on Foreign Relations), «Bilderberq Klubu» (the Bilderbergers), «Üçtərəfli Komissiya» (Trilaterals), Sionistlər (the Zionists), Frankmasonluq (Freemasonry), Bolşevizm-Rozenkreyserlik (Bolshevism-Rosicrucianism), eləcə də bu gizlin cəmiyyətlərin bütün qanadları ilə yaxşı tanış idim. Kəşfiyyat xidmətinin zabiti olduğum zaman və hətta bundan da əvvəl, tələbə olduğum mərhələdə Londonda Britaniya muzeyində məşğul olduğum vaxt, mən bu cəmiyyətlər, eləcə də bir çox digər təşkilatlar haqqında əl çata biləcək bütün məlumatları eninə və uzununa öyrənmişdim və hesab edirdim ki, amerikalılar bunlar haqda məlumatlı olmalıdırlar.

Lakin 1969-cu ildə Birləşmiş Ştatlara gələndə mənə aydın oldu ki, «Müqəddəs İoann Yerusalimskiy Ordeni» (the Order of St. John of Jerusalem), «Roma Klubu» (Club of Rome), «Almaniya Marşall Fondu» (the German Marshall Fund), «Çini Fondu» (the Cini Foundation), «Dəyirmi Masa» (the Round Table), «Fabian Cəmiyyəti» (the Fabianists), «Venesiyanın Qara Aristokratiyası» (the Venetian Black Nobility), «Mont Pelerin Cəmiyyəti» (the Venetian Black Nobility), «Cəhənnəm Tayfası Klubu» (Hellfire Clubs) və bir çox başqaları haqda burada ya tamamilə xəbərsizdirlər, ya da, ən yaxşı halda, onların əsl funksiyalarını pis anlayır, yaxud da ümumiyyətlə, anlamırlar.

1969-1970-ci illərdə mən monoqrafiya və maqnitofon yazrlan seriyasını buraxmaqla bu vəziyyəti düzəltməyi qərara aldım. Böyük heyrətimə rəğmən, tezliklə müşahidə etdim ki, bir çoxları həmin adları təkrarlamağa başlayıb, sanki onlar bütün yazıçı karyeraları dövründə bunları bilirmişlər. Əslində isə onlar məsələnin məğzindən tamamilə bixəbər idilər, üstəlik də, onlar bir müddət əvvəl işıq üzü görən bu informasiyanın mənbəyini göstərmək istəmirdilər. Mən özümə bu fikirlə təskinlik verirdim ki, saxtakarlıq – bu, riyakarlığrn ən səmimi formasıdır.

Daimi risk altında olmağıma, mənim və həyat yöldaşının üzərinə hücumlara, maliyyə itkilərinə, daimi təzyiqlərə, təhdidlərə və şər-böhtana baxmayaraq, mən öz araşdırmalarımı əvvəlki enerji ilə davam etdirirdim. Bütün bunlar məni diskreditasiya etməyə yönəlmiş dəqiq işlənən və istiqamətləndirilən proqramın bir hissəsi idi. Bunu, üzdən iraq, «Sağçı

downloaded from KitabYurdu.org

Xristianlar»a (Hellfire Clubs), «Şəxsiyyətin Ozünü Təsdiq Etməsi Uğrunda Hərəkat"a («Identity Movement») və sağçı «vətənpərvər» qruplara hökumət tərəfindən yeridilən agent və informatorlar həyata keçirirdilər. Bu agentlər iudaizmə qarşı açıq, qorxu bilməyən və qüdrətli qarşıdurına maskası altında fəaliyyət göstərirdilər və indi də bunu davam etdirirlər – onlar bizi inandırmaq istəyirlər ki, onların əsas düşməni guya məhz iudaizmdir. Bu agent-informatorlar Birləşmiş Ştatların bütün ərazisinə səpələnən siyasi və dini mühafizəkarların çox sevib və hörmət etdikləri homoseksuallar qrupunun rəhbərliyi və nəzarəti altında fəaliyyət göstərirlər.

Mənim işimlə bağlı onların böhtan, yalan, nifrət və dezinformasiya proqramları – üstəlik də, yaxın vaxtlardan etibarən mənim əziyyətlərimin başqa yazıçıların adına çıxılması – davam edir, zəifləmir, lakin indiyədək hələ istənilən effekt əldə olunmayıb. Mən bundan sonra da öz vəzifəmi yerinə yetirəcəm və bu o vaxta qədər davam edəcək ki, nəhayət, ən yüksək səviyyədə fəaliyyət göstərərək Böyük Britaniya və Birləşmiş Ştatları idarə edən gizlin paralel hökumətin üzündən maskanı tamamilə qoparmış olum.

Bu kitab – mənim davam etməkdə olan işimin bir hissəsidir.

*D-r Con Koleman, Noyabr, 1991-ci il*

## ÜMUMİ ŞƏRH VƏ BƏZİ NÜMUNƏLƏR

Yəqin bir çoxumuz bilirik ki, həm daxili, həm də xarici siyasət sahəsində istər siyasi, istərsə də iqtisadi məsələlərlə bağlı qərarları heç də bizim hökumətdə işləyən adamlar yox, əslində tamam başqa adamlar qəbul edirlər. Bu hal bir çoxlarıra həqiqəti alternativ mətbuatda, o yazıçıların informasiya bülletenlərində axtarmağa sövq edir ki, onlar da, mənim kimi, Birləşmiş Ştatların ölümcül xəstəliyinin kökünü axtarsalar da, Həmişə tapmağa müyəssər olmurlar. Bu qrupa «axtaran, tapar» formulası heç də həmişə şamil edilə bilmoz. Bizim həqiqətən də aşkar etdiyimiz nə isə varsa, bu da odur ki, insanlar zülmət qaranlıqda yaşayırlar, böyük əksəriyyət öz ölkəsinin necə hərəkət etməsindən qətiyyən narahat deyil və onlar omindirlər ki, ölkənin başma heç vaxt pis heç nə gələ bilməz. Əhalinin böyük hissəsində məhz bu cür həyati mövqe tərbiyə olunub və bu mövqe birbaşa gizlin hökumətin xeyrinə oynayır.

Biz tez-tez eşidirik ki, «onlar» «bu» və ya «başqa bir» işi etdilər. Adama belə gəlir ki, demək olar hər şey, hətta insanın qətlə yetirilməsi də onlar üçün keçilir. «Onlar» vergiləri artırır,

downloaded from KitabYurdu.org

«onlar» oğullarımızı və qızlarımızı bizim ölkəmizə heç bir faydası olmayan müharibələrdə ölməyə göndərirlər. Zənn etmək olar ki, «onlar» bizim əlimiz çata biləcək, nəzərlərimiz yetə biləcək əhatə dairəsindən kənardadırlar. «Onlara» qarşı, nəhayət, konkret hərəkət etməyə cəhd edəndə isə, «onlar» kabus kimi barmaqlarımızm arasından sivişib çıxırlar. Zənn etmək olar ki, «onların» əslində kim oiduğunu heç kəs dəqiq söyləyə bilməz. Belə vəziyyət artıq onillərdir ki, davam edir. Kitabın gedişində biz bu gizlin «onların» kim olduqlarını. müəyyən edəcəyik, bundan sonra isə xalq vəziyyəti necə düzəltməli olduğu barədə qərarı özü verər.

1981-ci il aprelin 30-da mən «Roma Klubu»nun mövcud olduğunu göstərən monoqrafiya yazdım və onun Komitet 300-ün təxribat fəaliyyəti ilə məşğul olan prqam olduğunu bildirdim. Bu, Birləşmiş Ştatlarda həmin təşkilatların hər ikisi haqqında bəhs edilən ilk nəşr idi. Oxuculardan xahiş edirdim ki, məqalənin guya gerçəklikdən qoparılmış olduğu barədə yanlış fikrə düşməsinlər və bunların həqiqətən də gerçək olduğunu təsdiq etmək üçün, Bavariya hökumətinin, «İllüminatların» gizli planları onun əlinə keçən vaxt etdiyi xəbərdarlıqla məqaləm arasında paralellər aparmışdım... Kitabda «Roma Klubu» və Komitet 300-ün ABŞ-ın siyasətində rolu haqda söhbətə bir daha qayıdacağıq.

1981-ci ildə yazılan həmin məqalədəki proqnozların ÇOXU artıq həyata keçib: məsələn, tanınmayan siyasətçi Felipe Qonsalesin İspaniyanın Baş Naziri postuna təyin olunması, Fransua Mitteranın Fransada hakimiyyətə qayıtması, Jiskar D'Esten və Helmut Şmidtin süqutu, İsveç aristokratı və Komitet 300-ün üzvü Olaf Palmenin hakimiyyətə qayıdışı, Reyqanın prezidentliyinin nəticələrinin məhv edilməsi, eləcə də Komitet 300-ün göstərişi ilə həyata keçirilən «postindustrial mərhələdə sıfır həddində inkişaf siyasəti» çərçivəsində Birləşmiş Ştatlar industriyasının poladəritmə, avtomobil və evtikmə kimi sahələrinin iflasa uğradılması.

Olaf Palmenin mühüm rolu bundan ibarət idi ki, «Roma Klubu» onu ABŞ-ın Gömrük İdarəsinin SSRİ-yə ixracına qadağa qoyduğu texnologiyaların Sovet İttifaqına göndərilməsi üçün istifadə etmişdi. Onun ümumdünya əlaqələri şəbəkəsinin əhəmiyyəti də mühüm idi. Belə ki, ümumi diqqəti İranda girovlarla bağlı psevdoböhran üzərində cəmləşdirmok üçün Palme Vaşinqtonla Tehran arasında gedib-gələn vaxt onun əlaqələrindən istifadə olunmuşdu. Axı o, ABŞ-ın suveren birliyini pozmağa və psevdoböhranı Komitet 300-ün təşkilatlarından birinin, daha konkret olsaq, Hollandiyada, Haaqada yerləşən Beynəlxalq Məhkəmənin yurisdiksiyası altına verməyə gəy göstərirdi.

downloaded from KitabYurdu.org

Müharibələr, bəlalar və kütləvi qırğınlardan sonra yer üzündə qalan insanların əksəriyyətinin əsarət altına alınmasını nəzərdə tutan Allaha və insana qarşı sui-qəsd fəaliyyətdədir, onun gizlin qalması üçün xüsusi səy də heç göstərilmir. Kəşfiyyatçılarda belə bir qayda var: nəyi isə giziətməyin ən yaxşı üsulu – onu ən görünən yerə qoymaqdır. Məsələn, 1938-ci ildə Almaniya həyata keçirməyə can atdığı və üzərində çalışdığı layihə – «Messerşmidt» superqirici təyyarəsi haqda informasiyani gizləimək istəyəndə həmin təyyarə Paris Aviasiya sərgisində nümayiş etdirilmişdi. Məxfi agentlər və casuslar məlumat toplamaq, onu ağac koxuşu və kərpic hörgüdə gizlin yerlər vasitəsilə ötürməklə məşğul olduqları vaxt, onların arxasınca qaçdıqları informasiya düz gözləri önündə durmuşdu.

Ali səviyyəli paralel gizlin hökumət qaranlıq zirzəmilərdən və yeraltı gizlinlərdən fəaliyyət göstərmir. Bu hökumət Ağ Evdə, Konqresdə, Dauninq Strit 10 ünvanıda və Böyük Britaniyanın Parlamentində göz önündə yerləşib. O, eybəcər cizgiləri, uzun saçları və ondan da uzun dişləri olan bədheybətin nərə çəkib, tüpürcəyini hər tərəfə səpələyərək peyda olduğu «monastrlar» haqda dəhşətli və məqsədli olaraq vahimə yaradan filmlər kimidir. Bu filmlər yalnız diqqəti yayındırır, əsil bədheybətlər isə işgüzar kostyumlar geyinir və Kapitoli təpəciyindəki iş yerlərinə limuzinlərdə gedirlər.

Bu insanlar – göz önündədirlər. Bu insanlar – Dünya Hökumətinin və Yeni Dünya Nizamının nökərləridir. Maşını saxlayan və zorlamaq istədiyi qurbanına onu getdiyi yerə aparmağı təklif edən cani kimi, o da əslində olduğundan fərqli olaraq, zahirən heç də bədheybət təsiri bağişlamır. Əgər o, belə təsir bağışlasaydı, onun gözaltı etdiyi qurban dəhşətdən bağıra-bağıra qaçıb gedərdi. Eyni şeyi bütün səviyyələrdə hökumətlər üçün də söyləmək ədalətli olardı. Prezident Buş da ali səviyyəli paralel hökumətin sadiq nökəri təsiri bağışlamırdı. Ancaq onun barəsində yanlış fikrə düşməyin – o, dəhşət filmlərindən olan qorxunc kimi bir bədheybətdir.

Bir anlıq dayanaq və orduların razılaşdırılmış qaydada bir-birindən uzaqlaşdırılması və döyüşdən çıxarılması haqda Cenevrə Konvensiyasına uyğun olaraq, ağ bayraqlı hərbi maşınlarda Bağdada qayıdan 150.000 İraq əsgərini vəhşicəsinə qətlə yetirmək barədə Prezident Buşun əmrini nəzərdən keçirək. İndi isə, ağ bayraq yellətmələrinə baxmayaraq, Amerika təyyarələrinin gülləbaran etdiyi iraqlı əsgərlərin yaşadıqları dəhşəti təsəvvür edin. Cəbhənin başqa bir hissəsində 12.000 İraq əsgəri tutduqları səngərlərdə diri-diri basdırıldılar. Bu, sözün əsl mənasında dəhşətli deyilmi? Prezident Buş belə dəhşətli şəkildə hərəkət etmək barədə əmrləri haradan almışdı? Bu əmrləri ona, öz mandatını Komitet 300,

downloaded from KitabYurdu.org

eləcə də «Olimpiyaçılar» kimi tanınan təşkilatdan alan «Beynəlxalq İşlər üzrə Kral İnstitutu» (RRLA) vermişdi.

İrəlidə biz görəcəyik ki, heç «Olimpiyaçılar» da öz simalarını gizlətmirlər. Onlar tez-tez, yuxarıda haqqında danışılan, Paris sərgisi ilə müqayisə edilə biləcək tamaşalar oynayır, sui-qəsd axtarışlarından başı xarab olan «çudaklar» da həmin vaxt sui-qəsdləri lazım olan yerdə və lazım olan istiqamətdə axtarmamaqla yalnız vaxt itirirlər. Kraliça II Yelizavetanın Böyük Britaniya Parlamentinin açılışı mərasimini necə yerinə yetirdiyinə diqqət yetirmisinizmi? Orada hamının gözü önündə Komitet 300-ün başçısı olur. Siz nə vaxtsa Birləşmiş Ştatların prezidentinin andiçmə mərasimini izləmisinizmi? Orada hamının gözü önündə Komitet 300-ün başqa bir üzvü iştirak edir.**Bütün problem yalnız insanın nəyi və necə qavramasından ibarətdir.**
Hər şeyə qadir olan Komitet 300-ə xidmət edən sui-qəsdçilər axı kimdir? Cəmiyyətimizin ən məlumatlı hissəsi dərk edir ki, sui-qəsd mövcuddur və bu sui-qəsd müxtəlif, məsələn, «İllüminatlar», «Masonluq», «Dəyirmi Masa», «Milner Qrupu» kimi adların arxasında gizlənir. Belə insanlar daxili və xarici siyasətdə pis nə varsa, bütün hər şeyi «Beynəlxalq Münasibətlər üzrə Şura» və «Üçtərəfli Komissiya», eləcə də digər bu kimi təşkilatların fəaliyyəti ilə əlaqələndirirlər. Bəziləri hətta bunu da büirlər ki, «Dəyirmi Masa» Birləşmiş Ştatların işlərinə öz töhfəsini Böyük Britaniyanın Vaşinqtondakı səfiri vasitəsilə verib. Problem ondan ibarətdir ki, gözəgörünməz hökumətin üzvlərinin xəyanətkar fəaliyyəti barədə real informasiya əldə etmək çox çətindir.

Xristian İncilindən /4.6./ Osii peyğəmbərin çox dərin bir kəlamını sitat gətirirmək istəyirəm: «Mənim xalqım məlumatı az olduğuna görə qırılacaq». Oxucuların bəzisi xarici dövlətlərə yardım qalmaqalını ifşa etdiyim barədə, ola bilsin, artıq eşidib; həmin publikasiyada mən sayı bütöv bir legiona bərabər olan sui-qəsdçi təşkilatların bir neçəsinin adını çəkmişəm. Onların son məqsədi ABŞ Konstitusiyasını ləğv etməkdir. Onların məqsədi Allah tərəfindən ONUN ölkəsi kimi seçilən ABŞ-ı Qaranlıq Əsrlərdə olduğundan qat-qat ağır vəziyyətə qaytarmağı planlaşdıran Dünya Hökumətinin idarə etdiyi allahsız Yeni Dünya Nizamına daxil elməkdir.

Konkret tarixi misalları, məsələn, İtaliyanın kommunalaşdırılması və deindustriyalaşdırılması cəhdini nəzərdən keçirək. Komitet 300 artıq çoxdan qərar verıb ki, dünya gələcəkdə daha yaxşı və daha yığcam olmalıdır, indikindən lap çox yığcam. Onların daha yaxşı dünya ilə bağlı ideyaları bax bundan ibarətdir: faydasız milyardlarla yeyən, yəni məhdud təbii resursların istehlakçıları saf-çürük olunmalı və məhv edilməlidir; sənaye

downloaded from KitabYurdu.org

inkişafı isə əhali artımına şərait yaradır, deməli, nəsli artırmaq və torpağı əkmək barədə Həyat Kitabının vəsiyyəti dəyişdirilməlidir.

Bunun mütləq nəticəsi olaraq xristianlığın əsasları dağıdılmalıdır; industrial milli dövlətlər tədricən, lakin dönməz olaraq yox edilməlidir; Komitet 300-ün «artıq əhali» kimi nəzərdən keçirdiyi yüz milyonlarla insan məhv edilməli, eləcə də yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün Komitet 300-ün qlobal planlaşdırması yolunda durmağa cürət edən istənilən lider aradan qaldırılmalıdır.

ROMA KLUBU

Komitetin ilk zərbələrindən biri İtaliya və Pakistana endirilmişdi. Italiyanın mərhum Baş naziri Aldo Moro öz ölkəsi üçün müəyyən edilən «postindustrial sıfır inkişafı» və əhalinin sayının ixtisarı siyasətinin əleyhinə çıxan liderlərdən biri idi. O, bununla «Roma Klubunu» hiddətləndirmiş oldu, çünki «Olimpiyaçılar» bu siyasətin həyata keçirilməsini məhz «Roma Klubuna» tapşırmışdılar. 1982-ci il noyabrın 10-da Romada keçirilən məhkəmədə Moronun yaxın dostu bildirdi ki, Baş Nazirə «Beynəlxalq İşlər üzrə Kral İnstitutunun» (RRLA, Böyük Britaniya) agenti hədə-qorxu gəlirdi və həmin şəxs eyni zamanda həm də ABŞ-ın Dövlət Katibi, eləcə də Komitet 300-ün üzvüdür. Şahidin adını çəkdiyi adam Henri Kissincer idi və onun sürətli yüksəlişi aşağıda təfərrüatı ilə nəzərdən keçiriləcəkdir.

Xatırladaq ki, Baş Nazir Aldo Moro 1978-ci ildə «Qırmızı briqadalar»nın terrorçuları tərəfindən oğurlanmış və şonra vəhşicəsinə qətlə yetirilmişdi. «Qırmızı briqadalar»nın üzvlərinə qarşı keçirilən məhkəmədə onlardan bəziləri Moronun məhv edilməsi məqsədilə həyata keçirilən sui-qəsddə ABŞ-ın yüksək səviyyəli rəsını şəxslərinin iştirak etdiklərindən xəbərdar olduqlarını bildirmişdilər. Moroya hədə-qorxu gələn Kissincer, əlbəttə, ABŞ-ın xarici siyasətini həyata keçirməkdən çox, Komitet 300-ün xarici siyasət bölməsi olan «Roma Klubu»nun təlimatlarına uyğun hərəkət edirdi.

Açıq məhkəmə iclaslarında partlayan bomba effektli ifadələr verən şahid – Moronun yaxın məsləkdaşı Qorrado Gersoni idi. Onun inanılmaz şahidlik ifadələri 1982-ci il noyabrın 10-da İtaliya televiziyası və radiosu ilə verilmiş, eləcə də İtaliyanın bir neçə qəzetində dərc etdirilmişdi. Lakin bu çox vacib informasiya ABŞ-da sadəcə olaraq sükuta qərq edildi. Azadlığın qalaları kimi məşhur olan, həmişə hər şey haqda hər şeyi bilən «Vaşinqton Post» və «Nyu-York Tayms» qəzetləri buna azacıq da olsa əhəıniyyət vermədilər və Gersoninin şahidlik ifadələrindən bircə sətir belə dərc etmədilər.

downloaded from KitabYurdu.org

Bu rəzil cinayət haqda 1982-ci ildə dərc olunmuş ifşaedici məqaləmdə göstərmişdim ki, Xristian-Demokrat Partiyasının loyal üzvü olan Aldo Moro «P2» Mason Lojası ilə bağlı olan muzdlu qatillər tərəfindən öldürülüb. Qətlin məqsədi İtaliyanı, ölkənin deindustriyalaşdırılması və əhalisinin əhəmiyyətli surətdə ixtisarı üzrə «Roma Klubu»nun təlimatlarına tabe olmağa məcbur etmək idi. Ölkədə tam məşğulluğun təmin olunması, siyasətdə və iqtisadiyyatda gərginliyin aradan qaldırılması yolu ilə İtaliyanın sabitləşdirilməsi üzrə Moronun planları kommunistlərə qarşı katolik müxalifəti gücləndirər və Komitet 300-ün əsas məqsədi – Yaxın Şərqdə sabitliyin pozulmasını xeyli çətinləşdirərdi.

Göstəriləndən sui-qəsdçilərin planlarının nə qədər uzaqmənzilli olduğu aydın olur. **Onlar heç də beşillik planlar miqyasında düşünmürlər.** Aldo Moronun qətlinə hansı qüvvələrin qarışdığını anlamaq üçün Veysqauptun Katolik Kilsəsi ilə bağlı bəyanatını xatırlamaq lazımdır... Moronun öldürülməsi ilə İtaliyada sabitliyin pozulması üzrə planların qarşısından maneə götürülmüş oldu və bu, indi artıq bildiyimiz kimi, 14 il sonra Fars körfəzində başlanan müharibədə sui-qəsdçilərin Yaxın Şərq planlarının həyata keçməsinə imkan yaratdı.

Komitet 300 İtaliyanı sınaq poliqonu qismində seçmişdi. İtaliya sui-qəsdçilərin planları üçün mühüm əhəmiyyət kəsb edir, çünki Avropa ölkələri arasında Yaxın Şərq regionuna ən yaxın yerləşən ölkə məhz İtaliyadır. Ölkə Yaxın Şərqə həm iqtisadi, həm də siyasi cəhətdən bağlıdır. İtaliya – Veysqauptun məhv etmək əmrini verdiyi Katolik Kilsəsinin dayağıdır, eləcə də Avropada qədim «Qara Aristokratiya»ya məxsus olan ən nüfuzlu bəzi oliqarxik ailələrin vətənidir. Əgər İtaliya Moronun ölümü ilə zəifləmiş olsaydı, onda bunun Yaxın Şərqdə yaradacağı nəticələr ABŞ-ın bu regionda təsirinin azalmasına gətirərdi. İtaliya başqa bir səbəbdən də əhəmiyyət kəsb edir: bura İran və Livandan Avropaya nəql edilən narkotiklər üçün giriş darvazasıdır... Bu mövzuya biz aşağıda hələ qayıdacağıq.

1968-ci ildə «Roma Klubu» yaradılandan etibarən, müxtəlif siyasi qruplaşmalar İtaliyanın bir neçə hakimiyyətini dəyişmək məqsədi ilə sosializm bayrağı altında birləşirdi. Onların arasında Venesiya və Genuyanın «Qara Aristokratiya»sı, «P2» Mason Lojası və «Qırmızı briqadalar» da var idi – özü də onların hamısı eyni məqsəd güdürdülər. Aldo Moronun «Qırmızı briqadalar» tərəfindən qətlə yetirilməsi işinin istintaqını aparan Romanın polis müstəntiqləri bu terrorçu qrupla sıx əməkdaşlıq edən bir neçə çox nüfuzlu italyan ailəsinə çıxdılar. Polis həmin məşhur və nüfuzlu ailələrin həm də, ən azı 12 hadisədə, öz evlərini və digər daşınmaz əmlaklarını «Qırnıızı briqadalar»a dayaq nöqtələri təşkil etmək üçün verdikləri haqda dəlil əldə etmişdi.

downloaded from KitabYurdu.org

İtaliya Respublikasının dağıdılmasına Amerikanın «aristokratiyası» da öz töhfəsini vermiş və Prezident Karterin Romadakı rəsmi səfiri Riçard Qardner bu işdə xüsusi səy göstərmişdi. Qardner o vaxt Bettino Kraksinin birbaşa nəzarəti altında hərəkət edirdi. *Bettino Kraksi* «Roma KIubu»nun mühüm üzvü və NATO-da ən mühüm simalardan biri idi.
Kraksi sui-qəsdçilərin İtaliya Respublikasını dağıtmaq cəhdlərində həlledici fiqur idi. Kraksinin İtaliyada sabitliyin pozulması işində demək olar müvəffəqiyyət əldə etdiyini biz aşağıda görəcəyik. Sui-qəsdçilər ierarxiyasında fəaliyyət göstərən əsas simalardan biri olan Kraksi boşanma və abortlara icazə verilməsi haqqında qanunları İtaliya parlamentindən keçirə bildi. Bu isə, nəticədə, uzaqgedən və dağıdıcı sosial və dini təzahürlər meydana çıxardı. Eyni zamanda da Katolik Kilsəsinə tarixi ərzində endirilən ən güclü zərbələrdən biri oldu, belə ki, onun nüfuzunu və nəticə etibarilə italyan millətinin mənəvi dayaqlarını sarsıtmış oldu.
Ronald Reyqan 1980-ci ilin dekabrında Prezident seçiləndən sonra «Roma Klubu» və Sosialist İnternasionalının bayrağı altında Vaşinqtonda mühüm görüş baş tutdu (bu təşkilatların, hər ikisi Komitet 300-ə bilavasitə tabedirlər). Gündəliyin əsas məsələsi Reyqanın prezidentliyinin effektivliyini minimuma endirmək üçün vasitə və yolların müəyyən olunmasından ibarət idi. Sui-qəsdçilər birgə plan qəbul etdilər və əgər biz arxaya nəzər yetirsək tamamilə aydın olacaqdır ki, bu plan çox müvəffəqiyyətlə yerinə yetirilib.

Bu sui-qəsdin möhtəşəmliyi və əhatə dairəsi haqda təsəvvür olsun deyə, burada Komitet 300-ün gələcəkdə dünyanı özünə tabe və onu idarə etmək üçün təyin etdiyi məqsədləri göstərmək lazımdır. Komitet 300-ün ən azı 40 məşhur «filialı» var və biz onların hamısını funksiyalarını göstərməklə birlikdə sadalayacağıq. Bu, məlum olan kimi, sui-qəsdçilərin yeganə bir mərkəzi orqanının bu cür effektiv fəaliyyətini təmin etməyin necə mümkün olduğunu, eynilə də Komitet 300-ün, Birləşmiş Ştatların Konstitusiyasında açıq deklarasiya olunduğu kimi, əsasında şəxsiyyətin azadlığı duran sivil tərəqqipərvər dünyanın dayaqlarına qarşı həmlələrinə yer üzündə heç bir hakimiyyətin nə üçün qarşı dura bilmədiyini asanlıqla başa düşmək olacaqdır.

Gersoninin məhkəmə qarşısında yalnız həqiqəti deyəcəyi barədə and içərək verdiyi şahdlik ifadələri sayəsində İtaliyada və Avropada (ABŞ-da yox) insanlar Aldo Moronun qətlinin arxasında Kissincerin durduğunu bildilər. Bu faciəvi hadisə Komitet 300-ün öz iradəsini istisnasız olaraq hər bir hakimiyyətə sırımağa qadir olduğunu nümayiş etdirdi. Dünyanın ən qüdrətli gizlin cəmiyyətinin (mən burada Masonluğu nəzərdə tutmuram) üzvü olan Kissincer Moroya təkcə hədə-qorxu gəlməmişdi, o, İtaliyanın iqtisadi və industrial inkişafı ilə bağlı öz

downloaded from KitabYurdu.org

planlarından imtina etməyəcəyi təqdirdə Moronu «məhv edəcəyi» barədə hədələrini həyata da keçirmişdi.

1982-ci ilin iyun və iyul aylarında Aldo Moronun həyat yoldaşı açıq məhkəmə iclasında verdiyi şahidlik ifadəsində demişdi ki, ərinin qətli onun həyatına ciddi hədələrdən sonra baş vermişdi və bu hədələr, onun sözlərinə görə, «ABŞ-dan olan yüksək vəzifəli siyasi fiqur» tərəfindən edilmişdi. Xanım Eleonora Moro Kissincerin işlətdiyi cümləni, Gersoninin şahidlik ifadəsində dediyi kimi, eyniliklə təkrar etdi: «Ya siz öz siyasətinizə son qoyacaqsınız, ya da bu sizə baha oturacaqdır». Hakim Gersonini təkrarən məhkəmə qarşısına çağırtdırdı və ondan soruşdu ki, o, xanım Moronun haqqında danışdığı şəxsin adını çəkə bilərmi? Gersoni cavab verdi ki, bəli, əvvəl də bildirdiyi kimi, həmin adam həqiqətən də Henri Kissincer idi.

Gersoni bundan sonra məhkəməyə onu da danışdı ki, Kissincer Moronu İtaliya liderlərinin ABŞ-a rəsmi səfəri zamanı yerləşdikləri hotelin nömrəsində hədələmişdi. NATO-nun üzv-ölkəsi – İtaliyanın Baş Naziri və Xarici İşlər Naziri olan Moro yüksək ranqlı insan idi və belə şəxslər mafiya üslubunda təzyiq və hədələrə məruz qalmamalıdırlar. Lakin Kissincer o vaxt olduğu kimi, indi də «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nun xidmətində duran mühüm agent, «Roma Klubu»nun və «Beynəlxalq Münasibətlər üzrə Şuranın» görkəmli üzvüdür.

Ölkəni Yaxın Şərqdə, Koreyada və Vyetnamda üç müharibəyə cəib etmək yolu ilə Birləşmiş Ştatlarda sabitliyin pozulması planlarında, eləcə də Fars körfəzi müharibəsində Kissincerin rolu yaxşı məlumdur – bu müharibədə ABŞ Silahlı Qüvvələri, Küveyti öz nəzarəti altına qaytarmaq istəyən Komitet 300-ün muzdlu ordusu qismində çıxış edib. Fars körfozində aparılan müharibədə İraqın timsalında nümunəvi dərs keçdilər ki, digər kiçik ölkələr öz talelərini müstəqil həll etməyə heç cəhd də etməsinlər.

Kissincer suveren dövlət olan Pakistanın Prezidenti mərhum Əli Bhuttonu da hədələyirdi. Bhuttonun «cinayəti» ondan ibarət idi ki, o, öz ölkəsinin atom silahı əldə etməsinə çalışırdı. Müsəlman ölkəsi olaraq Pakistan İsrail təcavüzünün Yaxın Şərqdə daimi təhlükə mənbəyi olduğunu hiss edirdi. 1978-ci ildə Bhutto «Beynəlxalq Münasibətlər üzrə Şuranın» Pakistanda təmsilçisi olan general Ziya-ül-Həqq tərəfindən soyuqqanlıqla qətlə yetirildi.

Ziya-ül-Həqq hakimiyyətə əvvəlcədən planlaşdırılan gəlişi zamanı kütləni ABŞ-ın İslamabaddakı səfirliyini yandırmağa təhrik etdi və bununla BMŞ-yə müstəqil lider olduğunu açıq nümayiş etdirməyə səy göstərdi. Bu, həm də xaricdən daha çox yardım cəlb etmək, eləcə də, sonradan məlum olduğu kimi, Riçard Helmsi öldürmək üçün edilmişdi.

downloaded from KitabYurdu.org

Bundan bir neçə il sonra Ziya-ül-Həqqin Əfqanıstanda müharibəyə müdaxiləsi ona həyatı bahasına başa gəldi. Onun «Herkules C-130» təyyarəsi uçuş zolağından qalxandan bir qədər sonra istiqamətləndirilən AET (aşağıamplitudalı elektrik tezliyi) impulsu ilə vuruldu və bunun nəticəsində təyyarə səmada halqa cızdı və yerə çırpıldı.

Komitet 300-ün General Ziya-ül-Həqqin aradan qaldırılması barodə əmrini yerinə yetirən «Roma Klubu» təyyarədə olan çoxsaylı ABŞ hərbçilərinin həyatını, vicdan əzabı belə çəkmədən, qurban verdi. Briqada Generalı Herbert Vassomun başçılıq etdiyi «Müdafiə Kəşfiyyatı Agentliyinin» (US Defense Intelligence Agency) qrupu da onların arasında idi. General Ziya-ül-Həqq Türkiyənin məxfi xidməti tərəfindən təyyarələrdə uçmamaq barədə xəbərdar edilmişdi, belə ki, onun təyyarəsinin səmada olarkən partladılacağının planlaşdırıldığı məlum olmuşdu. Bu xəbərdarlığı nəzərə alan Ziya-ül-Həqq, özünə yaxın bildiyi bir neçə məsləhətçisinə izah etdiyi kimi, Birləşmiş Ştatlardan olan hərbçilər qrupunu da «sığorta müqaviləsi» qismində özü ilə təyyarəyə götürmüşdü. 1989-cu ildə yazdığım «Səmada terror» işində mən bu hadisəni belə qələmə almışdım:

*«Ziya-ül-Həqqin «C-130» təyyarəsi Pakistanın hdrbi bazasından səmaya qalxmazdan bir qədər əvvəl onun təyyarəsi dayanan anqarın yaxınlığında şübhəli yük maşını qeydə alınmışdı. Dispetçer qülləsindən təhlükəsizlik xidmətinə xəbərdarlıq edildi, lakin nə isə etməyə macal tapana qədər təyyarə artıq səmaya qalxmış, yük maşını isə getmişdi. Prezidentin təyyarəsi bir neçə dəqiqədən sonra qəfildən «Nesterov halqalarını» cızmağa başladı, sonra isə yerə çırpıldı və partladı. «C-130»un etdiyi bu hərəkətlərin izahı yox idi, belə ki, təyyarə uçuşun təhlükəsizliyi üzrə əla reputasiyaya malik idi, qəzanın səbəblərinin öyrənilməsi üzrə Pakistan-Amerika birgə komissiyası isə pilotların səhvini və ya hər hansı bir mexaniki, yaxud struktur pozuntular aşkar etməmişdi. Qəfil «Nesterov halqası» – bu, AET impulsu ilə vurulan təyyarənin, necə deyərlər, bəlli «ticarət markasıdır».*

Aşağı amlitudalı elektrik tezliklərini generasiya edən cihazların Sovet İttifaqında istehsal etmək imkanı olduğu Qərbə məlum idi və bu məlumat «Kurçatov adına Atom Enerjisi İnstitutunun» «Elektronların İntensiv Relyativistik Şüalanması» şöbəsində çalışan sovet alimlərinin tədqiqatlarına əsaslanırdı. Həmin mütəxəssislərin arasında Y.A.Vinoqradov və A.A.Ruxadze də var idi. Alimlərin hər ikisi elektron və rentgen lazerləri üzrə ixtisaslaşmış «Lebedev adına Fizika İnstitutunda» işləyirdi.

Bu məlumatı alandan sonra mən bunun təsdiqini başqa mənbələrdə də axtarmağa başladım və öyrəndim ki, İngiltərədə «Elektronika üzrə beynəlxalq jurnalda» General Ziya-ül-Həqqin təyyarəsini vurmaq üçün seçilən metodu, hər şeydən göründüyü kimi, təsdiq edən bəzi

downloaded from KitabYurdu.org

materiallar dərc etdirilib. Bundan başqa, həmin informasiya kəşfiyyatdan olan iki mənbədən də təsdiq edilmişdi. Eləcə də mən bəzi faydalı informasiyanı İngiltərədə çıxan SSRİ-nin elmi nəşri – «Soviet Radio Electronics and Communications Systems» («Sovet radioelektronikası və rabitə sistemləri») qəzetindən əldə etdim. İndi artıq mən General Ziya-ül-Həqqin qətlə yetirildiyi barədə qətiyyən tərəddüd etmirdim. Anqarın yaxınlığında gördükləri yük maşınında isə, şübhəsiz ki, Sovet Hərbi Qüvvələrinin sərəncamında olduğu bəlli olan tipdə AET mobil avadanlığı olmalı idi.

Bhuttonun, gizli surətdə ölkədən çıxarılan, yazılı ifadələrinə görə, türmədə olarkən Kissincer ona ciddi hədə-qorxu gəlirdi: «Əgər siz ölkənin möhkəmləndirilməsi istiqamətində siyasətinizi davam etdirsəniz, mən sizə və qalan hamıya dəhşətli dərs verəcəm». Bhutto Pakistanı müasir industrial dövlətə çevirmək məqsədi ilə nüvə energetikası proqramının həyata keçirilməsinə çalışırdı və bununla da Kissincerə və «Roma Klubuna» qarşı çıxmış olurdu. Bu isə Komitet 300-ün nəzərində onun Kissincer vasitəsilə Pakistan hökumətinə ötürdüyü əmrlərə açıq tabe olmamaq demək idi. Kissincerin Bhuttonu hədələməsi, sözsüz ki, ABŞ-ın rəsmi siyasətinin bir hissəsi deyildi; bu, müasir «İllüminatların» siyasəti idi.

Nüvə energetikasının bütün dünyada nə üçün bu qədər nifrət qazandığını və «Roma Klubu»nun nüvə energetikasına qarşı müharibə aparmaq üçün yaratdığı və maliyyələşdirdiyi saxta «təbiət-mühafizə» hərəkatlarından nə üçün istifadə edildiyini aydın dərk etmək lazımdır. «Üçüncü dünya» ölkələri böyük həcmlərdə ucuz elektrik enerjisi istehsal etməyə imkan verən nüvə enerjisinin köməyi ilə tədricən ABŞ-ın maliyyə yardımından azad olar və öz suverenliyini təsdiq etməyə başlayardılar. Atom Elektrik Stansiyalarında istehsal edilən elektrik enerjisi – bu, inkişaf etməkdə olan ölkələri düşdükləri geridəqalmış vəziyyətdən çıxarmaq üçün açardır, lakin Komitet 300 onları bundan sonra da həmin vəziyyətdə saxlamaq əmrini verib.

Xarici yardımın azalması isə Benəlxalq Valyuta Fondunun (BVF) inkişaf etməkdə olan ölkələrin təbii resursları üzərində nəzarətinin məhdudlaşması demək olardı. Lakin məhz inkişaf etməkdə olan ölkələrin öz müqəddəratını həqiqi mənada təyin etməsi ideyası «Roma Klubu» və onun üzərində duran Komitet 300 tərəfindən lənətlənib. «Roma Klubu»nun «postindustrial sıfır inkişafınt» nəzərdə tutan planlarına uyğun olaraq Birləşmiş Ştatlarda sənaye istehsalını sarsıtmaq üçün nüvə enerjisinə qarşı hərəkatın ABŞ-da uğurla necə istifadə olunduğunu biz artıq görmüşük.

downloaded from KitabYurdu.org

ABŞ-ın maliyyə yardımından asılılıq xarici ölkələri «Beynəlxalq Münasibətlər üzrə Şuranın» faktiki olaraq quluna çevirir. Belə yardımlar edilən ölkələrin əhalisinə yalnız tör-töküntü çatır, şir payı isə BVF-yə ölkədən təbii resursları vəhşicəsinə daşımağa imkan yaradan dövlət liderlərinin cibinə çökür. Zimbabvenin (keçmiş Rodeziya) lideri Muqabe özü ilə ölkənin xammal resursları üzərində – nəzərdən keçirdiyimiz halda yüksək keyfiyyətli xrom filizi – xarici nəzarətin həyata keçirilməsinin parlaq nümunəsini təcəssüm etdirir. Zimbabvenin xammal ehtiyatları indi bütünlüklə «*Lonrho»*kompaniyasının nəzarəti altındadır. Komitet 300-ün mühüm üzvlərindən biri olan Anqus Ogilvi bu nəhəng konqlomeratı öz xalası qızı («kuzina» – əmi, bibi, dayı və ya xala qızı. – tərc.) Kraliça II Yelizavetanın adından idarə edir. Ölkənin səfalət və dilənçiliyə qərq olan əhalisinin vəziyyəti isə, ABŞ-ın ayırdığı illik 300 milyon dollar həcmində yardıma baxmayaraq, getdikcə daha da ağırlaşmaqdadır.

*«Lonrho»* Rodeziya (Zimbabve) xromu üzərində inhisara malikdir və ona arzuladığı istənilən qiyməti təyin edə bilər. Lakin Smit rejimi dövründə buna yol verilmirdi və Muqabe hakimiyyətə gələnə qədərki 20 il ərzində qiymətlərin məqbul səviyyəsi saxlanılırdı. Yan Smitin 14 illik hakimiyyəti dövründə də bu ölkədə problemlər var idi, lakin o, hakimiyyətdən uzaqlaşdırılandan sonra işsizlik dörd dəfə artdı və indi Zimbabve xaos və faktiki olaraq müflis vəziyyətdədir. Muqabe ABŞ-dan kifayət qodər çox (ildə 300 milyon dollara yaxın) yardım ahb: bu ona Fransanın məşhur «Mavi sahil» kurort zonasında, Kap Feratda və Monte Karloda özünə üç hotel tikdirməyə imkan verdiyi halda, onun xalqı xəstəliklərdən, işsizlikdən və qida çatışmazlığından – istənilən etirazı boğan amansız diktatura rejimindən hələ heç danışmırıq – əzab çəkirdi. Bunu ABŞ-dan heç vaxt nə bir sent belə almayan, nə də bunu heç xahiş də etməyən Smit rejimi ilə müqayisə edin. Tamamilə aydındır ki, xarici yardım – bu, Zimbabve və digər Afrika dövlətlərini nəzarət altında saxlamaq üçün çox güclü vasitədir.

Bununla yanaşı, xarici yardım ABŞ vətəndaşlarını qeyri-ixtiyari asılılıqda saxlayır və buna görə də onlar hökumətə ciddi müxalifət yaratmağa qətiyyən qadir deyillər. Devid Rokfellerin xarici yardım haqqında qanun layihəsi 1946-cı ildə qanun qüvvəsini alanda o, nə etdiyini yaxşı bilirdi. Həmin vaxtdan, xüsusilə də dövlət reketi ifşa ediləndən sonra, bu qanun ölkənin ən çox nifrət edilən qanunları strasına daxil olub, çünki onun bahasını biz, sadə xalqödəməli oluruq.

Axı necə olur ki, sui-qəsdçilər bütün dünyanın, xüsusilə də ABŞ və Böyük Britaniyanın xirtdəyindən yapışmağa müyəssər olurlar? İnsanlar digərləri ilə müqayisədə daha tez-tez belə bir sual verirlər: «Ayrıca götürülən bir təşkilat istənilən hər bir anda dünyada baş verən hər şeydən necə xəbərdar ola bilər və ümumiyyətlə, o öz nəzarətini necə həyata keçirir?». Oxuduğunuz bu kitabda biz bu və başqa suallara cavab verməyə cəhd edəcəyik. Sui-

downloaded from KitabYurdu.org

qəsdçilərin müvəffəqiyyətinin qarşısını almağın yeganə real üsulu isə budur: gizlin cəmiyyətlər, eləcə də həmin cəmiyyətlər üçün pərdə rolunu oynayan təşkilatlar, hökumət agentləri, banklar, sığorta kompaniyaları, transmilli korporasiyalar, neft sənayesi, müxtəlif adlar arxasında gizlənmələrinə baxmayaraq Komitet 300-ə dünyanı ən azı yüz il ərzində idarə edən ALİ nəzarət orqanına – tabe olan yüz və minlərlə digər təşkilat və fondlar ətrafında açıq diskussiya təşkil olunmalı və onların adları açıqlanmalıdır.

«Beynəlxalq Münasibətlər üzrə Şura» və «Üçtərəfli Komissiya» haqqında onlarla kitab artıq yazılıb və buna görə də biz birbaşa «Roma Klubu» və «Almaniya Marşall Fondu» barəsində danışaq. Mən bu təşküatlar haqqında kitab nəşr etdirdiyim vaxta qədər ABŞ-da tək-tük adam onlar haqqında nə isə eşitmişdi. 1983-cü ildə dərc etdirdiyim ilk iş olan «Roma Klubu» demək olar heç bir diqqət cəlb etmədi. Məsələdən bixəbər olan insanların əksəriyyəti zənn edirdi ki, «Roma Klubu» – bu, nə isə Katolik Kilsəsinə, «Almaniya Marşall Fondu» isə «Marşall Planına» aidiyyəti olan bir şeydir.
Komitet elə məhz buna görə belə adlar seçir ki, vəziyyəti dolaşığa salsın və diqqəti baş verənlərdən yayındırsın. ABŞ hökuməti, əlbəttə, bütün bunlardan xəbərsiz ola bilməz, lakin o özü sui-qəsdin tərkib hissəsi olduğu üçün informasiyanı gizlətməkdən ötrü əlindən gələn hər şeyi etməyə çalışacaqdır – təki həqiqət işıq üzü görməsin. «Roma Klubu» adlandırdığım kitabım nəşr olunandan yalnız bir neçə il sonra onda yeni, unikal informasiya ilə zəngin olan mənbə görə bilən yazıçılar tapıldı və onlar bu mövzuda danışmağa və yazmağa başladılar. Onların yazdıqlarından hətta belə təəssürat yaranırdı ki, sanki onlar məsələnin mahiyyətindən çoxdan xəbərdar idilər və ondan əməlli baş çıxarırdılar.

Bu yazıçılar özləri üçün kəşf etdilər ki, «Roma Klubu» və onun «Almaniya Marşall Fondu» adlı maliyyəçiləri Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) bayrağı altında fəaliyyət göstərən sui-qəsdçilərin yaxşı təşkil olunmuş filiallarıdır və «Roma Klubu»nun funksionerlərinin əksəriyyəti bura NATO-dan gəlib. NATO-nun siyasətinin əsas müddəalarının hamısını «Roma Klubu» hazırlayıb və məhz «Roma Klubu», Komitet 300-ün görkəmli üzvü Lord Karrinqtonun fəaliyyəti sayəsində, NATO-nu iki fraksiyaya parçalaya bilmişdi – siyasi hakimiyyət qrupuna (sollar) və məxsusi olaraq hərbi struktura.

«Roma Klubu» Komitet 300-ün əsas xarici siyasət qurumlarından biri kimi qalmaqda davam edir. Belə qurumlardan bir başqası da «Bilderberq Klubudur» (Bilderbergerlər). «Bilderberq Klubu» 1968-ci ildə, başlanğıcda Aurelio Peççei özü şəxsən «Morqentau Qrupunun» özəyini təşkil edənlərlə telefon əlaqəsi saxlayandan sonra yaradılmışdı. Peççei Vahid Dünya Hökumətinin yaradılması planlarına yeni impuls vermək və bu prosesi

downloaded from KitabYurdu.org

sürətləndirmək üçün onlara birləşmək çağırışını etdi. (Vahid Dünya Hökumətini indi Yeni Dünya Nizamı adlandırırlar, hərçənd mən birinci ada üstünlük verirəm. Çünki bu ad «Yeni Dünya Nizamı» ilə müqayisədə həmin fenomenin mahiyyəti barədə daha dolğun təsəvvür yaradır. Bir də, «Yeni Dünya Nizamı» yalnız qarışıqlıq yaradır, çünki tarixdə artıq bir neçə dəfə «yeni dünya nizamı» olub, Vahid Dünya Hökuməti isə hələ olmayıb.)

Birləşmiş Ştatlardan, Fransadan, İsveçrədən, Böyük Britaniya və Yaponiyadan olan «gələcəyin» ən odioz «memarları» Peççeinin çağırışına səs verdilər. «Roma Klubu» 1968-ci ildən 1972-ci ilə qədərki dövr ərzində «yeni elmin» alimlərini, qlobalistləri, futuroloqları və müxtəlif çalarlı beynəlmiləlçiləri özündə birləşdirən təşkilata çevrildi. Təşkilatın üzvlərindən birinin dediyi kimi, «biz İosifin alabəzək geyiminə bənzəməyə başladıq». NATO-nun siyasi qanadının qəbul etdiyi doktrinanın əsasını Peççeinin «İnsan keyfiyyətləri» adlı kitabı təşkil etdi.

Aşağıda Peççeinin ‘İnsan keyfiyyətləri» kitabından bir parça verilir:

*«...Xristian dünyası özünün birinci minilliyinin sonuna çatandan sonrakı dövrdə ilk dəfədir ki, çox böyük insan kütlələri nə isə naməlum, onların ümumi taleyini tamamilə dəyişdirəcək bir hadisənin mütləq baş verəcəyi ilə bağlı həyəcanlı gözləmə vəziyyətindədir... İnsan, əsl müasir insan olmağın nə demək olduğunu bilmir... İnsan Bədniyyətli Şeytan haqqında nağıl uydurub, lakin əgər nə vaxtsa bədniyyətli şeytan mövcud olubsa da, BU – ELƏ İNSANIN ÖZÜDÜR... Biz burada insani paradoksla üzləşirik: insan özünün istisnasız qabiliyyətlərinin və nailiyyətlərinin tələsinə, sanki qum bataqlığına düşüb – o öz qüvvəsini nə qədər çox istifadə edirsə, ona bundan daha çox qüvvə tələb olunur.*
*Bəşəriyyətin indiki dərin patoloji və xəstəhal vəziyyətini hər hansı bir dövri böhran və ya hadisələrin təsadüf zənciri ilə izah etməyin axmaqlıq olduğunu biz yorulmaq bilmədən beyinlərə yeritməliyik. Bəşəriyyət yeni texnologiyaların «Pandora qutusunu» açandan etibarən əhali sayının nəzarətsiz artımından, yüksəliş maniyasından, energetik böhranlardan, resursların faktiki və ya potensial çatışmazlığından, ətraf mühitin çirklənməsindən, nüvə ağılsızlığından və buna bənzər bir çox başqa bəlalardan əzab çəkir...»*
Bu, elə həmin «Roma Klubu»nun dəstəyilə çox-çox sonralar yaradılan «Yaşıllar» hərəkatının proqramı ilə tamamilə üst-üstə düşür. Belə ki, «yaşılların» təyinatı məhz sənaye inkişafını əngəlləmək və inkişaf prosesini geri döndərməkdən ibarətdir.

downloaded from KitabYurdu.org

«Roma Klubu»nun ehtimal olunan proqramı özündə, geniş planda götürülərsə, Birləşmiş Ştatlarda, məsələn, narkotoka və rok, seks və gedonizm, iblisə sitayiş və cadugərlik, «yaşılların hərəkatı» kimi, kontrmədəni hərəkat və adətlərin yayılması ilə yanaşı, «postindustrial» ideyaların işlənib hazırlanmasını ehtiva edir. «Tavistok İnsan Münasibətləri İnstitutu», «Stenford Tədqiqat İnstitutu», «Sosial Münasibətlər İnstitutu», eləcə də tətbiqi sosial psixiatriya sahəsində digər tədqiqat təşkilatlarının ya «Roma Klubunda öz nümayəndələri var idi, ya da onlar «Roma Klubu»nun məsləhətçisi qismində çıxış edir və «Dolça Erasının Sui-Qəsdi» ideologiyasının rəhbər tutulmasını dünyaya qəbul etdirmək üçün NATO-nun göstərdiyi səylərdə aparıcı rol oynayırdılar.

Hesab edilir ki, «Yeni Dünya Nizamı» ifadəsi dilimizə Fars körfəzində 1991-ci il müharibəsindən sonra düşüb, halbuki Vahid Dünya Hökuməti artıq yüz illərdir mövcuddur. Yeni Dünya Nizamı təzə deyildir – o, bu və ya digər görkəmdə çoxdan mövcud olub və inkişaf edib. Lakin, bununla belə, o GƏLƏCƏK İNKİŞAF proqramı kimi qəbul olunur ki, bu da həqiqətə uyğun deyil. Yeni dünya nizami – bu, keçmişdə və indi baş verənlərdir. Mən yuxarıda bax, buna görə yazırdım ki, «Vahid Dünya Hökuməti» adını daha düzgün hesab etmək lazımdır. Aurelio Peççei öz yaxın dostu Aleksandr Heyqlə söhbət əsnasında etiraf etmişdi ki, özünü «reinkornasiya olunmuş Adam Veysqaupt kimi» hiss edir. Bircə, Veysqauptun müasir «İllüminatları» təşkil etmək və onları idarə etmək kimi parlaq qabiliyyəti Peççeidə özünü daha çox büruzə verirdi və bu, Peççeinin NATO-nu necə idarə etməsində və blokun qlobal miqyasda siyasətini necə formalaşdırmasında təzahür edirdi.

Peççei üç onillik ərzində «Atlantik İnstitutunun İqtisadi Şurasına» rəhbərlik etmiş, eyni zamanda da Covanni Aqnelliyə (Giovanni Agnelli) məxsus olan «Fiat Motor Company» (Fiat Motor Company) kompaniyasının icraçı direktoru olub. *Covanni Aqnelli* – «Qara Aristokratiyadan» olan qədim italyan ailəsinin üzvü və Komitet 300-ün ən mühüm üzvlərindən biridir. O, Sovet Ittifaqında layihələrin işlənməsində aparıcı rol oynayırdı.
***«Roma Klubu»*** - bu, özü ilə ingilis-amerikan maliyyəçiləri və Avropa «Qara Aristokratiyasına» məxsus olan qədim ailələrin, xüsusilə də London, Venesiya və Genuya, üzdəniraq, «aristokratlarının» ittifaqını təcəssüm etdirən sui-qəsdçilər təşkilatının rəsmi pərdəsidir. Onların dünyanı müvəffəqiyyətlə idarə etməsinin sirri nəzarət edilən iqtisadi geriləmə və depressiyalar yarada bilmələrindən ibarətdir. Komitet 300 qlobal sosial kataklizmləri və iqtisadi depressiyaları gələcək üçün planlaşdırdığı daha ciddi hadisələrə hazırlıq vasitəsi və gələcəkdə paylayacağı «işsizlər üçün müavinətlərin» itaətkar alıcıları olacaq böyük insan kütlələrini yaratmağın əsas metodu qismində nəzərdən keçirir.

downloaded from KitabYurdu.org

Komitetin bütün bəşəriyyət üçün nəzərdə tutduğu mühüm qərarların əksəriyyəti, görünür, *Polşa aristokratı Feliks E.Dzerjinskinin fəlsəfəsi* əsasında işlənib hazırlanır. *Feliks Dzerjinski hesab edirdi ki, insan öz inkişafında heyvandan bir qddər yüksəkdə durur. (Bu, mahiyyət etibarilə, ıudaizmin bəlli qərarıdır – tərc.)* Britaniyalı kəşfiyyatçı Sidney Reylinin (Sidney Reyli – o, bolşevik inqilabının inkişaf etdiyi dövrdə faktiki olaraq Dzerjinskinin fəaliyyətinə nəzarət edirdi) yaxın dostu olan Dzerjinski əyyaşlıq məclislərində onunla tez-tez açıq söhbət edirdi. Növbəti əyyaşlıq məclislərindən birində o, Reyliyə bunları deyib: «*İnsan heç bir əhəmiyyət kəsb etmir. Baxın, siz onu acından öldürəndə, görün, nə baş verir. O, sağ qalmaq üçün özünün ölmüş həmcinslərini yeyir. İnsan yalnız özünün sağ qalmasnıda maraqlıdır. Real olan yalnız budur. Spinozanın bütün fəlsəfəsi - bir qucaq zibildir*».
Dzerjinski – bu adam qırmızı terror aparatına rəhbərlik edən həmin o vəhşidir.

«Roma Klubu» özünün kəşfiyyat agentliklərinə malikdir və bundan da başqa, Devid Rokfellerin nəzarət etdiyi İNTERPOLDAN da «borc» informasiya alır. ABŞ-ın kəşfiyyat xidmətlərinin hamısı, eləcə də KQB (Komitet Qosudarstvennoy Bezopasnosti – SSRİ-də Dövlot Təhlükəsizlik Komitəsi. – tərc.) və Mossad (İsrailin kəşfiyyat xidməti. tərc.) onunla çox sıx əməkdaşlıq edirlər. (Onun təsiri altına düşməyən yeganə kəşfiyyat xidməti ADR-in (Almaniya Demokratik Respublikası) «Ştazi» (STASSY) kəşfiyyat idarəsi idi.) «Roma Klubu» həm də yaxşı təşkil olunmuş siyasi və iqtisadi özəl agentliklərə malikdir. Komitet 300-ün daha bir mühüm üzvü – Pol Volkeri (Paul Volcker) öz postunda saxlamağı Prezident Reyqana məhz onlar əmr etmişdilər. Prezident Reyqan Pol Volkeri ABŞ-ın Federal Ehtiyat Sisteminin sədri vəzifəsində saxladı, halbuki namizəd Reyqan söz vermişdi ki, prezident seçilən kimi Volkeri dərhal vəzifəsindən çıxaracaqdır.

«Roma Klubu» Karib hövzəsi böhranında öz həlledici rolunu oynadıqdan sonra, «Böhranların İdarə Olunması» proqramını (bu, «Fövqəladə Vəziyyətlər üzrə Federal Agentliyin», FEMA-nın xələfidir) Prezident Kennediyə sırımağa cəhd etdi. «Tavistok İnsan Münasibətləri İnstitutundan» təşrif buyuran bir neçə alim proqramın mahiyyətini prezidentə izah etmək üçün onunla görüşdülər, lakin Prezident onların məsləhətlərinin hamısını rədd etdi. Prezident Kennedinin öldürüldüyü il «Tavistok İnsan Münasibətləri İnstitutu»nun nümayəndələri Vaşinqtonda NASA ilə yenidən danışıqlara başladılar. Bu dəfə danışıqlar uğurlu oldu. NASA özünün gələcək kosmik proqlamının Amerikanın ictimai rəyinə təsirinin qiymətləndirilməsi ilə əlaqədar «Tavistok İnsan Münasibətləri İnstitutu» ilə müqavilə bağladı.

downloaded from KitabYurdu.org

Kontraktın icrası «Stenford Tədqiqat İnstitutu» və «Rend Korporasiyasına» (Rand Corporation) tapşırıldı. «Tavistok İnsan Münasibətləri İnstitutu titutu»nun, «Stenford Tədqiqat İnstitutu»nun və «Rend Korporasiyasının» işləyib hazırladıqları bu layihənin materiallarınnın əksəriyyəti işıq üzü görmədi və onlar bu günə qədər də bağlı qalmaqdadır. Bu haqda məlumat əldə etmək üçün Senatda müraciət etdiyim bir neçə nəzarət Komitəsində və Altkomitələrdə mənə «bu barədə heç vaxt heç nə eşitmədiklərini və axtardığımı haradan tapa biləcəyimi heç təsəvvür belə etmədiklərini» bildirdilər. Komitet 300-ün hakimiyyəti və nüfuzu bax bu cürdür.

Kəşfiyyat işi üzrə həmkarlarım 1966-cı ildə mənə doktor Anatol Rappaporta (Anatol Rappaport) müraciət etməyi məsləhət gördülər – deyirdilər ki, o, prezident administrasiyasının maraqlı olduğu bir kitab yazıb. Rappaportun bildirdiyi kimi, bu sənədin məqsədi öz faydalılığını çoxdan itirmiş olan NASA-nın kosmik proqramına son qoymaqdan ibarət idi. Rappaport öz işinin bir nüsxəsini məmnuniyyətlə mənə təqdim etdi. Təfərrüatlara varmasaq, kitabın məğzi bundan ibarət idi: NASA-nın bütün kosmik proqramı zibilliyə atılmalıdır. Çünki NASA-da həddən artıq çox belə alim toplaşıb ki, onlar Amerikaya pis təsir göstərirlər, çünki onlar raketlərin hərəkət prinsipindən tutmuş, konstruksiyalarının detallarına qədor, raketlərin necə işlədiyi haqda məktəb və universitetlərdə məmnuniyyətlə mühazirə oxuyurlar. Rappaportun izah etdiyi kimi, bütün bunlar gələcəkdə kosmosun tədqiqatı üzrə mütəxəssis olmağı qərara alan bütöv bir yaşlı nəslin meydana çıxmasına gətirəcək və günlərin birində onlar «artıq» insana çevriləcəklər, çünki 2000-ci il üçün onların bilikləri artıq heç kəsə lazım olmayacaqdır.

«Roma Klubu» Rappaportun NASA haqqında bu yığcam məruzəsini NATO-ya təqdim edəndən dərhal sonra Komitet 300 hərəkətə keçməyi tələb etdi. NASA-ya qarşı kampaniya keçirmək tapşırığını alan NATO funksioneri, eyni zamanda da «Roma Klubu»nun üzvü olan adamlar bunlardır: Harland Klivlend, Cozef Sleyter, Kleyborn K.Pell, Uolter C. Levi, Corc MakCi, Vilyam Uots, Robert Ştraus-Hupe (ABŞ-ın NATO-da səfiri) və Donald Leş. 1967-ci ilin mayında «Şimali Atlantika Assambleyasının ElmiTexniki Komitəsi» və «Xarici Siyasət Tədqiqat İnstitutu» birlikdə «Transatlantik disbalans və əməkdaşlıq üzrə Konfrans» adlı görüş təşkil etdilər. Görüş Fransanın Devill şəhərində yerləşən və Kraliça Yelizavetaya məxsus olan sarayda keçirilmişdi.

Devill Konfransının əsas məqsədi ABŞ-da texnoloji və sənaye inkişafına son qoymaq idi. Konfransın materialları iki kitabın əsasını təşkil etdi. Biz onlardan biri, Zbiqnev Bjezinskinin «Texnotron era» adlı kitabı haqqında aşağıda hələ ətraflı danışacağıq. «Uçurum qarşısında»

downloaded from KitabYurdu.org

(«The Chasm Ahead») adlanan ikinci kitabı konfransın sədri Aurelio Peççei yazmışdı. Peççei Bjezinski ilə əsas etibarilə razıdır, lakin əlavə edir ki, ƏGƏR BƏŞƏRİYYƏT VAHİD DÜNYA HÖKUMƏTİ TƏRƏFİNDƏN İDARƏ OLUNMASA, onda o gələcəkdə xaosa qərq olacaqdır. Peççei bu planda tələb edirdi ki, Sovet İttifaqına NATO ilə konvergensiya (convergence — birləşmə, yaxınlaşma. – tərc.) təklif olunmalı və bu konvergensiya Yeni Dünya Nizamında ABŞ-la bərabər partnyorluqla nəticələnməlidir. Hər iki millət «böhranların idarə olunması və qlobal planlaşdırmanın» gələcəyi üçün məsuliyyət daşımalı olacaqdır. «Roma Klubu» ilk «Qlobal Planlaşdırına üzrə Kontraktı» Komitet 300-ün əsas tədqiqat mərkəzlərindən biri olan «Massaçusets Texnoloji İnstitutuna» (MTİ = MİT, Massachusetts İnstitute of Technology) tapşırdı. Cey Forrester və Deniz Midouz layihənin başçıları təyin olundular.

Onların məruzəsinin məğzi nədən ibarət idi? Məruzələr, mahiyyət etibarilə, Maltusun və Fon Hayekin (Frederich Von Hayek) moizələrindən fərqlənmirdi, başqa sözlə, yenə də təbii sərvətlərin hamıya bəs etməyəcəyi barədə köhnə məsələ qaldırılırdı. ForresterMidouz məruzəsi açıq-aşkar başaldatma idi. Məruzədə məqsədyönlü surətdə bu məsələnin üzərindən sükutla keçilirdi ki, öz gücünü dəlillərlə sübut etmiş insan dühası istənilən vəziyyətdə resursların çatışmazlığı probleminin həllini tapacaqdır. Təbii resursların YARADILMASI üçün soyuq termonüvə sintezi enerjisindən – Komitet 300-ün ÖLÜMCÜL düşməni istifadə oluna bilər. Məsələn, soyuq termonüvə sintezi enerjisinin köməyi ilə bir kvadrat kilometr boş süxurdan istehsal oluna biləcək alüminium bizim ehtiyaclarımızın 4 il ərzində ödənməsinə kifayət edərdi.

Peççei milli dövlətlərə qarşı öz moizələrinə heç vaxt ara verməyib. O, daim bildirirdi ki, milli dövlətlər bəşəriyyətin inkişafı üçün əngəldir və o, daim «kollektiv məsuliyyətə» çağırırdı. «Millətçilik insanda xərçəng şişi kimidir», – Peççeinin bir neçə mühüm nitqinin mövzusu budur. Onun yaxın dostu Ervin Laslo 1977-ci ildə bu ruhda «Bəşəriyyətin məqsədləri» adlı məruzə yazdı. Bu iş «Roma Klubu»nun tədqiqatlarında mühüm mərhələ oldu. Mahiyyət etibarilə proqram sənədi olan məruzə bütövlükdə sənaye yüksəlişi və urbanizasiyaya qarşı acı kinayəli çıxışlardan ibarətdir. Kissincer bütün bu illər ərzində «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nun səlahiyyətli nümayəndəsi qismində Moskva ilə sıx əlaqə saxlayırdı. Kissincerin Kremldəki dostları «qlobal modelləşdirmə» haqqında məruzələrlə mütəmadi təmin olunurdular.

«Roma Klubu»nun üzvü olan Harland Klivlendin «üçüncü dünya» ölkələri ilə bağlı hazırladığı məruzə özü ilə sinizmin son həddini təcəssüm etdirirdi. Klivlend o vaxt Birləşmiş Ştatların NATO-da səfiri idi. Məruzədə söhbət mahiyyət etibarilə bundan gedirdi ki, «üçüncü

downloaded from KitabYurdu.org

dünya» ölkələri öz əhalisinin sayca hansı hissəsini məhv etmək lazım olduğunu öz aralarında qərara almalıdırlar. Bundan bir müddət sonra Peççei yazırdı (Klivlendin məruzəsi əsasında): *«Uç nəhəng ölkənin və blokun bütün dünya üzrə apardığı qarşıdurına siyasəti nəticəsində pozulan mövcud iqtisadi nizam gözümüzün önündə bütün tikişləri üzrə sökülməkdədir... Xilas edilməli olanların seçilməsinə əl atmaq zərurəti – bu, çox kədərli perspektivdir. Lakin əgər, təəssüfümüzə rəğmən, hadisələr məhz bu istiqamətdə inkişaf edərsə, belə qərarların qəbul olunması hüququ yalnız bir neçə ölkəyə məxsus olmamalıdır; çünki bu hüquq onlara bütün dünyada aclıqdan əzab çəkənlərin həyatı üzərində qəddar hakimiyyət vermiş olardı».*

Komitetin Afrika millətlərinin məqsədyönlü surətdə aclıqla tələf edilməsi siyasəti bundan irəli gəlir və Saxara səhrasından Cənubda yerləşən ölkələrin timsalında bu siyasətin nəticələrini aydın görmək olar. Btı, sadəcə olaraq, iyrənc sinizm idi, çünki Komitet 300 həyat və ölümə təkbaşına qərar vermək hüququnu artıq öz üzərinə götürmüşdü və Peççei bunu hamıdan yaxşı bilirdi. O, əvvəllər yazdığı «Artımın hədləri» kitabında buna işarə etmişdi. Peççei sənaye və kənd təsərrüfatının tərəqqisini tamamilə inkar edir və bunun əvəzinə bütün dünyanın «Vahid Koordinasiya Şurasına» tabe olmasını tələb edirdi. O, bunu deyərkən, təbii ki, Vahid Dünya Hökumətini təşkil edən «Roma Klubu» və N ATO-nun təsisatlarını nəzərdə tuturdu.

Təbii resurslar qlobal planlaşdırına çərçivəsində bölüşdürülməlidir. Milli dövlətlər ya «Roma Klubu»nun başçılığını qəbul etməli, ya da meşə qanunları ilə yaşamalı və sağ qalmaq uğrunda mübarizə aparmalıdırlar. Midouz və Forresterin ilk «sınaq hadisəsi» ilə bağlı planları belə idi: 1973-cü il Ərəb-İsrail müharibəsi bütün dünyaya birmənalı surətdə bəlli etməli idi ki, gələcəkdə neft və bu kimi digər təbii resurslar qlobal planlaşdırıcıların əlbəttə, Komitet 300-ü nəzərdə tutaraq – nəzarəti altına keçməlidir.

«Tavistok İnsan Münasibətləri İnstitutu» Peççei ilə konsultasiyalar aparmaq dəvəti ilə çıxış etdi. Konsultasiyalara MakCorc Bandi (McGeorge Bundy), Houmer Perlmutter (Homer Perlmutter) və dr Aleksandr Kinq (Dr. Alexander King) cəlb olunmuşdular. Peççei Londondan Ağ Evə yollandı və burada o, Prezident və onun kabineti ilə görüşdü. Sonra Dövlət Departamentinə təşrif buyurdu və o, Dövlət Katibi, Dövlət Departamenti və Siyasi Planlaşdırına üzrə Dövlət Şurasının kəşfiyyat xidmətlərinin rəhbərləri ilə görüşdü. Beləliklə, Birləşmiş Ştatlar hökuməti Komitet 300-ün bu ölkə ilə bağlı planlarından lap əvvəldən tam şəkildə xəbərdar idi. «Hökumətimiz «Roma Klubuna» Birləşmiş Ştatlarda xəyanətkar fəaliyyət həyata keçirməyə nə üçün imkan verir?» – kimi tez-tez verilən sualın cavabı da bax elə budur.

downloaded from KitabYurdu.org

**OLİMPİYAÇILAR**

Volkerin iqtisadi və monetar siyasəti Böyük Britaniyanın Maliyyə Naziri, Komitet 300-ün üzvü Ser Cefri Hounun siyasətinin əksi idi. Bu, Böyük Britaniyanın 1812-ci il müharibəsi dövründən etibarən Birləşmiş Ştatları necə idarə etdiyinə və Komitet 300-ün siyasəti vasitəsilə ölkəyə nəzarəti indi necə davam etdirdiyinə nümunə kimi göstərilə bilər.

«İllüminatların» («Moriah Conquering Wind» – «Küləyi ram edən Moria»), «Dionis kultunun», «İzida kultunun», «Katarların», «İlahiyə xoş gələnlərin» varisləri olan bu gizlin elit qrupun məqsədləri axı nədən ibarətdir? Özlərini həm də «Olimpiyaçılar» adlandıran bu elit qrupun üzvləri qəti əmindirlər ki, İlahi hüququ ilə (onlar həqiqətən də inanırlar ki, öz mövqeləri və qüdrətləri ilə əfsanəvi Olimp allahlarına bərabərdirlər – Olimp allahları özlərini, Lüsifer kimi, bizim əsl Allahımızdan yüksək tuturdular) onlara aşağıdakıları etmək həvalə olunub:

**(1) Vahid Dünya Hökümətinin – Yeni Dünya Nizamının üsul-idarəsini və onun idarəçiliyi altında birləşmiş Kilsə və pul sistemini qurmaq.** Çox az adam bilir ki, Vahid Dünya Hökuməti öz «Kilsəsini» hələ 1920-1930-cu illərdə yaratmağa başlayıb. Vahid Dünya Hökuməti bəşəriyyətin dini inama olan təbii ehtiyacının ödənməsi üçün nəfəslik verməyin vacibliyini anlayır və buna görə də bu inamı özünə sərf edən məcraya yönəltmək üçün «Kilsə» təşkilatını təsis edib.

**(2) Milli özünüdərkin və milli ləyaqətin tam şəkildə dağıdılması.**

**(3) Yalnız özünün yaratdığı din – yuxarıda xatırlatdığımız – istisna olmaqla, dinin, xüsusilə də xristianlığın dağıdılması.**

**(4) Şüurun idarə edilməsi vasitələrindən (istifadə edilməsi yolu ilə), eləcə də Bjezinskinin «texnotronika» adlandırdığının vasitəsilə istisnasız olaraq hər bir insan üzərində nəzarət -** bu, insanabənzər robotlar və elə bir terror sistemi yaradacaq ki, Feliks Dzerjinskinin qırmızı terroru onunla müqayisədə uşaq oyunu təsiri bağışlayacaqdır.

**(5)** «Sıfır səviyyəsində artım olan postindustrial cəmiyyət» adlandırılan dövrdə **sənayenin hər cür inkişafının və nüvə stansiyalarında elektrik enerjisi istehsalının tamamilə dayandırılması.** Kompüter sənayesi və xidmət industriyası istisna təşkil edəcək. Bhiəşmiş Ştatlarda saxlanılacaq sənaye, qul əməyi zəngin olan Meksika kimi ölkələrə keçiriləcək. Sənayenin dağıdılması nəticəsində meydana çıxacaq işsizlər ya heroin və yaxud kokain istifadə edən narkomanlara, ya da bu gün «Qiobal-2000» (Global 2000) adı altında məlum olan məhvetmə statistikasında rəqəmlərə çevriləcəklər.

**(6) Narkotiklərin və pornoqrafiyanın leqallaşdırılması.**

downloaded from KitabYurdu.org

**(7) Böyük şəhərlərin əhalisinin Kambocada Pol-Pot rejiminin sınaqdan keçirdiyi ssenari üzrə ixtisarı.** Qeyd etmək maraqlı olardı ki, Pol-Pot üçün genosid planı burada, Birləşmiş Ştatlarda, «Roma KIubu»nun tədqiqat mərkəzlərindən birində yaradılmışdı. Bu da maraqlıdır kl, Komitet hazırda polpotçu qatilləri Kambocada yenə də hakimiyyətə gətirmək niyyətindədir.

**(8) Komitetin faydalı hesab etdiyi elmi-tədqiqat işlərindən başqa qalan bütün elmi fəaliyyətin dayandırılnıası.** Əsas səylər nüvə enerjisinin dinc məqsədlər üçün istifadə olunmasına qarşı yönəldilməlidir. Soyuq termonüvə sintezi üzrə eksperimentlər xüsusi nifrət doğurur və onlar hazırda Komitet və ona tabe olan mətbuat tərəfindən hər vasitə ilə diskreditasiya edilir, lağa qoyulur. Soyuq termonüvə sintezi əsasında reaktorların yaradılması Komitetin «təbii resursların məhdud olması» konsepsiyasını alt-üst edərdi. Düzgün istifadə olunarsa, bu cür energetik avadanlıqların köməyi ilə ən adi dağ süxurlarından istənilən maddəni və materialı yaratmaq mümkündür. Soyuq termonüvə sintezi reaktorlarının imkanları həqiqətən də sonsuzdur və onlar bəşəriyyətə elə sərvətlər bəxş edə bilər ki, insanlar bunlar haqqında indi heç uzaqdan-uzağa da təsəvvürə malik deyillər.

(9) Onların «faydasız yeyənlər» adlandırdıqları 3 milyard adamın 2020-ci il üçün **inkişaf elmiş ölkələrdə məhdud müharibələr, «üçüncü dünya» ölkələrində isə aclıq və xəstəliklər yolu ilə** məhv edilməsi. Komitet 300 Sayrus Vensə bu genosidi həyata keçirməyin ən yaxşı üsulu haqda məruzə yazmağı tapşırmışdı. «**Qlobal 2000 Məruzəsi» (Global 2000 Report)** adı altında çıxan bu iş bəyənilmiş və Prezident Karterin şəxsində ABŞ hökuməti, eləcə də o vaxtkı Dövlət Katibi Edvin Maskinin şəxsində ABŞ Dövlət Departamenti tərəfindən rəhbər vəsait qismində qəbul olunmuşdu. «Qlobal 2000» məruzəsinə əsasən ABŞ-ın əhalisi 2050-ci il üçün 100 milyon nəfərə qədər ixtisar olunmalıdır.

**(10) Kütləvi işsizlik yaratmaqla millətin mənəvi ruhunu və fəhlə sinfinin mübarizə əzmini qırmaq.** «Roma Klubu»nun həyata keçirdiyi «sıfır səviyyəsində artım» siyasəti nəticəsində iş yerləri ixtisar olunduqca mübarizə əzmi qırılan və ruhdan düşən fəhlələr içkiyə və narkotiklərə qurşanacaqdır. Ölkənin gəncləri rok-musiqi və narkotiklər vasitəsilə mövcud qayda-qanunlara, adət-ənənələrə qarşı qiyama sövq ediləcək, bunun nəticəsində ailənin əsasları sarsıdılacaq və əvvəl-axır dağıdılacaqdır. Komitet 300 bu məqsədlərə nail olmaq üzrə planın layihəsini hazırlamağı «Tavistok İnsan Münasibətləri İnstitutuna» tapşırmışdı. «Tavistok İnsan Münasibətləri İnstitutu», öz növbəsində, bu işi «Stenford Tədqiqat İnstitutu»na tapşırdı. Sonradan «Dolça Erasının Sui-qəsdi» adı ilə tanınan həmin plan «Stenford Tədqiqat İnstitutunda» professor Villis Harmonun rəhbərliyi altında hazırlanıb.

downloaded from KitabYurdu.org

**(11) Xalqlann öz müqəddəratını özlərinin həll etməsinə yol verməmək və bu məqsədlə süni surətdə müxtəlif böhran vəziyyətləri yaratmaq, sonra da həmin böhranları «idarə etmək».** Bu yolla əhali elə bir dərəcədə zəiflədiləcək və onun mübarizə ruhu elə səviyyəyə salınacaqdır ki, həddən artıq geniş seçim imkanları olan şəraitdə böyük insan kütlələri sadəcə olaraq apatiya halına qərq olacaqdır. ABŞ-da böhranların idarə olunması üzrə xüsusi agentlik artıq yaradılıb. Bu qurum «Fövqəladə Vəziyyətlərin İdarə Olunması üzrə Federal Agentlik» (FEMA) adlanır və onun haqqında geniş ictimaiyyətə mən ilk dəfə hələ 1980-ci ildə xəbər vermişəm... Kitabın gedişində aşağıda FEMA haqqında daha geniş informasiya veriləcəkdir.

**(12) Yeni kultlann yaradılması və artıq fəaliyyət göstərənlərin dəstəklənməsi.** Bunlara Mik Caqqer kimi çirkin degeneratın «Rollinq Stounz» qrupu kimi – bu, Avropanın «Qara Aristokratiyası» arasında xüsusilə pərəstiş edilən qrupdur – rok-musiqi qanqsterləri, eləcə də «Bitlz»dən tutmuş, «Tavistok İnsan Münasibətləri İnstitutu»nun yaratdığı rok-qrupların hamısı daxildir.

**(13) «**Britaniya Ost-Hind Kompaniyası»na nökərçilik edən Darbi tərəfindən əsası qoyulmuş «Xristian Fundamentalizmi» kultunun bərqərar olunmasının davam etdirilməsi. Gerçəklikdə bu kult sionist İsrail dövlətinin gücləndirilməsinə yönəldilmiş olacaqdır. Bu məqsədə, «Allahın seçdiyi xalq» əsatiri vasitəsilə kultun tərəfdarlarının yəhudilərlə eyniləşdirilməsi, eləcə də onların, yanlış olaraq, xristianlığın gücləndirilməsinə xidmət edən xoşniyyətli dini fəaliyyət kimi qəbul etdikləri işlərə əhəmiyyətli həcmdə pul vəsaitlərinin keçirilməsi yolu ilə nail olunacaqdır.

**(14) «Müsəlman Qardaşları» kimi dini kultların, müxtəlif təriqətli müsəlman fundamentalizminin, sinkxizmin yayılmasına (şərait yaratmaq) yardım etmək,** eləcə də, Cim Consonun «Semin oğlanları» işində olduğu kimi, qətllər üzrə eksperimentiər keçirmək. Qeyd etmək lazımdır ki, mərhum Ayətullah Xomeyni Böyük Britaniya kəşfiyyat xidməti hərbi kəşfiyyatının Mİ-6 adı ilə tanınmış altıncı bölməsinin kreaturası idi və bu haqda 1985-ci ildə «Əslində İranda nə baş verib» adlı işimdə yazmışdım.

**(15)** Mövcud dinlərin, xüsusilə də Xristian dininin dayaqlarının sarsıdılması məqsədilə **bütün dünyada «dindən azad olma» ideyalarının bərqərar olunması.** Bu ideya öz mənbəyini, Nikaraquada Samosa rejiminin devrilməsinə gətirən, bu gün isə arüq 25 ildir «vətəndaş müharibəsi» vəziyyətində olan Salvadoru, Kosta-Rikanı və Hondurası dağıdan «iezuit teologiyasında azad olmadan» götürür. Üzdəniraq, «azad olma» teologiyasını yayan ən fəal təşkilatlardan biri kommunistyönlü «Mariya Knollun Missiyasıdır» (Mary Knoll Mission). Mariy Knollun dörd, necə deyərlər, rahibəsinin bir neçə il əvvə Salvadorda qətlə yetirilməsinə kütləvi informasiya vasitələrinin ciddi diqqəti də məhz bununla izah olunur.

downloaded from KitabYurdu.org

Həmin dörd rahibə kommunistlərin təxribatçı agentləri idilər və onların fəaliyyəti Salvador hökumətinin sənədlərində təfərrüatı ilə əks olunub. Amerikanın informasiya agentlikləri və mətbuatı Salvador hökumətinin əlində olan və «Mariya Knollun Missiyasının» rahibələrinin ölkədə əslində nə işlə məşğul olduqlarını sübuta yetirən çoxsaylı sənədləri dərc etdirmək və ya şərh etməkdən qətiyyətlə imtina etdi. Mariya Knoll bir çox ölkələrdə fəaliyyət göstərir, o, Rodeziyada, Mozambikdə, Anqolada və Cənubi Afrikada kommunizmin yayılmasında aparıcı rol oynayıb.

**(16) Dünya iqtisadiyyatında ümumi böhranın yaradılması və ümumi siyasi xaosun təhrik olunması.**

**(17) ABŞ-ın daxili və xarici siyasətinin bütünlüklə nəzarət altına almması.**

**(18)** Birləşmiş Millətlər Təşkilatı (BMT), Beynəlxalq Valyuta Fondu (BVF), «Beynəlxalq Hesablaşmalar Bankı» (MHB), Dünya Məhkəməsi kimi **dövlətüstü təşkilatları mümkün qədər güclü dəstəkləmək**, eləcə də yerli hakimiyyət orqanlarını nüfuzdan salmaq, onların rolunu tədricən heçə endirmək və ya onları BMT-nin bayrağı altına keçirmək.

**(19) Bütün hökumətlərə xəyanətkar agentlərin yeridilməsi** və ölkələrin suveren bütövlüyünün dağıdılmasına istiqamətlənən fəaliyyətin bu hökumətlərin daxilindən həyata keçirilməsi.

**(20) Ümumdünya terror aparatının təşkil olunması** və terrorçuluq fəaliyyətinin olduğu hər yerdə terrorçularla danışıqların aparılması. Xatırlamaq lazımdır ki, Baş Nazir Moronu və General Dosieri (General Dozier) oğurlayan «Qırmızı briqadalarla» danışıqlara başlamağın vacibliyinə İtaliya və ABŞ hökumətlərini məhz Benito Kraksi inandırmışdı. Yeri gəlmişkən, General Dosier başına gələnləri yaymamaq barədə əmr alıb. Əgər o, sükutu pozarsa, şübhəsiz ki, ondan «başqalarına görk olmaq üçün dəhşətli nümunə» edəcəklər – Kissincerin Aldo Moro, Əli Bhutto və General Ziya-ül-Həqqlə etdiyinə bənzəyən daha bir «dəhşətli nümunə».

**(21) Təhsilin tamamilə və birdəfəlik dağıdılması məqsədi ilə ABŞ-da təhsil üzərində nəzarətin qurulması.**

İlk dəfə hələ 1969-cu ildə sadaladığım bu məqsədləri bir çoxuna ya artıq nail olunub, ya da tezliklə nail olunacaqdır. Komitet 300-ün proqramında xüsusi maraq doğuran məsələ, onun iqtisadi siyasətinin mahiyyətidir. Bu siyasət bütövlükdə Maltusun nəzəriyyəsinə əsaslamr.

***Maltus*** – ingilis kənd rahibinin oğlu, Komitet 300-ün yaradılması üçün model rolunu oynamış «Britaniya Ost-Hind Kompaniyası» sayəsində irəli çıxmış və məşhurlaşmış şəxsdir.

Maltus bildirirdi ki, bəşəriyyətin inkişafı yalnız müəyyən sayda insanın həyatını təmin etməklə bağlı Yerin təbii imkanları ilə müəyyən olunur, ən əsası isə həmin say adlanandan

downloaded from KitabYurdu.org

sonra Yerin məhdud resursları sürətlə tükənməyə başlayacaqdır. Əgər bu resurslar istifadə olunarsa, onları əvəz və ya bərpa etmək mümkün olmayacaq. Bundan çıxış edərək Maltus qeyd edir ki, əhali artımını təbii resursların azalması ilə mütənasib olacaq həddə qədər məhdudlaşdırmaq lazımdır. Deməyə ehtiyac yoxdur ki, elita öz varlığını «faydasız yeyənlərin» sayının gur artımı nəticəsində yarana biləcək təhlükəyə məruz qoymayacaqdır. Deməli, seçim praktikasına əl atılmalıdır. Əvvəl də göstərdiyim kimi, «seçim» prosesi artıq başlanıb və bu proses «Qlobal 2000 Məruzəsində» qələmə alınan metodlar üzrə həyata keçirilir.

Komitet 300-ün iqtisadi planlarının bütün istiqamətləri Maltus və Frederik fon Hayekin kəsişməsinə aparır.

***Frederik fon Hayek*** – «Roma Klubu»nun sponsorluq etdiyi növbəti bədbin iqtisadçıdır. Avstriyada doğulan və uzun müddət Devid Rokfellerin himayəsi altında olan fon Hayekinnəzəriyyələri hazırda ABŞ-da kifayət qədər geniş yayılıb.

Fon Hayekin nəzəriyyəsinə görə, ABŞ iqtisadiyyatının əsasını bunlar təşkil etməlidir: **(a)** şəhər qara bazarları; **(b)** tərtökən əmək sistemindən istifadə edən Honkonq tipli kiçik sənaye müəssisələri; **(v)**turizın ticarəti; **(q)** möhtəkirlərə tam hərəkət azadlığı verilən və narkotika ticarətinin çiçəklənə bildiyi azad sahibkarlıq zonaları; **(d)** sənaye istehsalının dayandırılması; **(e)** Atom Elektrik Stansiyalarının hamısının bağlanması.

Fon Hayekin ideyaları «Roma Klubu»nun ideyalarına tamamilə uyğun gəlir və onun Amerikanın sağçı dairələri tərəfindən güclü surətdə dəstəklənməsinin səbəbi də, görünür, məhz elə budur. Fon Hayekin mantiyasını indi əyninə yeni, daha gənc iqtisadçı – Ceffri Saks ölçür. Belə ki, Fon Hayekin Polşada başladığı işi başa çatdırmaq üçün bura məhz Ceffri Saksı göndərmişdilər. Bu yerdə Polşada siyasi sabitliyin pozulmasına gətirən iqtisadi böhranın «Roma Klubu» tərəfindən təşkil olunduğunu xatırlamaq lazımdır. Eynilə bu cür, belə deyək, iqtisadi planlaşdırına Rusiyaya da sırınacaqdır, lakin həmin iqtisadi plan bu ölkədə güclü müxalifətlə qarşılaşacağı təqdirdə, qısa zamanda qiymətlərin dotasiya olunduğu köhnə sistem bərpa olunmalıdır.

Komitet 300 «Roma Klubuna» Katolik Kilsəsinin dağıdılması və sovet işğalçı ordularının qarşısında yolların təmizlənməsi üçün polyak millətçiliyini alət qismində istifadə etməyi əmr etmişdi. «Solidarnost» hərəkatı («solidarnost» – həmrəylik. – tərc.) Komitet 300-ün üzvü Zbiqnev Bjezinski tərəfindən yaradılmış, bu «həmkarlar» üçün adı da o, şəxsən özü seçmiş, eləcə də onun funksionerlərini və təşkilatçılarını təyin etmişdi. «Solidarnost» əsla «həmkarlar» hərəkatı deyildi, hərçənd Qdansk gəmi tərsanələrinin fəhlələri bu hərəkata belə bir görüntü verilməsi üçün istifadə edilmişdi. Bu, daha çox, Vahid Dünya Hökumətinin

downloaded from KitabYurdu.org

gəlişinə hazırlıq üzrə müəyyən tədbirlərin həyata keçirilməsi üçün yaradılmış yüksək səviyyəli SİYASİ təşkilat idi.

«Solidarnost» hərəkatının liderlərinin əksəriyyəti Odessadan olan yəhudi-bolşeviklərin sonrakı nəsilləri idi və onlar özlərini əsla kommunizm əleyhdarı kimi göstərmirdilər. Bu fakt Amerika kütləvi informasiya vasitələrinin bu hərəkata daim belə çox diqqət ayırdığının səbəbini anlamağa imkan verir. Professor Saks bütün prosesi bir addım irəlilədərək, indicə SSRİ-nin diqtəsindən azad olan Polşaya yeni iqtisadi istila təmin etdi. Bundan sonra Polşa Birləşmiş Ştatların iqtisadi qulu olacaq. Başqa sözlə, bircə «ağa» dəyişdi.

Bjezinski öz ölkəsinin gələcəyinin qayğısına qalan hər bir amerikalının mütləq oxumalı olduğu bir kitabın müəllifidir. Bu kitab «Texnotron era» adlanır və «Roma Klubu»nun sifarişi ilə yazılıb. Kitab özü ilə Birləşmiş Ştatların idarə olunması üçün istifadə olunacaq üsul və metodlar barədə açıq söhbəti təcəssüm etdirir. Kitabda həm də klonlardan və «robotoidlərdən», yəni insan kimi davranan və zahirən insana bənzəyən, lakin insan olmayan varlıqlardan bəhs olunur. Bjezinski Komitet 300-ün adından bəyan edir ki, Birləşmiş Ştatlar «əvvəlki heç bir eraya bənzəməyən bir mərhələyə qədəm qoyur; biz asanlıqla diktaturaya keçə bilən texnotron eraya doğru hərəkət edirik». «Texnotron era» haqqında tam hesabatı mən 1981-ci ildə dərc etdirmişdim və öz informasiya bülletenlərimdə bu kitab haqqında dəfələrlə çıxış etmişəm.

Bjezinski sonra deyir ki, cəmiyyətimiz «əyləncə və kütləvi tamaşalara (idman yarışları haqqında sonsuz televerilişlər) əsaslanan informasiya inqilabını yaşayır ki, bunlar özü-özlüyündə getdikcə daha da faydasız olan kütlələr üçün növbəti bir narkotika növüdür». Bjezinski məgər növbəti görücü və ya peyğəmbər idi? O, gələcəyi öncədən görə bilirdi? Əlbəttə, YOX! Onun kitabı sadəcə olaraq Komitet 300-ün «Roma Klubuna» icra üçün ötürdüyü planın vur-tut surəti idi. Bizim (Amerika xalqı nəzərdə tutulur. – tərc.) artıq 1991-ci il üçün faydasız insan kütlələrinə malik olduğumuz məgər doğru deyil? Bəli, 30 milyon işsiz və 4 milyon evsiz insanın özü ilə hazırda «faydasız kütlə» və ya ən azı onun nüvəsini təcəssüm etdirdiyini demək mümkündür.

Dinə – Lenin və Marksın zəruriliyini etiraf etdikləri «xalqın tiryəkinə» indi kütləvi idman tamaşaları, hədd-hüdud bilməyən seksual ehtiraslar və rok-musiqi kimi yeni «tiryəkciklər» əlavə olunub. Bütöv bir nəsil narkoman yetişib. Məhdudiyyətsiz seksin təbliğatı və narkomaniya epidemiyası insanları ətrafda baş verənlərdən yayındırmaq məqsədini güdür. Bjezinski «Texnotron era» kitabında insan kütləlәri haqqında cansız əşya kimi danışır –

downloaded from KitabYurdu.org

Komitet 300-ün nöqteyi-nəzərindən biz, çox guman ki, məhz elə belə də görünürük. Bjezinski daim bizim, «kütlələrin» üzərində nəzarət həyala keçirilməsinin zəruriliyindən danışır.

Kitabın bir yerində o, ağzından qaçırır:

*«...Eyni zamanda da şəxsiyyət üzərində sosial və siyasi nəzarət imkanları artacaqdır. Tezliklə hər bir vətəndaş üzərində demək olar fasiləsiz nəzarət aparmaq imkanı yaranacaq. Adi informasiya ilə yanaşı, həm də hər bir insanın sağlamlığının vəziyyəti və davranışı haqqında ən konfidensial təfərrüatlar toplanan kompüter fayl-dosyelərin daim təzələnınəsini həyata keçirmək mümkün olacaqdır.*
*Müvafiq dövlət orqanlarının bu fayllara ani çıxtş imkanları olacaq. Hakimiyyət informasiyanı nəzarətdə saxlayanların əlində cəmlənəcək. Mövcud dövlət orqanları böhranərəfəsi situasiyaların idarə olunması üzrə idarələrlə əvəz olunacaq. Bu idarələrin vəzifəsi nıümkün sosial böhranların qabaqlayıcı şəkildə aşkarlanması və həmin böhranların idarə olunması üzrə proqramların işlənib hazvianmasından ibarət olacaqdır.* (Kitabın bu hissəsində ABŞ-ın FEMA Agentliyinin strukturu qələmə alınır ki, həmin təşküat kitab yazılandan çox-çox sonralar meydana çıxıb.)
*Bütün bünlar gələcək bir neçə onillik üçün tendensiyalar əmələ gətirəcəkdir ki, onlar TEXNOTRON ERAYA – DİKTATURAYA – gətirib çıxaracaq və hazırda mövcud olan siyasi prosedurlar o vaxt demək olar tam şəkildə ləğv olunacaqdır. Nəhayət, əgər əsrin* (söhbət XX əsrdən gedir. – tərc.)*sonlarına yaxın dövrə indidən nəzər salsaq, ŞÜUR ÜZƏRİNDƏ BİOKİMYƏVİ NƏZARƏT, ELƏCƏ DƏ, YALNIZ HƏRƏKƏTLƏRİ VƏ DAVRANIŞI BAXIMINDAN DEYİL, HƏM DƏ İNSAN KİMİ FİKİR YÜRÜTMƏYİ BACARAN VARLIQLARIN YARADILMASI DA DAXİL OLMAQLA, İNSANLARLA GENETİK MANİPULYASİYALAR ÜÇÜN AÇILAN İMKANLAR BİR SIRA CİDDİ SUALLAR DOĞURA BİLƏR...».*
Bjezinski bütün bunlan fərdi şəxs qismində deyil, Prezident Karterin Milli Məsələlər üzrə Müşaviri, «Roma Klubu»nun aparıcı üzvü, Komitet 300-ün, «Beynəlxalq Münasibətlər üzrə Şura»nın üzvü, eləcə də Polşanın çox qədim «Qara Aristokratiya»sının üzvü kimi yazırdı. Onun kitabında Amerikanın öz industrial bazasından necə imtina etməli və «tamamilə yeni tarixi era» adlandırdığı dövrə necə qədəm qoymalı olduğu izah olunur.

«Amerikanı unikal edən budur ki, o, gələcəyi öz üzərində sınaqdan çıxarır – fərqi yoxdur, bu, pop-art, yoxsa LSD olsun. Amerika bu gün – bu, yaradıcı cəmiyyət, qalanları isə şüurlu və ya şüursuz şəkildə onun təqlidçiləridir». Bjezinski gərək deyəydi ki, Amerika, mahiyyət

downloaded from KitabYurdu.org

etibarilə, **Komitet 300-ün siyasəti və metodları üçün sınaq poliqonudur** və bu siyasət və metodlar birbaşa mövcud nizaının ləğv edilməsinə və Vahid Dünya Hökumətinin – Yeni Dünya Nizamının qurulmasına aparır.

«Texnotron era»nın fəsillərindən birində yeni texnologiyaların inkişafının intensiv qarşıdurmaları, eləcə də sosial və beynəlxalq gərginliyi necə kəskinləşdirəcəyi izah olunur. Nə qədər qəribə olsa da, lakin daimi müşahidə altında olduğumuzdan biz artıq indidən güclü gərginlik keçiririk. Bu cür müşahidə mərkəzlərindən biri – Kubada, Lurdes bazasıdır. İkinci belə bir mərkəz – Belçikada, NATO-nun Brüsseldəki mənzil-qərargahında yerləşır. Burada «666» kod nömrəsi altında nəhəng kompüter quraşdırılıb. Bu kompüter Bjezinskinin öz kitabında qeyd etdiyi bütün tiplərdən olan informasiyanı yadda saxlamaq, eləcə də, ehtiyac yaranarsa, məlumat bazasını əlavə bir neçə milyard adam üçün genişləndirmək imkanına malikdir. Lakin «Qlobal 2000» proqramında nəzərdə tutulan genosid siyasəti hesaba alınarsa, bu resursların nə vaxtsa istifadə olunmasına ehtiyac, görünür, heç vaxt yaranmayacaqdır.

Bu cür informasiya bazasını ABŞ-da istifadə etmək çox asan olacaqdır – Bjezinski və onun Komitet 300-dən olan həmkarlarının haqqında danışdıqları müşahidənin təmin olunması üçün sürücülük və yaxud sosial sığorta vəsiqəsinin nömrəsini «666» kompüterinə daxil etmək kifayətdir. Komitet 300 hələ 1981-ci ildə bütün hökumətləri, o cümlədən də SSRİ hökumətini xəbərdar edib ki, «Komitet 300 Yeni Dünya Nizamının bərqərar olunması üzrə hazırlıqlara tam nəzarəti öz üzərinə götürməsə, bu halda xaos başlanacaqdır. NƏZARƏT BİZİM KOMİTƏ, ELƏCƏ DƏ QLOBAL PLANLAŞDIRINA VƏ BÖHRANLARIN İDARƏ OLUNMASI VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏCƏKDİR». Mən 1981-ci ildə bunlar haqqında məlumat alandan bir neçə ay sonra bu faktlar barədə xəbər verdim. O vaxt haqqında xəbər verdiyim daha bir fakt bundan ibarət idi ki, **VAHİD DÜNYA HÖKUMƏTİNİN QURULMASINA HAZIRLIQDA İŞTİRAK ETMƏK ÜÇÜN RUSİYA DA DƏVƏT OLUNUB.**

Lakin mən 1981-ci ildə bütün bunlar haqqında yazanda sui-qəsdçilərin qlobal planları artıq irəliləmiş hazırlıq mərhələsində idi. Dönüb ötən 10 ilə nəzər salanda bu planların necə sürətlə həyata keçirildiyini asanlıqla görmək olar. Əgər bu informasiya 1981-ci ildə həyəcan doğururdusa, bizim yaşadığımız indiki vəziyyətdə, Birləşmiş Ştatların dağıdılmasının yekun mərhələlərinə daha çox yaxın olduğumuz bu gün həmin informasiya qat-qat böyük həyəcan doğurur. Əgər qeyri-məhdud maliyyə imkanlarını, bir neçə yüz beyin trestinin və 5.000 nəfər sosial mühəndisin varlığını, informasion məlumat bankının yaradıldığını və dünya hökumətlərinin əksəriyyəti üzərində nəzarətin qurulduğunu diqqətə alsaq, onda qarşımızda

downloaded from KitabYurdu.org

indiyə qədər görünməmiş miqyaslarda problem ortaya çıxır ki, hazırda ayrıca götürülmüş heç bir ölkə onun öhdəsindən gəlməyə qadir deyildir.

Tez-tez bildirdiyim kimi, bizim hamımızı bu problemin köklərinin Moskvada olduğuna inandırıblar. Güclü və fasiləsiz beyin yuyulması nəticəsində biz həqiqətən də inanmışıq ki, Amerika üçün ən böyük təhlükə kommunizmdən gəlir. Reallıqda isə işlər tamamilə başqa cürdür. Ən böyük təhlükə bizim öz sıralarımızda olan çoxsaylı xəyanətkarlardan gəlir. Konstitusiyamız bizi öz evimizm içində olan düşmənlərimizi aşkar etməyə çağırır. Bizim Düşmənlərimiz – bunlar, ölkəmizin idarəetmə orqanları strukturlarında yüksək vəzifə tutmuş və Komitet 300-ün nökəri olan adamlardır. Bizi udub həzm etməklə hədələyən zülmətin qarşısını biz məhz BİRLƏŞMİŞ ŞTATLARDA almağa BORCLUYUQ; daxilimizdə olan həmin sui-qəsdçiləri biz məhz burada aşkar və məhv etməliyik.

«Roma Klubu» həm də Salvadorda gedən 25 illik müharibənin qızışdırılmasında birbaşa iştirak edib – bu, ABŞ Dövlət Departamentində işləyən Elliot Abrams tərəfindən hazırlanan daha geniş bir planın ayrılmaz tərkib hissəsi idi. Salvador qiyamçılarının, xoşbəxtlikdən, uğunsuzluğa düçar olan «Son Hücumunu» Komitet 300-ün üzvü, Sosialist İnternasionalının lideri və Qərbi Almaniyanın keçmiş Kansleri Villi Brandt maliyyələşdirirdi. Komitet 300 Salvadoru, Mərkəzi Amerikanı yeni Otuz İllik Müharibə zonasına çevirmək üçün istifadə edirdi. Bu vəzifənin, heç də bədniyyətli səslənməyən, «And Planı» adı altında yerinə yetirilməsi Kissincerə tapşırılmışdı.

Dövlət sərhədləri sui-qəsdçilərin əməliyyatları üçün maneə təşkil etmir. Məsələn, Villi Brandtın planlaşdırdığı «Son Hücum» aksiyası, onun o vaxt «Roma Klubu» tərəfindən İspaniyanın baş naziri roluna hazırlanan Felipe Qonsaleslə görüşünün nəticəsində mümkün olmuşdu. Qonsales Kubada peyda olana qədər məndən və bir neçə həmkarımdan başqa onun haqqında heç kəs heç nə bilmirdi. «Roma Klubu» Qonsalesi Salvadorda xüsusi tapşırıqlar üzrə zabit kimi istifadə edirdi və o, General Frankonun ölümündən sonra İspaniyada siyasi hakimiyyətə gələn ilk sosialist oldu.

1980-ci ilin dekabrında Qonsales «Roma Klubu»nun təşkil etdiyi sosialistlərin antireyqançı görüşündə iştirak etmək üçün Vaşinqtona gəldi. Qonsalesin Fidel Kastro ilə görüşündə solçu qiyamçı Gilyermo Unqo iştirak edirdi. Gilyermo Unqo Komitet 300-ün bayrağı altında işləyən ən odioz solçu «beyin trestlərindən» biri, Vaşinqtonda yerləşən «Siyasi Tədqiqatlar İnstitutunun» (STİ = İPS, Institute for Policy Studies) himayəsi altında fəaliyyət göstərirdi. Unqonun fəaliyyəti üzərində bilavasitə rəhbərliyi STİ-nin əməkdaşı həyata keçirirdi. Həmin

downloaded from KitabYurdu.org

şəxs Kastro ilə görüşmək üçün Vaşinqtondan Havanaya gedərkən müəmmalı aviaqəzada həlak oldu…

Əksəriyyətimiz gözəl bilirik ki, həm solçu, həm də sağçı siyasi istiqamətlərin hamısına eyni adamlar tərəfindən nəzarət olunur. Bu, solçu Gilyermo Unqonun Salvador sağçılarının lideri mərhum Napoleon Duarte ilə çoxdan dostluq etməsi faktını izah edir. Salvador qiyamçılarının «Son Hücumu» məhz Kubada keçirilən həmin görüşdən sonra baş tutdu.

Cənubi Amerika ilə Birləşmiş Ştatların qütbləşməsi Komitet 300-ün Kissincerə həvalə etdiyi xüsusi tapşırıq idi. Malvin müharibəsi (bu, həm də Folklend müharibəsi adlandırılır) və bunun ardınca Argentina hökumətinin devrilməsi, bunun da arxasınca iqtisadi xaos və siyasi başıpozuqluqlar – bütün bunlar Kissincerin köməkçiləri tərəfindən planlaşdırılmışdı, həmin köməkçilər isə Komitet 300-ün həlledici üzvlərindən biri olan Lord Karrinqtonla birlikdə fəaliyyət göstərirdilər.

Komitet 300-ün ABŞ-da əsas mərkəzlərindən biri, Koloradoda yerləşən «Aspen Humanitar Tədqiqatlar İnstitutu» da Argentinada baş verən, həmçinin də İran şahının devrilməsi ilə başa çatan hadisələrin planlaşdırılmasına kömək edib.

Latın Amerikasının ABŞ üçün vacib əhəmiyyəti yalnız bizim regiön ölkələri ilə bağladığımız bir çox hərbi müqavilələrlə ölçülmür. Latın Amerikasının əhəmiyyəti həm də ondan irəli gəlir ki, bura Amerika texnologiyaları və ağır maşınqayırına məhsulları üçün potensial olaraq böyük satış bazarıdır və bu bazar zəifləməkdə olan bir çox kompaniyamıza yeni impuls verə və ABŞ-da minlərlə yeni iş yeri yarada bilər. Bunun qarşısı nəyin bahasına olursa olsun alınmalı idi: hətta buna görə «Otuz illik müharibə» başlamaq lazım gəlsəydi belə.

Bu, nəhəng potensialın pozitiv prizmadan nəzərdən keçirilməsi əvəzinə, Komitet 300 onu özünün ABŞ-da «postindustrial sıfır səviyyəli artım» planlarına təhlükəli hədə hesab etdi. Odur ki, Komitet, Argentinanın timsalında Latın Amerikasının qalan ölkələrinə nümunəvi dərs vermək, onları müstəqilliyin, milli özünüdərkin və suveren bütövlüyün inkişaf etdirilməsi ideyalarından imtina etməyə məcbur etmək üçün, təxirəsalınmaz tədbirlər gördü. Latın Amerikasında bir çox ölkələrin sağ qalmaq naminə vəsait əldə etmək üçün yalnız narkotika istehsalına müraciət edə bilməsinin səbəbi də məhz budur. Sui-qəsdçilərin bütün bu işdə əsas məqsədi də, çox ola bilsin ki, məhz elə bu olub.

Amerikalılar bütövlükdə Meksikaya yuxarıdan aşağı baxırlar və Komitet də buna can atır ki, ABŞ əhalisi bu ölkəyə məhz belə münasibət göstərsin. Biz Meksika və Cənubi Amerika

downloaded from KitabYurdu.org

haqqında təsəvvürlərimizi bütünlüklə dəyişməliyik. Meksika özü ilə Amerikada istehsal oluna biləcək hər cür məhsul üçün potensial olaraq çox böyük bazar təcəssüm etdirir ki, bunun sayəsində həm amerikalılar, həm də meksikalılar üçün minlərlə iş yeri açıla bilərdi. Sənaye müəssisələrimizin «sərhəddən cənuba doğru» köçürülməsi və yerli fəhlələrə qul maaşının ödənməsi nə bu, nə də o biri ölkənin maraqlarına uyğun deyildir. Bunda yalnız «Olimpiyaçılar» maraqlıdırlar.

Meksika öz nüvə texnologiyalarının böyük hissəsini Argentinadan alırdı, lakin Malvin müharibəsi buna son qoydu. İnkişaf edən ölkələrə nüvə texnologiyalarının ixracının dayandırılacağı barədə qərarı «Roma Klubu» hələ 1986-cı ildə vermişdi. Ucuz elektrik enerjisi istehsal edən Atom Elektrik Stansiyalarına malik olan Meksika «Latınamerikalı Almaniya» ola bilərdi. Hadisələrin bu cür inkişafı, hər cür nüvə texnologiyasının ixracını – İsrail üçün nəzərdə tutulan nüvə texnologiyaları istisna olmaqla – 1991-ci il üçün dayandıran sui-qəsdçilər üçün fəlakət olardı.

Komitet 300 Meksikanın feodal kənd təsərrüfatı ölkəsi kimi qalmasını planlaşdırır, çünki bu, Meksika neftini asanlıqla nəzarət altına almağa və ölkəni qarət etməyə imkan verərdi. Stabil və çiçəklənən Meksika yalnız Birləşmiş Ştatlara xeyirli ola bilər. Lakin sui-qəsdçilər məhz bunun qarşısını almaq istəyirlər və buna görə onlar onilliklərdir ki, Meksikaya qarşı müxtəlif insinuasiyalar həyata keçirir, şər-böhtan yayır və birbaşa iqtisadi müharibə aparırlar. Keçmiş Prezident Lopes Potilio hakimiyyətə gələnə və bankları milliləşdirənə qədər Meksika hər gün 200 milyon dollar itirirdi. Bunu Komitet 300-ün Uoll Stritin bank və broker evlərində əyləşən nümayəndələri təşkil edirdilər.

Əgər ABŞ-a siyasətbazlar yox, dövlətçiliyin qədrini bilən adamlar rəhbərlik etsəydi, onda biz birgə fəaliyyət göstərə və Vahid Dünya Hökumətinin – Yeni Dünya Nizamının Meksikanın əvvəlki aciz vəziyyətə qaytarılması ilə bağlı planlarının qarşısını ala bilərdik. Əgər biz «Roma Klubu»nun Meksika ilə bağlı planlarını alt-üst edə bilsəydik, bu, Komitet 300 üçün şok olardı və o bundan belə tezliklə özünə gələ bilməzdi. «İllüminatların» varisləri yalnız Meksika üçün deyil, həm də ABŞ üçün ciddi təhlükə təşkil edirlər. Biz Meksikada vətənpərvər qüvvələrlə ümumi dil taparaq ABŞ-da elə bir qüdrətli qüvvəyə çevrilə bilərdik ki, onunla hesablaşmamaq artıq qeyri-mümkün olardı. Lakin bunun üçün güclü liderlər lazımdır ki, hazırda bizdə məhz liderlik çatışmır.

Komitet 300 öz nəzarəti altında olan təşkilatlar vasitəsilə Reyqanın prezidentliyinin nəticələrini heçə endirə bilmişdi. «***Miras Fondu»*** təşkilatından («The Heritage

downloaded from KitabYurdu.org

Foundation») olan Stüart Batler bu haqda belə demişdi: «Sağçılar 1980-ci ildə qələbə qazandıqlarını düşünürdülər, lakin gerçəklikdə onlar məğlub oldular». Batler bunu, Reyqan administrasiyasında bütün postların «Miras Fondunun» təqdimatı ilə «***Fabian Cəmiyyəti»****nin* təyin etdiyi adamlar tərəfindən tutulduğunu anlayan sağçıların düşdükləri situasiya ilə bağlı deyirdi. Daha sonra Batler bildirirdi ki, «Miras Fondu» Birləşmiş Ştatlara solçu radikal prinsipləri sırımaq üçün sağçıların ideyalarından istifadə edəcək. Bütün bunlar ABŞ-ın əsas fabiançısı və «Miras Fondu»nda bir nömrəli adam olan Ser Piter Vikkers-Hollun prezident seçkilərindən əvvəlki bir il ərzində açıq müzakirə etdiyi radikal ideyalar idi. Mühafizəkar «beyin trestinə» rəhbərlik etməsinə baxmayaraq, Ser Piter Vikkers-Holl fəal fabiançı olaraq qalırdı. Silah istehsal edən müəssisələri olan Böyük Britaniyanın oliqarxik Vikkerslər ailəsinin üzvü kimi, Ser Piter nüfuz və hakimiyyətə malik idi. Vikkerslər ailəsi Birinci Dünya Müharibəsində hər iki tərəfə, eləcə də Hitler Almaniyada hakimiyyətə gələn dövrdə ona da silah satırdı. Ser Piter Vikkers-Holl üçün rəsmi «örtük» (burada və aşağıda «örtük»: əsl fəaliyyəti ört-basdır edən formal vəzifə. – Y.Ə.) «Kaliforniya Universiteti» nəzdində olan «Şəhər və Regional İnkişaf İnstitutudur». O, Böyük Britaniya leyboristlərinin lideri və Komitet 300-ün üzvü Entoni Vedjvud Bennin uzun müddət ərzində səlahiyyətli nümayəndəsi olub.

Vikkers və Benn – bu şəxslərin hər ikisi beyinlərin yuyulması üzrə dünyanın əsas idarəsi olan «Tavistok İnsan Münasibətləri İnstitutu» ilə sıx əlaqələrə malikdirlər. Vikkers «Tavistok İnsan Münasibətləri İnstitutunda» keçdiyi hazırlığını öz nitqlərində məharətlə istifadə edir. Aşağıdakı nümunəni nəzərdən keçirməyi təklif edirəm:

*«İki Amerika vardır. Biri – ağır maşınqayırmaya əsaslanan XIX əsrin cəmiyyətidir. Digəri – kahnə Amerikanın qalıqları əsasında qurulan və böyüməkdə olan postindustrial cəmiyyətdir. Növbəti onillikdə məhz bu iki dünya arasındakı münasibətlərdə yaranacaq böhran sosial və iqtisadi fəlakətlər meydana çıxaracaq. Bu iki dünya bir-biri ilə dərin ziddiyyət vəziyyətindədir, onlar birgə yaşaya bilmir. Postindustrial dünya əvvəl-axır digərini yer üzərindən siləcəkdir».*

Xatırladım ki, bu nitq 1991-ci ildə edilib və biz indi iqtisadiyyatımızın və sənayemizin vəziyyətinə nəzər salanda Ser Piterin öncəgörmələrinin nə dərəcədə dəqiq olduğunu görə bilərik. İnsanlar məndən 1991-ci ildə başlanan iqtisadi enmənin hələ nə qədər davam edəcəyini soruşanda, onlara Ser Piterin dediklərini xatırladıram və öz rəyimi də əlavə edirəm ki, bu enmə 1995-1996-cı illərdən tez dayanmayacaq, özü də ölkəmiz 1960-cı və 1970-ci illərdən tanıdığımız həmin Amerika artıq, olmayacaqdır. Həmin Amerika arlıq ölüb!

downloaded from KitabYurdu.org

Ser Piterin bu nitqindən dərhal sonra mən onu öz informasya bülletenimdə dərc etdirdim. Bu, peyğəmbəranə nitq idi. Lakin məsələ ondadır ki, Amerikanın gələcəyini öncədən söyləmək üçün Komitet 300-ün və onun icraedici orqanı olan «Roma Klubu»nun artıq tərtib edilmiş planlarına əsaslanmaq da kifayət edərdi. Ser Piter evfemistik üslublu nitqində nə haqda danışırdı? Bizim adi dilə çevirəndə bu o deməkdir ki, köhnə amerikan həyat tərzi, bizim həqiqi və bütün cəmiyyətin etibarını qazanmış konstitusion respublika üsul-idarəmiz Yeni Dünya Nizamı ilə əvəzlənməlidir. Bizim tanıdığımız Amerika ya özü getməli, ya da məhv edilməlidir.

Artıq dediyim kimi, Komitet 300-ün üzvləri tez-tez hamının gözü önündə fəaliyyət göstərirlər. Bu mənada Ser Piter Vikkers-Holl da istisna təşkil etmir. Onun haradan gəldiyini hamının başa düşməsi üçün o, nitqini belə tamamlamışdı:

«*... Mən çox xoşbəxtəm ki, «Miras Fondu» və digər bu kimi qruplarla işləmişəm. Həqiqi fabiançılar «Yeni sagçıların» köməyi ilə özlərinin bəzi radikal ideyalarını hərəkətə gətirə biləcəklarinə ümid edirlər. Təbliğat 10 ildən çoxdur ki, Böyük Britaniya cəmiyyətinin beyninə sənayenin onu uçuruma dartdığını yeridir. Bütün bunlar doğrudur, lakin bu təbliğatın son nəticəsi əhalinin mənəvi ruh düşkünlüyü oldu».* («Tavistok İnsan Münasibətləri İnstitutundan» olan «yeni elm» üzrə mütəxəssislər məhz elə bunu planlaşdırırdılar.)
*«İqtisadi vəziyyət pisləşdikcə Birləşmiş Ştatlarda da bu hal baş verəcəkdir. Bu (mənəvi ruh düşkünlüyü), insanları ağır secimə məcbur etmək üçün zəruridir. Əgər gələcək planlaşdırılmasa və yaxud seçicilər tərəqqiyə maneçilik törətsələr, onda da bir ictimai xaos yaranacaq ki, onun miqyaslarını indi təsəvvür etmək belə qeyri-mümkündür. Şəhər Amerikasının perspektivləri çox kədərlidir. İri şəhərlərlə hələ nə isə etmək imkanı var, şəhər əhalisi ixtisar olunacaq və sənaye bazası sarsılacaq. Nəticədə bu, sosial konvulsiyalar meydana çıxaracaqdır...»*
Ser Piter medium, dahi maq, yoxsa uğurlu rəml atan adi falabaxan-şarlatan idi? Əlbəttə, yox. Ser Piter Komitet 300 və «Roma Klubu»nun Birləşmiş Ştatların bir vaxtlar qüdrətli sənayesinin tədricən öldürülməsini nəzərdə tutan planını sadəcə olaraq bərkdən oxumuşdu. Ser Piterin öz öncəgörməsini söylədiyi vaxtdan ötmüş on il geriyə nəzər salanda kimsə Komitet 300-ün ABŞ sənayesinin dağıdılması üzrə planlarının reallığa çevrildiyinə şübhə edə bilərmi?
Doğru deyilmi ki, Ser Piterin öncəgörmələri heyrətamiz dərəcədə dəqiq olub? Bu, son sözünə qədər həqiqətən də belədir. Qeyd etmək lazımdır ki, Ser Piter Vikkers (Ser Piter Vikkers-Hollun qayınatası) «Stenford Tədqiqat İnstitutu»nun «İnsan obrazının dəyişdirilməsi»

downloaded from KitabYurdu.org

məruzəsi üzərində işləyib və Reyqan administrasiyasına göndərilən 3000 səhifədən ibarət tövsiyələrin həllediciləriinin əksəriyyəti məhz həmin məruzədən götürülmüşdü. Bundan başqa, Ser Piter Vikkers Böyük Britaniyanın Mİ-6 kəşfiyyatının yüksək vəzifəli zabiti olaraq «Miras Fondu»na çoxlu məxfi informasiya ötürə bilərdi. Komitet 300-ün və NATO-nun üzvü olan Ser Piter Vikkersin Amerikanın inkişaf istiqamətini köklü surətdə dəyişməli olan sosial proqramın hazırlanmasının NATO tərəfindən «Roma Klubuna» tapşırılmasına da aidiyyəti olub. «Tavistok İnsan Münasibətləri İnstitutu»nun göstərişi ilə «Roma Klubu» belə bir proqramın yalnız Amerika üçün deyil, Şimali Atlantika blokunun bütün üzvləri, eləcə də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) bütün üzv-ölkələri üçün də hazırlanmasını «Stenford Tədqiqat İnstitutu»na tapşırmışdı.

Ser Piterin protejesi olan Stüart Batlerin Prezident Reyqana ötürdüyü 3.000 səhifədən ibarət «tövsiyələrdə», heç bir şübhə yoxdur ki, Böyük Britaniya parlamentinin deputatı və Komitet 300-ün üzvü Entoni Vedjvud Bennin bəzi fikirləri də öz əksini tapmışdı. Benn 1980-ci ilin dekabrın 8-də Vaşinqtona toplaşan Sosialist İnternasionalının üzvlərinə bunları demişdi: «Əgər siz Reyqana kredit kollapsının sürətləndirilməsində kömək etsəniz, onda Volkerin kredit kollapsı şəraitində qalib gələ bilərsiniz».

Reyqanın iqtisadi siyasəti şəraitində ssuda-əmanət və bank sahələrinin süqutunun daha da güclənməsi, Batlerin məsləhətlərinin Reyqan administrasiyası tərəfindən qəbul olunduğu və istifadə edildiyi faktını təsdiq edir. Benn «kömək etsəniz» deyəndə, əslində Reyqanın beynini yumaq lazım olduğunu nəzərdə tuturdu. Qeyd etmək lazımdır ki, «Miras Fondunun» əsasını qoyanlardan biri olan fon Hayek Amerikanın sənaye industriyasının dağıdılması üzrə «Roma Klubu»nun planlarının həyata keçirilməsi işinə başçılığı öz şagirdi Milton Fridmana həvalə etmişdi. İlk növbədə poladtökmə, eləcə də avtomobil və tikinti sahələrinin kollapsını sürətləndirmək üçün bu planda Reyqan administrasiyasının siyasətindən istifadə olunmalı idi.

Bundan başqa, ABŞ-ın poladtökmə sənayesinin sarsıdılması vəzifəsi həm də Etyen D'Avignonun (Etienne D'Avignon) – o, Komitet 300-ün, eyni zamanda da Fransa «Qara Aristokratiyasının» üzvüdür – qarşısına qoyulmuşdu. Son on ildə işini itirən minlərlə metallurq və gəmi tərsanəsi işçisinin heç olmasa biri çətin ki, D'Avignon haqqında eşitmiş olsun. Mən «Economic Review» nəşrinin 1981-ci il aprel nömrəsində D'Avignonun planını tam həcmdə dərc etdirmişdim... «Roma Klubu»nun 1980-ci ilin dekabrında Vaşinqtonda keçirilən həmin taleyüklü toplantısında İrandan bir sirli adam iştirak edirdi. Aydınlaşdırıldı ki, o, Ayətullah Xomeyninin elçisi Bəni Sədr olub...

downloaded from KitabYurdu.org

1980-ci il dekabrın 10-da keçirilən konklavda bir nitq mənim diqqətimi xüsusilə cəlb etdi. Əsas etibarilə də ona görə ki, onu fransız isteblişmenti tərəfindən rədd edilmiş və hesabdan silinmiş adam – Fransua Mitteran söyləyirdi. Lakin kəşfiyyatdan olan bir mənbəm bundan bir qədər əvvəl mənə xəbər vermişdi ki, Mitteranın arxivdən çıxarılması, tozunun çırpılması və hakimiyyətə qaytarılması üçün artıq iş gedir – Mitteranın dedikləri məhz buna görə mənim üçün çox maraqlı idi:

*«Kapitalist sənaye inkişafı azadlıqla bir araya sığmır. Biz, buna son qoymalıyıq. XX və XXI əsrin iqtisadi sistemləri insanı əzmək üçün maşınlardan istifadə edəcək və bu, ilk növbədə atom enerjisi sahəsində baş verəcək ki, burada artıq əhəmiyyətli nailiyyətlər qazanılıb».*

Mitteranın Yelisey sarayına qayıdışı sosializmin əzəmətli triumfu oldu. Bu hal sübut etdi ki, Komitet 300 hadisələrin gedişini və ardıcıllığını öncədən demək üçün artıq kifayət qədər nüfuz və təsir sahibi, sonra isə həmin hadisələri ya zorla, ya da qarşıya qoyulan vəzifələrə çatmaq üçün tələb oluna bilən başqa vasitələrlə həyata keçirməyə qadir olan bir təşkilata çevrilib. Bu hadisə həm də bunu sübut etdi ki, Komitet istənilən müqaviməti qırmağa qadirdir – hətta Parisdə siyasi hakimiyyəti əlində cəmləşdirmiş qrup tərəfindən tamamilə rədd edilmiş Mitteranla bağlı vəziyyətdə də.

1980-ci ilin dekabrında Vaşinqtonda baş tutan görüşdə «müşahidəçi starusunda olan» daha bir qrupun nümayəndəsi qismində Con Qrexem iştirak edirdi – o, həm də «Anti-diffamasion Liqanın» (ADL, Anti-Defamation League) İstintaq Komitəsinin rəhbəri İrvin Suall adı ilə tanınır. «Anti-diffamasion Liqa» birbaşa Böyük Britaniya kəşfiyyatının nəzarəti altındadır və onun üç bölməsinin hamısı, yəni Mİ-6 və JİO tərəfindən idarə olunur. Özünün üfunətli fəndlərinin geniş dəstini o, London İst-Endinin çirkab kanallarından götürüb. İrvin Suall Böyük Britaniyanın yüksək səviyyəli məxfi idarəsi olan SİS-in (Məxfi Xidmət İdarəsi), Ceyms Bond ruhunda əməliyyatlarla məşğul olan elit xüsusi bölmənin, bu günə qədər də ştatındadır. «Antidiffamasion Liqanın» nə gücünü, nə də onun uzun əllərini düzgün qiymətləndirməməyi məsləhət görməzdim.

İrvin Suall Ser Piter Holl və digər fabiançılarla sıx kontaktda işləyir. O, Böyük Britaniya kəşfiyyatının nəzarəti altına, hələ İngiltərənin Oksford Universitetinin «Ruskir Labour» kollecində təhsil aldığı vaxt düşmüşdü – bu həmin kommunistmeylli təhsil mərkəzidir ki, bizə Milneri, Rodsu, Börcesi, Maklini və Kim Filbini verib. Oksford və Kembric Universitetləri artıq çoxdandır ki, valideynləri Böyük Britaniyanın ali cəmiyyətinin «qaymağı» hesab edilən elitanın oğlan və qızları üçün təhsil müəssisəsidir. İrvin Suall

downloaded from KitabYurdu.org

Oksfordda «Gənc Sosialistlər Liqasına» daxil oldu və tezliklə Böyük Britaniya kəşfiyyatı tərəfindən ələ alındı.

İrvin Suall Birləşmiş Ştatlara göndərilmişdi və o, burada ölkənin ən odioz solbaz ideoloqlarından olan Uolter Lipmanın himayəsi altında olub. Lipman «İndustrial Demokratiya Uğrunda Liqanın», həmçinin də «Tələbələr Demokratik Cəmiyyət Uğrunda» təşkilatın əsasını qoyub və onlara rəhbərlik edir. Hər iki təşkilat döyüşkən solçu təmayüllüdür və onların məqsədi – bir tərəfdən sənaye fəhlələri, digər tərəfdən isə, necə deyərlər, «kapitalist sinfi» və müdirlər arasında qarşıdurına yaratmaqdır. Lipmanın bütün Amerikaya bərqərar olan hər iki layihəsi həmişə Komitet 300-ün strukturunun ayrılmaz tərkib hissəsi, Lipmanın özü isə Komitetin ən mühüm üzvlərindən biri olub.

İrvin Suall Birləşmiş Ştatların Ədliyyə Nazirliyi ilə sıx əlaqələrə malikdir və o, maraqlandığı istənilən şəxs haqqında ABŞ Federal Təhlükəsizlik Bürosundan (FTB) dosye ala bilər. Ədliyyə Nazirliyi İrvin Suallın maraqlandığı hər şeyi istənilən anda ona təqdim etmək barədə göstəriş verib. Suallın əsas fəaliyyəti «sağçı təmayüllü istənilən qrup və şəxsləri nəzər dairəsində saxlamağa» yönəlib. ABŞ-ın Dövlət Departamenti özünün böyük təsirə və geniş əhatəyə malik olan kəşfiyyat idarəsini Suallın xidmətlərinə təqdim edib və bu idarənin qapıları onun üçün həmişə açıqdır.

ABŞ Dövlət Departamenti sağların düşərgəsində özlərini «qorxu-hürküsüz antisemit-mübariz» kimi qələmə verən və bütöv bir təbəqə təşkil edən agentlərə malikdir. Bu informatorlar qrupu dörd liderə malikdir ki, onların üçü adi yəhudi-homoseksualistdir. Qrup artıq iyirmi ildir fəaliyyət göstərir, kəskin antiyəhudi «qəzetlər» nəşr etdirir və satışda geniş seçimdə antisemit ədəbiyyata malikdir. Onun əsas şöbələrindən biri Luiziana ştatında yerləşir. Bu qrupda bir yazıçı var ki, xristian dairələrində onun üçün lap ürəkləri gedir. Bütün qrup və onu dəstəkləyən şəxslər «Antidiffamasion Liqanın» müdafiəsi altındadır. İrvin Suall ABSCAM-in (Federal Təhlükəsizlik Bürosunun «Rüşvətxorluğun və Korrupsiyanın Aşkarlanması üzrə Məxfi Təhriketmə Əməliyyatları Sistemi») əməliyyatlarına əsaslı şəkildə daxil edilib. Bu qrup hüquq-mühafizə orqanları tərəfindən istintaqa köməklik göstərmək və təhriketmə əməliyyatlarını həyata keçirmək üçün tez-tez cəlb olunur.

Yeni seçilmiş prezident üçün müəyyən edilən kursdan Ronald Reyqanın kənara çıxmaması üçün «Miras Fondu» İrvin Sualla ona «düzəliş vermək» tapşırığını vermişdi – əgər Reyqan kənara çıxmağa başlasa və ya gözlərindən pərdəni atmağa cəhd göstərsəydi, onda Suall bir neçə «xəbərdarlıq atəşi» açmalı idi. İrvin Suall Reyqan administrasiyasında «Miras

downloaded from KitabYurdu.org

Fondu»na əl verməyən sağ təmayüllü istənilən müşavirdən yaxa qurtarmağa köməklik edirdi. Reyqan hökumətinin Əmək Naziri Rey Donovan belələrinin siyahısına düşdü və «Antidiffamasion Liqa»nın «çirkin əməliyyatlar şöbəsinin» səyləri ilə əvvəl-axır postundan salındı. İrvin Suallın Donovan haqqında nifrət dolu məktublarını Prezidentə çatdıran vasitəçi Ceyms III Beyker idi. Ceyms Beykerin özünün də namizədliyi «Miras Fondu»nun məsləhət gördüyü şəxslər siyahısına daxil edilmişdi.

Daha bir mühüm sui-qəsdçi, Mərkəzi Kəşfiyyat İdarəsindən, necə deyərlər, «düşmən tərəfə keçən» Filipp Eyci idi. O, Komitet 300-ün üzvü olmadığına baxmayaraq, «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nun və «Beynəlxalq Münasibətlər üzrə Şuranın» rəhbərliyi altında Meksikada xüsusi tapşırıqlar üzrə agent kimi fəaliyyət göstərirdi…

Məlumat üçün: ABŞ-da baş verən hər şey mütləq «Beynəlxalq İşlər üzrə Kral İnstitutu» tərəfindən sanksiyalaşdırılmalıdır. ABŞ-la Böyük Britaniya arasında, ilk dəfə AÇIQ ŞƏKİLDƏ 1938-ci ildə Uinston Çörçill ilə Franklin D.Ruzvelt arasında bağlanan (buna qədər gizlin müqavilələr çox olmuşdu) müqavilə qüvvədədir. Bu müqavilənin şərtlərinə görə, Birləşmiş Ştatların kəşfiyyat idarələri məxfi məlumatları Böyük Britaniya kəşfiyyatına ötürmək barədə öz üzərlərinə öhdəlik götürürdü. Bu, iki ölkə arasında mövcud olan, Çörçill və Lord Qalifaksın öyündükləri, «xüsusi münasibətlər» adlandırılan məsələnin bünövrəsi bax bu cürdür. Və məhz həmin bu «xüsusi münasibətlər» ABŞ-ı Böyük Britaniya maraqları, xüsusilə də *British Petroleum* kompaniyasının maraqları naminə Fars körfəzində İraqa qarşı vuruşmağa məcbur etdi.
***British Petroleum*** - bu, Komitet 300-ün ən mühüm kompaniyalarından biridir və Kraliça Yelizavetanın ailəsi bu kompaniyada böyük kapital payına malikdir.
1938-ci ildən etibarən bütün kəşfiyyat fəaliyyəti həmin bu birgə xüsusi komanda strukturunun nəzarəti altında həyata keçirilirdi. Filipp Eyci Mərkəzi Kəşfiyyat İdarəsinə, yezuit Ffrankmasonluq dairəsinə ithaf olunduğu «Notr Dam» Universitetini bitirdikdən sonra daxil olmuşdu. Eyci ilk defə mənim diqqətimi 1968-ci ildə, Mexiko Universitetində baş verən özbaşınalığın arxasında duran kəşfiyyat xidmətinin zabiti kimi cəlb etdi. Meksikada tələbə özbaşınalığının ən mühüm xüsusiyyətlərindən biri, onun Nyu-Yorkda, Bonnda, Praqada və Qərbi Berlində baş verən tələbə özbaşınalıqları ilə eyni vaxtda baş verməsi idi.

Fəaliyyətin əlaqələndirilməsi üzrə zəngin təcrübəyə və xüsusi kəşfiyyat şəbəkəsinə – İNTERPOL onun tərkib hissəsidir – malik olan Komitet 300 üçün vaxt etibarilə çox dəqiq razılaşdırılmış qlobal aksiyaları işə salmaq, ilk baxışdan görünə bilən kimi, heç də çətin deyil. Belə aksiyalar tələbə özbaşınalıqları da, suveren (çoxlarının hesab etdikləri kimi)

downloaded from KitabYurdu.org

dövlətlərin liderlərinin devrilməsi ilə ola bilər. Eyci Meksikadan başqa bir hədəfə – Puerto-Riko terrorçu qruplarına keçdi. Bu vaxt o, Kubanın diktatoru Fidel Kastronun səlahiyyətli nümayəndəsi oldu.

Ağlınıza gəlməsin ki, Eyci bütün bu əməliyyatları «qırmızı» agent kimi həyata keçirirdi. Əksinə, bütün bu vaxt ərzində o, Mərkəzi Kəşfiyyat İdarəsinə işləyib. Problemlər, Kubanın DGİ kəşfiyyat xidməti onu «açmağın» öhdəsindən gələndən sonra başlandı. Eyci MKİ-nin agenti qismində öz fəaliyyətini, onun ikiqat agent rolunun üstü açılan vaxta qədər davam etdirdi. Onun ifşa olunmasında Sovetlərin Qərbdə ən böyük, Kubada, Lurdesdə (Lourdes) yerləşən dinləmə postunun həlledici rolu olmuşdu. Məlumatların ələ keçirilməsi və şifrlərin açılması üzrə 3.000 sovet mütəxəssisi ilə komplektləşdirilmiş bu baza eyni vaxtda minlərlə elektron siqnalı izləməyə qadirdir. Konqresin üzvləri ilə onların məşuqələri arasında şəxsi telefon danışıqlarının çoxu ələ keçirilmiş və faydalı səkildə istifadə olunmuşdu.

Bu gün, 1991-ci ildə bizə «kommunizmin ölü» olduğunu deyirlərsə də, Birləşmiş Ştatlar bizim demək olar kandarımızda əyləşmiş çox böyük casus təşkilatının bağlanması üçün heç nə etməyib. Halbuki Lurdesdəki baza faks və ya elektrik yazı maşınının şüalandırdığı ən zəif «qığılcım» siqnalını da tutmağa qadirdir, özü də bu siqnalın şifrəsini açmaqla yazı maşınında yazılan və ya faksla ötürülən nə varsa, hər şeyi görmək mümkündür. Lurdes bazası Birləşmiş Ştatların ürəyinə sancılmış xəncər kimi qalmaqda davam edir. Onu saxlamaq üçün qətiyyən heç bir səbəb yoxdur. Əgər ABŞ və SSRİ bir-biri ilə həqiqətən də sülh vəziyyətindədirlərsə, onda belə bir iri casus bazası nəyə gərəkdir? Bütün həqiqət ondan ibarətdir ki, bizi inandırmağa çalışdıqları kimi, bazanın personalının ixtisarı əvəzinə, 1990 və 1991-ci illərdə KQB burada işə əlavə əməkdaşlar qəbul edib.

Kurt Levinin adı Birləşmiş Ştatlarda yəqin az tanınır. Dekadent «pop-ulduzlardan» və ya Hollivudun son miskin «kəşflərindən» fərqli olaraq, alimlər publikanın diqqətini ya nadir hallarda çəkir, ya da ümumiyyətlə cəlb etmir. «Roma Klubu»nun nəzarəti altında Birləşmiş Ştatlarda işləyən yüzlərlə alimin arasında Kurt Levin İrana, Filippinə, Cənubi Afrikaya, Nikaraquaya və Cənubi Koreyaya qarşı xəyanətkar fəaliyyətdə oynadığı rol səbəbindən xüsusi diqqətə layiqdir. İran şahının devrilməsi Robert Andersonun rəhbərlik etdiyi «Aspen İnstitutu»nun nəzarəti altında Kurt Levin və Riçard Falk (Richard Falk) tərəfindən işlənmiş plan üzrə baş veriridi.

Levin «Zamanın perspektivləri və mənəvi ruh» adlı («Time Perspective and Morale») işin müəllifidir. «Roma Klubu»nun bu publikasiyası özü ilə millətin və ayrı-ayrı liderlərin mənəvi

downloaded from KitabYurdu.org

ruhunun sındırılması üzrə rəhbəredici vəsaiti təcəssüm etdirir. Budur, bu sənəddən bəzi sətirlər:

*«Vahimə strategiyası vasitəsiəı mənəvi ruhun qırılmasının əsas metodlarından biri aşağıda göstərilən bu taktikaya dəqiq əməl olunmasından ibarətdir:* ***insanı onun cari vəziyyəti və onu gələcəkdə gözləyə bilənlərlə bağlı qeyri-müəyyən vəziyyətdə saxlamaq lazımdır.****Bundan başqa, əgər sərt intizam cəzaları ilə onunla yaxşı davranılacağı barədə vədlər arasında baş verən xüsusi əvəzləmələr yayılan ziddiyyətli xəbərlərlə birlikdə situasiyanın koqnitiv* strukturunu qeyri-aydın edirsə, onda insan hər hansı bir konkret planın onu arzu olunan məqsədə yaxınlaşdıracağı və ya əksinə, bu məqsəddən uzaqlaşdıracağı barədə təsəvvürlərini və əminliyini itirir. Belə şəraitdə hətta dəqiq planı və risk etməyə hazır olan şəxslər də nə etmək lazım olduğu ilə əlaqədar meydana çıxan güclü daxili konflikt sayəsində mənəvi cəhətdən iflic vəziyyətə düşmüş olurlar…».* (***Koqnitiv** - bu, bir-birindən kifayət qədər çox fərqlənən bir neçə kontekstdə istifadə olunan və xarici informasiyanı qəbul etmək və onu təhlil edib nəticə çıxarmaq üçün zəka qabiliyyətini əks etdirən termindir. Psixologiyada şəxsiyyətin psixoloji proseslərinə və xüsusilə də psixoloji vəziyyətlər adlandırılan halların, yəni inam, arzu-istək və niyyətlərin öyrənilməsinə və başa düşülməsinə istinad edir.)
«Roma Klubu»nun bu proqramı həm ÖLKƏLƏRƏ, həm də ayrı-ayrı şəxslərə, xüsusilə bu ölkələrin dövlət rəhbərlərinə münasibətdə tətbiq olunur. Biz ABŞ-da yaşadığımız üçün düşünməməliyik ki, «Bəsdirin, bura Amerikadır və burada bu cür işlər baş verə bilməz». İzn verin, sizi əmin edim ki, bütün bunlar ABŞ-da da, hətta, ola bilsin, digər ölkələrlə müqayisədə daha tez-tez BAŞ VERİR.

Kurt Levin – «Roma Klubu» planı bizim hamımızı ruh düşkünlüyünə salmaq məqsədini güdür ki, biz, bizim üçün planlaşdırılan hər şeyi əvvəl-axır dinməzcə qəbul edək. Biz «Roma Klubu»nun əmrlərinə qoyun kimi əməl edəcəyik. Güclü şəxsiyyət təsəvvürü yaradan və milləti «xilas» etmək üçün gözlənilmədən meydana çıxan istənilən liderə son dərəcə şübhə ilə yanaşmaq lazımdır. Xatırlayaq ki, Xomeyni gözlənilmədən İranın xilaskarı kimi peyda olana qədər, Böyük Britaniya kəşfiyyatı uzun illər ərzində – xusüsilə də o, Parisdə yaşadığı dövrdə – onu missiyası üçün hazırlamışdı. **Boris Yeltsin – o, Mİ-6 SİS-in elə həmin ilxısındandır.**
«Roma Klubu» Birləşmiş Ştatların «yumşaldılması» ilə bağlı Komitet 300-ün tapşırığını yerinə yetirdiyinə əmindir. Bu ölkənin xalqı ilə 45 il ərzində apardığı müharibədən sonra kim şübhə edər ki, o, həqiqətən də öz tapşırığını yerinə yetirib? Ətrafa nəzər yetirin və siz bizim mənəviyyatsızlıq girdabına nə dərəcədə qərq olduğumuzu görəcəksiniz. Narkotiklər,

downloaded from KitabYurdu.org

pornoqrafiya, rok»musiqi», azad seks, ailənin əsaslarının praktiki olaraq tamamilə dağıdılması, lesbiyançılıq, homoseksualizm və nəhayət, anaları tərəfindən dəhşətlə öldürülən milyonlarla günahsız körpə. Abortlarla müqayisədə daha iyrənc başqa bir cinayət varmı?

Birləşmiş Ştatlar daxili süqut astanasında durduğunu və onun yeni Qaranlıq Əsrlərdə olacaq Vahid Dünya Hökumətinin ağuşuna yıxılmağa hazır olduğunu kim inkar edər? Əgər ABŞ – ruhi və mənəvi müflisdirsə, əgər bizim sənaye bazamız dağıdılıbsa, əgər ölkədə 30 milyon işsiz varsa, əgər bizim şəhərlərimiz ağlagələn hər cür cinayətlərin – istənilən ölkə ilə müqayisədə üççat çox – dəhşətli klaokasıdırsa, əgər ölkədə 4 milyon evsiz varsa, əgər hökumətdə korrupsiya ucdantutma hamıya sirayət edərək, görünməmiş miqyas alıbsa – kim bunu inkar edə bilər?

## XRİSTİAN FUNDAMENTALİSTLƏRİ

«Roma Klubu» xristian kilsələrinin parçalanması işində istədiyinə nail olub; «Roma Klubu» sionist İsrail dövləti uğrunda döyüşməyə hazır olan xarizmatik fundamentalistlərdən və yevangelistlərdən ibarət bütöv bir ordunun yaradılması işində istədiyinə nail olub. Fars körfəzində genosid müharibəsinin aparıldığı dövrdə mən onlarla məktub alırdım. Bu məktublarda soruşurdular ki, mən «İraqa qarşı ədalətli xristian müharibəsinin» əleyhinə neeə çıxa bilirəm? İraqa qarşı aparılan müharibənin (Komitet 300-ün müharibəsinin) xristian fundamentalistləri tərəfindən dəstəkləməsinin İncil «ayəsi» olmadığına axı mən necə şübhə edə bilərdim – məgər qırğını başlamazdan əvvəl Bill Qrexem Prezident Buşla birlikdə dua etməmişdi? Məgər İncil «müharibələr və müharibələr haqqında şayiələr» barədə heç nə demir?

Həmin məktublar «Tavistok İnsan Münasibətləri İnstitutu»nun öz işini necə yaxşı gördüyünü göstərir. Necə planlaşdırılıbsa, o cür də olacaq – xristian fundamenlalistləri İsrail dövlətini dəstəkləyən çox güclü qüvvəyə çevriləcəkdir. Necə də kədərlidir – bu gözəl insanlar dərk etmirlər ki, «Roma Klubu» onlarla KOBUD ŞƏKİLDƏ MANİPULYASİYA EDİR və onların rəyləri və inamları ONLARA MƏXSUS DEYİL, Komitet 300-ün ABŞ-ın bütün ərazisinə səpələnən yüzlərlə «beyin mərkəzi» tərəfindən yaradılıb. Başqa sözlə, Birləşmiş Ştatlar əhalisinin digər təbəqələri kimi, xristian fundamentalistləri və yevangelistləri də güclü və dəqiq yerinə yetirilən beyin yuyulmasına məruz qalıblar.

Bir vaxtlar bütün dünyanın paxıllıq obyekti olan Amerika Birləşmiş Ştatlarının və amerikan həyat tərzinin fəlakətə uğramasını biz bir millət olaraq qəbul etməyə artıq hazırıq. Düşünməyin ki, bu, özbasına baş verib, «zəmanə dəyişir...» tipli köhnə sindromlara

downloaded from KitabYurdu.org

uymayın. Zaman heç nəyi dəyişmir, bunu İNSANLAR edir. **Komitet 300-ün və «Roma Klubu»nun sırf Avropa təşkilatları olduğunu düşünmək yanlışlıqdır. «Roma Klubu» Birləşmiş Ştatlarda çox böyük təsirə və hakimiyyətə malikdir; «Roma Klubu» Vaşinqtonda, Kolumbiya ştatında öz fərdi kapituluna malikdir.**
Onun lideri senator Kleyborn Pelldir, onun üzvlərindən biri isə Konqresin Energetika üzrə Altkomitəsinin keçmiş direktoru Frenk M.Potterdir. ABŞ-ın energetika sahəsində siyasətini «Roma Klubu»nun necə sərt nəzarətdə saxladığını və nüvə energetikasına qarşı «yaşıl» müxalifətin haradan peyda olduğunu görmək çətin deyil. Klubun ən böyük nailiyyəti də, ola bilsin, məhz elə Konqresin ABŞ-da nüvə energetikasının inkişafını ləngitməsidir, çünki bunun nəticəsində ölkə XXI əsrə güclü industrial dövlət kimi qədəm qoya bilməyəcəkdir. Klubun nüvə əleyhinə siyasətinin effektivliyini dayandırılan domna sobalarının, atılıb qalan dəmiryol stansiyalarının, pas atan metallurgiya zavodlarının, çoxdan bağlanan gəmiqayırına tərsanələrinin, eləcə də bütün ölkəyə səpələnən, bir daha bir yerə toplanması artıq mümkün olmayacaq yüksək ixtisaslı və çox qiymətli fəhlə qüvvəsinin sayı ilə ölçmək olar.

«Roma Klubu»nun ABŞ-da digər üzvləri Konqresin Tədqiqat Xidmətində (Congressional Researclı Service) çalışan Uolter A.Han (Walter A.Hahn), eləcə də görkəmli iqtisadçılar Ənn Çitem (Ann Cheatham) və Duqlas Rossdur (Douglas Ross). Rossun özünün sözlərinə görə, onun vəzifəsi «ölkəyə bolluq illüziyasından xilas olmağa kömək etmək üçün «Roma Klubu»nun perspektivlərini qanunverici aktlara transformasiya etməkdən ibarət olub». Ənn Çitem «Konqresin Gələcəyin Məsələləri üzrə Kliринq Palatası» («Congressional Clearing House For The future») adlı təşkilatın direktoru olub.

Bu qadının vəzifəsi Konqresin astrologiyaya və «Yeni era» (New Age) haqqında hər cür çərənləmələrə meylli olan üzvlərinə təsir etməkdən ibarət idi. Bir vaxtlar onun mühazirələrinə 100-dən çox konqresmen təşrif buyururdu. Ənn Çitem hər gün sessiya keçirir və bu sessiyalarda özünün «okkult təsəvvürləri» əsasında ən müxtəlif astroloji proqnozlar verirdi. Konqresmenlərdən başqa, onun sessiyalarına Maykl Uolş (Michel Walsh), Komitet 300-ün aparıcı üzvü Tornton Bredşou və «Ollsteyd İnşurans» (Allstate Insurance Company) Sığorta Kompaniyasının baş vitse-prezidenti David Sternlayt (David Sternlight) da gəlirdilər.
Komitet 300-ün ən mühüm üzvlərinin bəziləri, həm də NATO-nun üzvüdürlər – bu, ***yadda saxlamalı olduğumuz faktdır!*** Komitet 300-ün bu üzvləri bir çox hallarda eyni vaxtda bir neçə vəzifə tuturlar. ABŞ-ın NATO-da keçmiş səfiri Harland Klivlend (Harland Cleveland), «Aspen İnstitutu»nun direktoru Cozef Sleyter (Joseph Slater), ABŞ Milli Təhlükəsizlik Agentliyinin keçmiş əməkdaşı Donal Leş (Donald Lesh), Corc MakGi (George

downloaded from KitabYurdu.org

McGhee) və Kleyborn Pell (Claiborne Pell) eyni vaxtda həm NATO-nun, həm də «Roma Klubu»nun üzvləridir – bu, vur-tut, yalnız bir neçə misaldır.
Bu şəxslərin adlarını unutmamaq, arzu olarsa, onların siyahısını əldə etmək vacibdir ki, həmin adlar televiziya proqramlarında və xəbər verilişlərində peyda olanda onların kim olduqları və nəyin arxasınca getdikləri həmişə yadda olsun. Kəşfiyyatın «modus vivendi»-sinə əməl edən Komitetin liderləri televiziyada tez-tez peyda olurlar, adətən, ən səmimi və günahsız maska altında. Lakin hər kəs bilməlidir ki, onların bütün əməlləri əsla təmiz deyildir.

Komitet 300 öz agentlərini Biriəşmiş Ştatların lap ürəyinə yeridib – hökumətə, Konqresə, prezidentin müşavirləri postuna, səfirlər və dövlət katibləri vəzifələrinə. «Roma Klubu» vaxtaşırı iclas və konfranslar keçirir. Bunlar, xətərsiz adlarına baxmayaraq, faktiki olaraq işçi komissiyalara çevrilir; onların hər birinə xüsusi tapşırıqlar verilir və onun yerinə yetirilməsi üçün müddət təyin olunur. Fövqəladə vəziyyətlər olmadıqda Komitet 300 çox dəqiq təqvim-cədvəl üzrə işləyir.
Komitet 300 «Roma Klubu»nun Birləşmiş Ştatlarda ilk konfransını 1969-cu ildə ««Roma Klubu»nun Assosiasiyası» adı altında çağırmışdı. Növbəti görüş 1970-ci ildə «Riverdeyl Dini Tədqiqatlar Mərləzi» adı altında baş tutdu; ona Tomas Berni (Thomas Burney) rəhbərlik edirdi. Bunun ardınca, 1971-ci ildə, Texas ştatının Hyuston şəhərində Vudland Konfransı oldu. O vaxtdan mütəmadi konfranslar hər il Vudlandda keçirilir.

Elə həmin 1971-ci ildə «Energetika və Tikinti üzrə Milçel Korporasiyası» (Mitchell Energy and Development Corporation) «Roma Klubu» üçün energetika sahəsində strategiya üzrə görüş təşkil etdi – görüşdə dominant təşkil edən mövzu ABŞ-ın YÜKSƏLİŞİNİ MƏHDUDLAŞDIRMAQ olub. Bütün bu fəaliyyətin kulminasiyası, 1980-ci ilin iyulunda baş tutan «Gələcəyin problemləri üzrə birinci qlobal konfrans» oldu. Konfransda 4.000 nəfər sosial məsələlər üzrə mütəxəssis və «beyin mərkəzlərinin» üzvü iştirak edirdi. Onların hamısı ya «Roma Klubu»nun bayrağı altında fəaliyyət göstərən təşlalatları təmsil, ya da onlarla sıx əməkdaşlıq edən insanlar idi.

«Gələcəyin problemləri üzrə birinci qlobal konfrans» Ağ Evin xeyir-duasını almışdı. Ağ Ev bu Konfransın stenoqramları əsasında özünün «1980-ci illərin problemləri üzrə Ağ Evin Komissiyası» adlandırılan konfransını keçirdi. Konfrans «Roma Klubu»nun siyasətini RƏSMİ OLARAQ «ABŞ-ın gələcək siyasətinin istiqaməti qismində» tövsiyə etdi və hətta o qədər dərinə getdi ki, Birləşmiş Statların iqtisadiyyatını industrial fazadan çıxan iqtisadiyyat kimi müəyyən etdi. Bu, Ser Piter Vikkers-Hollun və Zbiqnev Bjezinskinin mövzuları ilə eyni

downloaded from KitabYurdu.org

səslənir və bir daha təsdiq edir ki, ABŞ-ın daxili və xarici siyasətl Komitet 300-ün nəzarəti altındadır.

1981-ci ildə dediyim kimi, siyasi, iqtisadi və sosial cəhətdən biz «Roma Klubu»nun planları arasında, kəlbətinin iki dişi arasında olduğu kimi, sıxılmışıq. Hər şey BİZƏ QARŞI KÖKLƏNMİŞDİR. Əgər biz sağ qalmaq istəyiriksə, onda hökumətimizi Komitet 300-ün ölümcül ağuşundan çıxarmalıyıq. Kalvin Kudric Ağ Ev uğrunda namizədliyini irəli sürən vaxtdan Komitet 300 hər seçkidən sonra öz agentlərini hökumətdə həlledici postlara yeridə bilirdi, buna görə də prezident postunu kimin tutacağının heç bir fərqi yox idi. Məsələn, «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nun təlimatları əsasında fəaliyyət göstərən. «Beynəlxalq Münasibətlər üzrə Şura» Franklin D.Ruzveltin dövründən etibarən prezidentliyə namizədlərin hamısını çox böyük diqqətlə saf-çürük edir.

1980-ci il seçkilərində ABŞ-ın ən yüksək dövlət vəzifəsinə namizədlərin hamısı «Beynəlxalq Münasibətlər üzrə Şura» tərəfindən seçilmişdi. Buna görə də secki yarışını kimin udacağının sui-qəsdçilər üçün əhəmiyyəti yox idi. «Miras Fondu» və «Beynəlxalq Münasibətiər üzrə Şura» kimi «Troya atlarının» xidmətləri sayəsində yeni administrasiyada ***bütün*** həlledici postlara «Beynəlxalq İşlər üzra Kral İnstitutu»nun irəli sürdüyü adamlar əyləşdirildi. 1960-cı illərdən həmin vaxta qədər də bu postların bir çoxunu NATO və «Roma Klubu»nun tərəfdarları tuturdular və bunun nəticəsidir ki, bütün həlledici siyasi qərarlar öz üzərində Komitet 300-ün icraedici orqanları kimi çıxış edən «Roma Klubu» və «Beynəlxalq Münasibətlər üzrə Şuranın» silinməz möhürünü daşıyır.
1984-cü və 1988-ci illərin seçkiləri də eyni ilə bu cür, əvvəlcədən hazırlanan ssenari üzrə keçirildi. Dövlət Katibi Corc Şults Komitet 300-ün bu vəzifəyə namizəd üçün irəli sürdüyü tələblərə tam uyğun gəlirdi. C.Şults həmişə «Beynəlxalq Münasibətlər üzrə Şuranın» aparıcı rəhbəri Henri Kissincerin kreaturası olub. Üstəlik də, Komitet 300-ün həlledici transmilli kompaniyalarından biri «***Bechtel»***kompaniyasında C.Şultsun tutduğu mövqe ona elə ölkələrə çıxmaq imkanı verirdi ki, başqa halda həmin ölkələr onun Kissincerlə bağlı adam olduğuna şübhə edə bilərdilər. Karter administrasiyası sui-qəsdçilərin həlledici vəzifələrə irəli çəkilməsi prosesini sürətləndirdi. Karterin seçilməsi ərəfəsində onun seçki kampaniyasının əsas strateqi Hamilton Cordan demişdi ki, əgər Sayrus Vens və ya Zbiqnev Bjezinski Karter kabinetində yer alarlarsa, onda o, Cordan istefaya gedəcək. Onlar təyin olundular, lakin Cordan istefaya getmədi.
Karterin Pol Volkerlə bağlı seçimi (Volkeri təyin etməyi ona faktiki olaraq Devid Rokfeller əmr etmişdi) ABŞ iqtisadiyyatının «Roma Klubu»nun planına uyğun süqutunun başlanğıcı oldu. Biz Vahid Dünya Hökumətinin məqsədlərini güdən çox qüdrətli qüvvələrlə üz-üzə

downloaded from KitabYurdu.org

gəlmişik. Son 45 il ərzində bizə qarşı viranedici və heydən salan müharibə aparılır, ancaq biz onu müharibə kimi qəbul etmirik. Beyinlərimiz metodik surətdə və sistematik qaydada yuyulur, bizdə isə bununla bağlı heç şübhə də yaranmır. «Tavistok İnsan Münasibətləri İnstitutu» bunun Üçün bütöv bir sistem yaratdı, sonra da onu işə saldı.

Müqavimət göstərmək üçün yeganə vasitə – sui-qəsdçilərin və onlara pərdə-örtük kimi xidmət göstərən çoxsaylı təşkilatların ifşa edilməsidir. Bizə təcrübəli, dəyərsiz irsimizin müdafiəsi strategiyasını hazırlaya bilən insanlar lazımdır – biz bunu, irsimizi itirsək, onu artıq heç vaxt bərpa edə bilməyəcəyik. Biz sui-qəsdçilərin metodlarını öyrənməliyik – öyrənməli və əks tədbirlər hazırlamalıyıq. Ölkəmizi içərisindən yeyən çürümənin qarşısını yalnız dağıdıcı əksfəaliyyət proqramı ala bilər.

Bəziləri qlobal sui-qəsdin mövcud olduğu ilə bağlı ideyanı çətinliklə qavrayırlar, çünki bir çox yazıçı bundan pul qazanır. Bir başqaları belə bir fəaliyyətin qlobal miqyaslarda uğurla aparıla bilməsinin mümkünlüyünə şübhə edirlər. Onlar bizim hökumətin dəhşətli bürokratiyasını görür və deyirlər: «Yaxşı, biz nə üçün inanmalıyıq ki, ayrıca bir adam hökumətdən çox iş görə bilər?». Lakin bu vaxt nəzərə alınmır ki, elə hökumət özü sui-qəsdin bir hissəsidir. Onlar aşkar dəlillər istəyirlər, aşkar dəlil əldə etmək isə çox müşküldür.

Belə deyənlər də tapılır: «Hə, nə olsun. Mənim sui-qəsdlə nə işim, mən heç səsverməyə də getmirəm». Amerika əhalisinin əksər hissəsindən məhz bu cür reaksiyaya nail olmaq istəyirlər. Xalqımız apatiya və laqeydlik mərəzinə tutulub – bu, 45 il ərzində bizə qarşı aparılan müharibənin nəticəsidir. Kurt Levinin kitabında bunun necə edildiyi aydın göstərilib, lakin elmi kitabın mütaliəsini əyləncəli ədəbiyyat oxumaqdan üstün tutan çoxmu insa tapılar? ***Bizi necə proqramlaşdırırlarsa, biz də məhz o cür reaksiya veririk***. Ruh düşkünlüyünə və apatiya girdabına qərq olan insanlar gözlənilmədən meydana çıxaraq bütün problemlərin həllini vəd edən və cəmiyyətdə etibarlı qayda-qanun yaradılacağına, insanların işlə tam təmin olunacağına, daxili ziddiyyətlərin isə minimuma endiriləcəyinə zəmanət verən dahi adamı alqışlamağa həmişə hazırdırlar. Belə bir diktatoru – o isə məhz diktator olacaqdır – hamı bağrına basmağa hazır olacaq.

***Düşmənimizin KİM olduğunu bilmək – bu, bizim üçün ölüm-dirim məsələsidir.***

Naməlum düşmənlə döyüşmək mümkün deyil. Bu kitabı hərbi-səhra nizamnaməsi kimi istifadə etmək olar. Onun məzmununu öyrənin və bütün adları yadda saxlayın. Bu fəsildə mən «profilləşdirmə»[1]texnikası barədə tez-tez danışmışam. «Profilləşdirmənin» tam izahı növbəti fəsildə verilir. «Profilləşdirməni» öyrənərkən əldə oluna biləcək ən əsas nəticələrdən biri, onun fərd, partiya qrupu, siyasi birlik və s. səviyyəsində necə asanlıqla həyata keçirilə

downloaded from KitabYurdu.org

bilməsindən ibarətdir. Bunun necə asan olduğunu dərk edən kimi, sui-qəsd bizə artıq nə isə, bizim anlamaq qabiliyyətimizdən kənar olan bir şey kimi görünməyəcəkdir. Bizə Prezident Kennedinin niyə öldürüldüyünü, Prezident Reyqanın həyatına niyə qəsd olunduğunu başa düşmək asan olacaqdır.

**II HİSSƏ**

NƏZARƏT BU TƏŞKİLATLAR VASİTƏSİLƏ HƏYATA KEÇİRİLİR

**TAVİSTOK İNSTİTUTU**

**Profilləşdirmə** - bu, «Beynəlxalq Münasibətlər üzrə Kral İnstitutu»nun əmri ilə 1922-ci ildə işlənib- hazırlanmış metoddur. Britaniyanın hərbi mütəxəssisi, mayor Con Roulinq Riz (John Rawlings Reese) «Susseks Universitetinin» tərkibinə daxil olan «İnsan Münasibətləri üzrə Tavistok İnstitutu»nun nəzdində beyinlərin yuyulması üzrə dünyada ən iri idarənin yaradılması barədə göstəriş aldı. Bu idarə «Britaniya Psixoloji Müharibələr Bürosu»nun (Britain's Psychological Warfare Bureau) nüvəsini təşkil etdi...

*Mən 1970-ci ildə Birləşmiş Ştatları ilk dəfə Riz və «İnscm Münasibətləri üzrə Tavistok İnstitutu» kimi adlarla tanış edəndə, bu, oxucularda demək olar heç bir maraq doğurmadı. Lakin ötən illər ərzində mən «İnsan Münasibətləri üzrə Tavistok Institutu»nun fəaliyyətini və onun sui-qəsddə rolun açdıqca, mənim erkən tədqiqatlarıma təqlidçilik dəbə minməyə başladı və populyar oldu.*

...»Britaniya Psixoloji Muharibələr Bürosu» Con R.Rizin Böyük Britaniya ordusundan və hərbi əsirlərdən ibarət olan, çoxsaylı testlərə məruz edilmiş 80.000 «təcrübə dovşanının» üzərində gördüyü işin nəticələrindən geniş istifadə etmişdi. Məhz «İnsan Münasibətləri üzrə Tavistok İnstitutunun» sınadığı metodlar Birləşmiş Ştatları İkinci Dünya müharibəsinə qoşulmağa və d-r Kurt Levinin rəhbərliyi altında MXİ-ni (Məxfi Xidmət İdarəsi – MKİ-nin xələfi) yaratmağa məcbur etdi. Kurt Levin «Strateji Bombardmanların Planlaşdırılması İdarəsi»nin (Strategic Bombing Survey) rəhbəri təyin olundu. Kral Hərbi-Hava Qüvvələri üçün Almaniyada hərbi zavodlara toxunmadan fəhlələrin yaşadıqları yaşayış kvartallarının genişmiqyaslı bombardmanı üzrə planın işlənib-hazırlanması bu idarənin fəaliyyətinin nəticəsi idi. Hər iki tərəfdəki hərbi zavodlar beynəlxalq bankirlərə məxsus idi və onlar öz aktivlərinin dağıdılmasını istəmirdilər.

Müharibədən sonra NATO «Susseks Universiteti»nə beyinlərin yuyulması üzrə xüsusi mərkəz təşkil etməyi əmr etdi. Həmin mərkəz «Britaniya Psixoloji Müharibələr Bürosu»nun bir hissəsi oldu, lakin indi onun tədqiqatları hərbi yox, mülki sahədə tətbiq olunmağa

downloaded from KitabYurdu.org

istiqamətlənirdi... Narkotiklər haqqında fəsillərdə biz hələ bu, «Elmi Siyasətin Tədqiqatı İnstitutu» (ESTİ) adlandırılan super gizlin idarə haqqında söhbətə qayıdacağıq.

Mülki vətəndaşların yaşadıqları yaşayış kvartallarının genişmiqyaslı bombardmanında məqsəd alman fəhlələrinin mənəvi ruhunu qırmaq idi. Bu bombardmanlar alman hərb maşınının dağıdılması məqsədini güdmürdü. Kurt Levin və onun aktuarilər komandası belə bir hədəf-göstərici hesablamışdılar: Kral Hərbi Hava Qüvvələrinini gecə bombardmanları ilə əgər alman fəhlələrinin evlərinin 65 %-i dağıdılarsa, onda mülki əhalinin mənəvi ruhu qırılmış olacaqdır. Bu məsələ ilə əlaqədar real işçi sənəd «*Prudential Assurance Company*» Sığorta Kompaniyası tərəfindən hazrrlanmışdı.
Kral Hərbi Hava Qüvvələri Kurt Levinin bu planını «bombardmançı» Harrisin komandanlığı altında həyata keçirdi. Bu aksiyanın kulminasiyası Drezden şəhərinin dəhşətli bombardmanı oldu – bu vaxt 125.000-dən çox insan, əsas etibarilə qoca, qadın və uşaq həlak oldu. «Bombardmançı» Harrisin Almaniyanın mülki əhalisinə qarşı dəhşətli reydləri haqqında həqiqət İkinci Dünya Müharibəsi qurtarandan çox-çox sonralar da hələ ciddi surətdə məxfi saxlanmaqda idi.

«Hərbi-Dəniz Kəşfiyyatı İdarəsinin» (Office of Naval Intelligence (ONI)) yaradılması ilə nəticələnən layihə üzrə ən xırda detallarına qədər işlənmiş proqramların əksəriyyəti «İnsan Münasibətləri üzrə Tavistok İnstitutu» tərəfindən hazırlamışdı. «Hərbi-Dəniz Kəşfiyyatı İdarəsi» ABŞ-ın bir nömrəli kəşfiyyat xidmətidir və Mərkəzi Kəşfiyyat İdarəsi onunla müqayisədə sadəcə olaraq cırtdan kimi görünür. ABŞ hökuməti «İnsan Münasibətləri üzrə Tavistok İnstitutu» ilə milyardlarla dollar məbləğində kontraktlar bağlayıb. Pentaqonun ölkənin müdafiəsini təşkil etmək üçün hələ də istifadə etdiyi proqramların böyük hissəsini «İnsan Münasibətləri üzrə Tavistok İnstitutunun» strateji planlaşdırına üzrə mütəxəssisləri işləyib-hazırlamışlar. Bu Komitet 300-ün ABŞ-ı, o cümlədən də idarə və təşkilatlarımızın əksəriyyətini öz ölümcül ağuşunda necə bərk saxladığının daha bir illüstrasiyasıdır. «İnsan Münasibətləri üzrə Tavistok İnstitutu» ABŞ-da 30-dan çox tədqiqat institutunu idarə edir; onların hamısının adı kitabın sonunda verilən siyahıda sadalanacaqdır.

«İnsan Münasibətləri üzrə Tavistok İnstitutunun» Birləşmiş Ştatlardakı həmin institutlarının bir çoxu nəhəng monastırlara çevrilmişlər ki, onların təsiri bizim bütün dövlət idarələrimizin fəaliyyətinə sirayət edib və onlar istənilən siyasətin müəyyən olunmasında aparıcı gücə çevrilməkdədir. Bizim həyat tərzimizi dağıdan tavistoklulardan biri – ***d-r Aleksandr Kinqdir***. O, NATO-nun təsisçi-üzvü, Komitet 300-ün favoriti, eləcə də «Roma Klubu»nun çox görkəmli üzvüdür. «Roma Klubu» dr Kinqə «Müəllimlərin Milli

downloaded from KitabYurdu.org

Assosiasiyası» üzərində nəzarəti ələ almaq və bəzi qanunvericilər və məhkəmə hakimləri ilə sıx əməkdaşlıq vasitəsilə Amerikanın təhsil sistemini alt-üst etmək tapşırığını verib... Əgər Komitet 300-ün hər yerə sirayət edən nüfuzu indiyə qədər geniş bəlli deyildisə də, bu kitab bununla bağlı son şübhələri də darmadağın edəcəkdir.

«Röma Klubu»nun kreaturası olan «Fövqəladə Vəziyyətlər üzrə Federal Agentlik» (FEMA) üçün ilk sınaq, Pensilvaniya ştatında, Harrisburqda, Üçmillik Adadakı Atom Elektrik Stansiyası ətrafında yaranan situasiya oldu. İsterikaçı kütləvi informasiya vasitələri bunu dərhal «qəza» adlandırdılar, halbuki bu, qəza yox, «Fövqəladə Vəziyyətlər üzrə Federal Agentlik» üçün məqsədli şəkildə yaradılan test vəziyyəti idi. Bu vəziyyətin davamı KİV tərəfindən qızışdırılan kütləvi qorxu və isterika oldu ki, nəticədə, insanlar heç bir təhlükəyə məruz qalmadıqları halda, «qəza» rayonundan qaçmağa sövq edildi.

Bu, «Fövqəladə Vəziyyətlər üzrə Federal Agentlik»in uğuru kimi nəzərdən keçirilirdi və nüvə əleyhinə çıxış edən qüvvələrin xeyrinə çoxlu xal verdi. «Roma Klubu» adından çıxış edən «Aspen İnstitutu»nun tam nəzarəti altında olan və səxavətlə maliyyələşdirilən, necə deyərlər, «ətraf mühitin müdafiəçiləri» adlandırılanlar üçün Üçmillik Ada başlanğıc nöqtə oldu. Hadisələrin KİV-də işıqlandırılması üçün imkan CBS telekompaniyasından olan keçmiş Böyük Britaniya kəşfiyyatçısı ***Vilyam Paley*** (William Paley) tərəfindən təmənnasız olaraq təqdim olunmuşdu.

«Fövqəladə Vəziyyətlər üzrə Federal Agentlik» – İkinci Dünya Müharibəsi dövründəki «Strateji Bombardmanların Planlaşdırılması İdarəsi»nin təbii varisidir. «Tovistoklu» suiqəsdçilərin «böhranların idarə olunması» adlandırdıqlarının nəzəriyyəçisi olan d-r Kurt Levin bu tədqiqatlarda fəal iştirak edirdi. Levinlə «İnsan Münasibətləri üzrə Tavistok İnstitutu» arasında qırılmaz əlaqə mövcuddur və bu əlaqəni son 37 il ərzində izləmək mümkündür. Kurt Levin «Strateji Bombardmanların Planlaşdırılması İdarəsi»nin metodologiyasını xırda və əhəmiyyətsiz dəyişiklərlə «Fövqəladə Vəziyyətlər üzrə Federal Agentlik» üçün tətbiq etdi. Həmin dəyişiklərdən biri, təsir göstərilən obyektin əvəz olunmasından ibarət idi: ALMANİYANIN ƏVƏZİNDƏ OBYEKT BİRLƏŞMİŞ ŞTATLAR OLMUŞDU. İkinci Dünya Müharibəsi qurtarandan 45 il sonra da «Tavistok İnsan Münasibətləri İnstitutu» barmağını tətikdə saxlamaqda davam edir, lakin silah indi Birləşmiş Ştatlara tuşlanıb.

Mərhum ***Marqaret Mid*** (Margaret Mead) hava bombardmanlarının meydana çıxardığı stresə alman və yapon əhalisinin reaksiyasının öyrənilməsi ilə bağlı «Tavistok İnsan Münasibətləri İnstitutu»nun bayrağı altında fəal tədqiqatlar aparırdı. d-r ***İrvinq Yanus*** (Irving Janus) layihədə assosiasiya olunmuş professor qismində iştirak edir, layihə

downloaded from KitabYurdu.org

üzərində ümumi rəhbərliyi isə Böyük Britaniya ordusunun Briqada Generalı rütbəsinədək yüksəldilən d-r Con Roulinq Riz həyata keçirirdi. Tədqiqatın nəticələri «Fövqəladə Vəziyyətlər üzrə Federal Agentliyə» ötürülmüşdü. İrvinq Yanusun məruzəsi «Fövqəladə Vəziyətlər üzrə Federal Agentliyin» siyasətinin formalaşmasına böyük təsir göstərdi. Yanus bundan bir müddət sonra həmin tədqiqatın nəticələrini müəllifi olduğu «HAVA MÜHARİBƏSİ VƏ STRESS» kitabında istifadə etmişdi. «Fövqəladə Vəziyyətlər üzrə Federal Agentlik» ÜÇMİLLİK ADADA BAŞ VERƏN BÖHRAN ZAMANI DEMƏK OLAR BÜTÖVLÜKLƏ BU KİTABDAKI İDEYALAR ÜZRƏ HƏRƏKƏT EDİRDİ. Yanusun fikri həqiqətən də sadə idi: süni şəkildə böhranlar seriyasını yaratınaq və Kurt Levinin terror taktikasına əməl edərək, əhali ilə manipulyasiya etmək – insanlar onlardan nə tələb olunursa, məhz elə də hərəkət edəcəklər.

Bu eksperiment yerinə yetirilərkən Kurt Levin nə isə yeni bir şey aşkar etdi: *sosiumun geniş miqyaslarda idarə olunması kütləvi informasiya vasitələrindən istifads etməklə əldə olunur* və nüvə müharibəsinin dəhşətləri bu vaxt insanın şüuruna televiziya vasitəsilə çatdırılır. Müəyyən edilmişdi ki, nüvə müharibəsinin dəhşətlərinin dramatikləşdirilməsi üçün qadın jurnalları çox effektlidir. İrvinq Yanus test keçirdi. Arkanzas ştatının Senatoru Deyli Bampersin xanımı Betti Bampers (Bumpers) həmin testin gedişində «Makkolz» jurnalına (McCalls magazine) bu məsələ barədə məqalə «yazırdı».

Məqalə «Makkolz» jurnalının 1983-cü il yanvar nömrəsində dərc olunmuşdu. Məqaləni faktiki olaraq missis Bampers yazmamışdı, onun üçün həmin məqalə bu səpkidə materiallar üzrə ixtisaslaşan «Eavistoklu» bir qrup yazıçı tərəfindən hazırlanmışdı. Publikasiya özlüyündə həqiqəti əks etdirməyən, təhrif olunmuş faktlar, insinuasiyalar, tam şəkildə yalançı ilkin məlumatlara əsaslanan ehtimal və mülahizələrdən ibarət idi. Bampersin məqaləsi «Tavistok İnsan Münasibətləri İnstitutu»nun çox yaxşı mənimsədiyi psixoloji manipulyasiyanın tipik nümunəsi idi. «Makkolz» jurnalının oxucusu olan heç bir lediyə nüvə müharibəsinin bənzədiyi dəhşətli hadisələrin təsirindən qaçmaq mümkün olmamışdı.

Komitet 300-ün sərəncamında nəhəng bürokratik aparat mövcuddur ki, buna özəl biznesdən tutmuş, hökumət liderlərinə qədər çox geniş spektrdə şəxslərə və təşkilatlara rəhbərlik edən yüzlərlə beyin mərkəzi və rəsmi idarə daxildir. Mən «Almaniya Marşall Fondu»ndan başlayaraq, onların yalnız bəzilərini sadalayacağam. Onun üzvlərinin sırasında (həmin şəxslər həm də NATO və «Roma Klubu»nun üzvüdür) «Chase Manhattan Bankdan» Devid Rokfeller (David Rockefeller) kimi simalar daxildir:

Nüfuzlu «Hanover Trust and Finance Corporation» kompaniyasından Qabriel Heyq (Gabriel Hague);

downloaded from KitabYurdu.org

«Ford Fondundan» (Ford Foundation) Milton Kats (Milton Katz);

Sosialist İnternasionalının lideri, KQB-nin agenti və Komitet 300-ün üzvü Villi Brandt;

«Avtomobil Sənayesinin Birləşmiş Fəhlələri» (UnitedAuto Workers) Həmkarlar İttifaqının İcraedici Şurasının sədri İrvinq Blüstoun (Irving Bluestone);

Şahzadə Filippin və «Roma Klubu»nun patronajlığı allında fəaliyyət göstərən «Vəhşi Təbiətin Ümumdünya Fondu»nun (World Wildlife Fund) Amerika şöbəsinin Prezidenti Rassel Treyn (Russel Train);

CBS proqramlarının prodüsseri Elizabet Midcli ElizabethMidgely);

«Russel Sage Foundation» Fondunun Direktofu B.R.Gifford (B.R.Gifford);

«Aspen İnstitutundan» Gvido Qoldman;

Komitet 300-ün ekstraordinar üzvü mərhum Averel Harriman (Averill Harriman);

«Karnegi Fondundan» Tomas L.Hyüz (Thomas L.Hughes);

«Massaçusets Texnoloji İnstitutu»nun «Ümumdünya dinamikası» bölməsindən Dennis Micıouz və Cey Forrester.

Komitet 300 150 ildən artıq bir müddət ərzində mövcud olsa da, o öz indiki formasını təxminən 1897-ci ildə alıb. O əmrlərini həmisə başqa, «Beynəlxalq İşlər üzrə Kral İnstitutu» (BİKİ) kimi pərdə-təşkilatlar vasitəsilə verib. Avropanın işlərinin hansısa bir supertəşkilat tərəfindən idarə edilməli olduğu qorara alınanda, «Beynəlxalq İşlər üzrə Kral İnstitutu» «Tavistok İnsan Münasibətləri mstitutu»nun əsasını qoydu və o da, öz növbəsində, NATO-nu yaratdı. NATO beş il ərzində «Almaniya Marşall Fondu» tərəfindən maliyyələşdirilirdi. Komitet 300-ün xarici siyasət orqanı olan «Bilderberq Klubu»nun ən mühüm üzvü, çox guman ki, ***Cozef Rettinger*** (Joseph Rettinger) olub. Deyilənə görə, «Bilderberq Klubu»nun əsasını qoyan və onun təşkilatçısı məhz Cozef Rettinger olmuşdu. «Bilderberq Klubu»nun hər il keçirilən görüşləri sui-qəsdlərin izi ilə gedən ovçular üçün bir neçə onillik ərzində valehedici tədbir olub.
Cozef Rettinger yaxşı təlim keçmiş iezuit rahibi və 33-cü dərəcəli Frankmason idi. «Vaşinqton Post» qəzeti

downloaded from KitabYurdu.org

üzərində nəzarəti ələ keçirmək məqsədi ilə öz ərinin qətlində şübhəli bilinən missis ***Ketrin Meyer Qrexem*** də (Katherine Meyer Graham) «Roma Klubu»nun görkəmli üzvü idi. ABŞ-ın ən iri sığorta kompaniyalarından biri, Böyük Britaniyanın Kraliçası Yelizavetanın ailəsi ilə birbaşa bağlı olan «Renk» korporasiyasının tərkibində aparıcı kompaniya sayılan «Həyatın Sığortalanması üzrə Nyu-York Kompaniyasından» (New York Life Insurance Company) ***Pol G.Hoffman*** da «Bilderberq Klubu»nun görkəmlı üzvü olub. «Bilderberq Klubu» və «Roma Klubu»nun əsasını qoyan üzvləri arasında, müharibədən sonrakı Almaniyanı siyasi xəritədən silməyə çalışan şəxs – ***Con C.MakKloy***(John. J.McCloy), eləcə də siyahıda sonuncu olsa da, mühümlüyünə görə sonuncu olmayan, «Karnegi Korporasiyasından» (Carnegie Corporation) ***Ceyms A.Perkinsin*** (James A. Perkins) də adları. vardır.

Seçilmişlərin necə də möhtəşəm kastasıdır! Və bununla belə, yenə də qəribədir ki, son vaxta qədər həqiqi kəşfiyyat xidmətlərindən başqa, bu təşkilat haqqında yalnız, tək-tük adamın xəbəri var idi. Bu mühüm personaların və onların təmsil etdikləri korporasiyaların, televiziya stansiyalarının, qəzetlərin, sığorta kompaniyalarının, bankların malik olduqları hakimiyyət ən azı iki Avropa ölkəsinin nüfuz və hakimiyyətinə uyğundur və bu, Komitet 300-ün hər yerə sirayət edən və hər şeyi əhatə edən maraqlarının hələ yalnız kiçicik bir hissəsidir.

Yuxarıda göstərilən siyahıda ***Riçard Qardnerin*** adı xatırladılmayıb. O, çox tez Komitet300-ün üzvü olsa da, Romaya xüsusi missiya ilə göndərilmişdi. Qardner Venesiya «Qara Aristokratiya»sının ən qədim ailələrindən birinin nümayəndəsi ilə evlənməklə, Venesiyanın Ağ Evə birbaşa çıxısını təmin etmiş oldu. Mərhum ***Averell Harriman*** da Komitetlə Kreml və Ağ Ev arasında birbaşa vasitəçi idi; Harrimanın ölümündən sonra bu funksiya Kissincerə keçdi.

*«Roma Klubu»* – bu, Komitet 300-ün həqiqətən də qorxunc və çox qüdrətli orqanıdır. Zahirən onun əsas hədəfi ABŞ olsa da, bu qrupun fəaliyyəti Komitet 300-ün başqa orqanları ilə kəsişir, onun amerikalı üzvləri isə tez-tez Yaponiya və Almaniyadakı «problemlər» üzərində işləyirlər.

Aşağıda Komitet 300-ün nəzarəti altında olan rəsmi təşkilatların heç də tam olmayan siyahısı verilir:

**«İNDUSTRİAL DEMOKRATİYA LİQASI»** (LEAGUE OF INDUSTRIAL DEMOCRACY)

**Vəzifəli şəxslər:** Maykl Novak (Michael Novak), Cin Kirkpatrik (Jeane Kirkpatrick), Yucin Rostou (Eugene Rostow), İrvin Suall (Irwin Suall), Leyn Kirklənd (La Kirkland), Albert Şenker (Albert Schenker).

**Məqsəd:** Həmkarlar ittifaqları liderlərinin beyinlərini yumaq yolu ilə onları yerinə yetirilməsinin mümkünsüzlüyü əvvəlcədən bəlli olan tələblər irəli sürməyə sövq etməklə

downloaded from KitabYurdu.org

fəhlələr və sahibkarlar arasında normal əmək münasibətlərini pozmaq və pisləşdirmək, Bu vaxt əsas diqqət sənayenin metallurgiya, avtomobil və tikinti sahələrinə ayrılır.

**«AZADLIQ EVİ»** (FREEDOM HOUSE)

**Vəzifəli şəxslər:** Leo Çörn (Leo Churn) və Karl Gerşman (Carl Gershman).

**Məqsəd:** Amerikatı fəhlələr arasında sosialist dezinformasiyasının yayılması, fikir ayrılığı və narazılıq mühiti yaratmaq. Bu vəzifələr əsas etibarilə artıq yerinə yetirilib və Lourens İqlberger indi də Karl Gerşmanı birləşmiş Almaniyanın Dunay hövzəsi ölkələrində ticarət ekspansiyasının qarşışıru almaq üçün yaradılan yeni, SEDS adlı təşkilata dəvət edib.

**«DEMOKRATİK ÇOXLUQ UĞRUNDA KOMİTƏ»** (COMMITTEE FOR A DEMOCRATIC MAJORITY)

**Vəzifəli şəxslər:** Ben Vattenburq (Ben Wattenburg), Cin Kirkpatrik (Jean Kirkpatrick), Elmo Zumva, (Elmo Zumwa) və Mici Dektor (Midge Dector).

**Məqsəd:** Sanballı seçki blokunun yaradılması üçün savadlı sosialist sinfi və azlıq qruplan arasında əlaqələrin Burulmaşı. Bu elə bir blok olmalıdır ki, solçu namizədlarin seçüməsində onun dəstəyinə ümid etmək mümkün olsun. Bu, yüz faizli fabian təşkilatıdır.

**«XARİCİ SİYASƏTİN TƏDQİQATI İNSTİTUTU»** (FOREIGN POLICY RESEARCH INSTİTUTE)

**Vəzifəli şəxslər:** Robert Ştrauz Hüp (Robert Strausz Hupe).

**Məqsəd:** NASAnın kosmik proqramına inamın sarsıdılması və onun tamamilə dayandırılması.

**«ABŞ SOSİALDEMOKRATLARI»** (SOCIAL DEMOCRATS U.S.A.)

**Vəzifəli şəxslər:** Bayyard Rastin (Bayard Rustin), Leyn Kirklənd (Lane Kirkland), Cey Lavstoun (Jay Lovestone), Karl Gerşman (Carl Gershman), Hovard Samuel (Howard Saımıel), Sidni Huk (Sidney Hook).

**Məqsəd:** Radikal sosializmin yayılması, xüsusilə də azlıqlar arasında; sosialist ölkələrində bu tip təşkilatlarla əlaqələrin gücləndirilməsi. Cey Lavstoun uzun müddət ərzində ABŞ-ın bir neçə prezidentinin SSRİ üzrə aparıcı müşaviri və Moskva ilə birbaşa əlaqələrdə ünsiyyət üzrə bir nömrəli şəxs olub.

**«SOSİAL MÜNASİBƏTLƏR İNSTİTUTU»** (INSTITUTE FOR SOCIAL RELATIONS)

**Vəzifəli şəxslər:** Harland Klivlend (Harland Cleveland), Villis Harmon (Willis Harmon).

**Məqsəd:** Amerikanın düşüncə tərzini dəyişmək.

**«VƏTƏNDAŞLAR LİQASI»** (THE CITIZENS LEAGUE)

**Vəzifəli şəxslər:** Barri Kammoner (Barry Commoner)

**Məqsəd:** Müxtəlif, xüsusilə də müdaflə və müdaflə sənayesi sahəsində hökumət agentliklərinə qarşı «ümumi» məhkəmə işlərinin qaldırılması.

**«MÜHARİBƏ ƏLEYHDARLARININ LİQASI»** (WAR RESISTERS LEAGUE)

downloaded from KitabYurdu.org

**Vəzifəli şəxslər:** Noam Xomski (Noam Chomsky) v David MakReynoids (David McReynəlds).

**Məqsəd:** Solçu qüvvələr, tələbələr və Hollivud «tuso kası» arasında Vyetnam müharibəsinə müqavimətin təşkili.

«DEMOKRATİK SOSİALİZIN UĞRUNDA İNSTİTUTUN TƏŞKİLAT KOMİTƏSİ» (THE DEMOCRATI SOCIALIST ORGANIZMG COMMITTEE OF THE IN STaTUTE FOR DEMOCRATIC SOCIALISM)

**Vəzifəli şəxslər**: Frank Zeyder (Frank Zeider), Artu Reyder (Arthur Redier) və David MakReynəlds (Davi McReynolds).

**Məqsəd:** ABŞ və Avropada sol sosialist tomayüllü' fə liyyətin və ideologiyanın yayılması.

**«ANTİDİFFAMASİON LİQANIN TƏDQİQATLAİ ŞÖBƏSİ»** (ANTIDEFAMATION LEAGUE FACT FIN DING DIVISION)

**Vəzifəli şəxslər**: İrvin Suall – o, həm də Con Qrexe kimi tanınır.

**Məqsəd:** Sağ təmayüllü qrup və liderlərin aşkar edilBlfiSİ və kifayət qədər yetişənə və nüfuz qazanana qədər onların neytrallaşdırılması üçün yaradılan bu təşkilat ABŞ Federal Təhlükəsizük Bürosu və Böyük Britaniya kəşfiyjfltının müştərək müəssisəsidir.

**«MAŞİNİSTLƏRİN BEYNƏLXALQ ASSOSİASİYASI»** (INTERNATIONAL ASSOCIATION OF MACHINESTS)

**Məqsəd:** Sosialist İnternasionalının ideyalarını dəstəkləyən, təşkil olunmuş özbaşınalıqların təhrikçisi, eləcə də fəhlə və menecerlər arasında münaqişələr toxumunu səpən fəhlə cəbhəsi.

**«TİKİŞ SƏNAYESİNİN BİRLƏŞMİŞ FƏHLƏLƏRİ»** (AMALGAMATED CLOTHING WORKERS)

**Vəzifəli şəxslər:** Merrey Findli (Murray Findley), İrvin Suall və Cekob Şeynkman (Jacob Scheinkman).

**Məqsəd:** Əsas etibarilə «Maşinistlər Ittifaqin.m» məqidləri ilə eynidir; tikiş sənayesində sosialist ideyalarının ı lahlə münaqişələrinin yayılması.

**«A.FİLİPP RENDOLF İNSTİTUTU»** (A. PHILIP NANDOLPLI INSTITUTE)

**Vəzifəli şəxslər:** Bayyard Rastin (Bayard Rustin).

**Məqsəd:** Ümumi məqsədləri olan – məsələn, tələbə və ihlələr arasında sosialist ideyalarının yayılması üzrə təşkilatların fəaliyyətinin əlaqələndirilməsi.

**«KEMBRİC SİYASİ TƏDQİQATLAR İNSTİTUTU»** (CAMBRIDGE POLICY STUDIES INSTITUTE)

**Vəzifəli şəxslər:** Qar Apelrovits (Gar Apelrovitz).

**Məqsəd:** «Siyasi Tədqiqatlar İnstitutu» tərəfindən keçirilən işlərin genişləndirilməsi və dərinləşdirilməsi. Əsası 1969-cu din fevralında beynəlxalq sosialist, keçmiş' Senator Geylord

downloaded from KitabYurdu.org

Nelsonun köməkçisi Qar Apelrovits tə» rəfindən qoyulub. Apelrovits «Roma Klubu» üçün «Atom diplomatiyası» kitabını yazıb. «Almaniya Marşall Fondu»nun maliyyələşdirdiyi bu kitabın doğurduğu mübahisələr az deyildi. İnstitutun əsas fəaliyyəti Amerika cəmiyyətinin köklü surətdə dəyişməsi, başqa sözlə, Vahid; Dünya Hökumətinin gəlişini hazırlamaq üçün fabiançı Birləşmiş Ştatların yaradılması məqsədi güdən tədqiqat işləri və praktiki layihələr üzərində cəmləşir.

**«ŞİMALİATLANTİKA İNSTİTUTUNUN İQTİSADİYYAT KOMİTƏSİ»** (ECONOMIC COMMITTEE OF THE NORTH ATLANTIC INSTITUTE)
**Vəzifəli** şəxslər: Aurelio Peççei.
**Məqsəd:** NATO-nun qlobal iqtisadi problemlər üzrə beyin mərkəzi.
**«DEMOKRATİK İNSTİTUTLARIN ÖYRƏNİLMƏSİ MƏRKƏZİ»** (CENTER FOR THE STUDY OF DEMOCRATIC INSTITUTIONS)
**Vəzifəli** şəxslər: Təşkilatın əsasını qoymuş Komitet 300-ün üzvü Robert Hatçins (Robert Hutchins), Harri Eşmor (Harry Ashmore), Frenk Kelli (Frank Kelly) və böyük bir qrup assosiyalaşmış üzv.
**Məqsəd:** Əsasında demokratik ideologiya duran liberal təmayüllü sosial islahatlara gətirməli olan ideyaların yayılması. Onların vəzifələrindən biri ABŞ-ın yeni konstitusiyasının işlənib- hazırlanmasıdır ki, həmin konstitusiya, Danimarkada oldüğÜ kimi, eyni zamanda ciddi monarxiyaçı və sosialist meylli olmalıdır.
Bu mərkəz «Oümpiyaçılann» dayaqlarından biridir. SantaBarbarada yerləşən «Demokratik İnstitutların Öyrənilməsi Mərkəzi», təmtəraqla «Parfenon» adlandırılmış bir binada fəaliyyət göstərir. Nümayəndələr Palatasının keçmiş üzvü Con Rerik bu mərkəzi «yuxarıdan aşağıya qədər kommunistlərlə doldurulmuş kontor» kimi xarakterizə etmişdi. 1973-cü ilə qədər burada ABŞ üçün 35 yeni konstitusiya layihəsi artıq hazırlanmışdı, özü də onların sonuncularından birində «ekoloji. hüquqa» zəmanət verən dəyişiklik təklif olunmuşdu. Həmin düzəlişin məqsədi ABŞ-ın industrial bazasını 1969-cu illə müqayisədə heçə endirməkdir. Başqa sözlə, bu təşkilat «Roma Klubu»nun Komitet 300 tərəfindən təsdiq edilmiş, ABŞ-da «sıfır həddində postindustrial inkişaf» siyasətini yerinə yetirir.

Mərkəzm məqsəd və vəzifələrinə iqtisadi tsikllərin idarə olunması, işsizlik üzrə mılavinətlərin ödənməsi sisteminə nəzarət, biznesin və müli ictimai işlərin nizamlanması, ətraf mühitin çirklənməsinə nəzarət daxildir. Komitet 300-ün adından çıxış edən Eşmor deyib ki, Mərkəzm vəzifəsi bizim siyasi sistemin daha effektiv işləməsi üçün metod və vasitələrin axtarısından ibarətdir. Eşmor demişdi: «Biz təhsil sistemini dəyişdirməli və ABŞ üçün yeni konstitusiya, eləcə də bütün dünya üçün vahid konstitusiya hazırlamalıyıq».

downloaded from KitabYurdu.org

Daha sonra Eşmor aşağıdakı ideyaları elan edir:

1. BMTdə üzvlük ümumi olmalıdır.

2. BMT-ni möhkəmləndirmək vacibdir.

3. Cənubi-Şərqi Asiya neytrallaşdırümalıdır (neytrallaşdırılmalıdır əvəzinə oxu, «kommunalaşdırılmalıdır»).

4. «Soyuq müharibəyə» son qoyulmalıdır.

5. İrqi diskriminasiya qadağan edilməlidir.

6. İnkişaf etməkdə olan ölkələrə yardım edilməlidir. (Onların iqtisadiyyatının dağıdılmasına kömək etmək nəzərdə tutulur.)

7. Problemlərin hərbi yolla həllindən imtina olunj malıdır. (Bədboxtçilikdən, onlar bunu Corc Buşa 1991-ci il Fars körfəzi müharibəsindən əvvəl deməmişdilər.)

8. Milli səviyyədə qəbul olunmLiş hər hansı bir qərar moqbul hesab edilə bilməz.

9. Birgə yaşayrş vacibdir.

**«HARVARD PSİXOLOJİ KLİNİKASI»** (HARVARD PSYCHOLOGICAL CLINIC)
**Vəzifəli şəxslər:** d-r Kurt Levin və «Yeni elm» (Newscierj.ce scientists) yolunu tutan 15 alim.
**Məqsəd:** Amerika cəmiyyətində Komitet 300-ün ölkədə hakimiyyəti ələ almasına imkan verə biləcək mühitin yaradılması.
**«SOSIAL TƏDQIQATLAR TNSTITUTU»** (INSTITUTE FOR SOCIAL RESEARCH)
**Vəzifəli şəxslər:** d-r Kurt Levin və «Yeni elm» (NewlCİence scientists) yolunu tutan 20 alimdən ibarət ştat.
**Məqsəd:** Amerikanın sənaye inkişafı yolundan sapdırılması məqsədini güdən soşial proqramların tamamilə yeni dəstinin işlənib hazırlanması.
**«ELMİ ŞİYAŞƏTIN TƏDQİQAT İNSTİTUTU»** (SCIENCE POLICY RESEARCLI UNIT)
**Vəzifəli şəxsİər:** Liland Bredford (Leland Bradford), Kennet Dem (Kennetlı Dam), Ronald Lippert (Ronald Lippert).
**Məqsəd:** İngiltərədəki «Susseks Universiteti» nəzdində yaradılmış «Tavistok İnsan Münasibətləri İnstitutu» sisteminə daxil olan «gələcək təlatümlər» Tədqiqat İnstitutu.

downloaded from KitabYurdu.org

**«SİSTEMLƏRİN İNKİŞAFI KORPORASİYASI»** (SYSTEMS DEVELƏPMENT CORPORATION)

**Vəzifəli şəxslər:** Şeldon Arenberq (Sheldon Arenberg) və bir neçə yüz əməkdaşdan ibarət ştat.

**Məqsəd:** ABŞ və Böyük Britaniya kəşfiyyat xidmətlərinin bütün elementlərinin fəaliyyətinin koordinasiyası. Korporasiya bu və ya digor millidövlət qurumlarının hansı «oyunçunun» bayrağı altında çıxış edəcəyini müəyyən edir. Məsələn, İspaniya – zoiflədilmiş və tükənmiş Katolik Kilsəsinin nüfuz dairəsində, BMT – Baş Katibliyin nəzarəti altında olmalıdır və s. Korporasiya beyin mərkəzlərinin personalmı, hərbi obyekt və hüquq-mühafizə orqanlarını milli teletayp və kompüter şəbəkəşi yaşitəsiİə Penfaqonla əlaqələndirən «XRAY 2» sistemini işləyib hazırlayıb. Bu sistem izləmə texnikasını milli miqyasda tətbiq etmək üçüri yaradılıb. Şeldon Arenberq ideyaların hərbi sahəyə aid olmadığını bildirir, lakin onun bütün metodİari. faktiki ölaraq hərbi mənb'ələrden almıb. O, «Nyu-York ştatının müşahidə və identifikasiyası sistemini» işləyib hazırlayıb. Bu, Corc Oruellin «1984» adlı kitabı ruhunda tipik layihədir, özü də konstitusiyamıza əsasən bu layihə tamamilə qeyriqanunidir. Bu «Sistemln» milli miqyasda tətbiq olunması prosesi artıq işə salmıb. Bjezinskinin «istənilən adam haqqında kompüter məlumat fayllarına demək olar ani çıxış imkanlan» barədə dedikləri məhz elə budur.

«Nyu-York ştatıran müşahidə və identifikasiyası sistemi» məlumatları bütün hüquq-mühafizə orqanlarına və ştatın dövlət idarələrinə təqdim edir. Bu sistem hərru kriminal, həm də sosial sahə ilə bağlı fərdi məlumatlara sürətli çıxışı və onların qorunub saxlanmasını təmin edir! Bu, Komitet 300-ün TİPİK layihəsidir. Həmin bu «Sistem lərin Inkişafı Korporasiyası»nın apardığı işlərin tam araşdırılmasının zəruriliyi artıq yetişib, lakin indiki kitabın məqsədi bu deyildir. Bir şey aydındır: «Korporasiya» AB9 konstitusiyası ilə zəmanət verilən hüquq və azadlıqların qorunmasını qarşısına məqsəd kimi qoymur. «Korporasiyanın» SantaBarbarada Robert Hatçinsin «Parfenonu» ilə lap yanaşı yerləşməsi necə də əlverişlidir. «Roma Klubu»nun bu idarəsinin nəşr etdirdiyi bəzi dərgilərin siyl hısı budur:

«Center Magazine» («Mərkəz Jurnalı»), «Counterspy» («Əkskəşfiyyatçı»), «Coventry» («Koventri»), «Covert Action Information Bulletin» («Gizlin Əmoliyyatların İnformasiya Bülleteni»), «Dissent» («Parçalanma», «Dissidentlik»). «Hüman Relations» («İnsan Münasibəlləri»), «Idustrial Research» («İndustrial Tədqiqatlar»), «Inquiry» («Tədqiqat», «Araşdırma»), «Mother Jones» («Couns Ana»), «One» («Tənha»), «Progressive» («Tərəqqipərvər»), «Raconteur» («Hekayəçi»), «The New Republic» («Yeni Respublika), «Working Papers for a New Society» («Yeni Cəmiyyət Haqqında İşçi Qeydlər»).

downloaded from KitabYurdu.org

Bu, «Roma Klubu»nun bayrağı altında nəşr etdirilən dorgilərin heç də tam siyahısı deyildir. Əslində bu cür nəşılər yüzlərlədir, praktiki olaraq hər bir təşkilat öz mətbu orqanmı təsis edir. «Tavistok İnsan Münasibətləri İnstitutu» və «Roma Klubu» tərəfindən idarə olunan təşkilatların sayının çox böyük olduğu nəzərə alınarsa, biz burada yalnız natamam siyahı dərc etdirə bilərik. Ən vacib fondlar və beyin mərkəzləri, o cümlədən də ordu beyin mərkəzlərinin bəziləri haqqında aşağıdakı siyahılarda məlumat verilir.

Komitet 300-ün beyin mərkəzləri ilə birlikdə «Yeni i lərbi Taktika» ilə bağlı tədqiqatlarına Amerika ordusunun necə dərin cəlb olunduğu Amerika cəmiyyətinə bəlli olsa, o, dəhşətə gələrdi. Amerikalılar bilmirlər ki, Komitet 300 1946-cı ildə- «Roma Klubu»na beyin mərkəzlərinin inkişafının davam etdirilməsini əmr edib, çünki **onlar Komitetin fəlsəfəsini bərqərar etmək üçün özü-özlüyündə yeni vasitədir.** Bu beyin mərkəzlərinin bizim hərbiçilərə göstərdiyi təsir (məhz 1959-cu ildən, beyin mərkəzləri gözlənilmədən sürətlə çoxalmağa başlayandan sonra) həqiqətən də dəhşətə gətirir. Şübhə yoxdur ki, onlar XX əsrin sonları üçün ölkəmizin cari idarəsində daha böyük rol oynayacaqlar.

**«MONT PELERİN CƏMİYYƏTİ»** (THE MONT PELERIN SOCIETY)
Mont Pelerin özü ilə elə bir iqtisadi fond təcossüm etdirir ki, onun təyinatı yanhş iqtisadi nəzəriyyyələrin yayılmasından və bu fondun vaxtaşın ortaya atdığı modellərə qərb dünyası iqtisadçılarının əməl etməsi üçün onlara təsir göstərilməsindən ibarətdir. Fon Hayek və Milton Fridman bu fondun çox görkəmli praktikləridir.

**«HUVER İNSTİTUTU»** (THE HOOVERINSTITUTION)
Başlanğıcında kommunizmlə mübarizə üçün yaradılan institut tədricən, lakin dönməz olaraq sosializmə tərəf döndü. Onun illik büdcəsi 2 milyon dollardır və bu vəsait Komitet 300-ün bayrağı altında fəaliyyət göstərən kompaniyalar tərəfindən verilir. İnstitut indi səylərini «süllı dəyişiklikləri» üzərində cəmləyib və əsas diqqəti silahlanma və ABŞ-ın daxili problemləri üzərində nəzarətə yönəldir. Kütləvi informasiya vasitələrində mühafizəkar mövqe tələb ohmanda, institut tez-tez baxışlarından istifadə olunan «mühafizəkar» təşkilat kimi təqdim edilir. Lakin «Huver İnstitutu» heç də belə deyildir və 1953-cü ildə, onun üzərində nəzarət «Roma Klubu» ilə sıx bağlı olan qrupun sərəncamma keçəndən sonra, İnstitut Vahid Dünya Hökumətinin – Yeni Dünya Nizamının «arzuolunan» siyasətinin ruporuna çevrilib.

**«MİRAS FONDU»** (THE HOOVERINSTITUTION) Əsası pivə maqnatı *Cozef Kurs* (Joseplı Coors) lərəfindən mühafizokar beyin mərkəzi kimi qoyulmuş fond tezliklə

downloaded from KitabYurdu.org

«Roma Klubu»nun rəhbərliyi altında fəaliyyət göstərən fabiançı Ser Piter VikkersHoll, Stüart Batler (Stuart Butler), Stiven Eyzli (Steven Ayzlei), Robert Moss (İNobert Moss) və Fridrix Fon Flayekin nəzarəti altına keçdi. Bu idarə britaniyalı Leyboristlərin lideri Entoni Vedjvud Bennin «Reyqanın tetçerləşdirilməsi» əmrinin yerinə yetirilməsində əsas rol oynamışdı. «Miras Fondu», sözsüz ki, mühafizəkar təşkilat deyildir, hərçond zamanzaman özü haqqında belə təəssürat yarada bilir.

**«İNSANIN İMKANLARININ TƏDQİQAT İDARƏSİ»** (HUMAN RESOURCES RESEARCLI OFFICE – HUMRO)

Bu, «psixotexnologiyalar» sahəsində işləyən hərbilodqiqat idarəsidir. Personalının böyük hissəsi «Tavistok hısan Münasibətləri İnstitutunda» hazırlıq keçib. «Psixolcxnologiya» əsgərlərin motivasiyası, ordunun döyüş nıhu və rəqibin istifadə etdiyi musiqi kimi sahələri əhatə edir. Corc Oruellin «1984» adlı kitabında yazdıqlarının laktiki olaraq böyük hissəsi heyrətamiz şəkildə HUMROnlın öyrətdiklərinə oxşayır. 1969-cu ildə Komitet 300 bu nirihüm idarə üzərində nəzarəti ələ aidı və onu «Roma E hıbu»nun bayrağı altında fəaliyyət göstərən özəl qeyri-kommersiya təşkilatına çevirdi. Bu, insanın davranışının tədqiqatı üzrə ABŞ-da ən iri qrupdur.

Onun fəaliyyət göstərdiyi sahələrdən biri kiçik qrupların stress vəziyyətlərində öyrənilməsidir. HUMRO hərbçilərə öyrədir ki, əsgər, sadəcə olaraq öz silahsursatının davamıdır; bu ideya ABŞ ordusunda çox geniş tətbiq olunan «insansilah» və «insan keyfiyyətlərinin idarə olunması» sistemlərinin işlənib-hazırlanmasına böyük tosir göstərib. HUMRO ordunun davranışına çox güclü təsirə malikdir. Onun insan şüurunun sarsıdılması üzrə metodları birbaşa «Tavistok İnsan Münasibətləri İnstitutundan» gəlir. Ehtimal olunur ki, HUMROnun tətbiqi psixologiya kursları hərbi rəhbərlərə insanı silah kimi işləməyə necə məcbur etməyi öyrətməlidir. İraqla müharibədə əsgərlərin öz səhra nlzamnamələrini veclərinə almayaraq 12.000 İraq əsgərini diridiri basdırmaian faktı bunun bariz nümunəsidir.

Beyinlərin yuyulmasının bu növü dəhşətli dərəcədə təhlükəlidir, çünki bu gün o orduya tətbiq edilir. Ordu onu minlərlə «düşmən» osgərini vəhşicəsinə öldürmək üçün təfbiq edir, sabalı isə orduya deyiləcək ki, «düşmən» hökumətin siyasətinə qarşı olan mülki əhali qruplarıdır. Biz artıq indi beyinləri yuyulmuş düşüncəsiz qoyun sürüsüyük, ancaq, demə, HUMRO şüurun sarsıdılması və onun idarə olunması işini bir addım da irəlilədə bilər. HUMRO – bu, «Tavistok İnsan Münasibətləri İnstitutu»nun qiymətli əlavəsidir və Fars körfəzində aparılan müharibədə HUMROnun bir çox məsləhəti istifadə olunmuşdu. Bu, özlərini amansız və əzazil qatil kimi aparan Amerika əsgərlərinin, arnerikalı döyüşçünün

downloaded from KitabYurdu.org

ənənəvi konsepsiyasına qətiyyən uyğun olmayan davranışının izahını əhəmiyyətli dərəcədə asanlaşdırır.

**«TƏDQİQAT VƏ ANALİTİK KORPORASİYA»** (RESEARCLI ANALYSIS CORPORATION)

«1984» kitabı ruhunda HUMROnun ekizi olan bu təşkilat Virciniya ştatının Maklin şəhərində yerləşir. Əsası 1948-ci ildə qoyulub. O Komitet 300-ün nəzarəti altına 1961-ci ildə «Cons Hopkins Universitetinin» bir hissəsi olan vaxt keçib. Korporasiya 600-dən çox layihə, o cümlədən də zəncilərin orduya inteqrasiyası, nüvə silahının taktiki istifadəsi, psixoloji müharibələrin aparılması və əhali kütlələrinin idarə olunması proqramları üzrə işlər aparıb.

**İCTİMAİ RƏYİN FORMALAŞDIRILMASI**

Əlbəttə, iri beyin mərkəzləri hələ çoxdur və kitabın gedişində biz orılan nəzərdən keçirəcəyik. Beyin mərkəzlərinin əslində gördükləri işlp dövlət və ictimai siyasətə çevrilən proqramlar arasında omokdaşhğın ən mühüm sahələrindən biri «*polJslerlər»* (pollsters) – ictimai rəyin öyrənilməsi üzrə kompaniyalardır. Sui-qəsdçilərə lazım olan ictimai rəyi məhz bu kompaniyalar formalaşdırular. CBS, NBC, ABC telekompaniyaları, «Nyu-York Tayms», j «Vaşinqton Post» qəzetləri daim seçicilərə təsir göstərirlər. Bu səylərin əhəmiyyətli hissəsi «İctimai Rəyin Tədqiqatı Milli Mərkəzi» tərəfindən əlaqələndirilir. Bizim çoxumuzu heyrətə gətirəcək ki, bu mərkəzdə **bütün millət üçün psixoloji şablon işlənib hazırlanıb.**

Əldə olunan məlumatlar müqayisəli qiymətləndirilmə üçün «*Grtlap Poll*» (Gallup Poll) və «*Yankeloviç, Skelli və Uayt*» (Yankelovich, Skelley and VVhite) kompaniyalarının kompütehərinə daxil edilir. Qəzetlərdən oxuduğumuzun və ya televiziyadan gördüklərimizin bir çoxu əvvəl ictimai rəyin öyrənilməsi üzrə kompaniyalar tərəfindən süzgəcdən keçirilir. BİZ YALNIZ «POLLSTERLƏRİN» BİZƏ OXUMAĞA VƏ GÖRMƏYƏ İCAZƏ VERDİKLƏRİNİ OXUYUR VƏ GÖRÜRÜK. Bu, «ictimai rəyin formalaşdırılması» adlanır.

Bu cür sosial təsirin mahiyyəti bütövlükdo cəmiyyətin Komitet 300-ün hazırladığı SİYASİ DİREKTİVLƏRƏ necə reaksiya verdiyini öyrənməkdən ibarətdir. Bizi «hədəfə alınan əhali qrupları» adiandıcir, «pollsterlər» isə «axşam xəbərlərində» verilənlərə müqavimət dərəcəsini qiymətləndirirlər... Aşağıda biz bu yalançı praktikanın necə işə salındığını və buna görə kimin məsuliyyət daşıdığını göstərəcəyik.

Bütün bunlar «Tavistok İrısan Münasibətləri İnstitutu»nda çox böyük dəqiqliklə hazTrlanmış ictimai rəyin formalaşdırılması prosesinin bir hissəsidir. Bu gün insanlar hesab edirlər ki, onlar yaxşı məlumatlıdırlar. Ancaq onlar təsəvvür belə etmirlər ki, onların özlərininki hesab etdikləri rəy faktiki olaraq Amerikanın beyin mərkəzləri və institutlarında

downloaded from KitabYurdu.org

yaradılıb; biz KİV və «polJstehərin» üzərimizə yağdırdıqları informasiya selindəyik və bizlərdən heç birimiz öz rəyinə malik olmaq azadlığına malik deyildir.

İctimai rəyin formalaşdırılmasının incə sənətə çevrilməsi məhz elə ABŞ İkinci Dünya Müharibəsinə daxil olduğu ərəfədə baş vermişdi. Heç özlərini əməllibaşlı tammayan amerikalıları Almaniya və Yaponiyaya təhlükəli, qarşıları mütləq alınmalı olan düşmən kimi baxmağa məcbur etdilər. Bu, müəyyən mənada düzgün idi və məhz elə bu da idarə olunan təfəkkürü daha da təhlükəli edir, çünki insanlara verilən İNFORMASİYANIN nəticəsində Almaniya və Yaponiya həqiqətən də düşmən oldular. Lap bu yaxınlarda amerikalıları İraqı təhlükə mənbəyi, Səddam Hüseyni isə Birləşmiş Ştatların şəxsi düşməni kimi qəbul etməyə məcbur edəndə biz şüura təsiretmə prosesinin necə yaxşı işlədiyini gördük.

Şüura belə təsiretmə prosesi texniki cəhətdən «təsir göstərilməli olan şəxslərin hiss orqanlarına çatan xəbər» kimi qələmo alınır. Ən hörmətli «pollsterlərdən» biri Komitet 300-ün üzvü, «Yankeloviç, Skelli və Uayt» kompaniyasında çalışan *Daniel Yankeloviçdir*. Yankeloviç öz tələbələrinə qürurla bildirir ki, «ictimai rəy sorğusu» – bu, ictimai rəylə manipulyasiya alətidir, hərçənd bu məsələdə o, orijinal deyildir. Yankeloviç bu ideyanı *Con Neysbitin* (Naisbitt) müəllifi olduğu, «Roma Klubu» tərəfindən sifariş edilən «TENDENSİYALAR HAQQINDA MƏRUZƏ» («Trend Report») kitabından əxz edib.
Con Neysbit bu kitabda Komitet 300 üçün arzuolunan ictimai rəyin formalaşdırılması üçün istifadə olunan bütün metodları qələmə alır. İctimai rəyin formalaşdırılması – bu, OLİMPİYAÇILARIN tacında olan brilyantdır. Başqa sözlə, ümumiyyətlə, istənilən məsələ ilə bağlı YENİ ictimai rəyi onların əmrlərinə müntəzir olan minlərlə sosioj loq və «Yeni elm» üzrə mütəxəssisin, onların sərəncammi da olan kütləvi informasiya vasitələrinin köməyi ilə bütün dünyada haradasa ikicə həftə ərzində yaymaq olar.

Onların nökəri Corc Buşa İraqda müharibə başlamaq əmr ediləndə, məhz elə bu da baş vermişdi. İki həftə ərzində təkcə ABŞ yox, həm də demək olar bütün dünya İraqa və onun Prezidenti Soddam Hüseynə qarşı kökləndirildi. Bu dirijorlar və kütləvi informasiya vasitələrindəki manipulyatorlar birbaşa «Roma Klubu»nun, «Roma Klubu» isə öz növbəsində Komitet 300-ütı tabeçiliyinıədir. Komitet 300-ün yuxarı başında isə, bir-biri ilə sıx bağlı olan minlərlə korporasiyadan (onlar heç vaxt vergi üdəmir və heç kimin qarşısında hesabat vermirlər; onlar bizim gündəlik həyatımızı demək olar bütünlüklə idarə rdon fondlar vasitəsilə özlərinin tədqiqat idarələrini ınaliyyələşdirirlər) ibarət olan nohəng şəbəkəni idarə edən İngütərə Kraliçası əyloşir.

downloaded from KitabYurdu.org

Bu nəhəng aparat – özünün bir-biri ilə qarşılıqlı surətdə bağlı olan kompaniyaları, sığorta biznesi, bankları, maliyyə korporasiyaları, neft şirkətləri, qəzetləri, jurnalları, radio və toleviziyası ilə birlikdə – Amerikanı və qalan bütün dünyanı sözün əsl mənasında yəhərləyib minib. Vaşinqtonda bir siyasətçi belə yoxdur ki, bu və ya digər formada ona mənsub olmasın. Sollar onu «imperializm» adlandıraraq tənqid edirlər və bu, həqiqətən də belədir, lakin məsələ hundadır ki, sağları idarə edən adamlar, elə sollan da idarə cdirlər. Odur ki, sollar bizdən heç də çox azad deyillər!

Şüura təsir göstərilməsi ilə məşğul olan alimlor «sosial ınühəndislər» və ya «yeni sosial elmin mütəxəssisləri» adlandırılırlar. Onlar bizim gördüklərimizə, eşitdiklərimizə və oxuduqlarımıza əhəmiyyətli dərəcədə təsir göstərirlər. Sosial mühəndislərin köhnə məkləbini Kurt K.Levin, professor Hedli Kantril (Hadley Cantril), Marqaret Miz (Margaret Meade), professor Dervin Kartrayt (Derwin Cartwright) və professor Lipsit (Lipssitt) təmsil edirdilər. Bu adamlar Con Roulinq Rizlə birlikdə «Tavistok İnsan Münasibətləri İnstitutu»nda «yeni elm üzrə mütəxəssislərin» nüvəsini təşkil edirdilər.

Ikinci Dünya Müharibəsi dövründə Kurt Levinin rəhbərliyi altında yüz nəfərdən çox tədqiqatçı qul kimi işləyərək SSçi Reynxard Heydrixin metodlarının surətini çıxarırdılar. ABŞ Məxfi Xidmət İdarəsi Heydrixin metodologiyası əsasında yaradılmışdı və bu idarə, artıq bildiyimiz kimi, Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) xələfi olub. Bütün bunların mahiyyəti ondan ibarətdir ki, Böyük Britaniya və ABŞ bizi Yeni Dünya Nizamma gətirmək üçüri mexanizmə artıq malikdirlər və bu mexanizm 1946-cı il dən mövcuddur. Hər il yalnız yeni-yeni təkmilləşdirmələr əlavə olunurdu.

Indiyə qədər görünməmiş nəzarət mexanizmi və şəbəkəsini məhz Komitet 300 yaradıb. Bizi itaətdə saxlamaq üçün zəncir və ip gərək deyildir. Baş verə biləcəklərin qarşısında qorxu hissimiz bizi bağlayıb saxlamaq üçün tələb olunan fiziki vasitələrdən qat-qat effektlidir. Bizim beyinlərimizi yuyublar ki, konstitusiya ilə verilən silah gəzdirmək hüququmuzdan imtina edək; BMT-yə xarici siyasətimiz, BVF-ə isə vergi və monetar siyasətimiz üzərində nəzarət etməyə icazə verək; prezidentin qanunu pozmasma, başqa ölkəyə hücum etməsinə və onun dövlət başçısını oğurlamasına göz yumaq. Bir sözlə, beynimiz elə bir dərəcədə yuyulub ki, biz bir millət olaraq hökumətimizin çıxardığı istənilən qeyri-qanuni aktı demək olar sorğu-sualsız həzm etməyə hazırıq və belə də edirik.

**Mənə gəlincə isə bilirəm ki, biz ölkəmizi Komitetin istibdadından qoparmaq üçün tezliklə döyüşməli olacağıq, əks təqdirdə biz onu həmişəlik itirəcəyik. Lakin**

downloaded from KitabYurdu.org

**iş buna çatanda əlinə silah alan çoxmu olacaq?** 1776-cı ildə Kral III Georqa qarşı əhalinin yalnız 3 %-i əlinə silah almışdı. Bu gün 3 % qətiyyən bəs etməyəcək. Biz özümüzün dalana salınmağımıza imkan verməməliyik! Çünki hər yerə sirayət edən təzyiqə sadəcə olaraq tab gətirməyib təslim olmağımız və həyati dərəcədə vacib məsələlərin əksəriyyətarın həllindən ümumiyyətlə, qaçmağımız üçtin bizi çox mürəkkəb problemlərlə toqquşdurub şüurumuzla manipulyasiya edənlər bizim üçün məhz bunu planlaşdırırlar.
Biz Komitet 300-ə daxil olanların adlarını çəkəcəyik. Lakin bundan əvvəl Komitet 300-ün nəzarəti altında olan mühüm idarə, komparaya və bankların hamısıran qarşılıqlı sıx və mürəkkəb əlaqəsini nəzərdən keçirmək vacibdir. Biz onları dəqiq müəyyən etməliyik, çünki kimin yaşayacağı, kimin isə «faydasız yeyən» kimi məhv ediləcəyi, Allaha harada dua edəcəyimiz, nə geyinməli və nəyi yeməli oldurnınuz barədə qərarı məhz həmin adamlar verirlər. Bjezinskiyə görə, indən belə və həmişəlik olaraq biz ildə 365 gün ərzində saatbasaat sayıq müşahidə altında olmalıyıq.

İldən-ilə daha çox insan anlayır ki, bizə daxildən xəyanət ediblər. Bunu daha çox sayda vətəndaşimizin anlaması yaxşı haldır, çünki biz bəşəriyyətin düşmənlərini yalnız bilik (knowledge) – bu söz isə İNAM (belief) sözündən əmələ gəlib – sayəsində məğlub edə bilərik. Bizim diqqətimizi Kreml kabusu ilə yayındırdıqları vaxt ərzində «Troyan atı» Vaşinqtonda mövqe tutub. Bu ğün azad insanları hədələyən ən böyük təhlükə Moskvadan yox, Vaşinqtondan gəlir. Əvvəl DAXİLİ DÜŞMƏNİ dağıtmalıyıq və yalnız bundan sonra biz kommunizmi, onu müşayiət edən bütün «izmlərlə» birlikdə, yer üzündən silmək məqsədilə hücum təşkil etmək üçün kifayət qədər güclü olacağıq.

Karter administrasiyası iqtisadiyyatimizin və hərbi qüdrətimizin dağıdılmasını sürətləndirdi; hərbi qüdrətimizin dağıdılması «Roma Klubu» və «Lüsis Trastın» (Lucis Trust) üzvü *Robert S.Maknamara* tərəfindən başlanmışdı. Öz vədlərinə xilaf çıxan Ronald Reyqan Karterin qurtardığı yerdən başlayaraq, industrial bazamizin dağıdılnıasını davam etdirdi. Müdafiə potensialımızı tələb olunan səviyyədə saxlamaq yacib olsa da, industrial bazamız zəif olduğundan bunu edo bilmirik; yaxşı inkişaf etmiş hərbi-sənaye kompleksi olmadan biz həyatqabiliyyətli müdafiə sisteminə malik ola bilmərik. Komitet 300 bunu anlayır və 1953-cü ildən «postindustrial sıfır həddində arüm siyasətini» işə salıb. Hazırda bu siyasət tam çiçəklənən dövründədir.
«Roma Klubu» sayəsində bizim texnoloji potensialımız Yaponiya və Almaniya səviyyəsindən aşağı düşüb – bu həmin ölkələrdir ki, İkinci Dünya Müharibəsində biz onların üzərində guya qələbə çalınışıq. Bəs bu necə baş verib? d-r Aleksandr Kinq tipli insanlar və ağhmizin kor edilmiş vəziyyətdə olması üzündən təhsil və hazırlıq sistemimizin dağıdıldığrnı vaxtında

downloaded from KitabYurdu.org

dork edə bilmədik. Kor olmağimizin nəticəsidir ki; özümüzü dünyanın industrial ölkələri sırasında saxlamaq üçün kifayət edəcək sayda mühəndis və alimi artıq hazırlamırıq. Amerikada çox az insanın tanıdığı bir adam olan d-r Kinqin sayəsində ABŞ-da təhsil 1786-cı ildən bu yana on aşağı səviyyədədir. «Ali Təhsil İnstitutu»nun statistikası göstərir ki, hazırda ABŞ-da yuxarı sinif şagirdləri arasında mütalio və yazı yazmaq bacarığı 1786-cı ildəki uşaqlara nisbəton AŞAĞIDIR.

Indi qarşılaşdığımız bu hal yalnız müstəqilliyimizin və millətmizin əsasının deyil, bundan qat-qat pis – ruhumuzun itirilməsinin mümkün olmasıdır. Respublikamızın üzərində qurulduğu dayaqların ardıcıl dağıdılması hoşluq yaradır və hər cür okkulist və satanistlər (iblisə sitayiş edənlər. – Y.Ə.) öz mənəvi surroqatları ilə bu boşluğu doldurmağa cumublar. **Bu həqiqəti dərk etmək və qiymətləndirmək çətindir, çünki bütün bunlar GÖZLƏNİLMƏDƏN baş verməyib.** Əgər gözlənilməz təlatüm, mədoni və dini şok yaşamış olsaydıq, onda bu, bizi silkələyib apatiyadan çıxarardı.

**Lakin hər şey tədricən baş verir – fabiançılığın mahiyyəti də məhz elə bundadır** - və bu həyəcan təbili vurmağa imkan vermir. Amerikalıların böyük əksəriyyəti qələmə aldığım bütün bunlarda MOTİVASİYA görə bilmədiyindən, bumı dərk edə bilmir və ona görə də sui-qəsdə barmaqarası və çox vaxt da kinayo ilə baxırlar. İnsanların hər gün onlara təqdim olunan yüzlərlə imkandan özləri üçün ən sərfəlisini seçməli olduqları vəziyyətə salınması yolu ilə ölkədə dolaşıq situasiya yaradılıb. **Biz gəhb elə bir** vəziy**yətə çatmışıq ki, motivasiya kifayot qədər aydın ifadə olunmasa, istənilən informasiya rədd ediləcəkdir.**

Bu, sui-qəsd zəncirində eyni zamanda həm zəif, həm də güclü halqadır. İnsanların əksəriyyəti **aydın motivləri hiss olunmayan hər şeyi rədd edirlər.** Buna görə də sui-qəsdçilər özlərini tam təhlükəsizlikdə hiss edir və dövlətçiliyimizm, eləcə də şəxsi həyatimizin üzərinə yeriyən böhrana işarə edən hər kəsi gülüş hədəfinə çevirirlər. Lakin, ogor biz həqicpti kifayot qədər çox sayda insana çatdıra bilsək, onda şüurun motivasion qapanması zəifləyəcək və əvvəl-axır kənara atılacaqdır. Bu ona görə baş verəcək ki, getdikcə daha çox adam həqiqəti biləcək, geniş yayılan «Amerikada bu mümkün deyil» bəhanəsi isə öz qüvvəsini itirəcəkdir.

Komitet 300 ümidlərini bizim ləng reaksiyamızla bağlayır, bizim reaksiyamızı özünün. yaratdığı hadisələrə istiqamətləndirir və nə qədər ki, biz bir millət olaraq buna indi olduğu kimi reaksiya verəcəyik, o bundan məyus **olj** mayacaqdır. Biz yaradılan böhranlara reaksiyamızı sui-qəsdçilərin aşkara çrxarılmasi və onların planlarının ifşa edilməsi yolu ilə ADEKVAT cavablara çevirməli və bunu elə etməliyik ki, hər şey ictimaiyyətə bəlli olsun. «**Roma Klubu» BARBARLIĞA KEÇİDİ artıq həyata keçirib. Nə vaxtsa «bizi göylərə qaldıracaqlarını» gözləmək əvəzinə, onlar bizi «YENİ QARANLIQ ZƏMANƏNİN» məhbuslarına çevirmək məqsədlərinə çatana qədər biz Komitet**

downloaded from KitabYurdu.org

**300-ü dayandırmalıyıq. Ümidləri Allaha bağlamaq lazım deyil, ÖZÜMÜZƏ ÜMİD ETMƏLİYİK.**

**Biz zəruri olan işləri görməliyik.**

Bu kitabda təqdim etdiyim informasiyanın hamısı qətiyyən heç bir şübhə doğurmayan kəşfiyyat mənbələrinə əsaslanır və uzun illər ərzində aparılan təhqiqatlar nəticəsində əldə olunub. Burada heç nə şişirdilmir. Hər şey tamamilə doqiqdir və faktlarla təsdiq olunub. Odur ki, düşmənlərin bütün bunların guya «dezinformasiya» olduğu ilə bağlı insinuasiyalarına aldanmayın. Son iki onillik ərzində mənim təqdim etdiyim informasiya çox dəqiq olub və onlar bir çox sirli hadisəni izah etməyə imkan verib. Umid edirəm ki, millətimizi hədəfə almış sui-qəsdçi ı[üvvələr bu kitab sayəsində daha yaxşı, daha aydm, daha geniş dərk olunacaqdır. Bu ümid artıq həyata keçir, çünki getdikcə daha çox gənc insan ƏSLİNDƏ nəyin baş verdiyi ilə bağlı suallara cavab və həqiqəti axtarmağa başlayır.

İnsanlara dərk etmək çətindir ki, bu sui-qəsdçilər realdır və onların əllərində olan hakimiyyət mənim və bir çox başqa yazıçılarıri bu haqda yazdığımız qədərdir. Bir çoxları mənə yazır və sual edir ki, bizim hakimiyyət bu dəhşətli ‘.ivilizasiyanı kənarlaşdırmaq üçün niyə heç nə etmir? **Çətinlik ondan ibarətdir ki, bizim hakimiyyətin özü problemin, sui-qəsdin BİR HİSSƏSİDİR və bu, Buşun hakimiyyəti dövründə olduğu qədər aydın heç yerdə və heç vaxt özünü büruzə verməmişdi.** Əlbəttə, Prezident Dlış Komitet 300-ün bizim üçün nə etdiyini dəqiq bilir. BUŞ DNA İŞLƏYİR. Başqaları belə yazırdı: «Bizə elə gəlirdi ki, bi/, hökumətlə mübarizə apanrıq». Bu, əlbəttə, belədir, hıkin hökumətin arxasında elə qüdrətli və elə genişohatəli lüwə durub ki, kəşfiyyat xidmətləri «Olimpiyaçılar» hflqqında hətta pıçıltı ilə danışmağa belə cürət etmirlər.

Komitet 300-ün varlığının sübutu, ona məxsus olan və iriuın idarə etdiyi çoxsaylı güclü təşkilatların mövcud olmasıdır. Burada həmin idarələrin ən mühümlərinin bəziləri ..ulalanıb. Onların hamısının üzorində BÜTÜN BEYİN MƏRKƏZLƏRİ VƏ TƏDQİQAT İDARƏLƏRİNİN ANASI yüzlərlə «filialdan» ibarət geniş şəbəkəsi ilə birlikdə «TAVİSTOK İNSAN MÜNASİBƏTLƏRİ İNSTİTUTU» durur.

## STENFORD TƏDQIQAT İNSTİTUTU

«Stenford Tədqiqat İnstitutu» (STİ – Stanford Researclı Institute) 1946-cı ildə «Tavistok İnsan Münasibətləri İnstitutu» tərəfindən yaradılıb. «Stenford Tədqiqat İnstitutu» Robert O. Andersona və onun ARCO neft kompaniyasına kömək etmək üçün yaradılmışdı. Komitet 300-ün Şimali Alyaska nefti üzərində mülkiyyət hüququnu əldə etməsini Anderson təmin etmişdi. Bu iş, mahiyyət etibarilə, Andersonun «Aspen İnstitutu» üçün həddindən artıq böyük idi, buna görə də yeni mərkəzm yaradılmasına ehtiyac meydana çıxdı və bu, yaradıldı.

downloaded from KitabYurdu.org

Həmin yeni mərkəz «Stenford Tədqiqat İnstitutu» idi. Alyaska öz hüquqlarını 900 milyon dollara satmışdı ki, bu Komitet 300 üçün nisbətən elə də böyük məbləğ deyildi. Alyaskanın qubernatorunu kömək və konsultasiya almaq üçün STİyə cəlb etdilər. Bu təsadüfün yox, dəqiq planlaşdırmanın və dərin təsiretmənin nəticəsi idi.

Qübefrtatoruri kömək haqqında çağırışına cavab olaraq «Stenford Tədqiqat İnstitutu»nun 3 əməkdaşı Alyaskada idarə təşkil etdilər və onlar burada Alyaska ştatının katibi və ştatın Planlaşdırına İdatosinin rəhbəri ilə görüşdülər. «Stenford Tədqiqat İnstitutu»nun komandasına başçılıq edən Frensis Qrixan (Francis Greehan) STİnin zəngin neft yatağının istismarı problemini etibarlı şəkildə həll edəcəyinə qubernatoru inandıra bildi. Təbii ki, Qrixan bu söhbətlərdə Komitet 300 və ya «Roma Klubu» barədə heç nə deməmişdi. Qrixan bir aydan da az müddət ərzində sayı yüz nəfərlərlə olan iqtisadçılardan, alim-neftçilərdən və «Yeni elm» üzrə mütəxəssislərdən ibarət komanda topladə. «Stenford Tədqiqat İnstitutu»nun qubernatora məruzəsi 88 səhifədən ibarət idi.

Alyaskanın qanunverici məclisi bu təklifi praktiki olaraq dəyişiksiz qəbul etdi. Qrixan Komitet 300 üçün həqiqətən də əhəmiyyətli dərəcədə çox iş görüb. Azdan başlayaraq, «Stenford Tədqiqat İnstitutu» 4.000 nəfər ştatı və 160 milyon dollardan çox büdcəsi olan bir idarəyə qədər böyüdü. Onun Prezidenti Çarlz A.Anderson vəzifədə olduğu dövrdə bu böyümənin şahidi idi. «Stenford Totiqiqat İnstitutu»nun «Sosial Siyasətin Öyrənilməsi üzrə Mərkəzi»nin direktoru professor Villis Harmon da bunun şahidi olmuşdu. Bu Mərkəzdo yüzlərlə «yeni elmlər üzrə mütoxəssis» çalışırdı, özü də həUedici əməkdaşların əksəriyyəti bura «Tavistok İnsan Münasibətləri İnstitutu»nun London filialından keçirilmişdilər. Onlardan biri Böyük Britaniya kəşfiyyatının agenti *Davia Sarnoff* (David Sarnoff) idi. O, 25 il ərzində Harmon və onun komandası ilə sıx bağlı olub. David Sarnoff Susseksdəki baş institutun müəyyən mənada «keşikçi iti» kimi bir vəzifəni yerinə yetirirdi.
«Stenford Tədqiqat İnstitutu» bildirnı. ki, İsrail və Ərəblərin, Cənubi Afrika və Liviyanın sifarişlərini yerinə yetirərkən işləmək üçün qəbul etdiyi layihələrə mənəvi cəhətdən qiymət vermir. Lakin təsəvvür etmək asandır ki, bu cür münasibət ona xarici hökumətlərlə dayanıqlı gizlin əlaqələri uğurla qurmağa imkan verir və Mərkəzi Kəşfiyyat İdarəsi bunun çox faydalı olduğuna inanır. «Stenford Tədqiqat İnstitutu»nun nümayəndəsi *Gipson Cim Ridcuey* «BAĞLI KORPORASİYA» adlı kitabında «Stenford Tədqiqat İnstitutu»nun ayrıseçkilik qoymayan belə mövqeyini tərifləyir. «Federal Kontraktların Tədqiqat Mərkəzi»nim (Federal Contract Researclı Center) siyahılarına daxil edilməsə də, «Stenford Tədqiqat İnstitutu» bu gün özü ilə «Rend Korporasiyası» (Rand Corporation) və «Hudzon İnstitutu» (Hudson Institute) korporasiyalarını geridə qoyan çox iri bərbi beyin mərkəzmi təcəssüm etdirir.

downloaded from KitabYurdu.org

«Stenford Tədqiqat İnstitutu»nun xüsusi bölmələri arasında kimyəvi və bakterioloji müharibələrin aparılması üzrə eksperimental mərkəzlər də vardır.
«Stenfor Tədqiqat İnstitutu»nun fəaliyyətinin ən təhlükəli növlərindən biri mülki əhalinin qiyamlarının yatırılması üzrə əməliyyatlardır – hökumət «1984» kitabının ruhunda olan məhz bu cür işləri artıq öz vətəndaşlarına qarşı istifadə edir. ABŞ hökuməti bu cür çox mübahisəli «tədqiqatlara» görə «Stenford Tədqiqat İnstitutu»na hər il milyonlarla dollar ödəyir. STİdə kimyəvi silahlarla keçirilən eksperimentlərə qarşı tələbə etirazlarından sonra, «Stenford Tədqiqat İnstitutu» özünü 25 milyon dollara özəl qrupa «satdı». Reallıqda, əlbəttə, heç nə dəyişməyib – STI «Tavistok Insan Münasibətləri Institutu»nun layihəsi olaraq qalmaqda davam edir və hələ də Komitet 300-ün mülkiyyətidir. Lakin sadəlövlı insanlar bu cür, heç bir əlıəmiyyət kəsb etməyən kosmetik dəyişikliklərlə, deyəsən, qane olublar.

1958-ci ildə nə isə tamamilə yeni bir şey peyda oldu. Müdaflə Nazirliyinin kontraktlı sifarişlərini yerinə yetirən agentlik – «Ən Yeni Tədqiqatlar və Məhsullar İdarəsi» (Advanced Researclı Products Agency ARPA) tamamilə məxfi bir təkliflə «Stenford Tədqiqat İnstitutu»na müraciət etdi. Pentaqonun nümayəndəsi *Con Foster* «Stenford Tədqiqat İnstitutu»na ABŞ-ın «texnoloji sürprizlərdən» müdafiəsi proqrammı işləyib hazırlamağı təklif etdi. Fosterin yaratmaq istədiyi proqramda **ətraf mühitin özü bu şəraitdə silaha çevrilməli idi.** Başqa sözlə, o, vulkan püskürməsi və ya zəlzələ yarada biləcək xüsusi mərmilərə yiyələnmək istəyirdi. Bundan başqa, o, həm də potensial rəqiblərin davranışlarının mümkün modellərinin tədqiq olunmasını, eləcə də yeni silah növlərinin istehsalında istifadə edilə biləcək yeni mineralların və metalların yaradılmasını planlaşdırırdı. Layihə STİdə «Şeyki» (Shaky) kod adı altında qəbul edilmişdi. (İngiliscə «shaki» sözündən – «silkələnmə»; dayanıqsız, tərpənən, əsən, yellənən, şübhəli – tərc.) «Şeyki»nin çox böyük elektron beyini bir çox komandaları yerinə yetirə bilirdi. Layihənin kompüterləri «Stenford Tədqiqat İnstitutu» üçün İBM kompaniyası tərəfindən xüsusi konstruksiya əsasında yığılmışdı. «İnsanın genişləndirilməsi» («Human Augmentation») adı alan işin üzərində 28 alim çalışırdı. İBM-in kompüterləri hətta analoqlu məsələləri də həll edə bilirdi; kompüter onunla işləyən alimləri tanıya və onları identifikasiya etməyi bacarırdı. Bu maşının «tətbiq edə bildiyi xüsüsu işləri» təsəvvür etmək, onları qələmə almaqdan asandır. «TEXNOTRON ERA» kitabını yazanda Bjezinski nə dediyini yaxşı bilirdi.

Ölkə daxilində meydana çjxan sifcuasiyalarda hərbi texnologiyaların tətbiq olunmasına cohd edən «Stenford Tədqiqat İnstitutu» sayı onlarla oları mülki konsultativ firına ilə srx

downloaded from KitabYurdu.org

əməkdaşlıq edir. Bu həmişo baş tutmur, lakin texnologiyalar təkmilləşdikcə, Bjezinskinin qələmə aldığı kimi, hər yero sirayət edən müşahidonin perspektivləri reallığa çevrilir. O ARTIQ MÖVCUDDUR VƏ İSTİFADƏ OLUNUR, HƏRÇƏND ZAMANZAMAN ONUN XIRDA XƏTALARINA DÜZƏLİŞ VERMƏK LAZIM GƏLİR. Bu cür mülki konsultativ firmalardan biri Virciniya ştatında yerləşən «Şriver Makki Assoşieyts of Maklin» (Sdıriever McKee Associates of McLean) şirkəti idi. Ona «Titan», «Tor», «Atlas» və «Minitman» raketlərini. işləyib hazuiayan «HərbiHava Qüvvələri Sistemı İdarəsi»nin keçmiş şefi, istefada olan *General Bemara A.Şriver* (Bernard A.Sdıriever) rəhbərlik edirdi.
A.Şriverin yaralclığı konsorsiuma «Lokxid» (Lockheed), «Emerson Elektrik» (Emmerson Electric), «Nortrop» (Northrop), «Kontrol. Deyta» (Control Data), «Reyteon» (Raytheon) və «URBAN SYSTEM ASSOCİATES, İNC.» («Şohər Sistemləri üzrə Partnyorlae») adlı TRW daxil oldular. Konsorsium nə kimi məqsədlər güdürdü? Onun məqsədi sosial və psixoloji səciyyəli «şəhər problemlərini» ırlılasir elektron sistemlərdən istifadə etməklə hərbi lexnologiyaların köməyi ilə həll etmək idi. Qeyd etmək ınaraqlıdır ki, «Urban System Associates» ilə müştərək işin nəticəsində TRW kredit informasiyasının toplanınası üzrə I ın iri kompaniyaya çevrilmişdi.

Bütün bunlar onu göstərir ki, bizim ölkə artıq total lıozarət şəraitində yaşayır və bu, Komitet 300-ün hələ ilk lələbicür. Hər bir fərd üzərində total nəzarət olmadan heç hir diktatura, xüsusilə də qlobal diktatura öz funksiyasını yerinə yetirə bilməz. «Stenford Tədqiqat İnstitutu» Komitet 300-ün həlledici tədqiqat təşkilatı olmağa real şəkildə hazırlaşırdı.

1980-ci illərdə «Stenford Tədqiqat İnstitutu»nun həm hərbi, həm də mülki sahələrdə tətbiq olunmaq üçün nəzərdə tutulan kontraktlarının 60 %-i «gələcəyə» həsr olunurdu. Onun əsas müştərüəri Müdaflə Nazirliyinin «Müdaflə Tədqiqatları və Texnikası Direktorluğu» (Direclorate of Defense Researclı and Engineering), «Tədqiqatların İdarə Olunmasına «Davranış Haqqında Elmlərin» Tətbiqi» («Applications of the Behavioral Sciences to Ivesearclı Management») mövzusu üzrə işləyon «Aerokosmik Tədqiqatlar İdarəsi» (Office of Aerospace Research), frezidentin İcra İdarəsi, «Elın və Texnika üzrə İdarə» (Office of Science and Technology), ABŞ-ın Səhiyyə Nazirliyi idi. «Stenford Tədqiqat İnstitutu» Səhiyyə Nazirliyi adından «ESDEAda nümunələr. I fəsil, mütaliənin təkmilləşdirilməsi testləri» («Pattern in ESDEA Title I Reading Achievment Tests») proqrammı həyata keçirirdi. STInin digər müştəriləri ABŞ-ırı Energetika Nazirliyi, ABŞ Əmək Nazirliyi, Noqliyyat NazirJiyi və Milli Elmj Fondu (MEF – National Science Foundation (NSF)) idi. Milli elm Fondu üçün işlənib- hazırlanmış və «Gələcəyin qiymətləndirilməsi və beynəlxalq problemlər» adlandırılan məqalə xüsusilə vacib əhəmiyyət kəsb edirdi.

downloaded from KitabYurdu.org

Stenford mərkəzi, Londondakı «Tavistok İnsan Münasibətləri İn.stitutu»nun rəhbərliyi altında «Biznesdə casusluq proqramı» («Business Intelligence System») adlandırılan genişəhatəli və qorxunc sistem hazırlayıb. ABŞ-da və bütün dünyada 600-dən çox kompaniya onun abunəçisi olub. Proqram «Yaponiyanın beynəlxalq işgüzar münasibətləri», «Qeyri-sabitlik dövründə istelılakın marketinqi», «Beynəlxalq terrorizmin artmaqda olan təhlükəsi», «Qida məhsullarının sensor qiymətləndirilməsi», «Pul köçürmələrinin elektron sistemi», «Elektronoptik ötürücülər», «Tədqiqatların planlaşdırılması metodu», «ABŞ-ın Müdaflə Sənayesi və kapital mənbələri» (U.S. Defense Industry and Capital Avadability) kimi tədqiqat mövzularını əhatə edir. Komitet 300-ün «Bextel Korporeyşn» (Bechtel Corporation; Corc Şults bu kompaniyanın Direktorlar Şurasının heyətinə daxil idi), «Hüllet Pakkard» (Hewlett Packard), TRW, «Benk o Amerika» (Bank of America), «Şell», RCA, «Blit» (Blyth), «İstman Dillən» (Eastman Dillən), «Saqa Fuds Korporeyşn» (Saga Foods Corporation), «Makdonell Duqlas» (McDonnell Douglas), «Kroun Zellerbax» (Crown Zellerbach), «Uells Farqo Bank» (Wells Fargo Bank) və «Kayzer İndastriz» (Kaiser Industries) kimi həlledici kompaniyaları da bu proqramın müştəriləri olmuşdu.

Lakin «Stenford Tədqiqat Institu tu»nun BirJəşmis .Şlatların inkişaf istiqamətini dəyişmək yolu ilə sosial, mənəvi və dini cəhətdən çox böyük ziyan vura biləcək **ən qorxunc proqramlarından biri, «Stenford Tədqiqat İnstitutu»nun «Çarlz F. Katterinq Fondu» tərəfindən ha/ırlanan «İNSAN OBRAZININ DƏYİŞDİRİLMƏSİ» («CHANGING IMAGES OF MAN») PROQRAMDIR.** Bu proqramın «Stenford Tədqiqat İnstitutunda» rəsmi adı «Kontrakt Ne URN (489)2150, Siyasi tədqiqatlar haqqında məruzə N» 4/4/74, STİnin «Sosial Siyasətin Oyronilməsi üzrə Mərkəzi» tərəfindən hazırlanıb, rəhbəri Villis Harmon» («Contract Number URLI (489)2150 Policy Researclı Report Number 4/4/74, Prepared by SRI Center for **the** Study of Social Policy, Director Willis Irlarmon»).
319 səhifədən ibarət olan mərüzə «favistok İnsan Münasibətləri İnstitutu»nun və 23 nəfər yüksək nəzarətçirun, o cümlədən də B.F.Skiner, Marqaret Mid, Ervin Laslo və Böyük Britaniyanın Mİ-6 kəşfiyyatının yüksək vəzifəli zabiti *Ser Ccfri Vikkersin* nəzarəti altında 14 nəfər «Yeni elm» üzrə alimmütəxəssis tərəfindən yazılıb. Xatırlatmaq lazımdır ki, Cefri Vikkersin kürəkəni, Ser Piter Vikkerslioll mühafizəkar adlandırılan «Miras Fondu»nun təsisçi-üzvüdür. 1981-ci ilin yanvarında Reyqan administrasiyasına ötürülən 3.000 səhifədən ibarət «tövsiyələrin» böyük qisını Villis Harmonun «İNSAN OBRAZININ DƏYİŞDİRİLMƏSİ» proqramından götürülon materiallara əsaslanırdı.
Məruzə ABŞ hökuməti tərəfindən qəbul olunandan beş gün sonra mən həmkarkəşfiyyatçıdan «İNSAN OBRAZININ DƏYİŞDİRİLMƏSİ» məruzəsinin bir nüsxəsini almaq imtiyazına

downloaded from KitabYurdu.org

layiq görüldüm. Oxuduğum məni dəhşətə gətirdi, çünki anladım ki, Amerikanın gələcəyinin proqramına baxıram və bu, indiyə qədər məlum olan heç nəyə bənzəmir. Millət dəyişikliklərə proqramlaşdırılmalı və planlaşdırılan bu cür dəyişikliklərə elə bir dərəcədə vərdiş etməlidir ki, həqiqətən də çox dərin dəyişikliklər artıq nəzərə çarpmayacaq, nəzərə çarpsa da, bu, çox cüzi hiss olunacaqdır. «DOLÇA SUİQƏSDİ» («THE AQUARIAN CONSPIRACY» – Villis Harmonun texniki işinin kitab variantının adıdır) yazılan vaxtdan biz üzüaşağı elə bir sürətlə yuvarlanırıq ki, bu gün boşanma halları artıq ittiham doğurmur, özünəqəsdlər, intiharlar sürətlə artsa da demək olar heç kəsi heyrətləndirmir, özünə hörmət edən cəmiyyətdə haqqında danışılması vulqarlıq hesab olunan sosial normalardan sapmalar və seksual biabrrçılıqlar adi təzahürlərə çevrilmiş və artıq azcox kəskin heç bir etiraza səbəb olmur. Bir millət olaraq biz «İnsan obrazının dəyişdirilməsi» proqramının amerikan həyat tərzimizi köklü surətdə necə dəyişdirdiyini görə bilmədik. Biz «Uoterqeyt sindromu» ilə sarsıdılmış vəziyyətdə idik. Niksonun ucuz yoldan ötən adam olduğu barədə eşidəndə, Erl Vorrenin mafioz dostlan ilə birlikdə Nikson üçün tikdirdikləri əla evdə onun bu adamlarla oturubdurduğundan xəbər tutanda, biz bir müddət şok və ümidsiz vəziyyətdə idik. «Gələcək təlatümlər» və xəbər başlıqları şüurumuza həddindən çox təsir göstərəndə biz çaşbaş vəziyyətə düşürük; ya da hər gün üzləşdiyimiz seçmək imkanının çox geniş spektri bizi o qədər çaşdırır ki, artıq clüzgün seçim etmək iqtidarında olmuraq.

Hamısından pis isə budur ki, yüksək vəzifəli dövlət adamları arasında cinayotlor və Vyetnam müharibəsinin faciələri barədə şok faktlar haqqında informasiya uçqunundan sonra bizim cəmiyyət, görünür, artıq hoqiqoti heç bilmək də istəmir. Belə bir reaksiya Villis Llarmonun işində təfərrılalı ilə qələmə almıb. Qısası, necə proqramlaşdırılmışdısa, Amerika milləti məhz o cür də reaksiya verirdi. Bundan da daha pisi odur ki, həqiqəti qəbul etmək istəməməklə biz bir addım da irəli gedirik: istəyirik ki, hökumət özü bizi həqiqotdən təcrid etsin.

Biz Reyqan və Buş administrasiyalarının korrupsioner üfunətini qalın məzar torpaq qatı altında dəfn etmək istəyərdik. Biz, «İran – kontras işi (və ya qalmaqalı)» adı alan cinayətin açılmasını istəmirdik. Biz Prezidentə 1980-ci il oktyabrın 2023 tarixlərində harada olduğu haqqında bizə yalan danışmasına izn veririk. Lakin əslində bu cinayətlər öz əhatəsinə görə Niksonun prezident postunda olduğu dövrdə törətdiklərini qat-qat üstələyirdi. Dağın yamacı ilə əyləcsiz-filansız sürətlə aşağı yuvarlandığımızı biz bir millət olaraq anlayırıqmı?

Xeyr, biz bunu anlamırıq. Məsələ də elə ondadır ki, özəl, yaxşı təşkil olunmuş «kiçik hökumətin» Ağ Evdə bir-birinin ardınca cinayət törətdiyini – bunlar millətin qəlbini yaralayan və respublika üsul-idarəsinin üzərində qurulduğu dayaqları məhv edən

downloaded from KitabYurdu.org

cinayətlərdir – xalqa çatdırmağa borclu olan adamların özləri, bizə belə söhbətlərlə ictimaiyyəti narahat etməməyi məsləhət görürlər. «Bütün bu qondarına mülahizələr haqqında biz həqiqətən də heç nə bilmək istəmirik» – standart cavab bax bu cürdür.

**İTİRİLMİŞ MİLLƏT**

Ölkənin ali seçkili şəxsi BMT-nin normalarını Birləşmiş Ştatların Konstitusiyasından açıq-açığına yüksək tutduğu vaxt – bu, impiçmentə layiq pozuntudur – əksəriyyət bunu «normal hal» kimi qəbul edir. Ölkənin ali vəzifəli şəxsi Konqres müharibə elan etmədən müharibə başladığı vaxt (kütləvi informasiya vasitələri bu faktı hiss etdilər) biz həqiqətin gözünə cəsarətlə baxmaq əvəzinə, yenə də bizə nəyi yedizdirirlərsə, onu da qəbul edirik.

Prezidentimizin qabaqcadan düşündüyü və planlaşdırdığına uyğun olaraq, Fars körfəzində müharibə başlayanda biz xəbərlərin üzərinə qoyulan çox amansız senzuradan xoşbəxt olmaqla yanaşı, həm də onu bütün qəlbimizlə qəbul etdik. Çünki səmimi olaraq hesab edirdik ki, senzura «müharibəni aparmaq üçün faydalıdır». Bizim Prezident yalan danışırdı, *Eypril Qlaspi* (April Glaspie) yalan danışırdı, Dövlət Departamenti yalan danışırdı. Onlar deyirdilər ki, müharibə özünü doğrtıldur, çünki Prezident Hüseynə (Səddam) Küveyti rahat qoyması barədə xəbərdarlıq edilmişdi. Qlaspinin Dövlət Departamentinə göndərdiyi teleqramlar, nəhayət, dərc olunanda Birləşmiş Ştatların senatorları bir-birinin ardınca çıxış edərək, fahişə Qlaspini müdaflə etməyi tələb etdilər. Əhəmiyyəti yoxdur ki, bunlar həm demokratlar, həm də respublikaçılar idi. Biz onlara rəzil yalanlarına görə cəzadan qaçmağa imkan verdik.
Amerika xalqının belə münasibəti zəminində Villis I larmonun və onun alimlər komandasının ən vəhşi arzulən da reallığa çevrilir. Bir vaxtlar qüdrətli xalqın özünəhörmət və özünəqiymət hissinin alt-üst olunması işində əldə etdiyi uğrunu bayram edən «Tavistok İnsan Münasibətləri İnstitutu» kef edirdi. Bizə dedilər ki, Fars körfəzində müharibəni udmuştıq. Lakin amerikalıların əksəriyyəti hələ hiss etməyib ki, qələbə onlara millətin özünəhörmət və şərəfi bahasına başa gəhb. Onlar (millətimizin özünəhörməti və şərəfi. – Y.Ə.) Küveytin və İraqın kimsəsiz sohralarında, amansızcasına və mənasız surətdə qırdığımız İraq əsgərlərinin cəsədləri ilə yanaşı, çürüyüb yox olmaqdadır. Biz öz sözümüzün üstündə dura bilmədik, halbuki Cenevrə Konvensiyasına uyğun olaraq biz buna sadiq qalmalı və Küveyt və Bəsrədən geri çəkilən İraq əsgərlərinə hücum etməməli idik. Nəzarətçilər bizdən soruşurdular: «Siz nə istəyirsiniz, qələbə, yoxsa özünəhörmət? Sizdə həm bu, həm də o birrola bilməz».

downloaded from KitabYurdu.org

Yüz il əvvəl belə bir şey baş verə bilməzdi, indi isə baş verib və tam laqeydliklə müşayiət olunur. Biz «Tavistokun» millətimizə qarşı apardığı hər yerə sirayət edən genişmiqyaslı müharibəsində duruş gətirə bilmədik. «Strateji Bombardmanların Planlaşdırılması İdarəsi» tərəfindən sındırılan almanlar kimi, bizim bir çoxumuz dözmədi və millətimiz keçmişin totalitar rejimlərinin yalnız arzulaya bildiyi bir şeyə çevrildi. Onlar deyərdilər: «Budur, dünyanın həqiqəti bilmək istəməyən böyük millətlərində.n biri. Bizə bundan sonra təbliğat idarələri gərək deyildir. Bizə bu millətdən həqiqəti gizlətmək üçün səy göstərmək lazım deyildir, onlar həqiqəti öz istəkləri ilə rədd edirlər. Bu, boş millətdir».

Bizim bir vaxtlar qürurlu Amerika Birləşmiş Ştatları Respublikamız cinayətkar təşkilatların yığnağına çevrilib; tarix göstərir ki, bunlar – totalitarizmin başlanğıcının əlamətləridir. Amerikanın 1991-ci ilin sonlarında mövcud olduğu daimi dəyişikliklər arenası bax bu cürdür. Biz ölməyə proqramlaşdırılmış, çürüməkdə olan cəmiyyətdə – gələcəyi olmayan cəmiyyətdə yaşayırıq. Biz 4 milyon evsiz, 30 milyon işsiz, hətta qətlə yetirilmiş 15 milyon körpə (abortların nəticəsində) barədə xəbərlərdən heç diksinmədik də. Onlar – «dolça erasının tullantılarıdır». Bu sui-qəsd o qədər iyrəncdir ki, çoxları onunla üzbəüz gələndə onun varlığına inana bilmir və bu hadisələri rasionalcasına «zəmanə dəyişir...» kimi izah edirlər.

«Tavistok İnsan Münasibətləri İnstitutu» və Villis Harmon bizdə məhz elə bu cür reaksiya proqramlaşdırırlar. Bizim ideallarınının dağıdılması etiraz doğurmur. Bizim xalqın ruhi və intellektual potensialı sarsıdılıb! Prezident Buş 1991-ci il mayın 27-də çox dərin bir bəyanatla çıxış etdi, lakin siyasi icmalçılarımız, şərhçilərimiz onun mahiyyətini, görünür, düzgün izah etməmişdilər:

*«Amerika siyasətinin mənəvi tərəfi bizdən elə bir dünyanın mənəvi kursu ilə getməyi tələb edir ki, burada pisliklər arasında ən az pis olanı seçilir. Yalnız ağ və qara rənglərə bölünməyən real dünya məhz elə budur. Burada mənəvi dəyərlər çox azdır».*
Ağ Evə nə vaxtsa sahib olanlar arasında, çox güman, ən qorxunc adam olan prezidentdən daha nə gözləmək olardı?

Onun bu sözləri üzərində düşünün və düşünərkən, onun 12.000 iraqlı əsgəri diridiri basdırmağı əmr etdiyini xatırlayın. Onun bu sözləri üzərində düşünün və davam edən müharibəni və İraq xalqının genosidə məruz edilməsini xatırlayın. Prezident Buş Səddam Hüseyni məmnunluq hissi ilə «zəmanəmizin Plitleri» kimi xarakterizə edib. O, öz sözlərini təsdiq etmək üçün azçox həqiqətə uyğun olan bir dəlil belə gətirmədi. Buna sadəcə olaraq

downloaded from KitabYurdu.org

ehtiyac yox idi. Prezident Buş bəyanatla çıxış etdi – biz də sorğusualsız bunu qəbul etdik. Bu haqda həqiqəti nəzərə alaraq düşünün – axı o, əmrləri gizlin olaraq Komitet 300-dən alsa da, bütün bunları Amerika xalqının adından edirdi.

Lakin ən əsası fikir süzgəcinizdən bax bunu keçirin: Prezident Buş və onun hamiləri özlərini o qədər cəzasız hiss edirlər ki, Amerika xalqı üzərində öz qorxunc nəzarətlərini artıq gizlətməyə və ya bununla əlaqədar nə isə uydurmağa belə lüzum görmürlər. Onun bəyanatından birbaşa belə çıxır ki, əgər onu (və bizi) idarə edənlər lazım bilərlərsə, onda o, – bizim liderimiz həqiqət, şərəf və ləyaqətlə hər cür kompromisə gedəcəkdir. 1991-ci il mayın 27-də Birləşmiş Ştatların prezidenti bizim Konstitusiyanın bütün prinsiplərini ləğv etdi və cəsarətlə elan etdi ki, o, daha Konstitusiya ilə bağlı deyildir. Bu, «Tavistok İnsan Münasibətləri İnstitutu»nun və 1945-ci ildə hədəfə aldığı alman fəhlələrinin yaşayış kvartalları əvəzinə, 1946-cı ildən başlanan və bu günə qədər də davam edən müharibədə Amerika xalqının qəlbini hədəfə alan «Strateji Bombardmanların Planlaşdırılması İdarəsinin böyük zəfəridir.

«Stenford Tədqiqat İnstitutu» bizim millətin dəyişdirilməsi məqsədüə ona gücləndirilmiş tozyiqi altmışıncı illərin əvvollərindən göstərməyə başlayıb. STİnin hücumunun gücü və qüdrəti artırdı. Televizorunuzu işə salın və siz «Stenford Tədqiqat İnstitutu»nun qoləbəsini əyani şəkildə görəcəksiniz: ən intını seksual təfərrılatlar mövzusunda tokşoular, əxlaqsızlığın, roknrollun və narkotiklərin hökmranlıq etdiyi xüsusi telekanallar. Bir vaxtlar Con Veytin kumir olduğu yerdə biz indi insanın (və ümumiyyətlə, insanınını?) süni apologiyası olan, lakin qəhrəman kimi qəbul edilən Maykl Cekson adlı insan parodiyasını görür, o isə bu vaxt Amerikanın milyonlarla evinin televiziya ekranlarında fırlanır, əlayaq atır, donquldanır və ciyildəyir.

Kütləvi informasiya vasitələri ərəgetmə və boşanma ilə bağlı bütöv bir serialdan keçən qadın haqqında bütün ölkəyə car çəkir. Hamam üzü görməyən narkomanların və dekadent rokqrupların bu və ya digərinə, onların ağlasığmaz səsküyünə, ağılsız səhnə hərəkətlərinə, geyimlərinə və nitq biabırçılıqlarına saatlarla efir vaxtı həsr olunur. Bəzi səhnələri pornoqrafiyaya yaxınlaşan köpük tamaşalar artıq heç bir şərlı doğurmur. Altmısıncı illərdə buna dözməzdik, indi isə bu, normal hal kimi qəbul olunur. Biz «Tavistok İnsan Münasibətləri İnstitutu»nun «gələcəyin şokları» adlandırdığı proqramın təsirinə məruz edilmişik, özü də həmin gələcək ARTIQ GƏLİBDİR. Həmin bu daimi mədəni şoklar bizim hissiyyatımızı o dərəcədə kütləşdirib ki, buna istənilən etiraz faydasız hərəkət hesab olunur və buna görə də, məntiqi olaraq, etiraz etməyin heç bir mənasının olmadığını düşünürük.

downloaded from KitabYurdu.org

1986-cı ildə Komitet 300 təzyiqi artırmağı omr etdi. ABŞ-ın süqutunun süroti kifayət qədər böyük deyildi. Birləşmiş Ştatlar Kamboca qəssablarının, Kambocanın 2 milyon vətəndaşını öldürdüklərini özləri etiraf etmiş cinayətkar PolPot rejiminin «tanınması» prosesini başladı. 1991-ci ildə tokor tam dövrəsini vurdu. Birləşmiş Ştatlar, Vaşinqton xovanotkarlarına inanmağa proqramlaşdırılmış dost xalqın üzərinə müharibə ilə getdi. Biz İraq kimi azsaylı millətin Prezidenti Soddam Hüseyni HEÇ BİRİ UZAQDANUZAĞA DA HƏQİQƏT OLMAYAN hər cür günahda ittiham edirdik. Biz onların övladlarını qətlə yetirir və şikəst edirdik, biz onları aclıq və hər cür xəstəliklərin gətirdiyi ölümün pəncəsində qoyub getdik.

Eyni vaxtda da biz Buşun Komitet 300-dən olan emissarlarını Kambocaya, Komitet 300-ün şəhər əhalisinin kəskin ixtisarı (depopulyasiya) eksperimentinə qurban verilən 2 MİLYON KAMBOCALINI KÜTLƏVİ SURƏTDƏ QIRMIŞ CİNAYƏTKARLARI tanımağa göndərdik. Eyni şey artıq o qədər də uzaq olmayan gələcəkdə Birləşmiş Ştatların böyük şəhərlərində də baş verəcəkdir. İndi Buş və onun Komitet 300-ə tabe olan administrasiyası faktiki olaraq bunu deyir: «İnsanlar, dinləyin, axı siz məndən nə istəyirsiniz? Mən sizə deyirdimmi ki, hətta lap polpotçu qatillərlə bir yastığa baş qoymaq lazım gəlsə belə, harada lazım bilsəm, orada kompromislərə gedəcəm. ODUR Kİ – MƏNİM BUDLARIMI ÖPÜN».

Cəmiyyətin dəyişdirilməsi məqsədilə ona edilən təzyiq öz pik həddinə 1993-cü ildə çatacaq və onda biz elə bir səhnələrin şahidi olacağıq ki, bunlan əvvəllər qeyri-mümkün hesab edərdik. Sarsıdılmış, çaşbaş qalmış Amerika reaksiya verəcək, lakin çox zəif. Bizi heç azadlığımıza qəsd edən ən sonuncu təhlükə də qətiyyən narahat etmir – bu, personal kompüter kartlarıdır. Villis Harmonun «İNSAN OBRAZININ DƏYİŞDİRİLMƏSİ» kitabındakı ideyaları dərk etmək əksəriyyət üçün həddən artıq mürəkkəbdir, buria görə də onları daha anlaşılan etmək üçün Merilin Ferqüsonun xidmətinə müraciət etdilər. «Dolça Erası» adı altında səhnədə striptizşoular keçirilir, «Dolça Bürcünün Şəfəqi» («The Dawning of the Age of the Aquarius») malınısı isə hitparadların yuxarı sətirlərini tutub və bütün dünyanı dolaşır.

Onları tam yayandan sonra fərdi kompüter kartları bizi adət etdiyimiz ətraf mühitdən məhrum edəcəkdir. Aşağıda isə görəcəyik ki, ətraf mühit anlayışı qəbul edildiyi mənadan qat-qat böyük əhəmiyyət kəsb edir. Birləşmiş Ştatlar dünyada hələ heç bir mülətin almadığı çox güclü mənəvi zədə alıb və baş verə biləcək ən pis hadisələr hələ qarşıdadır.

Hər şey «Tavistokun» sərəncam verdiyi kimi və stenfordlu «sosioloqların» planlarına uyğun baş verir. **Zəmanə dəyişmir – onu dəyişdirirlər. Bütün dəyişikliklər əvvəlcədən**

downloaded from KitabYurdu.org

**planlaşdınlıb və çox dəqiq ölçülübbiçilmiş fəaliyyət nəticəsində baş verir.** Əvvəl biz yavaşyavaş dəyişirdik, lakin indi dəyişmənin sürəti artır. Birləşmiş Ştatlar «bir Allahın altında olan vahid millətdən», müxtəlif Allahların altında olan çoxdilli konqlomerata çevrilir. ABŞ artıq «bir Allahın altında olan vahid millət deyildir». Konstitusiyanın əsasları məğlubiyyətə düçar oldu.
Bizim əcdadlarımız bir dildə danışır, eyni bir dinə – Xristian dininə sitayiş edir və ümumi idealları rəhbər tuturdular. Bizim mühitimizdə yadlar yox idi; bu, bir müddət sonra, ölkəni bir sıra millətə, mədəniyyətə və inanca parçalamaq cohdi kimi goidi. Əgər siz buna şübhə edirsinizsə, onda şonbo günü NvuYorkun İstSaytında və ya LosAncelesin VestSaytında gəzintiyə çıxın və ətrafa diqqət yetirin. Birləşiniş Ştatlar bir ümumi hökumət sistemi altında birgo yaşamağa çalışan bir neçə millət olub. Komitet 300-ün başçısının kuzeni («kuzen» – əmi, bibi, dayı və ya xala oğlu; burada: xalaoğlu – Y.Ə.) Franklin Delano Ruzvelt immiqrasiyanın şlüzlərini geniş açanda mədəni təlatüm böyük çaşqınlıq və dolaşıqlıq doğurdu və nəticədə «vahid millət» konsepsiyası pozulmuş oldu. «Roma Klubu» və NATO vəziyyəti daha da ağırlaşdırdı. Əgər sizm əzizmiz «sizm özünüz kimi» deyilsə, deməli, «öz yaxınını sev» formulu artıq işləmir.

Bizim Konstitusiyanı yaradanların gələcək nəsillərə bəyan etdikləri həqiqətlər onların özləri üçün birmənalı və aşkar idi. Lakin növbəti nəsillərin də bunları birmənalı və aşkar həqiqət kimi qəbul edib, bunlara mütləq əməl edəcəklərinə əmin olmadıqlarından, ONLAR BU HƏQİQƏTLƏRİ TƏFƏRRILATI İLƏ TÖVSİF ETMƏYİ QƏRARA ALIBLAR. GÖRÜNÜR, ONLAR ÖZLƏRİNİN ƏMƏL ETDİKLƏRİ HƏQİQƏTLƏRİN NƏ ZAMANSA ÖZ MÜTLƏQLİYİNİ İTİRƏCƏYİNDƏN QORXURMUŞLAR. «Tavistok İnsan Münasibətləri İnstitutu» ABŞ Konstitusiyasını yaradanları belə bərk qorxudan zəmanənin gəlməsi üçün əlindən gələni əsirgəmədi. Bu zəmanə Buşun gəlişi ilə, ondakı «mənəvi dəyərlərin yoxluğu» və Komitet 300-ün Yeni Dünya Nizamı ilə gəldi.

Bu, Amerikaya sırınan sosial dəyişikliklər konsepsiyasının tərkib hissəsidir. Bu konsepsiya, V.Harmonun və «Roma Klubu»nun sözlərinə görə, amerikalılar üçün ciddi psixoloji zədə və getdikcə artan təzyiq demək olacaqdır. «Tavistok», «Roma Klubu», NATO yaradılan dövrdən ABŞ-da başlanan ictimai özbaşınalıqlar, həmin dəyişikliklərə nail olunana qədər davam edəcəkdir. Millət fərdlərdən ibarətdir və fərdlərdə olduğu kimi, bütöv milJətin də müəyyən psixoloji həddi vardır ki, ondan sonra, fərdin və ya millətin gücündən asılı olmayaraq, dəyişiklik artıq mümkün deyildir.

downloaded from KitabYurdu.org

Bu psixoloji həqiqət alman fəhlələrinin yaşayış kvartallarını «doymaq həddinin son nöqtəsinədək» bombardman etməyi tövsiyə edən «Strateji Bombardmanların Planlaşdırılması İdarəsi» tərəfindən etibarlı surətdə təsdiq olunub. Əvvəl də xatırladılan kimi, bu layihə «Prudenşial İnşurans Kompani» Sığorta Şirkətinin bayrağı altında hazırlanırdı və bu gün heç kəs şübhə etmir ki, Almaniya məhz bu əməliyyatın nəticəsində məğlubiyyətə düçar olub. Bu layihə üzərində çalışan alimlərin bir çoxu hazırda ya Amerikanın «doymaq həddinin son nöqtəsinədək» bombardman edilməsi üzrə işləməkdə davam edir, ya da məkrli metodlarını öz davamçılarına ötürmüşlər.

Onların özlərindən sonra qoyduqları miras bu faktda təzahür edir – bir millət olaraq biz yohımuzu özümüz itirməmişik. Müstəqillik Deklarasiyasının müəlliflərinin mihətimizi iki yüz ildən çox bir müddət ərzində apardıqları yoldan bizi məqsədyönlü surətdə sapdırıblar. Qısası, biz öz tarixi köklərimizlə əlaqəni itirmişik. Biz, Müstəqillik Deklarasiyası və Birləşmiş Ştatlar Konstitusiyası banilərinin mirasından istifadə edərək, amerikalıların bir çox nəsillərini millətin irəliyo hərəkətinə ruhlandıran inamı itirmişik. Bu nə qədər acı da olsa, bizim öz yolumuzu itirməyimiz həqiqət axtarısında olan hər bir kəsə aydındır.

Buş və onda olan «mənəvi dəyərlər yoxluğunun» rəhbərliyi altında bizim itmiş bir millət olaraq hara süründüyümüz məlum deyil və bu özünü fərdlərin əhvalruhiyyəsində büruzə verir. Biz öz süqutumuz və özümüzün əsarət altına düşməyimiz üçün Komitet 300-lə əməkdaşlıq edirik. Bəziləri bunu hiss edir və ağır narahatlıq keçirir. Onların tanış oldtıqları sui-qəsd nəzəriyyələri, görünür, onlara hər şeyi sonacan açmağa imkan vermir. Bu ona görə belədir ki, onlar Sui-qəsdçilər İerarxiyası – Komitet 300 barədə heç nə bilmirlər.

Qətiyyən baş verməməli olan nəyin isə baş verdiyini hiss edən və bundan dərin narahatlıq keçirən bu qəlblər yenə də problemləri həll etmək üçün öz güclərini bir yumruqda birləşdirə bilmir, qaranlıqda axtarışlarını davam etdirirlər. Onlar gələcəyi görməyə can atır, lakin gələcək sürüşüb onlardan uzaqlaşır. Amerikan arzusu ilğıma çevrilir. Onlar öz inamlarını dinə yönəldir, lakin bu inamı ƏMƏLLƏ möhkəmləndirmək üçün heç bir addım atmırlar. Avropalıların Qara Əsrlərin ən qorxunc dövründə yaşadıqları intibahı amerikalılar heç vaxt yaşamayıblar. Avropalılar özlərində dəyişmək ruhunu qətiyyətli ƏMƏLLƏRİ ilə oyatmışdılar və bunun nəticəsi şərəfli İntibah oldu.

....

Onları bu nəticəyə istiqamətləndirmiş düşmən 1980-ci ildə Birləşmiş Ştatlara elə güclü zərbə endirməyi qərara aldı ki, Amerikanın intibahı artıq mümkün olmasın. Bu düşmən axı

downloaded from KitabYurdu.org

kimdir? Həmin düşmən – simasız «onlar» deyil. Düşmən Komitet 300, «Roma Klubu», NATO və onların «Tavistok» tərəfindən idarə olunan filialları, beyin mərkəzləri və tədqiqat təşkilatlan timsalında dəqiqmüəyyən edilib. «Onlar» və ya «düşmən» sözlərini istifadə etməyə ehtiyac yoxdur, bu kəlmələrdən yalnız mətnin qısaldılması üçün istifadə etmək olar.

BİZ HƏM «ONLARIN» KİM OLDUQLARINI, HƏM DƏ DÜŞMƏNİN KİM OLDUĞUNU BİLİRİK. Özünün ABŞ-ın şərq sahillərinin liberal isteblişmentinin «aristokratları», bankları, sığorta kompaniyaları, nəhəng korporasiyaları, fondları, kommunikasiya şəbəkələri və onların başında duran SUİQƏSDÇİLƏR İERARXİYASI ilə birlikdə Komitet 300 – DÜŞMƏN BAX, BUDUR.

Bu qüvvə **...**Birinci və İkinci dünya müharibələrini başladı, Koreyada, Vyetnamda müharibəyə təhrik etdi, Rodeziyada, Cənubi Afrikada, Nikaraquada və Filippində böhranlar təşkil etdi. Bir vaxtlar dünyanın ən qüdrətli industrial fövqəldövləti olan ABŞ iqtisadiyyatının istiqamətləndirilən süqutunu və ölkənin tanj demdustrializasiyasını bu gizlin fövqəlhökumət həyata keçirib.
Bu gün Amerikanı döyüşün qızğın çağında qəfil yuxuya getmiş əsgərə bənzətmək olar. Biz, amerikalılar, sadəcə olaraq yuxuya getdik və özümüzü həddən ziyadə çox seçim imkanları ilə əmələ gətirilən apatiyaya qərq etməyə imkan verdik. Bu dəyişikliklər bizi əhatə edən mühiti transformasiyaya uğradır, bizi müqavimət göstərmək üçün iradədən məhrum edir – biz süstləşirik, apatik oluruq və ən nəhayət, döyüşün qızğın çağında bizi yuxu aparır.

Bu cür vəziyyət üçün texniki terının var. Bu terının «dərin sirayət edən uzunmüddətli gərginlik» adlanır. Böyük insan qruplarına dərin sirayət edən uzunmüddətli gərginlik vasitəsilə təsir göstərmək sənəti (və ya incəsənəti. – Y.Ə.) «Tavistok İnstitutu» və onun Amerikadakı törəmə təşkilatları – «Stenford Tədqiqat İnstitutu», «Rend Korporeyşn» və bir də ABŞ-da fəaliyyət göstərən ən azı 150 tədqiqat idarəsi tərəfindən işlənib hazırlanıb.

Müharibə aparmağın bu iblisanə üsullarını işləyib hazırlayan alim – d-r Kurt Levin orta amerikalı vətənpərvəri müxtəlif sui-qəsd nəzəriyyələrinə mübtəla olaraq dəli olmağa məcbur etməklə onda inamsızlıq, təhlükə, tənhalıq və hətta qorxu hisslərini meydana gətirib. Bu əhvalruhiyyə həmin vətənpərvərdə «İNSAN OBRAZININ DƏYİŞDİRİLMƏSİ» konsepsiyasının doğurduğu ictimai düşkünlük və çürümənin səbəblərini axtarmağa cəhd edib, lakin bunu heç cür tapa bilmədikcə meydana çıxır. O, arzuolunmaz və həyata keçməsini mümkün hesab etmədiyi, lakin, bununla belə, getdikcə daha intensivləşən sosial

downloaded from KitabYurdu.org

mənəvi, iqtisadi və siyasi dəyişiklikləri nə öyrənib-tanımaq, nə də, xüsusilə, onlara qarşı durmaq iqtidarında deyil.

D-r Levinin adı bizim isteblişmentin tarixinə həsr olunmuş heç bir kitabda yoxdur. Belə kitabların mahiyyəti isə son nəticədə hadisələrin, əsasən hökmran sinfin və ya müharibədə zofər çalanların nöqteyi-nəzərindən qələmə alınmasından ibarətdir. Buna görə də mən bu adı sizə qürur hissi ilə təqdim edirəm. Yuxarıda qeyd olunduğu kimi, d-r Levin «Tavistok İnsan Münasibətləri İnstitutu»nun bayrağı altında «Harvard Psixoloji Klinikası»nı və «Sosial Tədqiqatlar İnstitutu»nu təşkil edib. Bu iki təşkilatın adı onların əsl məqsədlərini qətiyyən açmır.

Bu mənə 1827-ci ildə qəbul olunnnuş «Pul nişanları və zərbxana (pulkəsən idarə. – Y.Ə.) haqqında» qanunvericilikdə islahatlarla bağlı utanc gətirən «Bill» (Konstitusiyaya əlavə kimi nəzərdə tutulan qanun layihəsi) barədə hadisəni xatuiadır. «Bill»in adı kifayət qədər xətərsiz idi və ya xətərsiz səslənirdi onun arxasında duranlar qəsdən məhz belə bir ad seçmişdilər. Senator Con Şerman həmin «Bill» vasitəsilə milləti beynəlxalq bankirlərin əlinə vermiş oldu. Ehtimal olunur ki, Şerman «Bill»i, «özü onu heç oxumadan» irəli itələyirdi. Artıq bildiyimiz kimi, «Bill»in əsl məqsədi yalnız gümüş yox, istənilən başqa pul nişanları və xırda pulların da dövriyyəsinə icazə verməklə, vicdansız bankirlərə bizim millətin krediti üzərində hüdudsuz hakimiyyət verməkdən ibarət idi; ABŞ Konstitusiyasındakı birmənalı ifadələr bankirləri bu hakimiyyətdən aydın və doqiq şəkildə məhrum edirdi.

Kurt Levin «Tavistok İnstitutu»na, «Roma Klubu»na və NATO-ya Amerika üzərində elə bir hüdudsuz hakimiyyət verib ki, bu cür hakimiyyətə heç bir təşkilat, birlik və ya cəmiyyətin hüquqtı olmamalıdır. Bu idarələr uzurpasiya etdikləri hakimiyyətdən, sui-qəsdçilərin planlarına və niyyətlərinə qarşı millətin müqavimətini dağıtmaq, bizi Amerika İnqilabının bəhrələrindən məhrum etmək və bizi Vahid Dünya Hökumətinin hakimiyyəti altında birbaşa Yeni Qaranlıq Əsrlərə aparan yola yönəltmək üçün istifadə ediblər.

Bu uzaqmənzilli məqsədin həyata keçirilməsində d-r Levinin köməkçiləri bu adamlar idi: Riçard Krossman (Richard Crossman), Erik Trist (Eric Trist), H.V.Diks (H.V.Dieks), Villis Harmon (Willis Harmon), Çarlz Anderson (Charles Anderson), Qarner Lindsey (Garner Lindsay), Riçard Prays (Richard Price) və U.R.Bayon (W.R. Bion). Diqqət yetirin – bu adlar axşam xəbərlərində heç vaxt çəkilməyib; onlar faktiki olaraq yalnız elmi jurnallarda peyda olublar və buna görə çox az amerikalı bu adamları tanıyır, amerikalıların çox böyük

downloaded from KitabYurdu.org

əksəriyyəti onların ABŞ üçün indiyədək nə etdiklərini və bunu hələ də davam etdirdiklərini təsəvvür belə etmir.

**Prezident Ceferson bir dəfə demişdi ki, onun qəzet oxumaqla baş verən hər şeydən xəbərdar olduğunu düşünən adamlara yazığı gəlir. Britaniyalı baş nazir Dizraeli də demək olar eyni şeyi demişdi. Həqiqətən də, hökmdarlar əsrlər boyu səhnə pərdəsinin arxasından idarə etməkdən həzz alıblar. Insan həmişə hökmranlıq etmək arzusunu hiss edib, lakin heç yerdə və heç vaxt bu arzu dövrümüzdə olduğu qədər üstün olmayıb.**

Əgər bu belə olmasaydı, onda gizlin cəmiyyətlər nəyə lazım ola bilərdi? Əgər bizi açıq, demokratik yolla seçilmiş məmurların rəhbərlik etdiyi sistem idarə etsəydi, onda **ABŞ-ın hər bir kəndində, qəsəbəsində və şəhərində gizlin mason lojasına nə ehtiyac ola bilərdi?** Frankmasonluğun bu cür açıq fəaliyyət göstərməsi və eyni zamanda da öz sirlərini belə yaxşı gizlətməsi necə mümkün ola bilər? Biz bu sualı nə Parisdəki «Doqquz Bacı Lojası»ndan olan (Nine Sisters Lodge) Doqquz Naməluma, nə də onların Londondakı «Dörd Tac Lojası»ndakı (Quatuar Cərənati) doqquz həmkarına verə bilmirik. Bununla belə, həmin 18 adam daha gizlin hökumətin «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nun və davamı olaraq – Komitet 300-ün bir hissəsini təşkil edir.

Şotland rituallı Frankmasonluğun Con Hinkliyə ideoloji cəhətdən təsir göstərərək onu Prezident Reyqana güllə atmağa sövq etməsi necə baş verə bilərdi? «Müqəddəs İoann Yerusalimskinin Cəngavərləri», «Dəyirmi Masa», «Milner Qrupu» və digər bu kimi gizlin ordenlər bizim nəyimizə gərəkdir? Məsələ isə ondadır ki, bunlar «Roma Klubu», «Beynəlxalq İşlər üzrə Kral İnstitutu» vasitəsilə və nəhayət, birbaşa Sui-qəsdçilər İerarxiyası – Komitet 300-ün özü tvirəfindən həyata keçirilən ümumdünya idarəetmə və nəzarət zəncirinin bir hissəsini təşkil edir. **Bu gizlin cəmiyyətlər ona görə lazımdır ki, onların işləri cinayət səciyyəlidir və gizlədilməlidir. Pislik həqiqətin nuruna tab gətirə bilməz.**

Bu kitabda biz sui-qəsdçilərin, onların idarələrinin, onların özləri üçün pərdə rolunu oynayan təşkilatlarının və nəşrlərinin demək olar tam siyahısını tapa biləcəyik. «Dolça SuiQəsdi» («Aquarian Conspiracy») 1980-ci ildə çiçəklənən dövründə idi və onun uğurlarını biz şəxsi və milli həyatimizin bütün aspektlərində görə bilərdik. *I.etargiyanın* – «dərin sirayət edən uzunmüddətli gərginliyin» birmənalı əlamətləri olan mənasız zorakılıqların, silsilə qətllərin, yeniyetmələrin özünəqəsdlərinin, intiharlarının sayının sarsıdıcıdərəcədə artması bizi əhatə edən yeni mühitin bir hissəsi olub ki, bu, elə nofəs aldığımız zəhərli hava qədər də təhlükəlidir.

downloaded from KitabYurdu.org

Gəlməkdə olan «Dolça Erası» Amerakanı qəfil yaxalayıb. Biz, bizə sırınan dəyişikliklərə bir millət olaraq haaır deyildik. «Tavistok İnsan Münasibətləri İnstitutu», Kurt Levin, Villis Harmon və Con Roullinq Riz haqqinda kim heç olmasa bir dəfo eşidib? Onlar heç Amerikanın siyasi səhnəsində belə olmayıblar. Bizim görə biləcəyimiz əgər biz ümumiyyətlə, zəhmət çəkib gözlərimizi açsayclıq – yeganə şey, gələcək təlatümlərə müqavimət qabiliyyətimizin azalması olardı, çünki biz bezmişik, yorulmuşuqvə nəhtıyət, psixoloji şok mərhələsinə daxil olmuşuq ki, bunun ardınca da «dərin sirayət edən uzunmüddətli gəginliyin» tətbiq olunmasının zahiri təzahürü olan geirişmiqyaslı ümumi apatiya başlamalıdır.
«Dolça Erasının» teyinatı elə «Tavistok Institutu»nun özü tərəfindən ən yaxşı qələmə alınmış və qeyri-sabitliyin yayılması üçün vasitə kimi təsvir olunub:

*«Böyük sosial qrupların stresə reaksiyası və cavabı kimi meydana çıxan və aydın təzahür edən üç fazası vardır:*
***«Birinci faza** – səthi. Təsirə məruz edilən əhali özünü şüarlarla müdafiə edəcək; bu, böhranın mənbəyini açmır və real qarşıdurına baş vermir – deməli, böhran davam edəcəkdir.*
***İkinci faza** – fraqmentləşmə, bölünmə. Bu, böhran davam edəndə və ictimai qayda-qanun çat verib dağılan vaxt baş verir. Bunun ardınca:*
***Üçüncü faza** gəlir – bu vaxt əhali qrupları, nəhayət, «özünürealizə» vəziyyətinə daxil olur və süni şəkildə yaradılan böhrandan üz döndərirlər. Bundan sonra fəal sinoptik idealizm və hər şeydən kənarlaşma ilə müşayiət olunan zəif reaksiya gəlir».*
Kim bunları inkar edər: narkotiklərdən istifadənin sarsıdıcı dərəcədə artdığını – minlərlə yeni narkoman hər gün «krek» istifadə edir; körpələrin öldürülməsinin (abortisid) şoka salan artımını – onların sayı bizim silahlı qüvvələrimizin hər iki dünya müharibəsi, eləcə də Koreya vəVyetnam müharibələrinin hamısında birlikdə verdiyi qurbanların sayım dəfələrlə üstələyir; homoseksualistlərin və lesbiyanların açıq-açığına təqdir edildiyini – onların «hüqquqlarının» qorunması üçün hər il getdikcə daha çox qanun qəbul olunur; şəhərlərimizin yoluxduğu dəhşətli SPİD vərəmini; təhsil sistemimizin tam süquta uğramasını; boşanmaların sayının dəhşətə gətirən sayda artmasını; qətl cinayətlərinin qalan bütün dünyanı dəhşətə salan və etimadsızlığa düçar edən səviyyəsini; iblisanə silsilə qətlləri; seksual manyakların küçələrdən oğurladıqları minlərlə uşağın izsizsoraqsız yoxa çıxmasını; teleekranlarda «icazəli» pornoqrafiya uçqununu – bütün bunlardan sonra kim ölkəmizin böhran keçirdiyini dana bilər?! Biz isə ona qarşı çıxmağa heç cəhd də etmir və üzümüzü ondan çeviririk.

downloaded from KitabYurdu.org

Ən təmiz niyyətlərlə fəaliyyət göstərən və bu problemlər üzrə ixtisaslaşan insanlar günahın bir hissəsini təhsil sisteminin, ya da belə demək daha düzgün olardı ABŞ-da bu cür adlandırılanın üzərinə qoyur. Hazırda 915 yaş qrupları arasında cinayətkar çoxdur. Onyaşlılar arasında zorlamalar adi haldır. Bizim mütəxəssislər, bizim müəllimlər ittifaqları, bizim küsələr deyir ki, bütün bunlar qeyri-mükəmməl təhsil sisteminin nəticəsidir. Təhsildə qiymət göstəricilərinin aşağı düşməsi də buna dəlalət fdir. Təhsilin səviyyəsinə görə ABŞ-ın hazırda dünyada 39-cu yeri tutduğu üçün mütəxəssislərimiz özlərindən cıxırlar.

Biz bu qədər aşkar olan şeyə görə nə üçün yas saxlayırıq? BİZİM TƏHSİL SİSTEMİMİZ ÖZÜ-ÖZÜNÜ MƏHV ETMƏYƏ PROQRAMLAŞDIRILIB. NATO d-r ALEKSANDR KİNQİ AMERİKAYA MƏHZ BUNA GÖRƏ CÖNDƏRMİŞDİ. CASTİS HUQO BLEKƏ MƏHZ BUNU HƏYATA KEÇİRMƏK ƏMR EDİLMİŞDİ. MƏSƏLƏ ONDADIR Kİ, KOMİTET 300, BİZİM HÖKUMƏTİN RAZILIĞI İLƏ, BİZİM GƏNCLƏRİN TƏLƏB OLUNAN SƏVİYYƏDƏ TƏHSİL ALMASINI İSTƏMİR. Frankmasonçu ***Castis Huqo Blekin*** (Justice Hugo Black), Aleksandr Kinqin, ***Qunnar Merdalın*** (Gunnar Myrdal) və onun həyal yoldaşının ABŞ üşaqlarına vermək istədikləri təhsilin mahiyyəti «CİNAYƏT ÖZÜNÜ DOĞRULDUR, MƏQSƏDƏ MÜVAFİQLİK İSƏ HƏR ŞEYDƏN ÜSTÜNDÜR» prinsipindən ibarətdir. Onlar bizim övladlarımızı öyrədirlər ki, Birləşmiş Ştatların qanunları ədalətsiz tətbiq olunur və bu, məhz elə | belə də olmalıdır. Bizim övladlarımız bu ruhda onilliklor boyudur ki, korrupsiya nümunələrində tərbiyə olunurlar; Ronald Reyqan və Corc Buş onları bütünlüklə ağuşuna alan tamahın toruna düşdülər. Təhsil sistemimiz əsla zəifləməyib. Təhsil sistemimiz Kinqin, Blekin və Merdalların rəhbərliyi altında faktiki olaraq böyük nailiyyətlər əldo edib, lakin hər şey bizim ona baxdığımız nöqteyi-nəzərdən asılıdır. Komitet 300 təhsil sistemimizdən VALEH OLUR və o təhsil sistemimizin bir millimetr də dəyişdirilməsinə imkan verməz.

«Stenford Tədqiqat İnstitutu» və Villis Harmona görə, 1 bizə artıq 45 jldir dərin və hərtərəfli sirayət edən induksiyalaşmış ruhi zədə (təhsi! sistemimiz bunun bir hissəsidir) yetirilir. Lakin bizim cəmiyyətə edilən bu məkrli təzyiqi, daimi ideoloji təsiri və hər gün baş verən beyin yuyulmasını çoxmu insan anlayır? Məsələn, 1950-ci illərdə Nyu-Yorkda baş verən küçə bandalarının sirli müharibələri – bu fenomen, sui-qəsdçilərin istənilən dağıdıcı elementləri yaratmaq və onları idarə etmək qabiliyyətinin nümunəsidir. Tədqicptçılar 1980-ci illərdə bu, «sosial fenomen» adlandırıları, təzahürü idarə edən gizlin rəhbərləri ifşa etdikləri vaxta qədər, həmin bandaların haradan peyda olduğunu heç kəs anlaya bilmirdi.

downloaded from KitabYurdu.org

Küçə bandalarının müharibəsi «Stenford Tədqiqat İnstitutu» tərəfindən cəmiyyətimizi sarsıtmaq, təlatüm və narahatlıq meydana çıxarmaq kimi bədniyyətlərlə çox böyük dəqiqliklə işlənib hazırlanmışdı. 1958-ci il üçün artıq 200-dən çox banda var idi. Müzikl və Llollivudun «Vestsayd hadisəsi» filmi onları populyar etmişdi. Bütöv onillik ərzində xəbər başlıqlarından düşməyən bu bandalar bütün cəmiyyətin diqqətini özünə cəlb edəndən sonra, onlar Nyu-Yorkun, LosAncelesin, Nyu Cersinin, Filadelfiyanın və Çikaqonun küçələrindən 1966-cı ildə qəfil yox oldular.

Bütöv onillik ərzində davam edən küçə müharibələri dövründə cəmiyyət onlara «Stenford Tədqiqat İnstitutu»nun müvafiq proqramma uyğun şəkildə reaksiya ve~ rirdi; cəmiyyət bütövlükdə bu küçə müharibələrini anlaya bilmir və buna görə qeyriadekvat reaksiya veririrdi. Həmin küçə müharibələrində «Stenford Tədqiqat İnstitutu»nun sosial mühəndislik və beyinlərin yuyulması üzrə eksperimentini görübtanıya bilən rnüdrik insanlar tapılsaydı, onda sui-qəsdin üstü açılardı. Bundan nəticə çıxır ki, ya az ehtimal olunan izah olsa da, (bizdə) baş verənləri real qiymətləndirə bilən yüksək ixtisaslı mütəxəssis (Amerikada) yoxumuzdur, ya da onları hədə-qorxu ilə susmağa məcbur ediblər.

Kütləvi informasiya vasitələrinin «Stenford Tədqiqat İnstitutu» ilə əməkdaşlığı «Yeni era» (Nyueyc) konsepsiyası ilə bizim həyat tərzimizə yeni, «Tavistok İnsan Münasibətləri İnstitutu»ndan olan «Yeni elmin» sosial mühəndisləri və mütəxəssislərinin öncədən haqqında danışdıqları, hücum gətirdi.

1989-cu ildə LosAncelesdə, sosial dəyişikliklər üçün şəraitin yaradılması vasitəsi kimi, küçə bandaları arasında müharibələr yenidən (məqsədli olaraq süni şəkildə) təşkil edildi. İlk insidentlərin baş verdiyi bir neçə ay ərzində bandalar törəyib artmağa başladı – LosAncelesin İstSaytında əvvəl onlarla, sonra isə yüzlərlə banda peyda oldu. Narkotika pritonları və məhdudiyyət bilməyən fahişəlik baş aldı; narkotika tacirləri küçələrdə hökmranlıq edirdi. Onların yolunda duran hər kəs güllələnirdi. Mətbuatın qaldırdİğı harayhəşir bərk və uzunmüddətli idi. Yəni «Stenford Tədqiqat İnstitutu»nun seçdiyi «əhalinin böyük hədəf qrupu» özünü şılarlarla müdaflə etməyə başlamışdı. «Tavistok İnsan Münasibətləri İnstitutu» bunu «hədəfə almiTuş qrupun böhranın mənbəyini müəyyən edə bilməməsi» kimi qələmə alır və ***birinci faza*** adlandırırdı.
Qanqster müharibəsinin ***ikinci fazası*** «fraqmentləşmə» oldu. Küçə bandalarının fəal olmadığı yerlərdə yaşayan insanlar deyirdilər: «Şükr Allaha, onlar bizə toxunmurlar». Lakin etiraf olunubolunmamasından asılı olmayaraq, böhran davam edir və bununla yanaşı LosAncelesdə ictimai qaydaqanun pozulmağa başlayırdı. «Tavistok»un proqramlaşdırdığı

downloaded from KitabYurdu.org

kimi, bandaların müharibəsinin toxunmadığı insanlar «özlərini müdaflə etmək üçün qopdular», çünki böhranın mənbəyi hələ də müəyyən edilməmişdi. Bununla da, necə deyərlər, «qeyri-adekvat adaptasiya» və bölünmə, kənarlasına prosesi adlandırılan mərhələ başlandı.

Küçə müharibələrinin narkotiklərin yayılmasından başqa bir məqsədi də var idimi? Birincisi – məqsəd hədəfə alınmış qrupa onların təhlükədə olduğunu göstərmək, başqa sözlə, onlarda təhlükə hissini yaratmaq idi. İkincisi – göstərilməli idi ki, təşkil olunmuş cəmiyyət bu cür zorakılığın qarşısında acizdir. Və üçüncüsü – məqsəd bizim sosial nizamın dağılmaq üzrə olduğu faktının etiraf edilməsinə nail olmaq idi. «Stenford Tədqiqat İnstitutu»nun üç fazası yerinə yetiriləndən dərhal sonra küçə zorakılığının indiki dalğası da, 1960-cı illərdə olduğu kimi, necə qəfil və ani baş qaldımuşdısa, o cür də yatacaqdır.

**«BİTLZ» FENOMENİ**

Cəmiyyətin dəyişiklikləri, hətta əgər bu dəyişikliklər əhalinin böyük qrupu tərəfindən arzuolunmaz hesab edilirsə də, qəbul etməsi üçün ona təsir edilməsinin parlaq nümunəsi «BİTLZ» «təzahürü» idi. «Bitlz» qrupunu ABŞ-a sosial eksperimentin bir hissəsi kimi gətirmişdilər. Bu qrupun üzvü olan vurtut bir neçə nəfər əhalinin böyük qruplarını, onların heç ağılarına belə gətirmədikləri beyin yuyulmasına məruz etməli idi.

«Tavistok İnsan Münasibətləri İnstitutu» «Bitlz» qrupunu ABŞ-a gətirib çıxaranda heç kəs bunun arxasınca başlanmalı olan mədəni fəlakətin əhatə genişliyini təsəvvür belə edə bilməzdi. «Bitlz» «DOLÇA SUİQƏSDİNİN» tərkib hissəsi, «TNSAN OBRAZININ DƏYİŞDİRİLMƏSİ» proqramından***(«Kontrakt № ÜKN (489)2150, Siyasi tədqiqatlar haqqında Məruzə № 4/4/74» STİnin «Sosial Siyasətin Öyrənilməsi üzrə Mərkəzi» tərəfindən yerinə yetirilib, rəhbəri Villis Harmondur»)*** əmələ gəlmiş canlı orqanizm idi.

«Bitlz» fenomeni gənclərin köhnə sosial sistemə qarşı spontan (əvvəlcədən hazırlanmayan, planlaşdırılmayan Y.Ə.) qiyamı deyildi. Bu, əksinə, ələkeçməz sui-qəsdçilərin, öz iradəsinin ziddinə şüurunun dəyişdirilməsi planlaşdırılan əhalinin böyük hədəf qrupuna fövqəladə dərəcədə dağıdıcı elementlərin yeridilməsi üzrə çox dəqiqliklə hazırladıqları plan idi. Amerikada «Bitlz» ilə birlikdə «Tavistok İnsan Münasibətləri İnstitlıtu»nun kəşf etdiyi yeni sözlər və ifadolor dövriyyəyə daxil edildi. Musiqi sədalarına münasibətdo «rok» kəlməsi, «tineycer» («yeniyetmə»), «kul» (cool – «müsibət», «kef»), «discovered» («kəşf edilmiş», «aşkar edilmiş») və «pop-musiqi» kimi kəlmələr kodlaşdırılmış sözlərdən ibarət leksikonun bir hissəsi, narkotiklərin qəbul edilməsi və istifadə olunması demək idi. Bu sözlər «Bitlz» ilə birlikdə gəldi və «Bitlz» hara gedirdisə orada peyda olurdu, özü də «tineycerlor» onları

downloaded from KitabYurdu.org

dərhal «tapırdılar». Yeri gəlmişkən, «Tavistok İnsan Münasibətləri İnstitutu»nun səyləri ilə «Bitlz» səhnədə peyda olana qədər «tineycer» sözü heç yerdə istifadə olunmamışdı.

Küçə müharibələri ilə bağlı halda olduğu kimi, kütləvi informasiya vasitələri və ilk növbədə də elektron KTV ilə əməkdaşlıq olmadan bu vəzifəni də həll etmək mümkün olmazdı. Xüsusi rol ınundar tip olan Ed Sallivana ayrılmışdı – o, oynamalı olduğu rol üçün sui-qəsdçilər tərəfindən xüsusi olaraq hazırlanmışdı. Əgər mətbuat onların ətrafında əsl ajiotaj qaldırmasaydı, Liverpuldan olan bu təlxək qrupuna və onların on ikiatonallı «musiqi» sisteminə heç kəs diqqət verməzdi. «*On iki-atonallı sistem*» – bu, «Dionis Kultu» və «Vaal Kultu» kahinlərinin musiqisindən götürülmüş və İngiltərənin Kraliçası və deməli, Komitet 300-ün yaxın dostu Teo Adorno (Adorno) tərəfindən «müasir» təsirə məruz edilmiş təkrarlanan ağır sədalardan ibarət idi.
«Tavistok İnsan Münasibətləri İnstitutu» və onun «Stenford Tədqiqat İnstitutu» xüsusi sözlər yaratdı və bu sözlər sonradan «rok-musiqi» və onu sevənlər arasında ümumi istifadəyə daxil oldu. Dəbə düşən bu sözlər sosnımdan qopan gəndərdən ibarət yeni böyük qrup yaratdı. Sosial injiniring və sosial təsir vasitəsilə onları inandıra bildilər ki, «Bitlz» – bü, həqiqətən də onların sevimli qrupudur. «Rok-musiqinin» kontekstində yaradılan bütün həlledici sözlər əhalinin yeni hədəf qrupu, yəni amerikalı gəndər üçün nəzərdə tutulmuşdu.

«Bitlz» əla işlədi, daha doğrusu, «Tavistok» və «Stenford» əla işlədilər. «Bitlz» isə sadəcə olaraq «öz dostlarının azacıq köməkliyi ilə» («witlı a little help from their friends»), proqramlaşdırılmış robot kimi reaksiya verirdi; «dostların azacıq köməyi» – bu, narkotiklərin qəbul edilməsi və «müsibət» vəziyyətə çatmağı ifadə edən kodlaşdırılmış sözlər idi. «Bitlz» gözə çarpan «yeni tip» – bu, «Tavistok İnsan Münasibətləri İnstitutu»nun jarqonunun daha bir ibarəsidir – oldu. «Yeni tip», «Bitlz» öz stillərini (ekstravaqant geyim, saç düzümü və danışıq tərzi) yaratmamışdan bir qədər əvvəl meydana çıxmış və yaşlı nəslin hiddətinə səbəb olmuşdu – heyhat, məhz elə bu da planlaşdırılırdı. Bu, Villis Harmon və onun alimsosioloqları və gen mühəndisliyi sahəsindən olan mütəxəssisləri tərəfindən hazırlanmış və işə salınmış «fraqmentləşmə qeyriadekvat adaptasiya» prosesinin bir hissəsi idi.

Cəmiyyətimizdə böyük əhali qruplarının beyninin effektli yuyulması işində həlledici rol mətbu və elektron kütləvi informasiya vasitələrinə məxsusdur. 1966-cı ildə kütləvi informasiya vasitələri LosAncelesdə küçə müharibələrini şərlı etməyə son qoyan kimi, küçə müharibələri də dayandı. KİVin onlara diqqəti azaldıqca küçə bandaları dağıhşmağa başlayır, sonra isə izsizsoraqsız yox olurdular. 1966-cı ildə olduğu kimi, 1980-ci ildə də

downloaded from KitabYurdu.org

problem sadəcə olaraq «tükəndi». Küçə bandalan cəmiyyətdə qeyri-sabitlik və təhlükə mühitinin yaradılması üzrə öz vəzifələrini yerinə yetirdilər. Eynilə belə bir ssenari «rok» musiqini də gözləyir. Kütləvi informasiya vasitələrinin diqqətindən məhrum ediləndən sonra o dinməzcə tarixdə öz yerini tutacaqdır.

«Bitlz» qrupunun ardınca – yeri gəlmişkən, onları bir yerə «Tavistok İnsan Münasibətləri İnstitutu» toplamışdı – Ameikaya başqa «Made in England» rok qrupları da təşrif buyurmuşdu. «Bitlz» ilə bağlı halda olduğu kimi, onlar üçün də kult səciyyəli «lirikanın» hamısını Teo Adorno yazır və «musiqini» də tam şəkildə özü bəstələyirdi. (Dırnaq arasında verdiyim bu gözəl sözləri «bitlomaniya» kontekstində istifadə etmək mənə xoş deyildir; bu mənə, donuzcasına ehtirasdan çapalayan iki homoseksualist arasında çirkin kontakta münasibətdə yanlış olaraq istifadə olunan «sevgili» sözünü xatırladır. «Rok»u musiqi adlandıranda musiqi necə təhqir olunursa, «roklirika» da dil üçün eyni cür təhqirdir.)

Bunun ardınca «Tavistok İnsan Münasibətləri İnstitutu» və «Stenford Tədqiqat İnstitutu» Komitet 300-ün onlara sifariş etdiyi işin ikinci fazasını həyata keçirməyə girişdilər. Yeni faza Amerikada sosial dəyişiklikləri daha da qızışdırdı. Amerika səhnəsində «Bitlz» hansı sürətlə peyda olmuşdusa, həmin sürətlə də «puç olmuş nəsil» («beat generation») meydana çıxdı – bunlar kodlaşdırılmış sözlərdir və təyinatı ictimai qrupları bölmək və xüsusiləşdirməkdən ibarətdir. Kütləvi informasiya vasitələri indi diqqətini «puç olmuş nəsil» üzərində fokuslaşdırdı. «Tavistok» əsilli yeni sözlər sanki özbasına peyda olmuşdu: «bitniklər», «hjppi», «çiçəklərin övladları» – bu sözlər Amerikanın dilinə möhkəm daxil oldu. «Cəmiyyətdən qopmaq (və ya fərqlənmok – «drop out»), çirkli cins geyinmok və uzun çirkli saçlar populyar oldu. «Puç olmuş nəslin» nümayəndələri özlərini qalan bütün Amerikadan qopartdı. Onlar da, özlərindən daha tomizkar olan «Bitlz» kimi, pis reputasiya qazandılar.

Yeni yaradılan sosial qrup və onun «həyat tərzi» milyonlarla amerikalmı öz kultuna çəkdi. Amerikanın gəndəri heç özləri də bunu dork etmədən radikal inqilaba məruz edildikləri vaxt, böhranın mənbəyini müəyyən etmək imkara olmayan və deməli, böhranın hər cür narkotiklor, marixuana, bir müddət sonra isə lizergin turşusu kimi təzahürlərinə qeyriadekvat reaksiya veron yaşlı nəsil acizanə onların yanında idi, İsveçrənin SANDOZ əczaçılıq kompaniyasının onlara bəxş etdiyi, kompaniyanın kimyaçılarından biri – Albert Hoffmanın erqotaminin sintezini kəşf etməsi nəticəsində alrnrmş, şüuru dəyişdirən ən güclü narkotiklərdən biri olan «LSD» «olmazın dərəcədə vaxtında» meydana çıxdı. Komitet 300 bu layihəni öz banklarından biri – «S.C.Warburg Benk» vasitəsilə maliyyələşdirirdi, Amerikaya isə bu narkotiki filosof Oldos Haksli gətirdi.

downloaded from KitabYurdu.org

Birləşmiş Ştatların bütün ərazisindəki kolleclərdə və «rok» konsertlərdə yeni «möcüzənarkotiki» pulsuz «sınaq» bağlamalarında sürətlə paylamağa başladılar və bunun nəticəsində məhz LSD narkotiklərin geniş yayılmasının katalizatoru oldu. Burada dərhal təkidli sual meytiana çıxır: bəs «Narkotiklərlə Mübarizə İdarəsi» (NMİ = DEA, «Drug Enforcement Agency») bu vaxt nə ilə məşğul idi? Heç bir mübahisə doğurmayan dolayı dolillər vardır ki, «Narkotiklərlə Mübarizə İdarəsi»nin nə baş verdiyindən xəbərdar olduğunu, lakin idarəyə bu işə qarışmamağın əmr olunduğunu sübut edir.

Britaniyalı «rokqruplar» ABŞ-a getgedə daha çox gəldikcə, rok konsertlər amerikalı gəndərin gündəlik həyatının vacib elementinə çevrilməyə başladı. Bu «konsertlərlə» tandemdə gəndərin narkotik istifadə etməsi də mütənasib surətdə artırdı. Ağır zərb sədalarının iblisanə hayküyü dinləyicilərin şüurunu elə hala qədər kütləşdirirdi ki, onların istənilən birini yeni narkotikin dadına baxmağa asanlıqla razı salmaq olardı – ycilnız bunu əsas gətirmək kifayət edərdi ki, «bunu hamı edir». Əhatə edən həmyaşıdların nümunəsi – bu, çox güclü silahdır. «Yeni mədəniyyətin» işıqlandırılması üçün kütləvi informasiya vasitələrində mümkün olan maksimal dərəcədə geniş yer alındi; özü də sui-qəsdçilər buna heç bir sent belə xərcləmədilər.

Vətəndaş liderlərinin və kilsə xadimlərinin bir çoxunun yeni kultla bağlı güclü gileygüzarı onun NƏTİCƏLƏRİNƏ qarşı yönəlmişdi, SƏBƏBLƏRİNƏ qarşı yox. Rokkultun tənqidçiləri «quru qanun» dövründə edilən eyni səhvlərə yol vermişdilər: onlar hüquq-mühafizə orqanlarını, müəllimləri, valideynləri – kimi gəldi tənqid edirdilər, bircə sui-qəsdçiləri yox.

Bu çox güclü narkotik vərəminə münasibətdə hiddət və qəzəb məni çulğaladığı üçün mənə qətiyyən xas olmayan şözləri istifadə etdiyimə görə oxucudan heç üzr də istəmirəm. Bütün Amerikada ən mundar narkotik əclaflarından biri – bu, Alan Ginzberqdir (Alan Ginsberg). Bu Ginzberq bir sent belə xərcləmədən LSDni bütün Amerikaya reklam etdi, hərçənd adi şəraitdə televiziyada belə bir reklam milyonlarla dollara başa gələrdi. Narkohklərin və ilk növbədə də LSDnin bu havayı reklamı öz pik həddinə altmısıncı illərin sonlarında, KİVin tamamilə könüllü dəstəyi sayəsində çatdı. Ginzberqin kütləvi reklam kampaniyasının effektliliyi çox dəhşətli idi; Amerika ictimaiyyəti eyni vaxtda bütöv bir sıra «gələcək mədəni şoklara» məruz qaldı.

Uçqunabənzər informasiya selinə düşmüş və «həddən ziyadə stimullaşdırmanın» (bir daha təkrar etmək istəyirəm ki, bu, «Tavistok İnsan Münasibətləri İnstitutu»nun praktiki vəsaitlərindən əxz edilmiş «Tavistok» jarqonudur) təsirinə məruz qalmış bizləri bu sel öz

downloaded from KitabYurdu.org

ağuşuna aldı. İnformasiya seli müəyyən kritik həddə çatandan sonra isə həmin informasiya fövqəldozasını həzm etmək iqtidarında olmayan şüurumuz sadəcə olaraq apatiyaya qərq olmağa başladı – yəni «dərin hərtərəfli sirayət» bizi haqladı. Ginzberq şair adına iddia edirdi, lakin şair olmağa çalışanların heç biri ondan böyük cəfəngiyat yazmayıb və çərənləməyib. Ginzberqin qarşısına qoyulan vəzifənin poeziyaya demək olar heç bir dəxli yox idi – onun vəzifəsi yeni submədəniyyəti əhalinin hədəfə alınmış qrupuna sırımaq idi.

Ginzberqə köməkçi kimi Norman Meyleri qəsdular. Norman Meyler vaxtını mütəmadi olaraq dərixanalarda keçirən yazıçılar növünə aid olan qələm sahiblərindən biri Idi. Meyler Hollivudun solbaz tusovkalarının (qruplaşmaların. – Y.Ə.) sevimlisi idi və buna görə elə onun Ginzberq tiçün maksimum. televiziya vaxlı almaq problemi yox idi. Təbii ki, Meyler zahirən xoşniyyətli bəhanəyə istinad elməli idi – Ginzberqin əsl niyyətini heç o, da açıqsaçıq təbliğ edə bilməzdi. Buna görə də belə bir manevr həyata keçirilmişdi: Meyler kamera qarşısında Ginzberqlə poeziya ve ədəbiyyat haqqında «ciddi» söhbətlər aparırdı.

Rokqrupların və konsert prodüsserlərinin hamısı l ünzberqdən nümunə götürərək, geniş və havayı televi/jya reklamı almaq üçün bu metoddan istifadə etməyə haşladılar. Bu soxulcanabənzər varlıqlara və önların özlərindən də çirkin əsərlərinə və rəzil ideyalarına havayı pfir vaxtı vermək lazım gələndə elektron informasiya vasitələrinin maqnatları böyük səxavət nümayiş etdirirdilər. Ikı eybəcər çirkindilli «albomların» reklamı, eləcə də mətı m ı və elektron kütləvi informasiya vasitələrinin səxavətli kinrləyi olmadan narkotiklərlə ticarət, altmısıncı illərin ‘ionları, yetmişinci illərin əvvəllərində olduğu kimi, belə sürətlə yayılmaz və bir neçə yerli əhəmiyyətli xırda rayonla, çox güman, məhdudlasınış olardı.

Ginzberqə bütün ölkəyə translyasiya edilən bir neçə iek’verilişdə çıxış etmək müyəssər oldu. Bu verilişlərdə o, incəsənət və musiqi aləmiridə inkişaf etməkdə olan «yeni ideyalar» və «yeni mədəniyyət» pərdəsi arxasında, LSD və marixuananın üstünlüklərini vəsf edirdi. Ginzberqin pərəstişkarları elektron kütləvi informasiya vasitələrindən geri qalmayaraq, Amerikanın bütün ən iri qəzet və jurnallarının «İncəsənət» və «Kübar həyatı» sütunlarında «bu parlaq insan» haqqında qızğılı məqalələr yazırdılar. «Dolça Sui-qəsdi», NATO və «Roma Klubundan» olan ilhamvericilərinin heç bir qəpik belə xərcləmədikləri belə geniş reklam kampaniyası qəzet, radio və televiziya tarixində indiyədək hələ olmamışdı. Bu, LSD-nin, üstü «incəsənət» və «mədəniyyət» pərdəsi ilə yalnız azacıq örtülmüş, tamamilə pulsuz reklamı idi.

downloaded from KitabYurdu.org

Ginzberqin ən yaxın dostlarından olan Kenni Lav (Kenny Love) «Nyu-York Tayms» qəzetində beş səhifədə material dərc etdirdi. «Tavistokun» və «Stenfordun» metodologiyası bu halla bağlı bunu deyir: əgər beyinlərin kifayət qəclər yuyulmaması səbəbindən ictimaiyyətin bütövlükdə hələ qəbul edə bilmədiyi nə isə reklam olunmalıdırsa, onda bu məsələnin bütün aspektlərini açan məqalə sifariş etmək lazımdır. Başqa bir metod – canlı efirdə televiziya tok-şousunun təşkil olunmasıdır ki, burada ekspertlər qrupu məhsul və ideyaları «müzakirə etmək» adı altında onları reklam edirlər. Şounun iştirakçjları müxtəlif nöqteyi-nəzərlər nümayiş etdirir, tərəfdarlar və əleyhdarlar lehinə və oleyhinə çıxış edirlər. Hər şey qurtaranda isə «müzakirə» olunmuş məsələ tamaşagların şüuruna möhkəmcə irişmiş olur. Yetmişinci illərin əvvəllərində bu metod yenilik idi, bu gün isə çiçəklənən bütün tok-şouların standart praktikasına çevrilib.

Kenni Lavın LSD-ni və Ginzberqi tərifləyib göylərə qaldıran beş səhifəlik məqaləsi təxirəsalınmadan «Nyu-York Tayms» qəzetində dərc etdirildi. Əgər Ginzberq belə bir sahəni qəzetlərin reklam səhifələrində almağa cəhd etsəydi, bu ona azı 50.000 dollara başa gələrdi. Lakin narahat olmaq üçün Ginzberqin kiçicik də olsa səbəbi yox idi; Ginzberq dostu Kenni Lavın sayəsində geniş reklam imkanmı tamamilə havayı əldə etdi. Komitet 300-ün nəzarəti altında olan «Nyu-York Tayms» və «Vaşinqton Post» kimi qəzetlərin köməyi ilə bu havayı reklam növü istənilən məsələ üçün tətbiq olunur, xüsusilə də əgər cəmiyyətə dekadent həyat tərzini – narkotika, gedənizm və ümumiyyətlə, Amerika xalqım həqiqi yolundan sapdıra biləcək hər şeyi – sırımaq lazımdırsa. Ginzberq və LSD ilə bağlı ilk smaq cəhdindən sonra Komitet 300, cəmiyyətə sırımaq istədiyi ideyalara və onları yayan adamlara yer ayırmaq tələbi ilə, ABŞ-ın əsas qəzetlərinə müraciət etməyi adi praktikaya çevirdi.

Bundan da pis olanı budur ki, – və yaxud da yaxşı olanı (bu, artıq, nöqteyi-nəzərdən asılıdır), – Kenni Lavm Ginzberq və LSDnin xeyrinə həyata keçirdiyi havayı reklamı «Yunayted Press» Mətbuat Agentliyi dəstəklədi və «xəbərlər» adı altında onu tekekslə ölkənin hər yerindəki YÜZLƏRLƏ qəzet və jurnala ötürdü. Hətta «Harpers Bazar» və «Taym» kimi sanballı jurnallar da Ginzberqi diqqətə və hörmətə layiq adam kimi təqdim etdilər. Əgər belə bir ümummilli reklam Ginzberqə və LSD-ni yayanlara reklam agentlikləri tərəfindən təqdim olunsaydı, onda buna sorf edilən ümumi xərclər 1970-ci illərin qiymətləri ilə ən azı 1 milyon dollar təşkil edərdi. Bu gün isə bu qiymət 1516 milyon dollardan az olmazdı. Toəccüblü deyil ki, mən kütləvi informasiya vasitələrini «çaqqal» adlandırıram.

Mən sizə elə bir kütləvi informasiya kanalı tapmağa cəhd etməyi təklif edirəm ki, onun vasitəsilə ABŞ-ın Federal Ehtiyat Sistemi (FES) (Pul emissiyası və pul dövriyyəsinə nəzarət

downloaded from KitabYurdu.org

funksiyasının verildiyi on iki özəl bankdan ibarət sistem. Federal Ehtiyat Sistemi ABŞ Mərkəzi Bankının rolunu oynayır – tərc) haqqında materialları ictimaiyyətə çatdırmaq mümkün olsun. Vaxtilə mən belə bir cəhd etmişdim. Mən dünyada ən möhtəşəm fırıldağın inandırıcı dəlilləılə ifşasını əks etdirən məqaləmi bütün iri qəzetlərə, televiziya kanallarma, radiostansiyalara, jurnallara, eləcə də bir neçə tokşounun aparıcılarına təklif etdim. Onlardan bəziləri ümidverici cavab verirdilər – «bizə təqribən bir həftə vaxt verin və biz sizmlə əlaqə saxlayarıq». Təbii ki, heç kəs mənimlə əlaqə saxlamadı, məqalə isə qəzet və jurnalların səhifələrində dərc olunmadı. Belə təəssürat yaramrdı ki, mənə və işıqlandırmağa cəhd etdiyim problemin üzərinə sükut pərdəsi çəkilib və bu, həqiqətən də belə idi.

Kütləvi informasiya vasitələrinin qulaqbatıran isterikası və praktiki olaraq bütün gün ərzində edilən fasiləsiz reklam olmadan rok-musiqi və narkotiklərin hippi-bitnikçi kultu cəmiyyətdə heç vaxt dişib qala bilməzdi; o marginal sayıqlama səviyyəsində olduğu kimi də qalardı. «Bitlz» öz cingildəyən gitaraları, əbiəlı simaları, narkotika dəmli jarqonları və axmaq geyimləri ilə küçə təlxəkləri səviyyəsindən yuxarı heç vaxt qalxa bilməzdi. Lakin bunun əvəzinə kütləvi informasiya vasitələrində «Bitlz» qrupunun reklamı «doymaq nöqtəsinə» çatır və bunun nəticəsində ABŞ bir-birinin ardınca mədəni şok yaşayırdı.

Beyin mərkəzlərində və tədqiqat institutlarında gizlənən, adları və simaları yalnız çox dar dairəyə bəlli ölan adamlar mətbuatın öz rolunu oynamasının qayğısına qahrdı. Və əksinə, gələcək mədəni təlatümlərin arxasında duran qüvvələrin gizlin saxlanmasında kütləvi informasiya vasitələrinin mühüm rolu böhranın mənbəyinin heç vaxt aşkarlanmayacağına zəmanət verir. Beləcə, cəmiyyətimiz psixoloji şok və gərginliyin köməyi ilə havalanmış (ağılsız) vəziyyətə çatdırılıb. «Havalanmış vəziyyətə çatdırılanlar» bu ifadə «Tavistok İnsan Münasibətləri İnstitutu»nun praktiki vəsaitlərindən əxz edilib. 1921-ci ildə təvazökarlıqla başlayan «Tavistok İnsan Münasibətləri İnstitutu» 1966-cı ildə Amerikada qüdrətli və dönməz xarakterli mədəni inqilab başlamağa hazır vəziyyətə çatmışdı və hvimin inqilab indiyə qədər də qurtarmayıb. «Dolça Sui-qəsdi» – bu, həmin inqilabın ayrılmaz tərkib hissəsidir.

Hesab olunurdu ki, bu eür təsirdən sonra ölkə narkotiklərin, «quru qanun» epoxası ilə müqayisə oluna biləcək miqyasda, yayılması üçün tamamilə yetişib, özü də bunda çox böyük pulların qazamlması planlaşdırılırdı. Bu da «Dolça Sui-qəsdinin» ayrılmaz tərkib hissəsi idi. Narkotiklərin yayılması – bu, «Tavistok İnsan Münasibətləri İnstituru»nun «Susseks Uniyersiteti» nəzdində fəaliyyət göstərən «Elmi Siyasətin Tədqiqat Mərkəzində» öyrənilən problemlərdən biri idi. Bura «Gələcəyin Şokları. Mərkəzi» kimi tanınırdı bu, təyinatı

downloaded from KitabYurdu.org

əhalinin bütöv qruplan ilə manipulyasiya etmək, onlarda «gələcəyin şoklarım» yaratmaq olan xüsusi psixologiyanın, «gələcəyə istiqamətlənmış psixologiyanın» adıdır. Bu Mərkəz «Tovistok İnsan Münasibətləri İnstitutu'«nun yaratdığı bir neçə bu cür idarədən birincisi idi.

«Gələcəyin şoklan» özü ilə böyük sürətlə baş verən elə hadisələr silsiləsini təcəssüm etdirir ki, bu vaxt insan beyini informasiyanı dərk etmək iqtidarında olmur. Əvvəl də göstərdiyim kimi, elm sübut edib ki, dəyişikliklərin həm kəmiyyətinin, həm də onların təbiətinin dərk olunması cəhətdən şüur dəqiq hüdudlara malikdir. Fasiləsiz şoklar silsiləsindən sonra əhalinin hədəf qrupu elə bir vəziyyətə düşür ki, bundan sonra onun üzvləri dəyişən şəraitdə seçim etmək arzusunda olmurlar. Onlar apatiyaya qərq olurlar ki, bu vəziyyətin ərəfəsində çoxsaylı mənasız – LosAncelesdə küçə müharibələrinə bənzər zorakılıqlar, silsilə qətllər, zorlamalar və uşaqların oğurlanması kimi cinayətlər baş alır.

Belə qrup asanlıqla idarə oluhur və o istənilən əmrlərə müqavimətsiz tabe olacaqdır – bu cür təsirin məqsədi də məhz elə budur. «Elmi Siyasətin Tədqiqat Mərkəzi»nin müəyyən etdiyinə görə, «gələcəyin şoklan» özü ilə «*insan şüurunun düşünülmüş qərarların qəbul edihnısinə cavabdeh olan hissəsinin həddindən artıq gərginləşməsi səbəbindən meydana çıxan fiziki və psixoloji sınmanı təcəssüm etdirir*». Bu «Tavistok» jarqonudur və mən bunları «Tavistok İnsan Münasibətləri İnstitutu»nun praktiki vəsaitlərindən onlardan xəbərsiz əldə etmişəm. Həddən artıq yüklənınış elektrik şəbəkəsində qoruyucular necə yanıb sıradan çıxırsa, eynilə insanlarda da «qoeuyucular» yanır. Tibb hələ indi-indi bu sindromun dərk olunmasına yaxınlaşır, halbuki Con Roulinq Riz bu sahədə eksperimentləri hələ iyirminci illərdə (söhbət XX əsrdən gedir. – Y.Ə.) keçirirdi. Müəyyən edilib ki, «qoruyucular» təsir göstərilən hədəf qrupunda «yanmağa» hazırdır və bu qrupun üzvləri daim düşünülmüş seçim etmək zərurətindən qaçmağrn vasitəsi qismində narkotika qəbul etməyə f.rşlayTrlar. Amerikalı «bitnəsil» arasında narkotiklər məhz buna görə belə sürətlə yayılmışdı. «BİTLZ»dan və havayı LSD dozalarından başlanan kiçik bir axın, bütün Amerikara qərq etmiş narkotika sunamisinə çevrilib.

Narkotika ticarəti Komitet 300-ün ierarxiyasının ən vüksək səviyyələrinin nəzarəti altındadır. Bu ticarətə «Britaniya Ost-Hind Kompaniyası» başlamış və «Hollanıliya Ost-Hind Kompaniyası» dərhal ondan nümuno gölürmüşdü. Bu kompaniyaların hər ikisinə «300-lər Şurası» nəzarət edirdi. «Britaniya Ost-Hind Kompaniyası»nın üzvləri və səhındarlarının adlarının siyahısı iki damcı su küni Debretts perlərinin siyahısına oxşayır. Kompaniya «Çin Daxili Missiya'nı təsis etdi. Missiyanın vəzifəsi çinli kondlilərdə və ya

downloaded from KitabYurdu.org

onların adlandırıldıqları kimi – «kulilərdə» tiryək çəkmək vərdişini yaratmaq olub. Bu iş tiryək üçün böyük bazar yaratdı və bu bazarı «Britaniya Ost-Hind Kompaniyası» ələ keçirdi.

Komitet 300 «sosial narkotiklərin» Amerikanın gəncləri və Hollivud tusovkası arasında populyarlaşdırılması üçün oxşar tərzdə «BİTLZ»ı istifadə etmişdi. Ed Sallivan İngiltərəyə, «Tavistok İnsan Münasibətləri İnstitutu»nıffl ABŞ-a səfər edəcək ilk rokqrupu ilə tanış olmağa göndərildi. Bundan sonra Sallivan elektron kütləvi informasiya vasitələri üçün qrupun «qablaşdırılması» və «təqdimatı» üzrə strategiyanı işləyib hazırlamaq məqsədi ilə Amerikaya qayıtdı. Ed Sallivanla elektron KİV-in tam birgə əməkdaşlığı olmadan publika «Bitlz»a və onların «musiqisinə» heç bir diqqət verməzdi. Bunun əvəzində bizim milli həyatımız və Birləşmiş Ştatların ruhunun özü dönməz olaraq dəyişdirildi.

Bizə indi, artıq çox şeyi bilondən sonra, «Bitlz»ın narkotiklərin yayılması üzrə reklam kampaniyasının nə qədər müvəffəqiyyətli olduğu aydın olur. «Bitlz» üçün musiqinin və mətnlərin Teo Adornonun yazması faktı pub» likadan ciddcəhdlə gizlədilirdi. «Bitlz»ın əsas funksiyası «tineycerlərin» (yeniyetmələrin. – torc.) onları «kəşf» etməsini təmin etmək idi. Bundan sonra «bitlz musiqisi» aramsız sel kimi onların üzərinə ta o vaxta qədər axırdı ki, bu səslərin xoşlarına gəldiyi haqda onlarda möhkəm əminlik yaranır və bunun nəticəsində onlar həm bu musiqini, həm də onunla bağlı olan hər şeyi qəbul etməyə hazır olur və bunu edirdilər. Liverpul qrupu onlarla bağlı gözləntiləri tamamilə doğrultdu və «dostlarından gələn kiçicik köməklə» (bu ifadə onların mahnısından götürülüb. – tərc), başqa sözlə, «Tavistok İnsan Münasibətləri İnstitutu»nun sifariş etdiyi nümunəni dəqiq təkrar edən amerikalı gəndərin bütöv yeni bir sinfini yaratdı və bunu narkotik adlandırdığımız maddələrin köməyi ilə etdi.

**NARKOTİKA TİCARƏTİ**

«Tavistok İnsan Münasibətləri İnstitutu» aydın tanınan və narkotiklərin yayılması üzrə fəaliyyət göstərməli olan «yeni tip» yaratdı. «Xristian missionerlərinin» «Çində Daxili Missiyası» 1960-cı illərdə mövcud olan şəraitdə artıq işə yaramırdı. «Yeni tip» – bu, sosioloji jarqondan əxz edilmiş ifadədir. Bu, «Bitlz»m yeni sosial nümunələr yaratmağa müvoffəq olması deməkdir və bu «yeni tipin» əsas məqsədi narkotik istifadəsini, geyim və saç düzümündə yeni zövqləri populyarlaşdırmaq və gündəlik moişət səviyyəsinə çatdırmaq idi. Bütün bunlar gəndəri yaşlı nəsildən radikai surətdə fərqləndirməli idi – «Tavistok» məhz elə bunu planlaşdırırdı.

downloaded from KitabYurdu.org

«Tavistok»un tətbiq etdiyi danışıq dilinin məqsədyönlü surətdə bölünməni meydana çıxarmasını qeyd etmək vacibdir. «Tineycerlərin» heç ağlma da gəlməzdi ki, onların can atdıqları bütün qeyrlənənəvi «dəyərlər» İngiltərənin və «Stenfordun» beyin mərkəzlərində yaşı ötmüş alimlər tərəfindən böyük dəqiqliklə işlənib hazuianıb. Amerikalı gəndər özlərinin «müsibət» vərdişlərinin və ifadələrinin yaşı Ötmüş sosioloqlar qrupu tərəfindən xüsusi olaraq yaradıldığını bilsəydilər, onlar sarsılardılar!
Narkotiklərin milli miqyasda yayılmasında kütləvi informasiya vasitələrinin rolu fövqəladə dərəcədə mühüm olub və bu, hazırda da belədir. Kütləvi informasiya vasitələri küçə quldurlarının müharibələrini işıqlandırmağa qəfil son qoyanda həmin quldur dəstələri sosial fenomen kimi sadəcə olaraq yoxa çıxdılar – ardınca yeni «narkotiklər erası» gəldi. KİV həmişə «yeni meyllərin» katalizatoru qismində çıxış edib və o dövrdə onların diqqəti narkotiklər və onları yayanlar üzərində cəmləşmişdi. «Bitniklər nəsli» – bu, «Tavistokun» ABŞ-da sosial dəyişikliklərin həyata keçirilməsi səyləri çərçivəsində ixtira etdiyi növbəti bir ifadədir.

Narkotiklərin istifadəsi Amerikada gündəlik həyatın tərkib hissosinə çevrildi. «Tavistokun» işləyib hazırladığı bu proqram milyonlarla gənc amerikalı tərəfindən qəbul edildi və yaşlı nəsil Amerikanın təbii sosial inqilaba məruz qaldığını düşünməyə başladı. Yaşlı nəsil, onların övladlarında baş verən dəyişikliklərin spontan proses yox, Amerikanın sosial və siyasi həyatını dəyişmək məqsədilə həyata keçirilən sırf süni təsirlərin nəticəsi olduğunu anlamaq iqtidarında deyildi.

«Britaniya Ost-Hind Kompaniyası»nın varisləri narkotiklərin yayılması üzrə Öz proqramlarının uğuruna heyran qalmışdılar. Onların «himayəyə götürdükləri» (burada söhbət Amerikanın gənc nəslindən gedir. – Y.Ə.) lizergin turşusuna (LSD) möhkəmcə «oturmuşdular». LSDni isə onlara (amerikalı gəndərə – Y.Ə.) Oldos Haksli və İsveçrənin qüdrətli bankir sülaləsi olan Varburqlar tərəfindən maliyyələşdirilən hörmətli SANDOZ (əczaçı) kompaniyası kimi narkoticarət patronları səmimiqəlbdən toqdim edirdi. Yeni «möcüzənarkotika» smaq bağiamalarda luitün rokkonsertlərdə və kolleclərdə pulsuz paylamrdı. Qeyri-ixtiyari sual meydana çıxır: Federal Təhlükəsizlik lüirosu bəs bu vaxt nə işlə məşğul idi?

«Bitlz»m məqsədi tamamilə aydın oldu. Londonun ali Cəmiyyətinə məxsus olan «Britaniya Ost-Hind Kompanivasenın varislərinın sərvətlərinə yeni milyardlarla dollar əxmağa başlayanda onlar özlərini, çox güman, əla hiss rdirdilər. «Rok»un (bundan sonra biz bu sözü Adornonun iblisanə bədniyyətli musiqisini qısaca ifadə etmək üçün istifadə edəcəyik) gəlişi

downloaded from KitabYurdu.org

ilə narkotiklərin, xüsusilə də ınarixuananın istifadəsinin dəhşətli artımı qeydə alındı. Narkoticarət bütövlükdə «Elmi Siyasətin Tədqiqat Mərkəzmin» nəzarəti və idarəsi altında işə salındı.

Bu Mərkəzə *Liland Breaford* (Leland Bradford), *Kemıet Damın* (Kennetlı Damm) və *Ronald Lippert*(Ronald I ippert) başçılıq edirdilər. Insanlarda «gələcəyin şoklarını» ıloğurmaq üçün onların yüksək ixtisaslı rəhbərliyi altında «yeni elmlər» üzrə xeyli mütəxəssis hazırlanmışdı. Bu cür «.şoklardan» biri – bu, amerikalı tineycerlərdə narkotiklərin istifadəsinin kəskin artması idi. «Elmi Siyasətin Tədqiqat Mərkəzenin konseptual işlər qismində müxtolif hökumət agentliklərinə, o cümlədən də «Narkotiklərlə Mübarizə Agentliyinə» (bu, «Drug Enforcement Agency»nin rəsını lorcüməsidir, hərçənd onu «Narkotiklərin Məcburi Tətbiq ()lunması Agentliyi» kimi də tərcümə etmək olar ki, bu, lıoqiqətə daha uyğundur. – tərc.) sındığı işçi təlimatlar həmin idarələrə, Reyqan və Buş administrasiyasının guya apardığı «narkotiklərlə dağıdıcı müharibənin» («drug war» – bunu «narkotik müharibə» kimi də tərcümə etmək olar, tərc.) gedişini diqtə edir.
Bütün bunlar, «Tavistokun» konsepsiyaları əsasında yetişdirilmiş müxtəlif komitə və şuraların (onlar səmimi olaraq inanırlar ki, bu konsepsiyalar onların özlərinə məxsusdur), eləcə də «daxili hökumətin» Birləşmiş Ştatları idarə etməsi üçün bu gün istifadə etdikləri metodların hələ prelüdiyası idi. Bu «naməlumlar» ABŞ-da mövcucö olan dövlət idarəetmə formasım və həyatın keyfiyyətini həmişəlik dəyişdirəcək qərarlar qəbul edirlər. «Böhranlı adaptasiya» vasitəsilə biz elə bir dərəcədə dəyişdirilmişik ki, müasir cəmiyyətimizlə əllinci dlərin amerikalıları arasında artlq ortaq heç nə qalmayıb. Bundan başqa, bizi əhatə edən mühit dəyişdirilib.

Bizim dövrümüzdə ətraf mühit haqqında çox danışırlar. Bu vaxt əsas etibarilə yaşıl meşələr, duru çaylar və təmiz hava nəzərdə tutulsa da, bundan heç də az əhəmiyyətli olmayan başqa bir ətraf mühit də mövcuddur, konJ kret olaraq – narkotik ətraf mühit. Bizim həyat tərzimizin ətraf mühiti zəhərlənib; bizim təfəkkürümüz zəhərlənib. Öz taleyimizi idarə etmək qabiliyyətimiz zəhərlənib. Biz, təfəkkürümüzü elə bir dərəcədə zəhərləmiş olan dəyişikliklərlə üzləşmişik ki, ümumiyyətlə, nə etmək lazım oldlığunu bilmirik. «Dəyişikliklər mühiti» milləti eybəcər hala salır; biz vəziyyətə qətiyyən nəzarət edə bilmirik və bd hal həyəcan, çaşqınlıq doğurur.

Fərdi qərarlar əvəzinə, biz indi problemlərimizin həllini qruplar halında axtarırıq. Problemlərimizin həlli üçün biz fərdi resurslarımızı istifadə etmirik. Bunun əsas səbəbi narkotiklərdən istifadənin kəskin artmasıdır. Bütün bunlar «yeni elmlər» üzrə

downloaded from KitabYurdu.org

mütəxəssislərin və «sosial mühəndislərin» işləyib hazırladıqları niyyətli strategiyanın nəlicəsidir və bu, bizim ən zəif cəhətimizə – bizim özümüz lıaqqında tesəvvürlərimizə, bizim özümüzü necə qəbul otdiyimizə tuşlamb. Şüura bu cür təsir buna gətirib çıxa11 r ki, biz kəsilməyə aparılan qoyun sürüsünə bənzəməyə lıaşlayırıq. Bizə təqdim olunan çoxsaylı variantlar arasmLİa daim seçim etmək zərurəti psixikamızı artıq tükədib və biz əvvəl-axır tam apatiyaya qərq olmuşuq.

Bizimlə manipulyasiya edənlər bədniyyətli adamlardır, biz isə bunu heç düşünmürük də. Bu, xüsusilə də narkotiklo ticarətə münasibətdə həqiqətdir və biz hazırda qüvvədə olan konstitusion dövlət quruluşu formasından imtina etməyə məcbur ediləcəyimiz keçid mərhələsindəyik. Buş administrasiyası artıq bu istiqamətdə nəhəng addım atıb. Hər şeyin məhz bu cür olduğuna dəlalət edən bütün sübutlara baxmayaraq, inadkarcasına «Amerikada bu mümkün deyil» fikirləşən adamlar hələ qalsa da, laktdır ki, BU ARTIQ BAŞ VERİB. Aramsız təzyiqlər nəticəsində biz müqavimət göstərmək iradəmizdən tamamilə məhrum olmuşuq. Bəzilərimiz, «biz müqavimət göstərəcəyik», – deyir, lakin real olaraq bunu çox az adam edəcək və biz həmişə azlıqda olacağıq.

Narkotiklərlə ticarət bizim ətraf mühiti məkrli surətdə dəyişdirib. «Narkotiklərə qarşı müharibə» – bu, farsdır; müharibənin miqyasları elədir ki, «Britaniya Ost-Hind Kompaniyası»nın varisləri onu heç hiss də etmirlər. Kompüterləşməyə əlavə olaraq biz demək olar total «beyin yuyulmasına» məruz edilmişik – bizə sırınan dəyişikliklərə müqavimət göstərmək qabiliyyətindən tamamilə məhrum olmuşuq. Bütün bunlar daha bir «ətraf mühitin», hökumətlərin bunsuz öz oyunlarını artıq oynaya bilmədikləri, ŞƏXSİYYƏT ÜZƏRİNDƏ NƏZARƏT (bu, həm də şəxsi informasiya üzorində nəzarət adlandırılır) «mühitinin» formalaşdırılması deməkdir.

Məsolə bu yerdədir ki, hökumətin sərəncamında haqqımızda hansı informasiyanın olduğunu öyrənməyə I hizim heç bir imkanımız yoxdur. Hökumətin kompüter faylları ictimai nəzarət üçün tamamilə əlçatmazdır. Yəni biz hələ də kütbeyincəsinə inanuıq ki, şəxsi informasiya toxunulmazdır? Yadda saxlayın – hər bir cəmiyyətdə hüquq-mühafizə orqanlarını nəzarət altında saxlayan zəngin və qüdrətli ailələr vardır. Düşünməyin ki, bu ailələr bizim haqqımızda nəyi isə öyrənmək istəsələr, bunu edə bilməyəcəklər. Belə ailələr başqaları ilə müqayisədə Komitet 300-də daha çox yer tapan ailələrdir.

Misal üçün, Kissinceri götürün. Onun şəxsi sərəncamında təkcə ABŞ-da yox, eləcə də bütün dünyada yüzlərlə və minlərlə adamın dosyesi var. Biz Kissincerin düşmənləri siyahısında

downloaded from KitabYurdu.org

varıqmı? Düşünürsünüz ki, bu sual barmaqdan sovrulmuş, ya da tavandan götürülüb? Əsla! «P2» Mason Lojası və «Monte Karlo Komitəsini» götürün – onlar minlərlə insanın adı olan siyahılara malik idilər. Yeri gəlmişkon, Kissincer – onların arasındadır. Başqa «özəl» kəşfiyyat xidmətləri də var, məsələn, bir qədər aşağıda rastlaşacağımız *İNTEL*.
Heroinin Avropaya çatdırılması kanallarından biri Monako knyazlığından keçir. Heroin Korsikadan bərələrlə gəlir ki, yay mövsümündə həmin bərələr Korsika və Monte Karlo arasında lap çox sayda reys edirlər. Bu vaxt nə yüklər, nə də sərnişinlər qətiyyən heç bir yoxlamaya məruz qalmırlar. Fransa ilə Monako arasında keşik çəkilən sərhəd olmadığından, narkotiklər, xüsusilə də heroin və yaxud qismən emal edilmiş tiryək Monakonun açıq sərhədlərindən sel halında keçərək Fransadakı laboratoriyalara gəlir. Əgər təmiz heroin gəlirsə, onda narkotika birbaşa yayıcılara ötürülür.

Qrimaldi ailəsi narkotika qaçaqmalçılığı ilə artıq bir neçə yüz ildir məşğul olur. Ailənin yaxın tarixində baş verən epizodlardan birinə diqqət yetirək: tamalı Knyaz Ranyeni rahat qoymur, o, narkotik qaçaqmalçılığından həddən ziyadə haqq almağa başlayır və bunu üç ciddi xəbərdamqdan sonra belə davam etdirir. Buna görə onun həyat yoldaşı Qreys «avtoqəzada» öldürüldü. Qreysin «Rover»ində əyləc sistemi elə nizamlanmışdı ki, hər dəfə əyləc pedalmı basanda sistemdən müəyyən miqdarda maye axıb gedirdi və beləliklə, avtomobil dağ yolunun kəskin döngələri olan ən təhlükəli hissəsinə çatanda əyləc sistemi artıq işləmirdi və buna görə avtomobil tam sürətlə uçuruma düşdü.

Komitet 300-ün agentləri Knyaginya Qreysin öldürülməsi ilə bağlı həqiqəti ört-basdır etmək üçün mümkün olan hər şeyi etdilər. Onun avtomibili bu günə qədər də Fransa polisində saxlanıhr, lakin ona hətta yaxınlaşmaq belə qadağandır.
Komitet 300-ün nəzarəti altında olan narkotika ticarəti özündə bəşəriyyətə qarşı cinayət ehtiva edir. Lakin biz «Tavistok İnstitutu»nun illər uzunu fasiləsiz olaraq həyata keçirdiyi bombardmanların təsiri ilə zəiflədiyimizdən, narkotik ticarətinin öhdəsindən gəlməyi «həddindən artıq böyük problem» hesab edərək, bizi əhatə edən dəyişdirilmiş mühiti az və ya çox dərəcədə qəbul etmişik. Bu, belə deyildir. Əgər biz bütöv bir milləti səfərbər edə bildiksə, milyonlarla amerikalı əsgəri qarışmalı olmadığmuz müharibədə döyüşmək üçün hazırlayıb Avropaya göndərə bildiksə, əgər biz böyük və güclü dövləti məğlub edə bilmişiksə, onda biz İkinci Dünya Müharibəsinin taktikasından istifadə edərək narkotiklərlə ticarəti də məhv edə bilərik.

İkinci Dünya Müharibəsinə müdaxilə edərkən holl edilməli olan təchizat və infrastruktur problemləri hətta bu gün də insanın təsəvvürünü heyran edir.

downloaded from KitabYurdu.org

Və bununla belə, o vaxt biz bütün problemləri müvəffəqiyyətlə həll edə bildik. Əgər belədirsə, onda sərəncamımızda daha müasir silah və texnika olduğu halda dəqiq məlum olan, Almaniyadan qatc}at kiçik və daha zəif düşməni məğlub etmək niyə mümkün deyil? Narkoticarətin çiçəklənməsinin əsl səbəbi ondan ibarətdir ki, bu, dünyanın ən yüksək vəzifəli ailələrinin nəzarəti altında olan və vasitəsilə astranomik pullar qazanılan koordinasiya olunmuş nəhəng mexanizmin bir hissəsidir.

1930-cu ildə Cənubi Amerikaya qoyulmuş Böyük Britaniya kapitalının hocmi, onun «dominionlarına» qoyulmuş kapitalı üstələdi. Böyük Britaniyanın xarici investisiyaları üzrə görkəmli mütəxəssis olan Qrexem bildirirdi ki, Böyük Britaniyanın Cənubi Amerikaya yatırdığj kapitalın həcmi «*bir trilyon funt sterlinqi keçib*». Xatırlayın, bu 1930-cu il idi və o vaxt bir trilyon funt sterlinq ağlasığmaz astronomik məbləğ idi. Cənubi Amerikaya belə nəhəng investisiyaların qoyuluşunun səbəbi nə idi? Bir sözlə ıleyilərsə – narkotiklər.
Böyük Britaniya banklarına nəzarət edən plutokratiya fid ciləvlarını əlində tutmuşdu və indi olduğu kimi, o vaxt da özünün çirkli biznesi üçün etibarlı pərdə (örtük) təşkil edirdi. Heç kim heç vaxt onların çirkli əllərindən luta bilməyib. Əgər iş düzgün getməsə, bu halda onların hərnişə günahı öz üzərinə götürən adamları olub və bu, indi də belədir. O vaxt da, indi də narkotika ticarəti ilə əlaqələr gizlin olub. Böyük Britaniyanın Komitet 300-ə daxil olan «əsilnəcabətli» ailələrinin üzvlərinin üzərinə heç kim heç vaxt yüngülcə kölgo də sala bilməyib.

Böyük əhəmiyyət kəsb edən məsələ budur ki, bu nəhəng imperiyaya Parlamentin yalnız 15 üzvü nəzarət edirdi; onların içərisində ən görkəmliləri Ser Çarlz Barri və Çemberlenin ailələri idi. Bu maliyyə superlordları əməliyyatları Argentina, Yamayka və Trinidad kimi yerlərdə keçirirdilər ki, buralar narkotik ticarəti sayəsində onlar üçün dibi olmayan qazanc mənbəyinə çevrümişdi. Britaniyalı plutokratlar quldan azacıq yüksək pul ödəməklə bu ölkələrdə nifrətlə «buyerli» (ruscada: «tuzemtsı». – Y.Ə.) adlandırdıqları adamlar saxlayırdılar. Karib hövzəsi ölkələrində həyata keçirilən narkotik ticarətində çoxları nəhəng varidat toplamışdı.
Plutikratlar «Trinidad Leaseholds Limited» kimi kompaniyaların arxasında gizlənirdilər, lakin onların REAL MƏQSƏDİ həmişə narkotik olub və bu, indi də belədir. Biz heç olmasa bu nümunədə indi də bunu görə bilərik ki, Yamaykanın Ümumi Daxili Məhsulu (ÜDM) demək olar tam həcındə qanca – güclü təsirə malik marixuana satısından ibarətdir. Qanca ticarətinin mexanizmi David Rokfeller və Henri Kissincer tərəfindən «Karib hövzəsi təşəbbüsü» adı altında yaradılmışdı.

downloaded from KitabYurdu.org

Çində tiryək ticarəti ilə bağlı əsl həqiqət yaxın vaxtlara qədər tamamilə naməlum idi. Bu hadisə həmişə mümkün qədər məxfi saxlanılırdı. Keçmiş tələbələrimin bir çoxu məndən tez-tez çinlilərin tiryək çəkməyi nə üçün belə çox sevdiyini soruşurdular? Əldə edilməsi mümkün olan ziddiyyətli mənbələrə əsaslanaraq, onlar Çində əslində nə baş verdiyindən qətiyyən baş çıxara bilməzdilər. Onların əksəriyyəti düşünürdü ki, çinli fəhlələr(,) sadəcə olaraq(,) tiryəki bazardan ahb çəkir, ya da sayT minlərlə olan tiryəkxanadan birinə gedir və öz dəhşətli həyatlanın bu yolla müvəqqəti də olsa unudurdular.

Həqiqət isə ondan ibarətdir ki, Çinə tiryəkin gətirilməsində Britaniya inhisara malik idi. Bu, Britaniya hökumətinin RƏSMİ inhisarı və Britaniyanın rəsmi siyasəti idi. Çində həyata keçirilən HindBritaniya tiryək ticarəti ən ciddi sirlərdən biri idi. Onun ətrafında «Hindistan xəzinələri», Redyard Kiplinqin gozəl qələmə aldığı kimi, Britaniya ordusunun «İmperiyanın» şərəfinə göstərdiyi şücaətlər haqqında boş əfsanələr və hekayələr, eləcə də viktorian İngiltərəsində yüksək cəmiyyətin qonaq otaqları üçün gətirilən Çin çayı yükü ilə okeanlarda şütüyon «çay klipperləri» haqqında nağıllar qoşulurdu. Gercoklikdə isə Britaniyanın Hindistam işğal etməsi və Brilaniyanın Çində apardTgT «Tiryək Müharibələri» Qərb sivilizasiyasının tarixinin ən qaranlıq sohifələrindəndir.

BritaniyanTn hökmranlıgT dövründə Llindistanın gəlirlərinin demək olar 13 %-i Britaniyanın nəzcirəti altında Çində fəaliyyət göstərən tiryək yayıcılarına satılan yüksək keyfiyyətli Banqladeş tiryəkindən əldə olunurdu. Müasir «Bitlz» kimi, «Çin Daxili Missiya» tiryəkin kasıb çinli lohlələr (onlar bu adamları «kuli» adlandmrdılar) arasında istifadəsini dəbə mindirmək istiqamətində çox böyük İş gördü. Eynilə ABŞ-da narkomanyeniyetmələr kimi, bu narkomanlar da özözünə havadan meydana gəlməmişdilər. **YADDA SAXLAYIN: HƏM BUNLARI, HƏM DƏ ONLARI MƏQSƏDYÖNLÜ SURƏTDƏ TƏRBİYƏ ETMİŞDİLƏR.** Çində əvvəl tiryək bazarı yaradılmış və bundan sonra bu bazar Banqladeşdə istehsal edilən tiryək ilə doldurulmuşdu. Eyni qaydada ABŞ-da da marixuana və LSD bazarı əvvəl yuxarıda göstərilən metodlarla yaradılmış, sonra da britaniyalı plutokratlar və onların amerikalı c|ohumları, Böyük Britaniya bank isteblişmentinin superlordlarının köməyi ilə, bu bazarı tutmuşdular.
Gəlirli narkotik ticarəti – bu, insanların bədbəxtliyində pul qazanmağın ən pis nümunələrindən biridir. Başqa bir nümunə – bu, Rokfellerə məxsus olan, lakin əsas kompaniyaları İsveçrədə, Fransada və Böyük Britaniyada fəaliyyət göstərən, «Amerika Səhiyyə Assosiasiyası» (ASA) lərəfindən tam şəkildə dəstəklənən əczaçı kompaniyalar tərəfindən(,) əsas etbarilə ABŞ-da həyata keçirilən(,) narkotiklərin leqal satışıdır. Dopinq və narkotiklərlə aparılan çirkli sövdələşmələrin verdiyi pullar London Sitisindən, eləcə də

downloaded from KitabYurdu.org

Honkonqdan, Dubaydan və yaxın vaxtlarda Livandan, İsrailin bu ölkəyə soxulması sayəsində, axır.

Bütün bunları şübhə altına alanlar da tapılacaq. Onlar deyəcəklər: «Faynenşl Tayms» qəzetindəki işgüzar məqalələrə baxın və deməyin ki, bütün bunların narkotika ticarətinə aidiyyəti var». ƏLBƏTTƏ VAR, lakin düşünməyin ki, İngiltərənin əsilnəcabətli lordları və lediləri bu faktı reklam edəcəklər. «Britaniya Ost-Hind Kompaniyası»nı xatırlayırsmızmı? Rəsmi olaraq onun bütün biznesi çay ticarətindən ibarət idi!

Londonun «Tayms» qəzetinin Böyük Britaniya publikasına bunu deməyə heç vaxt cəsarəti çatmayıb ki, çay ticarətində NƏHƏNG GƏLİR qazanmaq mümkün deyildir. Eynilə də, bu parlaq qəzet Londonun feşenebelli klublarında vaxt keçirən və ya «Kral Vindzor Klubu»nda polo oynayanların ciddcəhdlə həyata keçirdikləri tiryək ticarəti barədə və yaxud İmperiyaya xidmət etmək üçün Hindistana yollanan zabitcentlmenlərin öz maaşlarını İSTİSNASIZ olaraq, tiryəkə vərdiş etdirilən milyonlarla çinli kulinin dərdi bahasına əldə edilən, böyük gəlirlərdən alması haqqında heç kəkələyə də bilməzdi.

Ticarəti məşhur «Britaniya Ost-Hind Kompaniyası» (bundan sonra BOHiK) həyata keçirirdi. BOHiKin 200 il ərzində ABŞ-ın siyasi, dini və iqtisadi işlərinə bezikdirici müdaxiləsi bizə baha başa gəhb. Kompaniyanın üç yüz üzvü qalan bütün bəşəriyyətdən bir pillə yuxarıda dururdu. Onların qüdrəti elə əzəmətli idi ki, Lord Bertran Rass'el bununla bağlı belə demişdi: «Allahın göylərdə problemi meydana çıxanda, onlar Allaha da məsləhət verə bilərdilər». Ötən illər ərzində nəyin isə dəyişdiyini ehlimal etməyinə dəyməz. Komitet 300-ün üzvləri EYNİLƏ HƏMİN MÖVQENİ TUTUBLAR və bax buna görə də Onlar tez-tez özlərini «Olimpiyaçılar» adlandırırlar.

Bir müddət sonra «Britaniya Ost-Hind Kompaniyası»na Britaniya taxt-tacı, yəni, kral ailəsi də qoşuldu. Taxtlac, necə deyərlər, «daşınma rüsumları» vasitəsilə, yəni Kompaniyanın ixracma nəzarət etməklə BOHiKi Banqladeşdə, eləcə də Hindistanın başqa yerlərində tiryək istehsalı işində istifadə edirdi. Başqa sözlə, taxt-tac dövlət orqanlarında tələb olunan şəkildə qeydiyyata alman tiryək istehsalçılarından və Çini tiryək ilə təchiz edənlərin hamısından vergi tuturdu.

Ticarətin hələ «qeyri-leqal» olduğu – bu söz tiryək istehsalçılarından daha çox pul qoparmaq üçün istifadə olunurdu – 1896-cı ilə qədər ticarəti dayandırmaq üçün kiçicik belə cəhd də edilmirdi; Hindistandan çox böyük həcində tiryək «çay klipperlərində» – yelkənli

downloaded from KitabYurdu.org

gəmilər, onlənn Hindistan və Çindən London birjalarına guya çay daşıdıqları haqda əfsanə və rəvayətlər qoşulub – dasınınışdı.

Kompaniyanın lordları və lediləri o dərəcədə azğmlaşınışdılar ki, onlar bu ölümcül maddəni ABŞ-da Vətəndaş Müharibəsi dövründə İttifaqın və Konfederasiyanın ordularına ağrıkəsici vasitə adı altında satmağa da cəhd etmişdilər. (Onların planının baş tutacağı təqdirdə nə baş verə biləcəyini təsəvvür etmək çətin deyildir! Yüz minlərlə əsgər tiryək dəminə aludə olub döyüş meydanım tərk edərdi. Bir müddət sonra «Bitlz» milyonlarla yeniyetmə və gənc insanrn narkomana çevrilməsində daha böyük uğur qazandı.)

Bədbəxt çinli kulilərə tiryək sahsından «Britaniya Ost-Hind Kompaniyasenın seyflərinə axan nəhəng pul məbləğləri banqladeşli tacirləri, eləcə də onların britaniyalı nəzarətçilərini və bankirləri piyləndirib və azğmlaşdırmışdı. BOHiK-in hotta həmin illərdəki qazancr belə «General Motors», «Ford» və «Kraysler» kompaniyalarının çiçəkləndikləri dövrdəki birgə qazancından çox idi. 1960-cı illərdə narkotika istehsalından nəhəng gəlir götürülməsi işi LSDnin istehsalçısı «Sandos» (Sandoz), valiumun istehsalçısı «Hoffman la Roş» («Hoffman la Roche») kimi narkotik ölümün «leqal» tacirləri tərəfindən davam etdirilmişdi. «Hoffman la Roş» kompaniyası üçün valnımun xammalı və istehsalı bir kiloqram üçün 3 dollar təşkil edir. Kompaniya məhsulunu distribütorlara kiloqramı 20.000 dollara satır. Valnım son istelılakçıya çatanda bir kiloqramTnın qiyməti 50.000 dollara qədər yüksəlir. ABŞ-da və Avropada valnım çox böyük həcmlərdə istifadə ohmur. Ola bilsin ki, valnım dünyada bu növdən olan ən geniş yayılmış narkotikdir.

«Hoffman la Roş» eyni şeyi «C» vitamini ilə də edir. Belə ki, onun bir kiloqram məhsul üçün istehsal xərcləri bir sentdən də ucuzdur. Vitamin «C» 10.000 % gəlirlə satıhr. Dostum, Avropa İqtisadi Birliyinin qanunlarına zidd olaraq digər istehsalçılarla inhisar sövdələşməsinə girən bu cinayətkar kompaniya ilə bağlı, həyəcan təbili vuranda, onu IsveçrəItaliya sərhədində tutdular və türməyə saldılar. Isveçrə polisi onun həyat yoldaşını hədəqorxularla intihara çatdırdı. Onun vəziyyəti haqda məlumat almandan dərhal sonra o, Böyük Britaniyanın təbəəsi kimi, Böyük Britaniyanın Berndə konsulu tərəfinilən xilas olundu; onu azadlığa buraxdılar və ölkədən SÜrgün etdilər. O, «Hoffman la Roş» kompaniyasının sirlərini açmağa cəsarət etdiyinə görə öz həyat yoldasını və təqatıdünü itirdi. İsveçrəlilər sənaye casusluğu haqqında öz qanunlarına çox ciddi əməl edirlər.

İsveçrə dağlarının xizək cığırlı yamacları, gözəl keşikçiləri, bakirə dağları və bahalı saatları ilə bağlı aləlvan reklam prospektlərini görəndə bütün bunlan yada salın. Əsl İsveçrə bütün

downloaded from KitabYurdu.org

bunlarda deyildir. Əsl İsveçrə – ən iri İsveçrə bankları tərəfindən həyata keçirilən saysız milyardlarla çirkli dollarların yuyulması, Komitet 300-ün bayrağı altında «leqal» narkotik istehsafrdıri İsveçrə qlobal fəlakət dövründə onların pulları və gövdələri üçün əsas «sığmacaqdır».

Sizi xəbərdar edirəm: bu mənfur fəaliyyətlə bağlı istənilən informasiyanın açılması üçün böyük xoşagəlməz hadisələrə tuş gəlmək olar. İsveçrə bunu «sənaye casusluğu» kimi nəzərdən keçirir və buna görə beşillik müddətə türmə nəzərdə tutulur. Daha təhlükəsiz olanı hudur ki, İsveçrənin çirkli bank mətbəxinə nəzər salmağa cəhd etmək əvəzinə, onu gözəl təmiz ölkə kimi qəbul etdiyini göstərəsən.

1931-ci ildə Böyük Britaniyanın «Böyük beşlik» adlanılınlan kompaniyasını idarə edən direktorlar narkopulların yuyulması işində fəaliyyətləri müqabilində Ingiltərənin Peri adına layiq görüldülər. Bu qərarı kim çıxartmışdı və onları bu şərəfə kim layiq görmüşdü? Dünya narkoticarətində həlledici mövqe tutan həmin şəxslərə bu iltifatı İngiltərə Kraliçasının özü göstərmişdi. Bu dəhşətli biznesdə iştirak edən Böyük Britaniya banklarının siyahısı burada göstərilmək üçün çox böyükdür, lakin onlardan ən mühümlərinin bir neçəsinin adını çəkmək lazımdır:

**«The British Bank of the Middle East» («Britiş bank of ze Middl İst» — «Britaniya Yaxın Şərq Bankı»).**
**«Midland Bank» («Midland Bank»).**
**«National Westminster Bank» («Neşnl Vesminester Bank» — «Milli Vestministr Bankı»).**
**«Barclays Bank» («Barklayz Bank»).**
**«Royal Bank of Canada» («Royal Bank of Kanada» – «Kanada Kral Bankı»).**
**«Hong Kong and Shanghai Banking Corporation» (HSBC – «Honkonq və Şanxay Bank Korporasiyası»).**
**«Baring Brothers Bank» («Berinq Brazers Bank» — «Berinq Qardaşlarının Bankı»).**
Kommersiya banklarının bir çoxu qulaqlarına qədər narkoticarət çirkabına batıblar. Məsələn, Ser Coselian Hambronun (Jocelyn Hambro) rəhbərlik etdiyi «Hambros» bankını («Hambroz») göstərmək olar. Çində tiryək ticarətinin həqiqətən də maraqlı və ətraflı öyrənilməsi üçün Londonda yerləşən «Hindistan Ofisinə» daxil olmağa imkan əldə etmək vacibdir. Kəşfiyyatda xidmət etməyim sayəsində mənə bura daxil olmaq və sənədlərin səlahiyyətli qoruyucusu, mərhum professor Frederik Uells Vilyamsondan böyük kömək

downloaded from KitabYurdu.org

almaq müyəssər oldu. O, «Britaniya Ost-Hind Kompaniyası»nın XVIII və XIX əsrlərdə Hindistanda və Çində apardığı tiryək ticarəti ilə bağlı mənə çoxlu informasiya verdi. Əgər bu sənədləri ılorc etdirmək mümkün olsaydı, Avropanın taxt-tac sahibi olan əfilərin başlan üzərində necə də tufan qopardı.

Hazırda narkoticarət bu planda bir qədər dəyişib ki, Şimali Amerika bazarının ohomiyyətli hissəsini o qədər də bahalı oimayan kokain tutub. Altmışıncı illərdə Honkonqdan, Livandan və Dubaydan gələn heroin seli ABŞ-ı və Avropanı qərq etmək təhlükəsi yaratmışdı. Bir müddət sonra, tələb təklifi üstələyən vaxt, kokainə keçmək qərara alındı. Lakin indi, 1991-ci ilin sonlarında əks tendensiya müşahidə olunur; nisbətən aşağı təminatlı təbəqələrdə kokain ağlasığmaz populyarlıq qazanmış olsa da, bu gün birinci yerdə yenə də heroindir.

Deyilənə görə, narkomanları heroin daha çox qane edir; onun təsiri kokainə nisbətən daha güclüdür və daha uzun müddət davam edir, digər tərəfdən, heroin islehsalçılarına beynəlxalq diqqət də Kolumbiya kokain kartellərinə olduğu kimi böyük deyildir. Eynilə bu da az ehtimal olunur ki, ABŞ, Çin ordusunun nəzarəti altında olan «Qızıl üçbucaqda» tiryək istehsalına son qoyulması üçün, real səylər göstərmiş olsun. Əgər hər hansı bir ölkə tiryək ticarətinə mane olmağa çabşsa, ciddi müharibə baş verə bilər. Tiryək ticarətinə ciddi hücum Çinin hərbi müdaxiləsinə səbəb ola bilərdi.
Britaniyalılar bunu bilirlər; «kökənin» daha böyük hissəsinin kimə çatacağı ilə bağlı təsadüfi deyişmələr nəzərə alınmasa, britaniyalılar Çinlə heç vaxt küsüşmürlər. Böyük Britaniya Çində tiryək ticarətində artıq iki yüz ildən çoxdur iştirak edir. Heç kəs bu dərəcədə axmaq olmayacaq ki, britaniyalı oliqarxların hesablarına milyonlarla və milyardlarla dollar axdığı, eləcə də London və Nyu-York birjalarında birlikdə satılan qızıldan çox qızılın Honkonq bazarında satıldığı bir vaxtda qayığı yırğalasın.

«Qızıl üçbucağın» ərazisindəki təpələrdə çinli və ya birmalı xırda narkotika alverçisi ilə hər hansı bir razıhğa gələ biləcəyini səmimi olaraq düşünən insanlar, görünür, bütün bunların arxasında nəyin durduğunu qətiyyən təsəvvür etmirlər. Əgər onlar bunu bilsəydilər, onda tiryək ticarətinə son qoyulması barədə heç kəkələməzdilər də.; Bu mövzu ətrafında söhbətlər yalnız Çində tiryək ticarətinin miqyasları və xarakteri barədə heç bir məlumatın olmadığını nümayiş etdirir. Böyük Britaniyalı plutokratlar, rus KQBsi, MKİ və ABŞ bankirləri – hamı Çinlə ələlə verib işləyir. Kim isə bu ticarəti saxlaya və ya heç olmasa ona xırdaca bir xələl gətirə bilərmi? Bunu təsəvvür etmək absurd olardı.
Heroin nədir və bu gün ona kokainə nisbətən nə üçün daha çox üstünlük verirlər? Bu məsələdə görkəmli nüfuz sahibi olan professor Qalenə görə, heroin – bu, tiryəkdən alınan,

downloaded from KitabYurdu.org

hissləri kütləşdirən və uzunmüddətli yuxu doğuran narkotikdir. Narkomanların əksəriyyəti də məhz elə bunu sevir – bu, «Morfeyin ağuşunda olmaq» adlandırılır. İnsana məlum olan qalan bütün narkotiklərə nisbətən, tiryək daha tez vərdiş doğurur. Bir çox farmasevtik vasitələrdə müxtəlif dərəcədə tiryək istifadə olunur və hesab edilir ki, siqaret istehsalında istifadə olunan kağıza əvvəlcə tiryək hopdurulur. Siqaret çəkənlər bax buna görə öz vərdişlərinə belə bərk bağlıdırlar.

Tiryəkin alındığı lalə toxumu Hindistan Moğollarına lap çoxdan məlum idi. Onlar bunu çayla qarışdırır və çətin həmsöhbətlərə təklif edirdilər. Bu bitki həm də xlərəforın və digər anestetikləri geniş surətdə əvoz edərək, keçmiş dövrlərin ağnkəsici vasitəsi kimi istifadə olunurdu. Tiryək viktorian Londonunun feşenebelli klublarının hamısında populyar idi və sirr deyildir ki, Haksli qardaşları onu intensiv istifadə edirdilər. Elladanın Orfik-Dionisiya kultlarının və viktorian cəmiyyətinə daxil olan Ptolomey Misirində «Ozaris-Qor Kultu»nun üzvləri, hamı tiryək çəkirdi, çünki «belə qəbul edilmişdi».

Bizim hansı dünyada yaşamalı olduğumuzla bağlı qərar qəbul etmək üçün 1903-cü ildə «Müqəddəs Ermin» hotelində toplaşanlar da eyni şeyi etmişdilər. «Müqəddəs Ermin» hotelində keçirilən yığıncaqda iştirak edənlərin nəsillərinin davamçılarını biz indi Komitet 300-də tapa bilərik. Məhz bu, üzdəniraq, liderlərin otraf mühitdə dogurduqları dəyişikliklər narkotiklərin yayılmasını elə bir həddə çatdırıb ki, hüquq-mühafizə və güc orqanlarının adi metodlarının köməyi ilə bu gün bunun qarşısını almaq artıq mümkün deyildir. Bu hal xüsusilə də böyük şəhoılərin gerçəkliyidir, çünki böyük əhali sıxhğının hökm sürdüyü iri şəhərlərdə nəyin baş verdiyini gizlətmok daha asandır.

Kral dairələrində bir çox insan mütəmadi qaydada tiryək çəkirdi. Favoritlərdən biri yazıçı KudenhouvKalergi (CoudenhoveKalergi) idi. O, 1932-ci ildə, özündə dünyanın orta əsrlər dövrünə qaytarılması proqrammı ehtiva edən «TEXNOLOGİYA VASİTƏSİLƏ İNQİLAB» kitabını yazmışdı. Bu kitab Komitet 300-ün ABŞ-dan başlamaqla ümumdünya demdustrializasiyası üzrə planları üçün faktiki olaraq işçi material oldu. Əhali artımının ciddi problem olduğunu bəyan edən Kalergi «açıq məkanlar» adlandırdığı həyata qayıtmağı məsləhət görürdü. Məgər bu, «Qırmızı kxmerlərin» və PolPotun irəli sürdüklərinə bənzəmir? Budur, həmin kitabdan bir neçə hissə:

*«Gələcəyin şəhəri öz infrastrukturu ilə Orta Əsrlərin şəhərini xatırladacaq... və öz peşəsinə görə şəhərdə yaşamaq qismət olmayan adamlar köçüb kənd yerlərində yaşayacaqlar. Bizim sivilizasiya -bu, böyük şəhərin mədəniyyətidir; buna görə də o, (sivilizasiya, - tərc.)*

downloaded from KitabYurdu.org

*özü ilə, öz iradəsi və ya özündən asılı olmayan səbəbdən həyatın bu dalanına düşən degenerativ, xəstəhal və səviyyəsiz adamlar tərəfindən yaradılmış «bataqlığı» təcəssüm etdirir».*
Bu, «AnkarVat»m (AnkarWat) bizə, «onun» Pnom Pen əhalisini ixtisar etmək üçün verdiyi əsaslandırına ilə eyni səslənmirmi?

İlk tiryək partiyalan İngiltərəyə 1683-cü ildə Benqaliyadan «Britaniya Ost-Hind Kompaniyası»ran «çay kliperlərində» gətirilmişdi. Tiryəki İngiltərəyə smaq üçün, eksperiment qismində, sadə xalqı – kəndliləri və aşağı sinifləri bu narkotikə öyrəşdirməyin mümkün olubolmadığını yoxlamaq üçün gətirmişdilər. Bizim dövrümüzdə bunu yeni məhsulun «sınaq marketinqi» adlandırırlar. Lakin ingilis kəndlisinin və «aşağı siniflərinin» möhkəm qoz olduğu aydın oldu və sınaq marketinqi ilə bağlı eksperiment tam iflasa uğradı. Britaniya cəmiyyətinin «aşağı sinifləri» tiryək çəkməyi qətiyyətlə inkar etdi.

Londonun yüksək cəmiyyətinin plutokratları və oliqarxları daha üzüyumşaq və həssas satış bazarı axtarmağa başladılar. Belə bir bazarı onlar Çində tapdılar. «Hindistan Ofisində» «Digər qədim qeydlər» şöbəsində rast gəldiyim və öyrəndiyim sənədlərdə mon, Çində tiryək ticarətinin «Britaniya Ost-Hind Kompaniyası» tərəfindən maliyyələşdirilən «Çində Daxili Missiyanın» yaradılmasından başlandığını təsdiq edən bütün hər şeyi tapdım. Zahirən bu Missiya özü ilə xristian missionerlərin cəmiyyətini təcəssüm etdirirdi, lakin gerçək işdə onlar bazarda yeni məhsulu, yəni TİRYƏKİ yaymaqla məşğul olan «reklam agentləri» idilər.

Bir müddət sonra, mən Ser Corc Bedvurdun «Hindistan Ofisində» saxlanan sənədlərini öyrənmək imkanı əldə edəndə, bu, bir daha öz təsdiqini tapdı. «Çində Daxili Missiyanın» missionerləri smaq paketlərini paylamağa və kulüarə tiryəki necə çəkmək lazım olduğunu başa salmağa başlayandan bir qədər sonra bu narkotikin böyük partiyalarını Çinə daşımağa başladılar. Heç «Bitlz» da bu məsələnin öhdəsindən bundan yaxşı gələ bilməzdi. (Narkoticarət, hər iki halda, «Bitlz»ı açıq dəstəkləyən Britaniya Kral ailəsinin sanksiyası ilə həyata keçirilirdi) «Britaniya Ost-Hind Kompaniyası»nın İngiltərə ilə bağlı planları idasa uğrasa da, müyonlarla yoxsulun özünün aciz və çıxılmaz vəziyyətindən müvəqqəti də olsa qaçmaq üçün tiryək çəkməkdə bir vasitə tapdığı Çində bu planlar tam uğur qazandı.

Tiryək pritonları Çinin hər yerində göbələk kimi çoxalmağa başladı. Şanxay və ya Kanton kimi böyük şəhərlərdə yüz minlərlə yoxsul çinliyə tiryək çəkəndən sonra belə gəlirdi ki, həyat o qədər də dözülməz deyildir. Çin hökuməti baş verənləri özü üçün aydınlaşdırana qədər, «Britaniya Ost-Hind Kompaniyası» 100 il ərzində tam fəaliyyət azadlığına malik olub.

downloaded from KitabYurdu.org

Tiryək çəkməyi qadağan edən ilk qanunlar Çində yalnız 1729-cu ildə qəbul olunmağa başladı. BOHİK-in İdarə Heyətinin üç yüz üzvü bundan xoşhal olmamışdı və Kompaniya tezliklə Çin hökuməti ilə açıq qarşıdurmaya başladı.

Bütünlüklə britaniyalıların nəzarəti altında olan Hindistanın Qanq çayı hövzəsindəki Benares və Bixarenin lalə plantasiyalarında «Britaniya Ost-Hind Kompaniyası» yüksək keyfiyyətli tiryək verən lalə növlərini yetişdirdi. Hindistanın digər vilayətlərində yetişdirilən aşağı keyfiyyətli tiryək ucuz olduğu halda, bu tiryək ən yüksək qiymətə satılırdı. Bu, çox yüksək gəlirli bazarı əldə saxlamaq üçün Britaniya taxt-tacı Çin ordusuna qarşi hərbi əməliyyatlara başladı və onları məğlub etcli. Analoji olaraq Amerika hökuməti də fasiləsiz olaraq narkobaronlara qarşı müharibə aparır və çinlilər kimi, daim məğlubiyyətə uğrayır. Lakin burada əhəmiyyətli bir fərq var: Çin hökuməti qələbə qazanmaq məqsədilə mübarizə aparırdısa, ABŞ hökuməti qələbəni qətiyyən istəmir. «Narkotiklərlə Mübarizə Agentliyi»ndə kadr axınının niyə belə yüksak olduğu aydın olur.

Sonralar yüksək təmizlənmə dərəcəsi olan tiryək ölkənin kimsəsiz sahillərinə Makradan keçməklə Pakislandan gəlməyə başladı, buradan isə gəmilər yükü Dubaya daşıyır və qızıla dəyişdirirdilər. Bu, hazırda heroinin kokainə nisbətən daha populyar olması faktını qismən izah edir. Heroin ticarəti – bu, daha mötəbər biznesdir, burada, Kolumbiyada demək olar adi hala çevrildiyi kimi, dövlət xadimlərini öldürmürlər. Pakistan tiryəki «Qızıl üçbucaq» və ya «Qızıl aypara» (İran) tiryəkinə nisbətən kifayət qədər ucuz satıhr. Nəticədə heroinin istehsalı və satışı kəskin artdı və bunun hesabına kokain lider mövqelərdən sıxışdırılmağa başladı.

Britaniya cəmiyyətinin yüksək dairələrində çirkli tiryək ticarəti haqqında uzun illər ərzində «imperiyanın rüsvayçılığı» kimi danışırdılar. Genişmiqyaslı tiryək ticarəti əsgərlərin Hayber aşınmında şücaəti haqqında nağılları arxa plana sıxışdmrdı. Britaniya ordusunun hissələri I layber aşırımında tiryək xammalmı daşıyan karvanları yerli dağ tayfalarının hücumlarından müdaflə etmək üçün yerləşdirilmişdi. Britaniyanın Kral ailəsi bunu bilirdimi? Yəqin bilirdi, əks təqdirdə taxt-tacı bu regionda ordu saxlamağa nə vadar edə bilərdi? Axı bu region çox yüksək gəlirli tiryək ticarətindən başqa heç nə verə Miməzdi. Ordunu uzaq ölkədə saxlamaq çox baha idi. I Jlyahəzrət Kraliça ordunun ora nə üçün göndərildiyi ilə yaqin ki, maraqlanmışdı? Əlbəttə, ordu orada polo və ya bilyard oynamağa göndərilməmişdi. «Britaniya Ost-Hind Kompaniyası» tiryək inhisarını çox qısqandıqla qoruyurdu. Potensial rəqiblər ilə haqq-hesab qısa olurdu. 1791-ci ildə baş verən əlamətdar məhkəmə proseslərindən birində Vorren Hastinqs adlı bir kimsəyə qarşı belə bir ittiham irəli

downloaded from KitabYurdu.org

sürülmüşdü ki, o, Kompaniyaya ziyan vuraraq, dostuna tiryək ticarəti ilə məşğul olmağa kömək edib. Bu işin «Hindistan Ofisində» saxlanılan materiallarında tapdığım məhkəmə qərarının mətninin əsli tiryək ticarətinin nohəng miqyasları haqqında müəyyən təsəvvılılər yaradir: «İttiham ondan ibarətdir ki, Hastinqs Stiven Sullivanı ifiryəklə təchlz etmək haqqında onunla dörd illik kontrakt bağlamış və bunu açıq elan etməmişdi. Açıqaşkar və səbəbsiz olaraq səxavətli şərtlərlə bağlanan kontrakt göstərilən Stiven Sullivanın DƏRHAL VƏ QISA ZAMANDA VARLANMASI məqsədini güdüb» (seçmə müəllifindir).

«Britaniya Ost-Hind Kompaniyası» Britaniya hökuməti ilə birlikdə tiryək ticarəti üzərində inhisara malik olduqlarından, bir göz clırpımında varlanmaq yalnız «əyanlara», «aristokratlara» – İngiltərənin plutokratik və oliqarxik ailələrinə icazə verilirdi. Bu həmin ailələrdir ki, onların əcdadları «Britaniya Ost-Hind Kompaniyası»nı idarə edən «Üçyüzlər Şurası.»nda əyləşdikləri kimi, bir çox son’ rakı nəsilləri də Komitet 300-ün üzvləri olub. Cənab Sullivan kimi təsadüfi adamlar milyardlarla funt stelünq gətirən tiryək biznesinə girişməyə cəsarət edərdilərsə, onlar tezliklə taxt-tacın maraqlan ilə konfliktə girmiş olurdular.

«Britaniya Ost-Hind Kompaniyası»nın Şurasından olan 300 nəfər hörmətli cənab Londonun məşhur centlmen klublarının hamısının üzvü idilər, eləcə də onların əksəriyyəti parlamentin üzvü, digərləri isə həm Hindistanda, həm də İngiltərədə hakim və ya magistr vəzifəsini tuturdular. C^inə gəlmək üçün «Britaniya Ost-Hind Kompaniyası»nın pasportları tələb olunurdu. Bir neçə inadkar xarici cənab I5ritaniya taxt-tacının yüksək gəlirli ticarətdə iştirakmı araşdırmaq üçün Çinə gələndə, «Britaniya Ost-Hind Kompaniyası»nın nəzarəti altında olan magistratlar dərhal onların pasportlarını ləğv etdilər və beləcə, onlar Çinə heç ayaq da basa bilmədilər.

Çin hökuməti ilə xırda anlaşılmazlıqlar adi iş idi. Çinlilər 1729-cu ildə tiryək idxalmı qadağan edən «Yunq Çin Fərmanı» qanununu qəbul etdilər, lakin buna baxmayaraq, «Britaniya Ost-Hind Kompaniyası» 1753-cü ilə qədər gömrük reyestrlərində tiryək maddəsini saxlamağa müyəssər olurdu, özü də gömrük rüsumu tiryək yüklənmiş standart yeşik üçün (adətən 108 funt çəkidə) üç tael təşkil edirdi. Britaniyanın xüsusi gizlin xidməti (o dövrün «agent 007-ləri») nəzarət edirdilər ki, əlverməyən çinli məmurlar satın alınmış olsun, bunu etmək alınmayanda isə onları sadəcə olaraq öldürürdülər.

1729-cu ildən etibarən Britaniyanın hər bir monarxı darkoticarətdən çox böyük fayda götürüb və bu, taxtlacın indiki sahibəsinə münasibətdə də eyni cür ədalətlidir. Onların

downloaded from KitabYurdu.org

nazirləri göz qoyurdular ki, sərvətlər kral ailəsinə məxsus olan xəzmələrə çay kimi axsın. Kraliça Viktoriyanın belə nazirlərindən biri Lord Palmerston idi. O, Çində tiryək ticarətinin qarşısının alınmasına azacıq da olsa imkan verilməməsi fikrinin sərt tərəfdarı idi. Palmerstonun planı bundan ibarət idi: Çinin rəhbər dairələrinə o qədər tiryək verüməlidir ki, Çin hökumətinin ayrı-ayrı üzvləri ticarətin genişlənməsində şəxsən maraqlı olsunlar. Sonra tiryək təchizatı dayandırılmah, Çin hökuməti diz çökəndən sonra isə təchizat bərpa olunmalı idi, iakin artıq əhəmiyyətli dərəcədə yüksək qiymətə. Və beləliklə, elə hökumətin özünün köməyi ilə inhisar əldə saxlanmalı idi. Lakin bu plan iflasa uğradı.

Çin hökuməti cavab olaraq kompaniyanın anbarlarındakı iri tiryək partiyalarını məhv etdi, ingilis tacirlərindən isə Kantona (Honkonq) tiryək gətirilməsinin dayandırılması haqqında FƏRDİ müqavilə imzalamağı tələb etdi. «Britaniya Ost-Hind Kompaniyası» buna cavab kimi ağızbaağız tiryək doldurulmuş gəmilərin bütöv bir donanmasını Makaoda reyddə qoydu. Bundan sonra həmin tiryəki fərdi tacirlər yox, «Britaniya Ost-Hind Kompan.iya»sının nəzarəti altında olan kompaniyalar satmağa başlach. Çinin səlahiyyətli komissarı Lin bununla bağlı belə demişdi: «Makaoda reyddə saxlanan ingilis gəmilərinin zirzəmilərində çox böyük tiryək yükü yığıhb qahb və bu tiryək gəldiyi. yerə artıq qaytarılmayacaqdır. Əgər həmin tiryəkin Çinə Amerika bayrağı altında qaçaqmalçıhğı başlansa, mən buna təəccüblənmərəm». Linin peyğəmbərliyi heyrətamiz şəkildə dəqiq oldu.

«Tiryək Müharibələrinin» məqsədi, Lord Palmerston ifadə etdiyi kimi, «çinliləri yerinə oturtmaq idi» və Britaniya ordusu bunu etdi. Britaniyalı oliqarxik feodal lordlara misli olmayan milyardların gəldiyi, Çində isə tiryək narkomanlarının artdığı bir şəraitdə çox yüksək gəlirli və genişmiqyaslı ticarətin qarşısını almaq qətiyyən mümkün deyildi; Çin sonrakı illərdə özünün nəhəng problemlərinin lıallində kömək üçün Britaniyaya müraciət edir və bu köməyi ahrdı da. Bundan sonra Çin hökumətləri Britaniya ilə mübarizə etmək əvəzmə, onunla əməkdaşlıq etməyin laydasını anladı və bu tendensiya Mao Tse Dunun qanlı hakimiyyəti dövründə də öz qüvvəsində qahrdı. Odur ki, Inı gün, artıq dediyim kimi, onların arasında əgər hər hansı hir fikir ayrıhğı baş verirsə də, bu, tiryək ticarətində hər bir tərəfin payının ölçüləri ilə bağlı meydana çıxır.

Müasir mərhələdə ÇinBöyük Britaniya partnyorluğu liryək ticarətində bərabər tərəfdaşhğı müəyyən edən I lonkonq razılaşması ilə möhkəmləndirilib. Əhəmiyyətsiz insidentlər nəzərə alınmazsa, bu razılaşmanın həyata keçirilməsi rahat baş verdiyi halda, Kolumbiya kokain ticarəti zorakılıq və ölüm, qarət və qətllərlə müşayiət olunur; artıq qeyd etdiyim kimi, 1991-ci ildə çox geniş miqyas alan heroin ticarətində bu cür səviyyəsiz hərəkətlərə yol verilmirdi.

downloaded from KitabYurdu.org

Son 60 ildə Çin-Böyük Britaniya münasibətlərində əsas problem, Çinin tiryək-heroin kökəsindən özünə daha böyük pay tələb etməsindən ibarətdir. Böyük Britaniya Honkonqu Çinin tam nəzarəti altına verməyə – bu, 1997-ci ildə baş verməlidir – razılaşandan sonra məsələ nizamlanmış oldu. Qalan məsələlərdə partnyorlar, mərkəzi Honkonqda olan gəlirli tiryək ticarətində bərabər paylarını saxlayırdılar.

Tiryək ticarətinin çiçəkləndiyi dövrdə vaxtilə Kantonda öz yerlərini möhkəmləndirən Komitet 300-ün britaniyalı oliqarxik ailələri öz mövqelərini varislərinə ötürdülər. Kantonda yaşayan məşhur britaniyalı vətəndasların siyahısına baxın və siz onların arasında Komitet 300-ün üzvlərinin adlarını görəcəksiniz. Eyni şeylər Honkonqa da aiddir. Feodal epoxasının bu plutokratlan – onlar bütün dünyaru da həmin epoxaya qaytarmaq istəyirlər MƏRKƏZİ Honkonq olan qızıl və tiryək ticarətinə nəfl zarət edirlər. Tiryək laləsinin birmalı və çinli istehsalçıla| haqlarını qızılla alır; onlar ABŞ-ın 100 dollarlıq kağızlarına inanmırlar. Bu, Honkonq birjasında çox böyük həcmlərdə aparılan qızıl ticarətini izah edir.

«Qızıl üçbucaq» artıq ən iri tiryək istehsalçısı deyildir, 1987-ci ildən etibarən bu şübhəli titulu onunla «Qızıl aypara» (İran), Pakistan və Livan bölüşür. Bunlar əsas tiryək istehsalçılarıdır, hərçənd nisbətən xırda tiryək partiyaları bəzən Əfqanıstan və Türkiyədən də meydana çıxır. Narkotika ticarəti, xüsusilə də tiryək ticarəti, bankların köməyi olmadan mövcud ola bilməzdi və biz bunu söhbətimizin davamında nümayiş etdirəcəyik.

Sanballı reputasiyası olan banklar narkotika ticarətinə və deməli, onu müşayiət edən çirkaba axı necə cəlb edilmiş oluf? Bunun çox uzun və mürəkkəb tarixi var və bu, ayrıca bir kitabın mövzusu ola bilərdi. Bankların iştirakının bir üsulu, tiryəkin emal edilib, heroin hazırlanması üçün tələb olunan kimyəvi maddələri ixrac edən kompaniyaların maliyyələşdirilməsidir. «Honkonq ənd Şanxay Bankinq Korporeyşn» («The Hong Kong and Shanghai Banking Corporation», HSBC) və onun Londondakı filialı elə bu ticarətin mərkəzindədir və onlar bunu, bankın müştəriləri olan TEJAPAIBUL adlandırılan komfaniyalar vasitəsilə edirlər. Bu kompaniya nə ilə məşğul olur? Heroinin təmizlənməsi prosesi üçün vacib olan kimyəvi preparatların böyük hissəsini Honkonqa məhz bu kompaniya göndərir.

Bu kompaniya «Qızıl aypara»nı və «Qızıl üçbucağı», Pakistanı, Türkiyəni və Livanı angidrid sirkəsi ilə təmin edən əsas təchizatçıdır. Bu ticarətin faktiki maliyyələşdirilməsi «Bangkok Metropolitan Banka» («Banqkok Metropoliten Bank») tapşırılıb. Beləliklə, tiryək istehsalı ilə bilavasitə bağlı olmayan dolayı fəaliyyət də banklara əhəmiyyətli gəlir gətirir. Lakin «The

downloaded from KitabYurdu.org

Hong Kong and Shanghai Banking Corporation» kompaniyasının, eləcə də qalan bankların əsas gəliri bilavasitə tiryək ticarətini maliyyələşdirməkdən əldə olunur.

Qızılın qiymətləri ilə tiryəkin qiymətləri arasında mövcud olan əlaqəni müəyyən etmək üçün mən geniş lüdqiqat apardım. Məni dinləmək istəyənlərə adətən devirdim: «Əgər siz qızılın qiymətini bilmək istəyirsinizsə, I lonkonqda bir funt və ya bir kiloqram tiryəkin qiymətini nyrənin». Tənqidçilərimə cavab verirdim: «Baxın, görün 1977-ci ildə – qızılın qiymətləri üçün kritik ildə nə baş verirdi». «Çin Bankı» xəbərdarlıq etmədən bazara dempinq qiymətləri ilə 80 ton qızıl atmaqla qızıl bazarının «panditlərini» (*pandit - sanskritdərt alim, müdrik*) və Amerikada saya-hesaba gəlməyən müdrik proqnozçuları şok vəziyyətə saldı. Bunun nəticəsində qızılın qiyməti kəskin düşdü. Ekspertlər yalnız bunu deyə bildi: «Biz Çinin bu qədər I qızıl ehtiyatı olduğunu bilmirdik; bu qədər qızıl haradan peyda ola bilərdi?». Çinə bu qızıl Honkonq qızıl bazarında iri tiryək partiyaları müqabilində ödənmişdi. Bu gün Çin hökumətinin İngiltərəyə münasibətdə siyasəti XVIRI və XIX əsılərdə olduğu kimi qalmaqdadır. Əgər Çininl Honkonqla bağlı olan iqtisadiyyatının əsasını – mən televizorları, tekstili, radiomalları, saatları, pirat üsullA hazırlanan audio və videokasetləri yox, tiryək və heroini nəzərdə tuturam – Çin Böyük Britaniya ilə bölüşdüyü tiryək ticarəti təşkil etməsəydi, onda o, amansız zərbələrə məruz qalmış olardı. «Britaniya Ost-Hind Kompaniyası» öz varlığına son qoyub, lakin «300-lər Şurası»nda əyləşənlər bu gün Komitet 300-ün üzvləridir.

Son 200 ildə tiryək ticarətində lider olan Böyük Britaniyanın çox qədim ailələri bu gün də bu ticarətdə qalırlar, Məsələn, götürün Metisonları (Mathesons). Bu «əsil-nəcabətli» ailə – tiryək ticarətinin dayaqlarından biridir. Bir neçə il əvvəl Çinin vəziyyəti laxlayanda Metisonlar müdaxilə etdilər və daşınmaz əmlaka investisiya etmək üçün Çinə 300 milyon dollar dəyərində zayom verdilər. Bn, faktiki olaraq «Çin Xalq Respublikası və «Matheson Bankın» müştərək müəssisəsi» kimi rəsmiləşdirilmişdi. Mən «Hindistan Ofisinin» 1700-cü ilə aid sənədlərini öyrənəndə Metison adı mənim gözümə tez-tez dəyirdi. Bu ad hər yerdə – London, Pekin, Dubay, Honkonq – tiryək ticarəti gedən hər yerdə üzə çıxırdı. Narkoticarətin problemi ondan ibarətdir ki, o, milli suverenlik üçün təhlükəyə çevrilir. Venesuelanın BMTdə səfiri bu təhlükə haqqında bunları demişdi:

*«Narkotiklər probleminin sadəcə olaraq cəmiyyətin sağlamlığı və ya sosial problem olduğu dövr artıq geridə qalıb. Bu problem bizim milli suverenliyimizi hədələyən qat-qat ciddi, üzaqmənzilli nəticələri olan bir fenomenə çevrilib.* O, *milli təhlükəsizlik probleminə çevrilib, çünki o millətin müstəqilliyini dağıdır. Narkotika özünün bütün təzahürlərində –*

downloaded from KitabYurdu.org

*istər bu, onun istehsalı, satışı və ya isüfadəsi olsun – etik, dini və siyasi həyatımızı, bizim tarixi, iqtisadi və respublikaçı dəyərlərimizi aşındırmaqla, insan təbiətinin özünün dəyişməsini meydana çıxarır».*
«Beynəlxalq Əməliyyat Bankı» (BƏB) (Bank of Interrlational Settlements) və BVF məhz bu yöndə fəaliyyət ;',östərirlər. İzn verin, heç bir tərəddüdsüz deyim ki, bu idarələrin hər ikisi – narkotika ticarətinə xidmət edən klirinq palatalarından başqa bir şey deyillər. «Beynəlxalq i )məliyyat Bankı», BVFnin göstərişi ilə, «uçan» kapitalların hər hansı bir ölkəni sürətlə tork etməsi üçün süni sueotdə şərait və vasitələr yaratmaqla, istənilən ölkənin iqtisadiyyatını sarsıda bilər. «Beynəlxalq Əməliyyat Bankı» «uçan» kapitallar və artıq yuyulmuş narkopullar arasında nə bir fərq qoyur, nə də hər hansı bir fərqi tanıyır.

«Beynəlxalq Əməliyyat Bankı» qanqstersayağı fəaliyyət göstərir. Əgər hər hansı bir ölkə BVFnin talançı siyaNətinə tabe olmursa, bank faktiki olaraq belə deyir: «Yaxşı, onda biz sərəncamımızda olan nəhəng həcində narkopullarla sizi sındıranq». Qızılın nə üçün metal pul qismində dövriyyədə olmadığının və onun dünya ehtiyal valyutasj qismində kağız «dollarla» əvəzlənməsinin səbobini başa düşmək asandır. Ehtiyatlarını nağdsiz və ya kağtz dollarlarda saxlayan ölkəni şantaj etmək, ehtiyatlarını qızılda saxlayan ölkəni şantaj etməkdən qat-qat asandir.

BVF bir neçə il əvvəl Honkonqda bir görüş təşkil etmişdi, həmin görüşdə mənim həmkarlarımdan biri iştirak edirdi. O, mənə seminarın həmin bu suala həsr edildiyini dedi. Onun mənə verdiyi məlumatda göstərilirdi: BVFnin agentləri görüş iştirakçılarına deyirdilər ki, onlar nar^ kodollarları istifadə etməklə istənilən ölkənin valyutasına sözün əsl mənasında ağlasığmaz tələbat doğurmağa qadirdirlər, bu isə, öz növbəsində, kapitalın həmin ölkədən kəskin surətdə qaçmasını təhrik edə bilər. «*Credit Suisse*» bankının nümayəndəsi və Komitet 300-ün üzvü Rayner-Qut (Rainer-Gut) deyirdi ki, o, əsrin sonu üçün milli kreditin və milli maliyyələşdirmənin bir təşkilatın nəzarəti altında olacağını ehtimal edir. RaynerQut təfərrılatları izah etməsə də, seminar iştirakçılarının hamısı söhbətin nədən getdiyini dəqiq bilirdi.
Kolumbiyadan Mayamiyə qədər, «Qızıl üçbucaqdan» «Qızıl ayparaya» qədər, Boqotadan Frankfurta qədər narkoticarət, xüsusilə də heroin ticarəti – BÖYÜK BİZNESDİR və bu biznes, yuxarısından aşağısınadək, dünyanın ən «toxunulmaz» bir neçə ailəsinin nəzarəti altındadır. Belə ailələrin hər birinin Komitet 300-də ən azı bir təmsilçisi var. Bu, tində aparılan xırda alver deyil, onun rahat və maneəsiz getməsi üçün bu biznes böyük pullar və ekspertlərlə təmin olunub. Komitet 300-ün nəzarəti altında olan mexanizm bunu tam həcmdə təmin edir.

downloaded from KitabYurdu.org

Bu cür istedadlı tacirləri tinlərdə və Nyu-Yorkun yerallı keçidlərində tapmaq mümkün deyil. Əlbəttə, küçə alyerçiləri bu biznesin ayrılmaz tərkib hissəsidir, lakin yalnı/, müvəqqəti satıcı qismində. Onlar buna görə müvəqq,ılidirlər ki, bəzən polis küçə alverçilərini yaxalayır, bəllərini isə rəqibləri öldürür. Lakin bundan məgər nə isə ıl<ıyişir? Bu işdə əvəzləyici həmişə tapılar.

Bu, «Kiçik Biznes İşləri üzrə Administrasiya»nın maı ftq obyekti deyildir. Həmin bu çirkli narkobiznes BÖYÜK ISİZNESDİR, nəhəng imperiyadır. Zərurət yarandıqca hər fir ölkədə onu hakimiyyətin ən yüksək eşelənlarından Idarə edirlər. Hazırda bu, dünyada faktiki olaraq ən iri, qalan bütün hamtsını üstoləyən müəssisədir. Beynəlxalq terrorizm kimi, narkobiznesin də kökündən qoparılmasırlırı qeyri-mümkünlüyü, onun yuxarıdan aşağıya qədər müdafiə olunduğu faktını təsdiq edir. Ağlı basında olan ıslənilən adama aydın olur ki, bu iş vasitəçilərin əli ilə həyata keçirilirso də, həmin müəssisəni kral dairələrinin sırasından, oliqarxlar və plutokratlar arasından olan ən nüfuzlu simalar idarə edir.

Tiryək laləsini və koka yarpaqlarını yetişdirən əsas ölkələr bunlardır – Birma, Cənubi Çin, Əfqamstan, İran, Pakistan, Tadand, Livan, Türkiyə, Peru, Ekvador, Boliviya. Kolumbiya koka yarpaqları yetişdirmir, onun böyründə yerləşən Boliviyada kokainin təmizlənməsi üzrə əsas müəssisə və kokain ticarəti üzrə əsas maliyyə mərkəzi yerləşir. Prezident Buş general Noryeqanı oğurlatdırandan və türməyə saldırandan sonra, Panama pulların yuyulması və kokain ticarətinin maliyyələşdirilməsi işində həmin mərkəzlə rəqabət aparır.

Heroin ticarəti Honkonq bankları, London bankları və Yaxın Şərqdə «British Bank of the Middle East» («Britaniya Yaxın Şərq Bankı») kimi bəzi banklar tərəfindən maliyyələşdirilir. Livan sürətlə «Yaxın Şərqin İsveçrəsinə» çevrilməkdədir. Heroinin yayılması və çatdırılması işinə cəlb olunan ölkələr bunlardır – Honkonq, Türkiyə, Bolqarıstan, İtaliya, Monako, Fransa (Korsika və Marsel), Livan, Pakistan. Birləşmiş Ştatlar – narkqtiklərin ən çox istifadə olunduğu ölkədir, burada birinci yerdə kokaindir və heroin onunla rəqabət aparır. Qərbi Avropa və ConubiŞərqi Asiya ölkələri – iri heroin istelılakçılarıdır. İranda narkomanların sayı çoxdur – 1991-ci ildə 2 milyon nəfərdən artıq.

Bir dənə də olsun hökumət yoxdur ki, narkotik ticarəti ilə bağlı nə baş verdiyindən dəqiq xəbərdar olmasm, lakin Komitet 300, öz nəzarəti altında olan ümumdünya kompaniyaları şəbəkəsi vasitəsilə, hökumətlərdə mühüm postlar tutan aynayrı üzvləri satın alıb. Hökumətin hər hansı bir üzvü «narahatlıq» yaradarsa, kişi və ya qadın olmasından asılı olmayarac}, o, Pakistanda Əli Bhutto və İtaliyada Aldo Moro kimi, aradan götürülür. Heç kəs bu, hər şeyə

downloaded from KitabYurdu.org

qadir Komitetin tosiri altından çıxa bilmir, hərçənd Malayziya hələ özünü saxlaya bilir. Malayziya narkotiklərə münasibətdə dünyada ən ciddi qanunları olan ölkədir. Hətta kiçicik doza tapılsa belə, ölümlə cəzalandırılır.
Bolqarıstanın «Kintex» kompaniyasının nümunəsi linı sarında deyə bilərik ki, xırda ölkələrin əksəriyyəti bn cinayətkar işlərdə bilavasitə iştirak edirlər. «Kintex» konıpaniyası özünə məxsus olan yük maşınlarında Qərbi Avropaya mütəmadi olaraq heroin daşıyır. Həmin yük maşınlarına Avropa İqtisadi Birliyinin (AİB) nişanı – TİR («Triangle Internationale Routier» — «Üçbucaqlı Beynəlxalq Marşrut») – vurulub. Üzərində bu nişan və Avropa İqtisadi Birliyinin qeydiyyat nömrələri olan furqonlar sərhədkömrük postlarında saxlanmamalıdır. TİR furqonlarına yalnız tez xarab olan mallar daşımağa icazə verilir. Ehtimal olunur ki, onlar yükü götürdükləri ölkədə baxışdan keçirilir və bu haqda şəhadotnamə, ehtimal olunduğu kimi, hər bir furqonun sürücüsündə olur.

Beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər sayəsində belə almıb ki, «Kintex» kompaniyasının furqonlarına heroin yükləmək, onu «tozə meyvə və tərəvəz» kimi sertifikatlaşdırmaq, sonra isə Avropanın bütün ərazisinə daşımaq, hətta NATO-nun Şimali İtaliyadakı tamamilə məxfi bazalarına da girmək olar. Beləliklə, Bolqarıstan heroin daşınmasının əsas tranzit kanallarından birinə çevrilib.

Avropaya iri həcmlərdə heroin və kokain daşınmasının qarşısını almağın yeganə üsulu – bu, TİR sistemini ləğv etməkdir. Lakin bu, heç vaxt baş verməyəcək. Komitet 300, özünün heyrətamiz idarəetmə şəbəkəsi və mexanizmlərindən istifadə etməklə, indicə xatırlatdığım beynəlxalq müqavilələrdən irəli gələn öhdəlikləri ona görə təyin edib ki, Qərbi Avropaya hər cür narkotiklərın çıxışı asanlaşdırılsın. Tez xarab olan məhsulları unudun! İtaliyanın «Narkotiklərlə Mübarizə Agentliyi»nin keçmiş rezidenti mənə bunu demişdi: «TİR – BU, NARKOTİKLƏRDİR».

Bunları siz, Kennedi aeroportunda ikidibli çemodanda böyük həcındə heroin tapüdığı və hansı ise bəxtsiz «mulun» («mul» – nəsil artırmaq qabiliyyəti olmayan (qatır kimi) yük heyvanı, burada narkotikin daşınması üçün istifadə olunan adamlara münasibətdə jarqon ifadə kimi istifadə olunub. – Y.Ə.) öz cinayətkar əməlinə görə cəza aldığı barədə növbəti dəfə qəzetlərdə oxuyanda xatırlayın. Bu, vurtut «zərrədir», publikanın gözünə atılan küldür və belə tamaşalarda məqsəd, hökumətimizin narkotika təhlükəsinə qarşı nə isə etdiyinə bizi inanmağa məcbur etməkdir. Məsələn, Niksonun Komitet 300-dən xəbərsiz və onunla razılaşdırmadan başladığı «Fransız izi» proqramını götürün.

downloaded from KitabYurdu.org

Bu proqram çərçivəsində həyata keçirilən nəhəng səylər nəticəsində tutulan tiryəkheroinin ümumi həcmi, cəmi bir TİR furqonunun daşıdığının dörddə birindən də azdır. Komitet 300 nisbətən kiçik partiya heroinin müsadirə olunmasının Niksona baha başa gəlməsinin qayğısına qaldı. Məsələ heç heroinin çəkisində də deyildi. Məsələ bunda idi ki, Ağ Evin yiyəsi olmağa kömək etdikləri adamın, onların köməyi və dəstəyi olmadan da hərəkət edə və hətta birbaşa yuxarıdan verilən əmrləri saya almaya biləcəyini düşünməyə başlamasında idi.

Heroin ticarətinin mexanizmi belədir: Tadand və Birmada vəhşi dağ tayfaları tiryək laləsini yetişdirirlər. Məhsul yığımı vaxtında toxum qozaları ülgüc və ya iti bıçaqla kəsilir. Xoş ətirli maddə kəsikdən axır və qatılaşmağa başlayır. Bu, xam tiryəkdir. Yığılan xam tiryək yapışqanlı dəyirmi kürəciklər kimi olur. Vəhşi qəbilələrin nümayondələri öz haqlarını 1 kiloqramlıq qızıl külçələr şəklində BİirIar. İsveçrənin «Credit Suisse» bankının hazırladığı həmin qızıl külçələr 4/10 kimi məlumdur. O qədər də böyük olmayan belə külçələr YEGANƏ məqsədlə hazırlanır vəhşi qəbilələrə tiryəkə görə ödəniş vasitəsi olmaq üçün. Standart qızıl külçələrini Honkonq bazarında xam tiryək və ya qismən emal edilmiş heroinin iri alıcıları salır. Hələ Moqollar dövründən bu işlə məşğul olan baluçilərlə – Hindistanın dağ qəbilələri – haqqhesab aparılması üçün də eynilə bu cür metoddan istifadə olunur. «Narkomövsüm» – onu belə adlandırırlar – Honkonqda qızıl ticarətinin kəskin fəallaşması ilə üst-üstə düşür.

Meksika nisbətən kiçik həcmlərdə heroin istehsal c^tməyə başlayıb. Hollivud tusovkasında böyük tələbata ınalik olan bu heroini «Meksika qəhvəyisi» adlandırırlar. Meksikada da heroin ticarəti hərbiçilərin dəstəyi ilə yüksək dövlət məmurları tərəfindən aparılır. «Meksika qəhvəyisi»nin bəzi istehsalçıları ABŞ-da öz müştərilərini ləchiz etməklə ayda milyonlarla dollar qazanırlar. Belə də olur ki, Meksika federal polisi heroin istehsalçılarına qarşı hərəkət etməyə cəhd edir. Onları, sanki yerin altından peyda olan, hərbi dəstələr «zərərsizləşdirir».

Belə bir insident 1991-ci ilin noyabrında Meksikanın tiryək yetişdirilən regionlarından birinin aerodromunda baş vermişdi. «Narkotiklərlə Mübarizə Agentliyi»nin federal agentləri aerodromu mühasirəyə alaraq təyyarəyə heroin yükləyən adamları həbs etmək istəyəndə, hərbi dəstə peyda oldu. Əsgərlər «Narkotiklərlə Mübarizə Agentliyenin federal pohs agentlərinın özlərini mühasiroyə aldılar və onların hamısını sonuncusuna qədər metodik qaydada güllələdilər. Bu aksiya Meksikanın Prezidenti Qoltarin üçün ciddi təhlükoyə çevrildi, çünki ictimaiyyət ondan qətlin tam araşdırılmasını təkidlə tələb edirdi. Qoltarin çıxılmaz vəziyyətə düşdü: o, bir tərəfdən, təhqiqat aparılması ilə bağlı tələbləri saya almaya; digər tərəfdən, hərbçilərin ittiham olunması səlahiyyətini öz üzərinə götürə bilməzdi. Bu,

downloaded from KitabYurdu.org

Meksikanın idarə olunmasının möhkəm zəncirində baş verən və Komitet 300-ə tərəf uzanan ilk boşluq idi.

Xam tiryək «Qızıl üçbucaqdan» Siciliya mafiyasına və Fransada son emalçılara ötürülür. Onlar da, Marseldən düz MonteKarloya qədər dəniz sahilinə səpolənmiş laboratoriyalarda, heroinin tərnizlənməsini sona çatdırırlar. Livan və Türkiyə hazırda təmizlənmiş heroin istehsalını artırır və son dörd il ərzində bu iki ölkədə çoxlu sayda heroin laboratoriyası meydana çıxıb. Pakistan da bir sıra laboratoriyaya malikdir, lakin onlar keyfiyyətinə görə, məsələn, Fransa laboratoriyalarından daha aşağı kateqoriyaya aiddirlər.

Xam tiryəkin «Qızıl aypara» regionundan dasınma marşrutu İran, Türkiyə və Livandan keçir. İran şahın nəzarəti altında olduğu dövrdə, şalı heroin ticarətini davam etdirməyi qadağan etmişdi və Komitet 300 ticarəti, məsələni «nizamlayana» qədər, dayandırmağa məcbur olmuşdu. Türkiyə və Livandan xam tiryək Korsikaya, oradan isə gəmilərlə, Qrimaldi ailəsinin susqun razılığının müşayiəti ilə, Monte Karloya daşınır. «Hərbi-Müdafiə Laboratoriyaları» ad-pərdəsi altında fəaliyyət göstərən Pakistan laboratoriyaları heroini qat-qat yüksək təmizlik səviyyəsinə çatdırırlar. Lakin ən yüksək təmizlik səviyyəsi hələlik fransanın Aralıq dənizi sahilləri və Türkiyədəki laboratoriyalarda əldə olunur. Burada banklar da həmin əməliyvatların maliyyələşdirilməsində həlledici rol oynayırlar...

Gəlin, burada bir anlıq dayanaq. İnanmaq olarmı ki, bu ölkələrin sərəncamında əhəmiyyətli surətdə təkmilləşilirilmiş müasir müşahidə və izləmə vasitələri, o cümlədən də peyk kəşfiyyalının olduğu bir vaxtda bu rəzil ticarətin üstünü açmaq və onu dayandırmaq mümkün rılmasın? Hüquq-mühafizə və güc idarələri nə üçün müdaxilə edə və aşkarlayan kimi həmin laboratoriyaları məhv eləyə bilmir? Əgər məsələ məhz belədirsə və biz halə də heroin ticarətini dayandırmağa qadir deyiliksə, onda bizim antinarkotik xidmətlərimizi narkotiklərlə müfarizə üzrə agentlik yox, «heriatrik» agentlik adlandırmaq lazımdır.

Hətta uşaq da bizim bu, necə deyərlər, «narkotiklərlə döyüşçülərimizə» nə etmək lazım olduğunu deyə bilərdi. Sadəcə, anhidrid sirkəsini istehsal edən bütün zavodlar üzərində müşahidə qurmaq və onları izləmək lazımdır, anhidrid sirkəsi isə xam tiryəkdən heroin alınması istehsalında ƏN VACİB kimyəvi komponentdir. SONRA DA İZİ TUTUB GEDİN! Hər şey çox sadədir! Heroin təmizləyən laboratoriyaları axtarmağa göndərilən hüquq-mühafizə orqanlarının səyləri haqqında düşünəndə, «Narıncı pantera» serialından Piter Sellersi obrazını xatırladım. Hətta bu serialdakı uydurulmuş inspektor kimi bir işbilməz də,

downloaded from KitabYurdu.org

anhidrid sirkəsinin daşındığı marşrutu son mənzilədək izləyərkən elə də ağır məşəqqətlərlə üzləşməmişdi.

Dövlət orqanları qanun qəbul edə və bu qanunla anhidrid sirkəsi istehsalçılarının üzərinə, onların məhsulunu kimin aldığının və hansı məqsədlə istifadə etdiyinin dəqiq hesabatını aparmaq öhdəliyini qoya bilərdi. Lakin özümüzü yalnız bununla məhdudlaşdırmaq olmaz, yadda saxlayın: narkotiklər – bu, BÖYÜK BİZNESDİR və bu biznes Avropanın oliqarxik və ABŞ-ın «şərqli liberal isteblişmentinə» məxsus olan ailələri tərəfindən aparılır. Narkobiznes – bu, mafioz əməliyyatlar deyil, belə biznes yalnız Kolumbiyanın kokain kartelləri tərəfindən aparılrrur. Böyük Britaniya və Amerikanın yüksək cəmiyyətlərinin əsil-nəcabətli ailələri bu işdə öz rollarını hər tində reklam etməyə hazırlasınırlar, bu adamlar həmişə çirkli işi yerinə yetirərək, onları gizlədən adamlar təbəqəsindən istifadə edirlər.

Xatırlaym: britaniyalı və amerikalı «aristokratiya» öz əlini heç vaxt Çində tiryək ticarətinə bulaşdırmayıb. Lordlar və ledilər bunun üçün kifayət qədər ağıllıdırlar, elə amerikalı elita da: Dilonlar, Forbslar, Eppletonlar, Beykonlar, Boylestounlar, Perkinslər, Rassellər, Kanninqhemlər, Şou, Kuliclər, Parkmanlar, Panneuellər, Kebotlar və Kodmanlar (the Delanos, Forbes, Appletons, Bacons, Boylestons, Perkins, Russells, Cunninghams, Shaws, Coolidges, Parkmans, Runnewells, Cabots and Codmans) – bu, Çində tiryək ticarəti sayəsində dəhşətli şəkildə varlanan Amerika ailələrinin heç uzaqdan-uzağa da tam siyahısı deyildir.

Bu kitab narkotik ticarəti barədə olmadığı üçün mən bu məsələni hərtərəfli işıqlandıra bilməyəcəm. Lakin lınun Komitet 300 üçün nə dərəcədə vacib olduğunu qeyd etməyinə dəyərdi.

Amerika 60 yox, 300 ailə, İngiltərə isə 100 ailə tərəfinılən idarə olunur və aşağıda görəcəyik ki, bu ailələr Nikalılar, kompaniyalar, banklar vasitəsilə – onların «Qara Aristokratiya», frankmasonçuluq, «Müqəddəs İoann Yerusalimski Ordeni» və s. xətlər üzrə əlaqələri barədə hələ heç danışmırıq – bir-birinə qarşılıqlı çarpaz surətdə bağlıdırlar. Onlar öz vasitəçi adamlarından istifadə clməklə çox böyük həcmlərdə heroinin minimal izafi xorclər müqabilində Honkonqdan, Türkiyədən, İran və Pakistandan daşınmasını müdafiə etmək və ABŞ, eləcə də Qərbi Avropa bazarlarını heroinlə təmin etmək üçün üsullar tapırlar.

Kokain partiyaları bəzən həbs və ya müsadirə edilir. Ikmlar adi tamaşadır. Müsadirə edilən partiyalar çox vaxt bu biznesə zorla girmək istəyən təzə təşkilatlara məxsus olur. Bu cür rəqabət, yükün hara gətiriləcəyi və onun yiyəsinin kim olduğu barədə hakimiyyət orqanlarına

downloaded from KitabYurdu.org

verilən dəqiq informasiya vasitəsilə neytrallaşdırılır. Böyük iş toxunulmaz qalır; heroin həddən artıq bahalıdır. Qeyd etməyinə dəyərdi ki, ABŞ-ın «Narkotiklərlə Mübarizə Agentliyi»nin əməliyyat işçilərinə Honkonqa getmək qadağan olunub. Onlar, gəmilər limanı tərk etməyənə qədər, gəmilərin yük deklorasiyasını yoxlaya bilməzlər.
Belə güclü inkişaf edən «beynəlxalq əməkdaşlıq» şəraitində kütləvi infofmasiya vasitələrinin daim «narkoticarətin alt-üst edilməsi» zərurəti barədə damşdığına yalnız heyrətlənmək qalır. Aydındır ki, heroinin ticarət marşrutları «yüksək hakimiyyət» tərəfindən müdafiə olunur.

Meksikadan başqa Cənubu Amerikanın hər yerində kokain hökmranlıq edir. Heroindən fərqli olaraq, kokain istehsalı çox sadədir və «yüksək bonzlara» işləyən və onların adından öz üzərinə risq götürmək istəyən kəs böyük sərvətə yiyələnir. Heroin ticarətində olduğu kimi, burada da kənar adamları xoş qəbul etmirlər və onlar tez-tez bədbəxt hadisələrin, ya da ailə «haqqhesablarının» qurbanı olurlar. Kolumbiya da narkomafiyaya sıx bağlı olan bir ailə kimidir. Lakin Mİ9 döyüşçülərinin (kokain baronlarının şəxsi ordusu) Boqotoda Ədliyyə Nazirliyinin binasına hücum etməsi və məşhur prokuror və hakim Rodriqo Lara Bonillanı qətlə yetirməsi elə güclü neqativ rezonans doğurdu ki, «yüksək hakimiyyət» Kolumbiyada əməliyyauarın strukrurunu dəyişdirmək məcburiyyətində qaldı.

Nəticədə Medelin kartelindən Oçoa qardaşları, əmlaklarının toxunulmaz qalacağı, şəxsən özlərinə heç bir xətər yetirilməyəcəyi və ABŞ-a təhvil verilməyəcəkləri barədə vəd alaraq, könüllü surətdə hakimiyyətə təslim oldular. Öz narkodollarlarını Kolumbiya banklarına repatriasiya edəcəkləri halda onlara qarşı heç bir cəza hərəkəti edilməyəcəyi barədə qardaşlarla sövdələşmə bağlandı. Xorxe və Fabio Oçoa qardaşları və onların başçıları Pablo Eskobar özəl türmələrdə saxlanmalı idilər ki, bunlar daha çox yüksək səviyyəli mehmanxanalara bənzəyir. Onlara elə həmin lüks səviyyəli türmələrdə olmaq şərti ilə iki ildən çox olmayan iş kəsilməli idi. Bu sövdələşmə indiyədək də davam edir. Bundan başqa, Oçoa qardaşlarına öz lürməhotellərindən «bizneslərini» idarə etməyi davam ctrdirmək hüququ verildi.

Lakin bu, kokain ticarətinin sonunun çatdığı demək ıleyildi. Əksinə, sadəcə, bu ticarət dublyor Kali kartelinə keçdi və bundan «biznesin» mahiyyəti dəyişmədi. «Narkotiklərlə Mübarizə Agentliyi» hansı isə qəribə bir səbəbdən Kali kartelini, hər halda lap son vaxtlara qədər, sadəcə olaraq saya almırdı, halbuki bu kartel öz ölçülərinə görə Medelin kartelinə bərabərclir. Kali karteli Medelin kartelindən onunla fərqlənir ki, öriu zorakıhğın istənilən növündən qaçan və razılaşmalan heç vaxt pozmayan BİZNESMENLƏR idarə edir.

downloaded from KitabYurdu.org

Daha vacib olanı isə budur ki, Kali Floridada iş aparmır. Bir mənbəm mənə xəbər verdi ki, Kali karteli kokain biznesinin digər avtoritetlərinə oxşamayan praktik hiznesmenlər tərəfindən idarə olunur. O, hesab edir ki, bu adamlar «məqsədli surətdə təyin olunublar», lakin bunu kimin etdiyini bilmir. Mənbəm deyir ki, «onlar heç vaxt özlərinə diqqət cəlb etmirlər, onlar Xorxe Oçoa kimi ilərhal diqqəti özünə cəlb etmək üçün qırmızı «Ferrari»də gəzmirlər, çünki bu cür avtomobillərin Kolumbiyaya idxalı qadağan edilib». Kali kartelinin bazarları – Los-Anceles, Nyu-York və Hyustondur, bu şəhərlər paralel olaraq həm də heroin bazarıdır. Kali kartelinin Fləridaya daxü olmağa hazırlaşdığının heç bir əlaməti görünmür. NMA-nın keçmiş əməkdaşı olan bir həmkarım bu yaxınlarda demişdi:

*«Kalidən olan bu oğlanlar çox ağıllıdırlar. Oçoa qardaşları ilə müqayisədə onlar başqa cinsdəndir. Onlar professional biznesmenlər kimi hərəkət edirlər. Onlar indi Medelin kartelindən iridir və biz ABŞ-a indiyə qədər olduğundan çox kokain gətiriləcəyinin şahidi olacağıq. Manuel Noryeqanın ogurlanması kokain selinin və pulların çoxsaylı bankları olan Panamadan keçməsini asanlaşdırdı. Corc Buşun «Haqq işi» əməliyyatının yekunu bax budur. Bu əməliyyatın mahiyyəti bundan ibarətdir ki, əvvəllər Oçoa qardaşlarının nəzarəti altında olan Nikolas Ardiqo Barlettin həyatı yüngülləşdi və o, indi Kali kartelinin əməliyyatlarını təmin etməklə məşğul olur».*
Heroin ticarəti ilə bağlı təcrübəmə əsaslanaraq ehtimal edirəm ki, Komitet 300 işə müdaxilə edib və Cənubi Amerikada kokain ticarətində bütün nəzarəti öz üzərinə götürüb. Kali kartelinin nüfuzunun artmasının və General Noryeqanın oğurlanmasının başqa izahı sadəcə, yoxdur. Buş, Noryeqa ilə bağlı, Londondan əmr almışdımı? Belə demək üçün bütün əlamətlər mövcuddur ki, onu Panamaya girməyə və Panamada «ticarətə», xüsusüə də bank işinə ciddi maneoyə çevrilmiş Noryeqanı oğurlamağa sözün əsl mənasında MƏCBUR etdilər.

Bir neçə keçmiş kəşfiyyatçı bununla bağlı öz rəylərini mənə bildirdilər və bu, mənim gəldiyim nəticə ilə üst-üsto düşdü. Panama əməliyyatının ardınca Fars körfəzində başlanan müharibədə olduğu kimi, Buş, yalnız Böyük Britaniyanın Vaşinqtondakı səfirinin bir neçə təkidli telefon zəngindən sonra, nəhayət, General Noryeqaya qarşı tamamilə qanunsuz əməliyyatın həyata keçinimәsi üçün cəsarətini toplaya bildi. Buşun, Böyük Britaniya mətbuatı, eləçə də Böyük Britaniya kəşfiyyatının rəhbərlik etdiyi, «Nyu-York Tayms» qəzeti tərəfindən dəstəklənməsi faktı özü-özlüyündə hər şeyi bəlli edir.

Noryeqa bir vaxtlar Vaşinqton isteblişmentinin sevimlisi idi. O, Vilyam Keysi və Oliver Nortla dostluq edir və hətta Prezident Corc Buşla da azı iki dəfə görüşmüşdü. Noryeqanı tez-tez Pentaqonda görürdülər və burada ona hansı isə bir ərəb hökmdarına olan münasibət

downloaded from KitabYurdu.org

göstərilirdi. «Mərkəzi Kəşfiyyat İdarəsi»nin Lenqlidəki, Virciniya ştatı, mənzil-qərargahında isə onun ayaqları altına həmişə qırmızı xalça sərərdilər. ABŞ-ın ordu kəşfiyyatının və MKİ-nin ona 320.000 dollar ödədiyinə dəlalət edən sənəd-sübutlar vardır.

Üfüqdə buludlar təqribən, əsas kokain ticarətinin Oçoa qardaşları və Pablo Eskobardan Kali kartelinə keçdiyi vaxt toplaşmağa başladı. Tamamilə gözlənilmədən Noryeqaya qarşı tobliğat kampaniyası başlandı. Bu kampaniyanın basında, 1985-ci ildə özünü Ariel Şarona və İsrailin «Histradut» (Histradut) partiyasına satan, Senator Cessi Helms dururdu. Cessi Helms və onun tərəfdarlarına dəstək, «Nyu-York Tayms» qəzetində işləyən Böyük Britaniya kəşfiyyatının casusu Saymon Herşdən gəlirdi. «Nyu-York Tayms» qəzeti isə, Mİ-6-nın bossu Vilyam Stefenson RCA kompaniyasının Nyu-Yorkdakı binasını tutduğu dövrdən etibarən, Böyük Britaniya kəşfiyyatının ABŞ-da ruporu olub.
Noryeqaya qarşı aparılan kampaniyanın məhz Helmsə tapşırılması çox əlamətdar idi. Helms – bu şəxs Şaron fraksiyasının Vaşinqtonda sevimlisidir, Şaron isə Cənubi Amerika və Kolumbiyada əsas silah taciri idi. Üstəlik də, inandarı «İsrail – mənim ölkəmdir, hoqiqət onun tərəfində olsa da, olmasa da» prinsipi olan xristian fundamentalistləri Helmsə hörmət edirlər. Beləliklə, cəmiyyətdo «Noryeqam aradan qaklırmaq» üçün çox güclü əhvalruhiyyə yaradıldı. Yəqin ki, Noryeqa Komitet 300-ün beynəlxalq narkotik tacirlərinə və bankirlərinə ciddi maneçilik törədə bilərmiş və buna görə də işə ciddi xələm vurmamış onu aradan götürmək zərurəti yaranmışdı.

Britaniyalı ağaların Buşu məcbur etdikləri və onun Panamada keçirdiyi qeyriqanuni hərbi əməliyyat nəticəsində mənasız olaraq azı 7.000 panamalı öldürüldü və çoxlu əmlak məhv edildi. Noryeqanın «narkotacir» olduğunu və buna görə oğurlanıb ABŞ-a gotirildiyini təsdiq edən heç bir sübut yox idi. Bu, tarixdə beynəlxalq zorakılığın ən bariz nümunələrindən biridir. Bu qeyriqanuni aksiya Buşun fəlsəfəsinə ola bilsin, ən çox uyğun gələnidir: «Amerika (oxu: Böyük Britaniyanın kral ailəsinin və Komitet 300-ün) siyasətinin mənəvi tərəfi elə bir dünyanın mənəvi kursu ilə hərəkət etməyimizi tələb edir ki, həmin dünyada seçim pis arasındcin nisbətən az pis olanı seçməkdən ibarətdir. Qara və ağa bölünməyən real dünya da məhz elə budur. Mənəvi dəyərlər burada çox azdır».

«Az pis olanı» seçib Noryeqanı oğurlamaq, Komitet 300-ə işləyən Panama banklarına qarşı sərt tədbirlər görməsi üçün Noryeqaya izn verməkdən daha yaxşı idi. Noryeqa ilə bağlı hadisə – dəhşətli Vahid Dünya Hökumətinin gələcək fəaliyyətinin prototipidir. Cəsarətini topItyan Buş açıq-açığına, qorxusuz-hürküsüz çıxış etdi, fünki biz, xalq, YALANI şirnikləndirən və HƏQİQƏTİN kiçicik zərrəsini də inkar edən mənəviyyat mantiyasına

downloaded from KitabYurdu.org

luininmüşdük. Bizim qəbul etdiyimiz, onunla razılaşılıgımız dünya bax budur. Əgər bu belə olmasaydı, onda fdnamaya soxulmağa görə ölkədə hiddət fırtınası qopar və Buş öz postundan kənara atılmayana qədər davam edərdi. Niksonun Uotorqeyt cinayətləri, Prezident Buşun (Jeneral Noryeqanı oğurlamaq üçün Panamaya soxulmaq əmrini verərkən etdiyi impiçmentə layiq qanunsuzluqlarının yanında uşaq dəcəlliyi kimi görünür.

Hökumətin Noryeqaya qarşı qaldırdığı iş, əksəriyyəti irtıq ittiham olunan və öz cəzalarını yüngülləşdirmək üçün yalan ifadə verən bir qrup adamın yalançı sübutlarına əsaslanıb. Gilbert və Sallivan indi sağ olsaydılar, bu tamaşadan həzz alardılar. «Onlar bu adamları kral donanmasının başçısı təyin etdilər» (bu, «Kral donanmasının «Pinafor» gəmisi» əsərindən sitatdır) əvəzinə, «onlar bu adamları NMA-ya başçı təyin etdilər» demək daha yerinə düşərdi. Bu artistdəlduzların ABŞ-ın Ədliyyə Nazirliyi üçün etdikləri həqiqi qroteks, əhilləşdirilən suitilərin pis tamaşası – bu gözəl təmiz heyvanı bu cür çirkin müqayisə üçün istifadə etməyə izn verilərsə I əsəvvürünü yaradır.

Bu ifadələrdə həlledici tarixlər öz aralarında qətiyyən üst-üstə düşmür, həlledici təfərrüatlar ümumiyyətlə yoxdur, eləcə də bir sıra mühüm detallarla bağlı yaddaşın itirilməsi halları vardır. Bütün bunlar hökumətin əlində Noryeqaya qarşı heç nə olmaması faktını aşkar nümayis etdirir, lakin bu, heç kəsi narahat etmir; «Beynəlxalq Münasibətlər üzrə Kral İnstitutu», «o, istənilən halda ittiham olunmalıdır», – deyir və yazıq Noryeqanı yalnız bu gözləyə bilər. Iş üzrə əsas şahidlərdən biri Floyd Karlton Kaseres (Floyd Carlton Caceres) adlı bir kimsədir, o, Oçoa qardaşlarının keçmiş pilotudur. 1986-cı ildə həbs olunandan sonra Karlton öz vəziyyətini Noryeqanın hesabına yüngülləşdirməyə çalışırdı.

O, NMAnın müstəntiqlərinə belə bir hadisə nəql etdi ki, Oçoa qardaşları kokainlə yüklənmiş üç təyyarənin Panamada yerə enməsi və onlara yanacaq doldurulmasına icazə verilməsi müqabilində Noryeqaya 600.000 dollar veriblər. Lakin Mayamidə məhkəmədə tezliklə aydın oldu ki, «həlledici şahidlik ifadələri» ən yaxşı halda baş tutmayan zarafat imiş. Çarpaz sorğu həqiqəti ortaya çıxardı: uçuşlar üçün heç kim icazə almağa hazırlasınırdı, Oçoa qardaşları Noryeqaya heç müraciət də etməmişdilər. Üstəlik də, 1983-cü din dekabrında Noryeqa Medelindən Panamaya uçan bütün təyyarə reyslərini qadağan etmişdi. Karlton bu işdə diskreditasiya olunmuş yeganə şahid deyildi.

İspaniyada tutulana və ABŞ-a təhvil verilinə qədər Medelin kartelinin həlledici fiqurlarından olan Karlos Leder, Karltondan da idbar şahid imiş. Lederin Madriddə olduğu barədə informasiyanı NMA-ya kim vermişdi? «Narkotiklərlə Mübarizə Agentliyi», çox könülsüz

downloaded from KitabYurdu.org

olsa da, etiraf etmək məcburiyyətində qaldı ki, bu mühüm əməliyyatın uğuru üçün agentlik məhz Noryeqaya minnətdardır. Lakin AHSın Ədliyyə Nazirliyi indi Lederi Noryeqaya qarşı ŞahJd qismində istifadə edir. ABŞ hökumətinin Noryeqaya qarşı işinin bədniyyətli olduğunu nümayiş etdirmək üçün elə yalnız bircə bu şahidkifayət edir.

Göstərdiyi xidmətin müqabilində Lederə çıxarılan hökm yüngülləşdirildi və türmədə ən yaxşı şəraitlə – pəncərəsindən yaxşı mənzərə açılan otaq, televizor – təmin olundu, onun atıəsinə isə ABŞ-da daimi yaşamaq hüququ veiddi. 1988-ci ildə Lederin ittihamçısı olan prokuror Robert Merkel «Vaşinqton Post» qəzetinə bunları bildirmişdi: «Düşünmürəm ki, hökumət Karlos Lederlə sövdələşməyə j'.etməməlidir... Bu oğlan – anadangəlmə yalançıdır».

Ədliyyə Nazirliyi – bu ad onun reallıqda nəyin naminə çıxış etdiyinə qətiyyən uyğun deyildir – Noryeqaya qarşı özünün bütün çirkin fəndlərini istifadə etdi: onun öz vəkili ilə telefon danışıqlarının qeyriqanuni dinlənməsi; Noryeqanı müdafiə etdiyi görüntüsünü yaradan və işin *.m* qızğın çağında onun müdafiəsini sadəcə olaraq dayandıran vəkilin dövlət tərəfindən təyin edilməsi; Noryeqanı yüksək ixtisaslı vokillər tutmaq imkanından məhrum etmək üçün onun bank hesablarının bağlanması; qaçırılmaq, qeyriqanuni hərbi əməliyyat və s. Hökumət ləkcə bu halda o qədər qanun pozuntusuna yol verib ki, Noryeqa bütün ömrü boyu o qədər qanun pozmamışdı, əgər ümumiyyətlə o, nə vaxtsa qanun pozmuşdusa.
Noryeqanı yox, məhz elə ABŞ-ın Ədliyyə Nazirliyini indiyə qədər on dəfə məhkəməyə vermək lazım idi. Onun isi göstərdi ki, bu ölkədə «ədliyyə» əvəzinə, cinayətkar və günahkarlardan ibarət sistem fəaliyyət göstərir. ABŞ-da aparılan «narkotiklərlə müharibənin» özü, həmçinin də Buş administrasiyasının, necə deyərlər, narkotiklərə münasibətdə siyasəti məhkəmə qarşısına çıxarılmalıdır. Noryeqanın məhkəmə prosesi ədalətin kobud və nümayişkaranə zorlanması ilə başa çatsa da, kor, kar və lal olmayanlara hər halda müəyyən kompensasiya verir. Bu proses əvvəlindən sonuna qədər Böyük Britaniyanın bit zim hökumət üzərində komandanlıq etdiyini sübut etdi və «İstənilən halda məqsəd vasitəni doğruldur. Çox az sayda mənəvi dəyər mövcuddur» – şıları ilə silahlanan Buş administrasiyasının ideologiyasının tam müflis olduğunu göstərdi. Buş, eləcə də siyasətçilərin əksəriyyəti üçün MƏNƏVİ DƏYƏRLƏRDƏN çıxış etmək İNTİHAR demək olardı. Yalnız belə bir mühitdə biz, İraqla müharibəni başlayarkən Buşun ABŞ-ın ən azı altı qanununu və ONLARLA BEYNƏLXALQ MÜQAVİLƏNİ pozmasına göz yuma bilərdik.

Hazırda biz Kolumbiyada və ABŞ-da kokain ticarətinin idarəetmə mexanizmində köklü dəyişikliklərin necə baş verdiyinin şahidi oluruq: zorakılıqsız və gülləbaransız. Kali kartelindən olan kostyumlu centlmenlər qoy öz bizneslərini centlemen kimi aparsmlar. Bir

downloaded from KitabYurdu.org

sözlə, Komitet 300 kokain ticarətini birbaşa idarə etməyə girişib və bu ticarət bundan sonra heroin ticarəti kimi rahat gedəcəkdir: Kolumbiyanın yeni hökumətinə taktikasım və fəaliyyət istiqamətlərini dəyişmək tövsiyə olunub. Yeni hökumət Komitetin oyun qaydalarına tabe olmalıdır.

ABŞ-ın Çinlə tiryək ticarətində iştirakı barədə – bu, Birləşmiş Ştatların conubunda, hələ Vətəndaş Müharibəlinə qədər başlamışdı – xatırlamaq lazımdır. Tiryək ticarəti ilə Cənubda nəhəng pambıq plantasiyaları arasında nə əlaqə ola bilər? Bunu müəyyən etmək üçün biz ən yüksək keyfiyyətli (əgər bu cür idbar maddəni «keyliyyətli» adlandırmaq olarsa) və həmişə böyük tələbat Oİan tiryəkin istehsal ohınduğu Hindistana, o vaxt onun orazisi olan Benqaliyaya üz tutmalrıyıq. İngiltərədə pambıq tiryəkdən sonra «Britaniya Ost-Hind KompaniyaKi»nın alver etdiyi ən mühüm mal idi.

Cənub plantasiyalarında yetişdirilən pambığın böyük hissəsi, qadınların və uşaqların 16 saatlıq iş günü müqabilində bir qarmlıq yemək qazandıqlan Şimali İngillərədəki qul fabriklərində emal olunurdu. Tekstil fabrikləri Londonun yüksək cəmiyyətinə aid olan varlı ailələrə – Palmerstonlara, Berinqsamlara, Kesuiklərə və əsas clibarilə, «Mavi ulduz» gəmi nəqliyyatı kompaniyasının mülkiyyətçisi, gəmiləri Hindistana hazır pambıq parça daşıyan Cardin Matesona məxsus idi. (Ülyahozrot kraliçanın təbəələrinin yaşadıqları dohşətli dərəcədə pis lıoyat şəraiti onları qayğılandırmaya bilərdi. Son nəticədə ləbəələr məhz bunun hesabına öz mövcudluqlarını təmin edir, onların ərləri və oğlanları isə Ülyahəzrət Kraliçanın əhatəsiz imperiyasını qorumaq üçün müharibə meydanlarında məhsuldar iş görürdülər – onlar bunu əsrlor boyu, eləcə də, qanlı Bur müharibəsində də ediblər. Bu, Britaniyanın ənənəsi idi, elə deyilmi?)

Hindistana ixrac edilən pambıq tekstili hindistanlı pambıq parça istehsalçılarını müflis edirdi. Britaniyanın daha ucuz məhsullarının hind bazarlarını tutması nəticəsində işdən bayıra atılan minlərlə hindistanlı dəhşətli ehtiyac girdabına düşürdü. Hindistan Britaniyadan son dərəcə asılı vəziyyətə düşdü, çünki özünün dəmir yolları və İngiltərədən gətirilən hazır pambıq tekstilinə görə ödənişləri etmək üçün ona valyuta tələb olunurdu. Hindistanın iqtisadi problemlərinin yeganə həlli var idi. Daha çox tiryək istehsal etmək və onu dəyərdəyməzmə «Britaniya Ost-Hind Kompaniyası»na satmaq. Britaniya ticarətinin boy atdığı və çiçəkləndiyi bünövrə bu cür idi. Tiryək ticarəti olmasaydı, Britaniya müflis olardı.

Birləşmiş Ştatların Cənub plantatorları pambığın tiryəkə dəyişdirilməsi ilə bağlı bu idbar sirri bilirdilərmi? Onlardan bəzilərinin nə baş verdiyindən xəbərsiz olması ehtimalı azdır.

downloaded from KitabYurdu.org

Məsələn, Cənubda çox geniş pambıq plantasiyalarının sahibi olan Sazerlend (Sutherland) ailəsini götürün. Sazerlendlər Mateson – Cardin Mateson – ailəsi ilə yaxın qohumluq münasibətlərində idi, Matesonlar isə, öz növbəsində, Britaniyanın gəmi nəqliyyatı kompaniyaları arasında ən iri – «Penisular and Orient Navigation Line» (P&O) kimi məşhur kompaniyanın əsasını qoyan Baring Brothers («Berinq Qardaşları») bankının işgüzar partnyorları idi.

Berinq qardaşları Cənub plantasiyalarına, eləcə də gəmiləri Çin limanları ilə ABŞ sahillərinin bütün mühüm limanları arasında okean sularını şumlayan və ABŞ-ın gəmi nəqliyyatına iri məbləğlər yatıran investor idi. «Baring Brothers» bu gün ABŞ-da bir sıra maliyyə kompaniyalarını və bankları idarə edir. Bu ailələrin bütün nümayəndəlari Komitet 300-ün üzvü olub və indi də üzvü oımaqdadjrlar.

Necə deyərlər, «şərqli liberal isteblişmenti» təşkil edən ailələrin əksəriyyəti ABŞ-ın ən varlı sülalərinə daxildirlər və öz varidatlarını ya pambıq, ya da tiryək ticarəti, bəzi hallarda isə bunların hər ikisinin sayəsində əldə ediblər. Lemanlar (Lehmans) ailəsi özü ilə çox görkəmli nümunə lacəssüm etdirir. İstisnasız olaraq Çinlə tiryək ticarəti vasitəsilə toplanan varidatlardan söhbət düşəndə yada ilk növbədə Astorlar və Delanoların (the Astors and the Delanos) adı düşür. Prezident Franklin Delano Ruzveltin həyat yoldaşı Delanolar ailəsindən idi.

Con Cekob Astor Çinlə tiryək ticarətində çox iri varidat yaratdı və bundan sonra öz çirkli pulları ilə Manhettendə iri torpaq sahələri alaraq kübar həyat tərzi sürməyə başladı. Komitet 300-ün planlarının hazırlanınasında Astor bütün həyatı boyu böyük rol oynayıb. Əfsanəvi gəlirli iş olan Çinlə tiryək ticarətində kimin iştirak edəcəyini faktiki olaraq məhz Komitet 300 özünün «Britaniya Ost-Hind Kompaniyası»nın inhisarı vasitəsilə müəyyən edir, bu cür səxavətə tuş gələnlər isə Komitet 300-ə həmişəlik sadiq qalırdılar.

Bax buna görə Manhettendə daşınmaz əmlakm böyük hissəsi, Astor onu almağa başladığı dövrdə olduğu kimi, Komitet 300-ün müxtəlif üzvlərinə məxsusdur – biz irəlidə bunu hələ görəcəyik.

Böyük Britaniya kəşfiyyatına daxil olmayanlar üçün bağlı olan qeydlərlə işləmək hüququndan istifadə edərək, mən Astorun uzun müddət Böyük Britaniya kəşfiyyatının ABŞ-da mühüm casusu olduğunu aşkar etdim. Astorun Aleksandr Hamiltonun qatiri Aaron Berri (Aaron Burr) maliyyələşdirməsi faktı buna şübhə etməyə heç bir əsas qoymur. Con D.! Astorun oğlu Uoldorf Astor (Waldorf Astor) «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nun üzvü

downloaded from KitabYurdu.org

olmaq şərəfinə layiq görülüb. ABŞda bizim həyatimizin praktiki olaraq bütün aspektlərini Komitet 300 məhz «Beynəlxalq İşlor üzrə Kral İnstitutu» vasitəsilə idarə edir. Hesab edirlər ki, Astorlar ailəsi Oven Lattimoru (Owen Lattimore) özünün tiryək ticarəti ilə əlaqələrini davam etdirmək üçün seçmişdi və Lattimor bunu Laura Spelmanın (Laura Spelman) maliyyələşdirdiyi «Sakit okean Münasibətləri İnstitutu» (SOMİ = İPR, lnstitute for Pacific Reiations) vasitəsilə həyata keçirirdi. Çinin tiryək ticarətinə sadəcə olaraq təchizatçı yox, bərabər partnyor qismində daxil olması üzərində nəzarəti məhz «Sakit okean Münasibətləri İnstitutu» həyata keçirirdi. Yaponların Peıl Harbora hücumu üçün yolu da məhz SOMİ çəkmişdi. Yaponları narkomana çevirmək səyləri tam iflasa uğramışdı.

Britaniyalı oliqarxik plutokratlar yüzüliyin sonları üçün, antilopalarının illik miqrasiyası dövründə Serengeti düzənliyində leş yeyən piylənmiş quşlar kimi idilər. Onların Çinlə tiryək ticarətində əldə etdikləri gəlir, Devid Rokfellerin gəlirini HƏR İL BİR NEÇƏ MİLYARD DOLLAR HƏCMİNDƏ üstələyirdi. Böyük Britaniya muzeyində və «Llindistan Ofisində» tanış ola bildiyim, eləcə də digər mənbələrdən – məsul postlarda işləyən keçmiş həmkarlarım vasitəsilə – əlimə düşən tarixi qeydlər bunları tamamilə sübut edir.

Ölkədə tiryək çəkənlərin saymın artmasından dərin narahatlıq keçirən Çin hökuməti 1905-ci il üçün beynəlxalq birlikdən yardım almağa cəhd edirdi. Böyük Britaniya özünü elə göstərdi ki, guya kömək etmək istəyir, lakin 1905-ci ildə imzaladığı protokollara riayət etmək üçün heç nə etmədi. Bir müddət sonra isə Ülyahəzrət hökuməti açıq-açığına əks mövqe tutdu və bununla Çinə göstərdi ki, ona tiryək biznesinə qoşulmaq, bu ticarətin c|arşısını almağa cəhd etməkdən yaxşı olardı.

Böyük Britaniya hətta Haaqa konvensiyasına da tüpürürdü. Konvensiyanın nümayəndələri Böyük Britaniyanın imzaladığı protokollara qəti şəkildə əməl edəcəyi barədə razılığa gəlmişdilər. Bu halda Çində və digər yerlərdə satılan tiryəkin miqdarı əhəmiyyətli dərəcədə azalmış olardı. Sözdə bunun lehinə olan bri taniyalılar insan dərdləri ilə (buna, üzdəniraq, «donuz ticarəti» də daxil idi) ticarətlərini dayandırmaq fikrində deyildilər.

Onların nökəri olan Prezident Buş da, İSTİSNASIZ olaraq Böyük Britaniyanın maraqları naminə aparılan qəddar müharibə və İraq millətinə qarşı genosidin gedişində, «Hava Bombardmanları üzrə Haaqa Konvensiyası»nı, eləcə də ABŞ-ın imzaladığı bir çox beynəlxalq müqavilələri, o cümlədən də Cenevrə konvensiyalarının HAMISINI pozmaqla, beynəlxalq hüquqün normalarını həyasızcasına tapdalayıb.

downloaded from KitabYurdu.org

Yaponiyaya britaniyalıların tiryək qaçaqmalçılığından çox narahat olan yaponlar tiryək ticarətinin nəinki azaldığı, əksinə, daha da artdığı barədə sübutlarla çıxış edəndə, Ülyahəzrətin Beşinci Haaqa Konvensiyasında nümayəndəsi yaponların. məlumatlarına əks olan statistika təqdim etdi. Britaniyalı nümayəndə hər şeyi başayaq çevirərək bildirdi ki, tiryək satısını leqallaşdırmağın əsl vaxtı yetişib və bu, onun «qara bazar» adlandırdığı ilə birdəfolik qurtarmağa imkan verərdi.

O, Ülyahəzrət hökuməti adından bildirirdi ki, bu halda yapon hökuməti inhisara malik olar və ticarəti öz nəzarəti altında saxlaya bilərdi. **Eynilə belə bir arqument Bronfman və digər iri narkoişbazlarin vasitəçiləri tərəfindən də irəli sürülmüşdü – kokain, marixuana və heroini leqallaşdirmaq lazimdir: ABŞ hökuməti qoy inhisara malik olsun və bu, vergi ödəyicilərinin narkotiklərə qarşı saxta müharibəyə gedən milyardlarla dollarına qənaət etməyə imkan verəcəkdir.**
Şanxayda lisenziyalasınış tiryəkxanaların sayı 1791-ci ildən 1894-cü ilə qədər 87-dən 663-ə qədər artdı. Birləşmiş Ştatlara da tiryək axını gücləndi. Çində dünya ictimaiyyətinin diqqətini özünə cəlb edə biləcək mümkün problemləri əvvəlcədən hiss edən «Müqəddəs İoann Ordeninin Cəngavərləri» və «Sarğı Ordenendən olan plutokratlar öz əməliyyatlarının bir hissəsini Persiyaya (İrana) keçirdilər. XIX əsrin ən iri gəmi (buxarla işləyən) kompaniyasının – əfsanəvi «Peninsula and Orient Steam Navigation Company»nin əsasını qoyan Lord İnçkeyp (Inchcape) «Honkonq ənd Şanxay Bankinq Korporeyşn» (NSBC) bankının yaradılmasının təşəbbüskarı olub və bu bank hazırda da tiryək ticarətində ən iri və ən az nəzarət edilən hesablasına bankı olaraq qalmaqdadır. Bundan başqa, bu bank Birləşmiş Ştatlarla «donuz ticarətini» də («pig trade») maliyyələşdirirdi.

Britaniyalıların qurduğu kombinasiya nəticəsində çinli «kulilər» müqavilə üzrə işçi kimi ABŞ-a göndərilirdi. GöZÜ doymayan Harrimanlar ailəsinə məxsüs olan dəmir yolların «kulilərə» ehtiyacı var idi, belə ki, Harrimanlar dəmiryol əlaqəsini Qərbə, Kaliforniya sahülərinə qədər uzatmağı planlaşdırırdı. Kifayət qədər qəribədir ki, zəncilərin ağır əl əməyinə adət etdiklərinə və onların Çindən gələn, tiryək çəkməkdən əldən düşmüş narkomanlara nisbotən bu işi daha yaxşı yerinə yetirə biləcəklərinə baxmayaraq, o vaxt zoncilər bu işlərə çox az cəlb olunmuşdu.
Problem ondan ibarət idi ki, zəncilər arasında tiryək bazarı yox idi, üstəlik də, «Peninsula and Orient» kompaniyasının əsasını qoyanın oğlu olan Lord İnçkeypə «kulilər», minlərlə funt xam tiryəkin qaçaqmalçı yolla Simali Amerikaya gətirilməsi üçün lazım idi və zəncilər bu işə, əlbəttə, yaramazdılar. Bu, 1923-cü ildə Benqaliyada tiryək laləsi istehsalının azaldılmasının əleyhinə çıxış edən həmin Lord İnçkeyp idi. O, guya Hindistanda tiryək

downloaded from KitabYurdu.org

istehsalım öyrənən komissiyaya bunu demişdi: «Bu, ən vacib gəlir mənbəyini ciddcəhdlə saxlamaq lazımdır».

Harrimanın Qərb istiqamətində tikilən dəmir yollarında işləmək üçün 1846-cı ildə 120.000 «kuli» artıq ABŞ-a gətirilmişdi. «Donuz ticarəti» çiçəklənirdi, çünki ABŞ hökumətinin hesablamasına görə, gələnlərdən 115.000-i tiryək çəkənlər idi. Dəmir yolu tikilib qurtarandan sonra çinlilər öz vətənlərinə qayıtmadılar və San-Fransiskoda, Los-Ancelesdə, Vankuverdə və Portlenddə məskunlaşdılar. Onlar böyük mədəni problem yaratdılar ki, həmin problem indiyədək də həll ohmmayıb.

Qeyd etmək maraqlı olardı ki, Komitet 300-ün üzvü, Rotşildlərin Cənubi Afrikada maraqlarını təmsil edən Sesil Con Rods (Cecil John Rhodes) Hindistandan yüz minlərlə hindli «kulini» Natal əyalətində şəkər qamışının yetişdinidiyi plantasiyalarda işləmək üçün gətirdərək, İnçkeypin nümunəsini təkrar etmişdi. Kommunist təşviqatçı və araqarışdıran Mahatına Qandi də onların arasında idi. Çinli «kulilər» kimi, induslar da iş üzrə müddət bitəndən sonra vətənə qayıtmadılar. Onlar da çox böyük sosial problemlər yaratdılar, onların sonrakı nəsilləri isə vəkil oldular və Afrika Milli Konqresindən hakimiyyətə sızanların avanqardmı təşkil etdilər.

1875-ci il üçün çinli «kulilər» SanFransiskodan tiryək təchizatı kanalı yaratdılar və bunun nəticəsində 129.000 amerikalı tiryəkə aludə oldu. Bu vaxta qədər mövcud olan 115.000 narkomanla birlikdə onlar elə bir satış bazarı təşkil edirdi ki, həmin bazar Lord İnçkeypə yalnız bu mənbədən hər il yüz minlərlə dollar – indiki qiymətlərlə bu, ildə ən azı 100 milyon dollar təşkil edərdı – qamarlamağa imkan verirdi.

Tiryək ticarətinə şərait yaratmaq üçün Hindistanın tekstil sənayesinin iflasa uğramasını təşkil edən və Afrika qullarını ABŞ-a gətirən britaniyalı və amerikalı ailələr belə qurubqəsdular ki, «donuz ticarəti» qiymətli gəlir mənbəyinə çevrildi. Bir qədər sonra onlar «Ştatlar Arasında Müharibənin» – bu, həm də Amerika Vətəndaş Müharibəsi kimi tanmır – baş qaldırmasına gətirən siyasi kombinasiyalar qurmağa başladılar.

Təpədən-dırnağa qədər korrupsiyalasınış və çirkli var-dövlət içində üzən, bir-biri ilə iblisanə partnyorluqla bağlı olan çürük amerikalı ailələr indi, «şərqli liberal isteblişment» adlandırılan bir şeyə çevriliblər. Onun üzvləri Böyük Britaniya taxt-tacmm, sonralar isə «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nun – taxt-tacm xarici siyasət üzrə icraedici orqanının – həssas rəhbərliyi və idarəçiliyi altında bu ölkəni yuxarıdan aşağıya qədər idarə etməkdə

downloaded from KitabYurdu.org

davam edir və bunu TAMAMİLƏ gizlin cəmiyyət, Komilet 300-lə çox sıx bağlı olan yüksək səviyyəli paralel hökumət vasitəsilə həyata keçirirlər.

1923-cü il üçün bu, indiyə qədər tamamilə azad şəkildə ABŞ-a daxil olan təhlükəyə qarşı getdikcə daha çox səs yüksəlməyə başladı. Nümayəndələr Palatasının Xarıcı İşlər üzrə Komitəsinin Sədri, Konqresmen Stiven Porter, Birləşmiş Ştatların azad və suveren ölkə olduğunu düşünərək, Böyük Britaniyanın özünün hər ölkə üzrə tiryək biznesinin idxalixracı barədə hesabat verməsi öhdəliyini nəzərdə tutan qətnaməni müzakirəyə çıxardı. Qətnamə hər ölkə üçün kvotalar müəyyən edirdi ki, bu da istehsal edilən tiryəkin həcmini 10 % azaltmalı idi. Bu qətnamə qanunverici akt kimi keçirdi və ABŞ Konqresi bu qanun layihəsini təsdiq etdi. Lakin «Xarici İşlər üzrə Kral İnstitutu»nun ideyaları tamam başqa idi...

Əsası 1919-cu ildə, Versalda keçirilən Paris Sülh Konfransı ərəfəsində qoyulan «Xarici İşlər üzrə Kral İnstitutu», Komitet 300-ün iradəsinin xarici siyasət sahəsində ən erkən icraçılarından biri idi. ABŞ Konqresinin Nümayəndələr Palatasının protokollan ilə bağlı apardığım tədqiqatlar göstərdi ki, Porter, qarşı çıxdığı çox qüdrətli qüvvələr barədə tamamilə xəbərsiz idi. Porter heç «Xarici İşlər üzrə Kral İnstituru»nun mövcud olduğunu belə bilmirdi və demoli, o, bu institutun qarşısına qoyulan spesifik vəzifə – Birləşmiş Ştatların həyatının hər bir tərəfini nəzarət altında saxlamaq vəzifəsi barədə ümumiyyətlə xəbərdar ola bilməzdi.

Hər şeydən göründüyü kimi, Porter bütün bu işi rahat buraxmaq barədə işarəni Uoll Stritdə yerləşon «Bank Morqan»dan almışdı. Lakin qeyzlənən Porter bunun əvəzində öz mübarizəsini Millətlər Liqasının «Tiryək Komitəsinə» keçirdi. Ona qarşı kimin durduğundan Porterin tamamilə məlumatsız olduğunu, öz təkliflərinə Böyük Britaniyanın açıq müxalifliyi ilə bağlı Nümayəndələr Palatasının Xarici İşlər üzrə Komitəsindəki həmkarlarına yazdığı məktublarda da görmək mümkündür.

Ülyahəzrətin nümayəndəsi, atanın yolunu azmış oğula münasibətdə hərəkət etdiyi kimi, Porteri məzəmmət etdi və sonra britaniyalı nümayəndə – XİKİ-nin təlimatı əsasında – tiryəkin tibbi məqsədlərlə istehlakının artdığını nəzərə alaraq, hər ölkə üzrə tiryək kvotalarının ARTIRILMASI ilə bağlı Ülyahəzrətin təkliflərini təqdim etdi. Haaqada tapa bildiyim sənədlərə görə, Porter əvvəl çaş-baş qalıb, sonra heyrətlənib, daha sonra isə hiddətlənib. Və bundan sonra Porter çinli nümayəndə ilə birlikdə Komitənin səlahiyyətli iclasını nümayişkaranə surətdə tərk etməklə döyüş meydanını Böyük Britaniyaya təhvil verdi.

downloaded from KitabYurdu.org

Porter iclası tərk edəndən sonra britaniyalı nümayondə Millətlər Liqasını «əhilləşdirilmiş pələngin» – «Narkotiklər üzrə Mərkəzi Şura»nın yaradılması üzrə Ülyahəzrət hökumətinin təkliflərini təsdiq etməyə inandıra bildi. Bu mərkəzin əsas funksiyası, məzmunu məqsədyönlü surətdə dumanlı və üstüörtülü olan, informasiyanın toplanmasından ibarət idi. Heç kəs bu «informasiya» ilə nə etmək lazım olduğunu bilmirdi. Porter ABŞ-a sarsılmış və daha müdrik insan kimi qayıtdı.

Əfsanəvi dərəcədə varlı olan *Vilyam Binqhem* (Bingham) – Berinq qardaşlarından biri bu ailənin nümayəndələrindən biri ilə evlənmişdi – Britaniya kəşfiyyatının daha bir incisi idi. Gördüyüm kağız və sənədlərdə Berinq qardaşlarının «Filadelfiyalı kvakerlər» kompaniyasını idarə etdikləri və bu şəhərin daşınmaz əmlakının yarısının mülkiyyətçisi olduqları bildirilirdi ki, bu, Berinq qardaşlarının Çində tiryək ticarəti sayəsində yığdıqları sərvətin sayəsində mümkün olmuşdu. Komitet 300-ün səxavətinə tuş gələn başqa bir adam Stefan Jirar (Girard) idi ki, onun nəslinin davamçıları «Girard Bank and Trust» («Jirar Bank və Trast») bankını miras aldılar.
Tarixçəsi Bostonun tarixi ilə bağlı olan və bizimlə, adi insanlarla heç vaxt ünsiyyət saxlamayacaq ailələr Komitet 300 və onun Çindəki yüksək gəlirli tiryək ticarəti ilə ınöhkəmcə bağlanmışdırlar. Görkəmli ailələrin bir çoxu pis ad çıxarmış «Honkonq ənd Şanxay Bankinq Korporeyşn» bankı ilə birbaşa assosiasiya yaradır, bu bank isə Çində tiryək ticarətindən daxil olmaqda davam edən milyardlarla dollar üçün klirinq palatası olaraq qalmaqda davam edir.

«Britaniya Ost-Hind Kompaniyasenın sənədlərində Forbslar, Perkinslər və Hataueylər ailələri kimi adlar vardır. Bu, həqiqətən də Amerikanın əsil «mavi qanlılar» təbəqəsinin nümayəndələri, əsas fəaliyyəti tiryək ticarətindən ibarət olan «Rassel və K'« kompaniyasını yaratmışdılar. Bundan başqa, onlar Çindən Cənubi Afrikaya qədər, eləcə də bu məkanda bütün aralıq məntəqələrdə narkotiklərin daşınmasının digər kanallarına da nəzarət edirdilər. Böyük Britaniya taxt-tacına və «Britaniya Ost-Hind Kompaniyası»na göstərdikləri xidmətin müqabilində Komitet 300 1833-cü üdə onlara mükafat qismində qul ticarətində inhisar bəxş etdi.

Boston özünün əzəmətli tarixinə görə Komitet 300-ün ona bəxsiş etdiyi pambıq, tiryək və qul ticarətinə minnətdardır. Londonda mən müəyyən sənədləri öyrənmək imtiyazına layiq görüldüm. Həmin sənədlərdən belə çıxırdı ki, Britaniya taxt-tacının ABŞ-da əsas dayaqları Bostonun tacir ailələri olub. «Hindistan Ofisinin» sənədlərində və Honkonqda bank

downloaded from KitabYurdu.org

kitablarında Con Merrey Forbs (John Murray Forbes) «Bostonun mavi qanlılarının» («Boston Blue Bloods») başçısı kimi qeyd olunur.

Forbsun oğlu Komitet 300-ün, bu gün də dünyanın ən nüfuzlu narkobankı olan, «Honkonq ənd Şanxay Bankinq Korporeyşn» (HSBC) bankının Direktorlar Şurasında təmsil olunmağa icazə verdiyi ilk amerikalı olmuşdu. 1960-cı illərin əvvəllərində mən, «Britaniya Ost-Hind Kompaniyası» ilə maraqlanan tarixçi» qismində, Honkonqda olanda, mənə köhnə sənədləri, o cümlədən də bu məşhur bankın keçmişdəki Direktorlar Şuralarının üzvlərinin siyahısını göstərdilər və əlbəttə, Forbsun adı onların arasında idi.

Çox görkəmli olduğu üçün adı hələ indi də dahipərvər -pıçıltı ilə çəkilən Perkinsonlar ailəsi Çində aparılan rəzil çirkli tiryək ticarətinə çox dərin cəlb olunmuşdu. **Perkins-ata Komitet 300-ə seçilən ilk amerikalılar arasında faktiki olaraq birincilərdən,** onun oğlu Tomas Nelson isə Bostonda Morqanın adamı və həm də mahiyyət etibarilə Böyük Britaniya kəşfiyyatının casusu olub. O, Harvard Universitetinə səxavətlə bəxşiş verəndə onun heç də cəlbedici olmayan, deyərdim ki, hətta nifrətəlayiq keçmişi heç kəsi maraqlandırmırdı. Əvvəl-axır, Kanton və Syansin Bostondan uzaqda idi, bir də orada nə baş verdiyi ilə kim maraqlanacaqdı ki?
Morqanın Komitet 300-ün çox qüdrətli üzvü olması Perkinslərə çox kömək etdi və bu, Tomas N.Perkinsona Çində tiryək ticarətində gur karyera qurmağa imkan verdi. Morqanların və Perkinslərin hamısı Frankmason olub və bu, onları bir-birinə bağlayan daha bir bağ idi, belə ki, Komitet 300-ə seçilməyə yalnız yüksək dərəcəli masonun ümidi ola bilərdi. Demək olar otuz il ərzində «İmper Çininin Gömrük Xidmətinin» şefi olan (oxu, Çində tiryək ticarətində Britaniya taxt-tacının bir nömrəli casusu) Ser Robert Hart sonralar «Morgan Guarantee Bank»ın Uzaq Şərq şöbəsinin Direktorlar Şurasına təyin olundu.

Mənə Londonda və Honkonqda tarixi qeydlərlə tanış olmaq imkanı verilməsi sayəsində öyrənə bildim ki, Ser Rober, Morqanın Birləşmiş Ştatlardakı kompaniyaları ilə yaxın münasibətlər qura bilmişdi. Qeyd etmək vacibdir ki, Morqanın tiryək və heroin ticarətində maraqlan dəyişmoz olaraq qalmaqdadır; buna o fakt da dəlalət edir ki, David Nyubigginq (David Newbigging), Morqan və Cardin Metisonun Honkonqda müştərək müəssisəsi olan kompamyasının Konsultativ Şurasına daxildir.

Honkonqu tamyanlar üçün Nyubigginq adı, Honkonqda ən nüfuzlu ad kimi məlumdur. Morqanın ehtar bankının Direktorlar Şurasının üzvü olmaqdan başqa, Nyubigginq Çin hökumətinin müşaviridir. Raket texnologiyası müqabilində tiryək, qızıl müqabilində tiryək,

downloaded from KitabYurdu.org

müasir kompüterlər müqabilində tiryək – Nyubigginq üçün heç nəyin fərqi yoxdur. Banklarm, maliyyə və ticarət kompaniyalarıran və onları idarə edən ailələrin əlaqələri elə sıx çarpaz toxunub ki, Şerlok Holms da onda dolaşıb qalardı. Lakin bundan asılı olmayaraq, əgər biz onların narkoticarəti və Komitet 300-də üzvlükləri arasındakı əlaqəni başa düşmək istəyiriksə, onda bu kələfi açmaq və izləyib axırına çatmaq vacibdir.

Alkoqol və narkotiklərin Birləşmiş Ştatlara gətirilməsi, elə həmin «təmiz qanlı cins ayğırların» saxlandığı eyni «at tövləsinin» fəaliyyətinin nəticəsi idi. İlk növbədə ABŞ-da spirtli içkiləri qadağan etmək lazım idi. «Britarliya Ost-Hind Kompaniyasenın varisləri bunu, «Çində Daxili Missiyanın» çox dəqiq aparılan və hazırda «Hindistan Ofisində» saxlanan sənədlərdən topladıqları təcrübə əsasında etdilər. Onlar Amerikada alkoqolun istehlakına maneçilik yaratmalı olan «Əyyaşlığa Qarşı Qadın Xristian İttifaqını» təsis etdilər.
Biz deyirik ki, tarix təkrar olur və müəyyən mənada bu doğrudur, lakin tarix yüksələn spiral üzrə təkrar ohır. Bu gün biz xəbər tuturuq ki, torpağı «çirkləndirdiyi» hesab edilən elə həmin ən iri kompaniyalar, demə, ekoloji hərəkatın ən iri sponsorlarıdır. «Böyük adlar» öz ismarıcLarını göndərirlər. Şahzadə Filipp – onların qəhrəmanlarından biridir. Lakin onun oğlu Şahzadə Çarlz Uellsdə yüzlərlə akr meşənin mülkiyyətçisidir və ağaclar burada mütəmadi olaraq sənaye üsulu eLə kəsilir. Bundan başqa, Şahzadə Çarlz Londonda ən çirkli yaşayış kvartallarının ən iri mülkiyyətçilərindən biridir və burada ətraf mühiti çirkələndirmə səviyyəsi dəhşətli dərəcədədir.

«Əyyaşlıq vərdişinə» qarşı çıxış edənlərlə bağlı isə biz xəbər tuturuq ki, demə, onlar spin ticarətində iri paya malik olan Astorlar, Rokfellerlər, Vanderbiltlər, Spelmanlar və Varburqlar tərəfindən maliyyələşdirilirmiş. ABŞ-ın bu varlı ailələrinə, onların «Əyyaşlığa Qarşı Qadın Xristian lttifaqı»na pul yatırmalı olduqlarını demək ücün Lord I3iverbuk (Beaverbrook), Böyük Britaniya taxt-tacının göstərişi ilo, İngiltərədən Birləşmiş Ştatlara gəldi...

Bu, 1940-cı ildə Vaşinqtona gəhb, mahiyyət etbarı ilə Böyük Britaniyanın müharibəsi olan, müharibəyə girməyi Ruzveltə ƏMR EDƏN həmin Biverbuk idi.

Ruzvelt ABŞ donanmasım Qreniandiyada yerləşdirməklə əmri yerinə yetirdi və həmin donanma d.a Perl I larbordan 9 ay əvvəl alman sualtı gəmilərini izləməyə və onlara hücum etməyə başladı. Öz davamçısı Corc Buş kimi, Ruzvelt, Konqresə zəhlətökən milçək kimi yanaşaraq, kralsayağı hərəkət edirdi – bu hiss onda çox güclü idi, axı o, necə də olsa, kral

downloaded from KitabYurdu.org

ailəsi ilə qohumluq əlaqələrinə malik idi. «Franklin Delano Ruzvelt özünün qeyriqanuni hərəkətləri üçün heç vaxt Konqresdən icazə istəmirdi. Özünün «Amerika ilə xüsusi münasibətləri» haqqında danışanda Böyük Britaniya məhz elə bunu nəzərdə tutur»...

Narkotika ticarətinin Prezident Con F.Kennedinin öldürülməsi ilə əlaqəsi vardır; bu mənfur iş millətin ləyaqətini rüsvay edir və nə qədər ki, haqqədalət cinayətkarların əlindədir, bu belə də davam edəcəkdir. Mafiyanın MKİ vasitəsilə bu işdə iştirakı olduğuna dəlalət edən sübutlar vardır və həmin sübutlar bütün bu işin Meyer Lanskinin köhnə şəbəkəsindən başlandığını xatırlamağa vadar edir. Eləcə də, bu şəbəkənin sonralar «İrqun» terrorçu təşkilata cevrildiyini, Lanskinin özünün isə Qərbə qarşı mədəniyyət müharibəsinin aparılması üzrə ən yaxşı casuslardan biri kimi ortaya cıxdığını xatırlamaq yerinə düşərdi.

Lanski və Böyük Britaniyanın Mİ-6 kəşfiyyat xidmətinin müştərək müəssisəsi olan «The Mary Carter Paint Company» kompaniyasTnın pərdəsi altında Cənnət adasında (Baham adaları) narkotikin yayılması və qumar oyunlarının inkişaf etdirilməsi işində Lanski, daha respektabelli vasitəçilərin xətti ilə, Britaniyanın yüksək təbəqələri ilə bağlı idi. Lord Sesson (Sassoon) bir müddət sonra öldürüldü, çünki o, gəlirlərin qaymağını götürür və onu cəzalandıracaqlan təqdirdə hammı ələ verəcəyi ilə hədələyirdi. Kanadalı Bronfmanları təmsil edən Rey Volf (Ray Wolfe) nisbətən daha sanballı idi. Bronfmanların Çörçillin «Nova Scotia Project» genişmiqyaslı müəssisəsində iştiraklan olmasa da, onlar narkotika ticarətində Britaniya kral ailəsinin mühüm agentləri olublar və bu, indi də belədir.
Meyer Lanskinin yaxın məsləkdaşı Sem Robert (Sam Rothberg) həm də Tibor Rozenbaum (Tibor Rosenbaum) və Pinças Sapirlə (Pinchas Sapir) birgə işləyirdi – onların üçü də Lanskinin narkobiznesində həlledici fiqurlar idilər. Rozenbaum İsveçrədə pulların yuyulması əməliyyatlarını, xüsusi olaraq bu iş üçün təsis etdiyi, «Banque du Credite International» bankı vasitəsilə həyata keçirirdi. Bu bank öz fəaliyyətini çox tez genişləndirdi və Lanski və onun köməkçi-qanqsterlərinin fahişəlikdən, narkotiklərdən və mafiyanın digər reket fəaliyyətindən əldə etdikləri pulların yuyulması üçün istifadə etdikləri əsas bank oldu.

Qeyd etmək lazımdır ki, Tibor Rozenbaumun bankı Böyük Britaniya kəşfiyyatının kölgə altında olan şefi Ser Vilyam Stefenson (Sir William Stephenson) tərəfindən istifadə olunurdu. Bu da maraqlı olmalıdır ki, İkinci Dünya müharibəsi dövründə Federal Təhqiqatlar Bürosunun (FTB) Beşinci Şöbəsinə rəhbərlik edən Kanada vətəndaşı mayor Con Mortimer Blumfild (John Mortimer Bloomfield) Ser Vilyam Stefensonun sağ əli olub. **Stefenson XX əsrdə Komitet 300-ün üzvü olanlardan birincisi idi,** halbuki Blumfild buna nail ola bilməmişdi. Kennedinin öldürülməsi barədə yazdığım

downloaded from KitabYurdu.org

monoqrafiyalar seriyasında göstərdiyim kimi, Blumfildin başçıığı allında haznianan əməliyyata gizlin rəhbərliyi məhz Stefenson həyata keçirirdi. Kennedinin öldürülməsi üçün pərdə rolunu narkotiklərlə bağlı olan başqa bir təşkilat – 1957-ci ildə yaradılan və NyuOrleanın mərkəzində yerləşən «World Trade Mart» («Ümumdünya Ticarət Bazarı») kompaniyasının binasında fəaliyyət göstərən «Permanent Industrial Expositions» (PERMINDEX) («Daimi Sənaye Sərgisi») kompaniyası oynayırdı.
Blumfid həm də Bronfmanlar ailəsinin vəkili idi. «World Trade Mart» kompaniyası polkovnik Kley Şou (Clay Shaw) və Federal Təhqiqatlar Bürosunun NyuOrleanda Beşinci Bölməsinin şefi Gi Bannister (Guy Bannister) tərəfindən yaradılmışdı. Şou və Bannister, Kennedinin öldürülməsində ittiham olunan və Kennediyə güllə atmadığını sübuta yetirməzdən əvvəl MKİ-nin muzdlu agenti Cek Rubi tərəfindən qətlə yetirilən, Li Harvi Osvaldla yaxmdan tanış idilər. Vorren Komissiyasının və çoxsaylı rəsmi məruzələrin əksinə olaraq, nə «Manliher» tüfənginin Osvalda məxsus olması, – qətlin bu silahla həyata keçirildiyi ehtimal olunurdu (bu, həqiqətə uyğun deyildi), nə də onun bu tüfəngdən atəş açması ELƏCƏ MÜƏYYƏN OLUNMAMIŞ QALDI. Narkotika ticarəti, Şou, Bannister və Blumfild arasında əlaqə öz təsdiqini dəfələrlə tapıb və bu suala burada yenidən toxunmağa ehtiyac yoxdur.

«Resorts International» kompaniyasının və narkotika ticarəti ilə əiaqəli olan digər kompaniyaların İkinci Dünya Müharibəsindən bilavasitə sonra pulların yuyulması üçün istifadə etdikləri ən yayılmış metodlardan biri, çirkli pulların yuyulması üzrə ixtisaslaşan banka nağd pulun kuryer xidməti vasitəsilə göndərilməsi idi. İndi hər şey dəyişib. İndi bu riskli metoddan hələ də yalnız «xırda balıqlar» istifadə edirlər. «İri balıq» öz pulunu Nyu-Yorkda yerləşən «Berrouz» (Burroughs) kompüter sisteminin bazasında yaradılan CHIPS sistemi – «Clearing House International Payment System» üçün qısaldılmış ad («Beynəlxalq Ödəmələr Sisteminin Hesablasına Palatası») – vasitəsilə keçirir. Bu sistemdən on iki ən iri bank istifadə edir. Bunlardan biri «Honkonq ənd Şanxay Bankinq Korporeyşn» (HSBC) bankı, digəri isə «Credit Suisse» («İsveçrə Krediti») bankıdır ki, əgər onun əməliyyatlarının mahiyyətinə dərindən varmasan, bu bank, ilk baxışdan, bank işində xoşməramlılıq nümunəsi təsəvvürünü yarada bilər. Lakm bazası Virciniya ştatında olan SWIFT sistemi («Society for World International Financial Transfers» — «Ümumdünya Beynəlxalq Maliyyə Köçürmələri Cəmiyyəti») ilə birlikdə fəaliyyət nəticəsində çirkli pullar gözəgörünməz olur. Yalnız aşkar səhlənkarlıq vaxtaşın FTByə uğur payı qismət edir, o da bu şərtlə ki, FTByə buna barmaqarası baxmaq əmr edilməmiş olsun. Nağd pul yalnız aşağı eşelənların narkodilerlərinin əllərində tutula bilər. Elita isə – Drexel Burnham («Dreksel Bernxam»), «Honkonq ənd Şanxay Bankinq Korporeyşn» (HSBC) – ifşa olunmaqdan qaça

downloaded from KitabYurdu.org

bilir. Lakin «Bank of Credit and Commerce International» (BCCI) bankının süqutu ilə ola bilsin ki, bu vəziyyət də dəyişsin, çünki bankın süquta uğraması nəticəsində narkoticarətlə bağlı çox fakt üzə çıxa bilər. Əlbəttə, əgər əməllibaşlı təhqiqat aparılarsa.

Komitet 300-ün portfelində ən qiymətli aktivlərdən biri, «American Express» (AMEX) kompaniyasıdır. Onun prezidentləri mütəmadi olaraq Komitet 300-də yer tuturlar. AMEX-lə ilk dəfə, tədqiqatlanın məni Cenevrədəki «Trade Develəpment Bank»a («Ticarətin İnkişafı Bankı») gətirib çıxaranda, rastlaşdım. Sonralar mən bu səbəbdən bir çox xoşa gəlməyən hal yaşamalı oldum. Aşkar etdim ki, «qızıl – tiryək» tipli ticarət əməliyyatlarında həlledici adam olan Edmund Safranın (Edmund Safra) o vaxt başçtlıq etdiyi «Trade Develəpment Bank» Honkonq bazarına tonlarla qızil çıxarır.

İsveçrəyə getməzdən əvvəl mən Cənubi Afrikaya, Pretoriyaya baş çəkdim və burada d-r Kris Stalsla (Dr. Dıris Stals) görüşdüm. O, həmin vaxt Cənubu Afrika qızılının topdan sahş əməliyyMarının hamısına nəzarət edən «Soutlı African Reserve Bank»ın («Conubi Afrika Ehtiyat Bankı») başçısının mılavini idi. Bir həftə ərzində onunla apardığım bir neçə söhbətdən sonra mənə deyildi ki, bank mənə, özümü toqdim etdiyim kimi, təmsil etdiyim müştərilərim adından qızıl almaq üçün səlahiyyət verilmiş şəxsə, on ton qızü sata bilməz. (Lazımi yerlərdə işləyən dostlarını heç bir şübhə doğurmayan sənədləri necə hazırlamaq lazım olduğunu yaxşı bilirdilər.)

«Soutlı African Reserve Bank» məni bir Isveçrə bankına göndərdi, lakin mən bu bankın adıra çəkə bilməyəcəm, çünki onda məni gizlədən pərdəörtük pozulmuş olardı. Mənə həm elə Cenevrədə «Trade Develəpment Bank»ın ünvanım verdilər. Eksperimentimin məqsədi, birincisi, qızılın satışı və yerdəyişməsi mexanizminin üstünü açmaq, ikincisi isə, bu növ işlər üzrə ixtisaslaşan keçmiş kəşfiyyatçı dostlarımın monim üçün hazırladıqları saxta sənədləri smaqdan çıxarmaq idi. «Ceyms Bond» serialında «M» yadmızdadırmı? Sizi əmin etməyimə izn verin ki, «*M*» hoqiqətən də mövcuddur, lakin onun əsl adının baş hərfi «S»dir. Məndə olan sənədlər və müvafiq təsdiqləyici kağızlar, Lixtenşteyn kompaniyalarından «satın almaq orderlərindən» ibarət idi.
Mən «Trade Develəpment Bank»a müraciət edəndə, əvvəl məni orada ürəkdən salamladılar, lakin danıştqlar lıoliləndikcə şübhələr güclənirdi və nəhayət, hiss etdim ki, kınka gəhbgetmək mənim üçün təhlükəsiz deyil və hankda heç kəsə heç nə demədən Cenevrəni tərk etdim. Sonralar həmin bank «American Express»ə satıldı. («American Express» kompaniyası ABŞ-ın Baş Prokuroru Kdvin Miz (Meese) tərəfindən səthi yoxlamaya məruz edildi, Baş prokuror bundan sonra tezliklə vəzifəsindən çıxarıldı və «korrupsioner» elan olundu.)

downloaded from KitabYurdu.org

Müəyyən etdim ki, «American Express» həmişə narkopulların yuyulması üçün kanal olub və üstolik də, özəl kompaniyanın nəyə görə dollar çap etmək hüququna malik olduğunu mənə heç kəs izah edə bilmədi «American Express»in yol qəbzləri məgər dollar deyil? Bir müddət sonra mən, Edmund Safra ilə «American fxpress» arasında mövcud olan əlaqəni və onların narkotika ticarətində iştiraklarını ifşa etdim. Ehtimal etmək olar ki, bu, çoxlarını kədərləndirmişdi. Komitet 300-ün üzvü Cafet (Japhet) «Charterhouse Japhet» kompaniyasını idarə edir, bu kompaniya isə, öz növbəsində, Honkonqun tiryək ticarətinə birbaşa çıxış imkanı qismində «Jardine Matheson» kompaniyasına nəzarət edir. Cefetlər, ıleyilənə görə, ingilis kvakerləridir. Komitet 300-ün üzvü olan Matesonlar ailəsi də Çində tiryək ticarətində, hər halda düz 1943-cü ilə qədər, əsas fiqur olub. XIX əsrin əvvəllərindən etibarən Matesonların adı daim İngiltərə Kraliçasının Fəxri siyahısında yer alıb.
**Komitet 300-də narkotik ticarətinin yüksək sərəncamçıları hər il milyonlarla insanın həyatını dağıtdıqları üçün vicdan əzabı çəkmirlər. Onlar qnostiklər, katarlar, Dionis, Ozaris və ya bunlardan da pis kultların üzvləridir. Onlar üçün «adi» insanlar yalnız şəxsi məqsədlərinə çatmaq üçün bir vasitə kimi mövcuddurlar. Onların ilk müqəddəs rahibləri Bulver-Litton (BulverLitton) və Oldos Haksli (Aldos Huxley) öz yevangeliyalarında narkotikləri faydalı maddələr kimi təqdini edirlər. Hakslidən iqtibas gətirək:**
*«Gündəlik istifadə üçün isə həmişə kimyəvi intoksikantlar mövcud olub. İnsanlar bütün təbii sedativlərin (sakitləşdirici vasitələr) və yuxu gətirənlərin (ağrıkəsici), ağaclarda yetişən eyforiklərin, meyvələrdə toplanan qallüsiogenlərin hamısını hələ özlərini tanımazdan da əvvəl istifadə etmişlər. Və elm şüuru dəyişdirən bu vasitələrə özünün sintetik maddələr qammasını da əlavə edib. Qeyri-məhdud istifadə etmək üçün Qərb yalnız alkoqola və tütünə icazə verib. Divardakı qalan bütün kimyəvi Qapılar isə NARKOTİK elan olunub».*
Narkotiklər Komitet 300-ün oliqarxları və plutokratları üçün iki məsələni həll edir: birincisi, nəhəng məbləğlərdə pul gətirir, ikincisi isə, xalqı geriyə yolu olmayan düşüncəsiz narkotika zombisinə çevirir ki, onları narkotiklərə ehtiyacı olmayan insanlara nisbətən daha asan idarə etmək mümkün olacaqdır – axı qiyama görə cəza heroin, kokain, marixuana və sairənin təchizatının dayandırılması olacaqdır. Bunun üçün narkotikləri leqallaşdırmaq lazımdır. Odur ki, 1991-ci il depressiyasının müjdəçisi olduğu mürəkkəb iqtisadi şərait narkotiklərə tələbatın kəskin artımını meydana çaxaranda – bu ona göə baş verəcəkdir ki, minlərlə işsiz təskinliyin yeganə vasitəsi kimi narkotiklərə müraciət etməyə başlayacaq tətbiq olunmaq üçün artıq hazır olan İNHİSAR SİSTEMİNİ işə salmağa artıq heç nə mane olmayacaqdır.

downloaded from KitabYurdu.org

«Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nun tamamilə məxfi məqalələrindən birində bu ssenari aşağıdakı kimi qələmə alınıb (bir hissə):

*«...beş və beş ildən çox işsiz qalan adamlar xristianlıqla qane otmadıqları üçün və işsizliyin geniş yayıldığına görə, kilsədən üz döndərəcək və təskinliyi narkotikdə axtarmağa başlayacaqlar. Məhz həmin vaxt narkotiklərin ticarəti üzərində tam nəzarət qurulmalıdır ki,* ***bizim yurisdiksiyamız alttnda olan bütün ölkələrin hökumətləri təchizat vasitəsilə idarə edəcəyimiz İNHISARA malik olsunlar...*** *Narkotik barları tabe olmayanlar və bununla razılaşmayanların qayğısına qalacaq, potensial inqilabçılar fərdi iradəsi olmayan ziyansız narkomanlara çevriləcəklər...».*

**Mərkəzi Kəşfiyyat İdarəsi ilə Böyük Britaniya kəşfiyyatmm, xüsusilə də Mİ-6-nın artıq, ən azı, on ildir bu məqsədə nail olmaq üzərində işlədiklərinə dəlalət edən sübutlar çoxdur.**

**Yeni Dünya Nizamı və sürətlə yaxınlaşan Yeni Qaranlıq Əsr şəraitində insanlar şəxsi iradəyə artıq malik olmayacaqlar** - «Beynəlxalq İşlər üzrə Kral İnstitutu» Oldos Haksli və Bulver-Littonun bütün həyatlarının əməyini bəşəriyyətin bax belə bir vəziyyətə gətirilməsinin proqramı kimi istifadə edib. Gəlin «ilk müqəddəs» Oldos Hakslinin bu haqda nə dediklərinə baxaq:

*«Sivilizasiyanın bir çox səviyyələrindəki bir çox cəmiyyətlərdə narkotik dəmini İlahi dəmlə uyğunlaşdırmaq üçün çoxsaylı cəhdlər edilib. Məsələn, qədim Yunanıstanda rəsmi dində etil spirtinin öz yeri olub. Dionis, biz onu tez-tez Bahus da adlandırırıq, əsl dahi olub. Qanunvericiliklə kimyəvi dəyişikliklər (şüurda) qadağan oluna bilər, lakin məcburi qaydada sırına bilməz». (BU, KAPİTOLİ TƏPƏCİYİNDƏ NARKOTİK LOBBİSİNİN DANIŞIQ DİLİDİR.)*

*«Indi də gəlin hələ kəşf olunmaımş, lakin, ola büsin, kəşf olunma astanasında olan başqa tip narkotiki, insanın özünü adətən bədbəxt hesab etdiyi vəziyyətlərdə onu xoşbəxt edən narkotikləri nəzərdən keçirək.* (İş axtaran və tapa bilməyən insandan da bədbəxt kimsə ola bilərmi?) *Bu cür narkotik xeyir-dualı, lakin ciddi sosial və siyasi təhlükələr yarada bilən xeyir-dualı narkotik olardı. Ziyansız eyforik maddələri azad əldə etmək imkanı verməklə hər hansı bir diktator* (oxu, Komitet 300) *bütün əhalinin mövcud vəziyyətlə barışmasına nail ola bilərdi ki, özünə hörmət edən insan belə vəziyyətlə barışmalı deyil».*

Tamamilə dialektik şedevrdir. Hakslinin müdafiə etdiyi və Komitet 300-ün, o cümlədən elə onun surroqatı olan «Beynəixalq İşlər üzrə Kral İnstitutu»nun rəsmi siyasəti nədir – bunu, sadəcə, kütiəvi şüurun nəzarət altına alınması və idarə edilməsi kimi müəyyən etmək olar. Tez-tez dediyim kimi, bütün müharibələr insanın ruhu uğrunda aparılır. Bizə çatmır ki, narkotiklərlə ticarət – bu, bütün bəşəriyyətə qarşı qeyriadi metodlarla aparılan zəif intensivli

downloaded from KitabYurdu.org

müharibədir. Bu cür qeyriadi müharibə – müharibənin ən təhlükəli formasıdır və o bir dəfə başlayıbsa, daha qurtarmayacaqdır.

Bəziləri Britaniya Kral ailəsinin narkotika ticarətinə qarışdığını şübhə altına ala bilər. Bunun qəzetdə dərc olunacağını gözləmək absurd olardı və bizim dövrümüzdə mətbuatda bu, çox tez-tez məhz belə də təqdim olunur – absurddur. Kəşfiyyatın çox köhnə bir qaydası bunu deyir: «Əgər siz nəyi isə gizlətmək istəyirsinizsə, onda həmin şeyi ən görünən yerə qoyun».

F.S.Törnerin 1876-cı ildə nəşr edilən «BRİTANİYANIN TİRYƏK SİYASƏTİ» (F.S.Turner, «British Opium Policy») adlı kitabı Britaniya monarxiyasının və kral ailəsinin müftəxor-qohumlarının tiryək ticarətinə nə dərəcədə dərin qarışdıqlarını göstərir. Törner «Tiryək Ticarətinin Dayandırılması Uğrunda İngiltərə-Şərq Cəmiyyəti»nin katibi idi. O, susmalı olduğu barədə taxt-tacın nümayəndəsi Ser R.Templ tərəfindən irəli sürülən tələbləri rədd etdi. Törner bildirirdi ki, hökumət və deməli, həm də taxt-tac tiryək inhisarından imtina etməli «və əgər ümumiyyətlə, hər-hansı gəlir götürməlidirlərsə də, bundan yalnız vergidən daxil olan və təmiz vicdanla qarşısının (tiryək ticarətinin – tərc.) alınmasına istifadə olunan gəlir götürməlidirlər».

Törnerə monarxiyanın təmsilçisi, «Britaniya Ost-Hind Kompaniyası»nın inhisarının itirilməsinə qarşı mübarizə aparan Lord Lourens cavab verdi: «İnhisardan azad olmaq arzuedilən olardı, lakin şəxsən mən dəyişikliklərin təşəbbüskarı olmaq istəməzdim. Əgər bu məsələ yalnız özümüzə qıya bildiyimiz əhəmiyyətsiz gəlirlərdən imtina etməkdən ibarətdirsə, onda mən heç bir tərəddüd etmədən lazımi tədbirləri görərdim». (1870-ci il Kəlküttə qəzetlərindən götürülüb.)

Britaniya monarxiyasının və aristokratiyasının Çində tiryək ticarətinə dərindən cəlb olunmasına qarşı mübarizə 1874-cü il üçün qızışmağa başladı. «Tiryək Ticarətinin Dayandırılması Uğrunda İngiltərə-Şərq Cəmiyyəti» o vaxtkı aristokratiyaya çəkinmədən inadla hücum edir və öz hücumlarını qorxu-hürküsüz gücləndirirdi – bu, davam etdirməyimiz zəruri olan nümunədir. Cəmiyyət hesab edirdi ki, Çini çox böyük həcmlərdə tiryək idxal etməyə razı olmağa vadar edən «Syansin Müqaviləsi» Çin xalqına qarşı edilən rəzil cünayət idi.

Güclü döyüşçü meydana çıxmışdı – peşəsi vəkil olan Cozef Qrandi Aleksander (Joseph Grundy Alexander). O, 1866-cı ildə Britaniya taxt-tacının Çində tiryək siyasətinə qarşı güclü hücumun rəhbərliyini öz üzərinə götürdü. O, bu hücumun gedişində kral ailəsinin və aristokratiyanın bu ticarətdə iştirakmı açıq-açığına vurğulayırdı. Aleksander Hindistanın,

downloaded from KitabYurdu.org

«taxt-tacın zinətinin» bütün bu işdə əsl rolunu o vaxt ilk dəfə hamı qarşısında açdı. O, bunun günahını kimin üzərinə qoymaq lazım idisə, məhz onun da üzərinə – yəni birbaşa monarxiyanın, üzdəniraq aristokratiyanın və onun Britaniya hökumətindəki nökərlərinin üzərinə qoydu.

Aleksanderin təsiri altında «Cəmiyyət» öz üzərinə Hindistanın Benqaliya əyalətində tiryək laləsinin yetişdirilməsini tamamilə dayandırmaq öhdəliyini götürdü. Aleksander özünü cəsarətli və nöqsansız döyüşçü kimi göstərdi. Mübarizədə onun lider olması sayəsində narkoaristokratiya Aleksanderin kral ailəsini və onun müftəxorlarını açıq ifşa etməsi qarşısında çəkinərək qətiyyətsiz hərəkət etməyə başladı; parlamentin mühafizəkarlardan, yunionistlərdən və leyboristlərdən olan bir neçə üzvü onu dəstəkləməyə başladı.

Kral ailəsinin üzvü və şəxsən özü də güclü oliqarx olan Lord Kimberli hədələyici çıxış edərək bildirdi ki, onun «milli ticarət» adlandırdığı işə qarışmaq üçün edilən istənilən cəhd kabinetin ciddi əks hərəkətləri ilə üzləşəcəkdir. Aleksander və onun cəmiyyəti saysız təhdidlər qarşısında öz fəaliyyətini davam etdirirdi. Nəhayət, parlament Hindistanın İşləri üzrə Nazir Lord Kimberlinin başçılığı altında «Tiryək Ticarətinin Təhqiqatı üzrə Kral Komissiyası»nı təyin etməyə razılıq verdi...

Bu komissiyanın rəhbəri vəzifəsinə Lord Kimberlidən də çox uyğun olmayan şəxs tapmaq çətin ki, mümkün olaydı. Bu, məsələn, əgər Vorren Komissiyasına Dalles başçı təyin olunsaydı, buna bənzər bir təyinat idi. Lord Kimberli ilk çıxısında mövqeyini belə nümayiş etdirdi ki, «Hindistan tiryəkindən gələn gəlirdən» imtina etmək barədə qətnaməyə razılıq verməkdənsə, o, yüksək vəzifəsindən istefaya gedər. Qeyd etmək lazımdır ki, «Hindistan tiryəkindən gələn gəlir» deyəndə, guya bütün ingilis xalqının rifahı üçün istifadə olunan pullar nəzərdə tutulurdu. Bu yalan, Cənubi Afrikanın nəhəng həcmdə qızıl və almaz ehliyatlarının satışından gələn gəlirlərdə bu ölkənin xalqının payı olduğu kimi bir yalandır. Hindistan tiryəkindən gələn gəlir birbaşa aristokratların, oliqarxların və plutokratların seyflərinə girir və onları milyarder edirdi.

Rountinin «Narkotiklərlə imper ticarəti» kitabı (Rowntree, «The Imperial Drug Trade») baş nazir Qladston və onunla əlbir olan plutokratların monarxiyanın tiryək ticarətində ilişib-qaldığını ictimaiyyətdən gizləlmək üçün yalanları, fırıldaqları, hər şeyi baş-ayaq qoymaları və təmizə çaxarmaları barədə oxunaqlı hesabatdır. Rountinin kitabı – kral ailəsinin və ingilis aristokratiyasının tiryək ticarətinə çox dərin daxil olması, eləcə də çinli tiryək çəkənlərin dərdləri üzərində toplanan nəhəng varidatlar barədə informasiya dəfinəsidir.

downloaded from KitabYurdu.org

...«Tiryək Ticarətinin Təhqiqatı üzrə Kral Komissiyasının» katibi Lord Kimberli özü tiryək ticarətinə dərin cəlb olunmuşdu, buna görə də o, həqiqəti axtaranların qarşısında yolları bağlamaq üçün əlindən gələn hər şeyi edirdi. Nohayət, Kral Komissiyası ictimaiyyətin güclü təzyiqi altında belə bir təhqiqat üçün qapıları bir qədər açmağa məcbur oldu və beləliklə də ölkənin ən yüksək vəzifəli simalarının tiryək ticarəti ilə məşğul olduğu və bundan çox böyük qazanc götürdükləri məlum oldu. Lakin bu qapını çox tez çırpıb bağladılar və Kral Komissiyası şahid qismində bir nəfər də olsun ekspert dəvət etmədi. Komissiya bundan sonra absurd dərəcədə qısa bir müddət də işlədi, sonra isə öz fəaliyyətini ümumiyyətlə, dayandırdı. Bu Komissiya farsdan başqa bir şey deyildi və biz iyirminci əsr Amerikasında buna artıq adət etmişik. Eynilə britaniyalılar kimi, ABŞ-ın «şərqli liberal isteblişmentinə» aid olan ailələri də Çində tiryək ticarətinə dərin cəlb olunmuşdular və bu vəziyyət hazırda da saxlanılır. Buna dəlalət edən fakt – Prezident Ceyms Erl Karterin bu yaxınlarda İran şahını devirməsi ilə bağlı hadisədir. ABŞ hökuməti nə üçün şahı kənarlaşdırdı və sonra da onu öldürtdü? Bir sözlə desək – NARKOTIKLƏRƏ görə. Şah britaniyalıların İranda apardıqları həddi-hüdudu olmayan gəlirli tiryək ticarətini məhdudlaşdırmış və faktiki olaraq buna son qoymuşdu. (Şah İranı öz nəzarəti altına aldığı vaxt üçün ölkədə artıq bir milyon tiryək-heroin narkomanı var idi.)

Britaniyalılar buna dözə bilməzdilər. Odur ki, britaniyalılar Birləşmiş Ştatları, iki ölkə arasında mövcud olan «xüsusi münasibətlər» çərçivəsində, onların əvəzinə çirkli işi yerinə yetirməyə göndərdilər. Xomeyni Tehranda Birləşmiş Ştatların səfirliyini ələ keçirən vaxt ABŞ-dan, hələ şahın dövründə başlanan, silah təchizatı davam edirdi. Nə üçün? Əgər ABŞ bunu dayandırsaydı, onda Xomeyni öz ölkəsində Böyük Britaniyanın tiryək ticarətində inhisarını qadağan edərdi. Bu nöqteyi-nəzəri təsdiq etmək üçün göstərək ki, BMT və Umumdünya Səhiyyə Təşkilatının statistikasına görə, Xomeyninin tiryək ticarətinə liberal münasibəti 1984-cü ildən sonra narkomanların sayının iki milyon nəfərə qədər artmasına gətirib.

Prezident Karter, eləcə də onun davamçısı Ronald Reyqan oyuna nəyin qoyulduğu haqqında tam təsəvvürlə İranı, hətta amerikalı girovlar əsirlikdə olan vaxtda da, silahla təmin etməkdə davam edirdilər. 1980-ci ildə yazdığım «İranda əslində nə baş verib?» adlı monoqrafiyamda faktlar qələmə alınıb. İranla silah ticarəti Komitet 300-ün nökəri Sayrus Venslə d-r Haşəmi arasındakı görüşdə rəsmiləşdirilmişdi və bundan dərhal sonra ABŞ Hərbi-Hava Qüvvələri silahların İrana çatdırılmasına başlamış və bu, hətta girovlarla bağlı böhranın ən qızğın çağında belə dayandırılmamışdı. Silahlar ABŞ ordusunun Almaniyadakı ehtiyatlarından

downloaded from KitabYurdu.org

verilirdi, bəzi partiyalar isə birbaşa Birləşmiş Ştatlardan, təyyarələrin yanacaq ehtiyatlarının Azor adalarında bərpa olunması ilə gəlirdi.

Komitet 300-ün İranda hakimiyyət basına qoyduğu Xomeyninin gəlişi ilə tiryək istehsalı kəskin artdı. 1984-cü il üçün İranda tiryək istehsalı ildə 650 tonu keçmişdi. Karter və Reyqan tiryək ticarətində gələcəkdə maneələrin olmaması üşün hər şeyi etdilər və Böyük Britaniyanın oliqarxik ailələrinin bu məqsədlə onlara verdikləri mandatı yerinə yetirdilər. İran tezliklə tiryək istehsalının həcminə görə «Qızıl üçbucaqla» yarışmağa başladı.

Şah Komitet 300-ün yeganə qurbanı deyildi. Mərkəzi Kəşfiyyat İdarəsinin Beyrut şöbəsinin şefi Uilyam Bakli, tiryək ticarətinin arxasında kimlərin durduğu barədə tam məlumatsız olduğundan, İranda, Livanda və hətta Pakistanda təhqiqata başladı. Bakli «Qızıl üçbucaqda» və Pakistanda tiryək ticarətinin genişlənməsi barədə ifşaedici məruzələrini İslamabaddan Lenqliyə göndərməyə başladı. ABŞ-ın İslamabadda səfirliyi yandırıldı, lakin Bakli kütlənin hücumundan yayına və Vaşinqtona qayıda bildi, çünki onun əslində kim olduğunu gizlədən məlumat naməlum qüvvələr tərəfindən açılmışdı.

Sonra isə çox qəribə bir iş baş verdi. Bakli, MKİ-də agentin kimliyi açılan hallar üçün müəyyən edilən bütün qaydaların ziddinə olaraq, yenidən Beyruta göndərilmişdi. Faktiki olaraq MKİ onu susdurmaq üçün ölümə məhkum etmişdi və bu dəfə hökm yerinə yetirilmişdi. Bakli Komitet 300-ün agentləri tərəfindən qaçırılmışdı. Suriya kəşfiyyatından olan *General Mühəmməd əl Houli* Bakliyə DEA-nın bu ölkələrdəki bütün agentlərinin adlarını dedizdirməyə cəhd edərək apardığı vəhşicəsinə istintaqın gedişində o, qəddarcasına öldürüldü. Pakistan, Livan və İrandan aparılan genişmiqyaslı tiryək ticarətinin üstünü açmaq cəhdi Bakliyə həyatı bahasına başa gəldi.
Bu dünyada hələ də qalan azadfikirli insanlar təkbaşına və ya kiçik qruplarla narkotiklərin ticarətinə mane ola biləcəklərini düşünürlərsə, onlar amansız səhv edirlər. Onlar kokain və ya heroin ticarətinin hansı isə bir qolunu kəsə bilərlər, lakin başını heç cürə kəsə bilməzlər. Avropanın taclı kobraları və «şərqli liberal isteblişmentə» məxsus olan ailələr buna yol verməzlər. Buş administrasiyasının guya apardığı «Narkotiklərə qarşı müharibə», əslində narkotiklərin BÜTÜN növlərinin və formalarının LEQALLAŞDIRILMASINA xidmət edir. Bu narkotiklər – sadəcə olaraq sosial xəstəlik yox, bizim planetin insanlarının şüuru üzərində nəzarəti ələ almaq və ya «Dolça Sui-qəsdinin» müəlliflərinin bu barədə dediyi kimi, «**Birləşmiş Ştatlarda radikal dəyişikliklər meydana çıxarmaq**» üçün edilən tammiqyaslı cəhddir. **BU, TAMAMİLƏ GİZLİN TƏŞKİLAT OLAN KOMİTET 300-ün PRİNSİPİAL VƏZİFƏSİDİR.**

downloaded from KitabYurdu.org

Tiryək-heroin-kokain ticarətində heç nə dəyişməyib. Bu ticarət yenə də əvvəlki kimi Böyük Britaniya və ABŞ-ın «ali sinfinə» məxsus olan elə həmin ailələr tərəfindən aparılır. Bu, hələ də əfsanəvi gəlirli ticarətdir. Burada narkotiklərin hakimiyyətlər tərəfindən müsadirə edilməsi ilə vurulan sanki çox böyük ziyan Nyu-Yorkda, Honkonqda və Londonda iclas zallarında portveyn və siqara masası arxasında «sadəcə olaraq izafi xərclər» kimi silinir.

**DƏYİRMİ MASA**

Böyük Britaniyanın müstərhləkəçi kapitalizmi həmisə İngiltərədə oliqarxik feodal imtiyazlar sisteminin dayağı olub və bu günə qədər də bu cür qalmaqdadır. Burlar kimi tamnan Cənubi Afrikanın kasıb, sadəlövlı və Allahdan qorxan xalqı 1899-cu ildə Böyük Britaniya aristokratiyasının qana bulasınış əllərinə düşəndə heç tossəvürünə də gətirə bilməzdi ki, Kraliça Viktoriyanın başladığı amansız müharibə «Britaniya Ost-Hind Kompaniyası»nın Çində tiryək ticarətində «bir göz qırpımında yaranan varidatlardan» gələn ağlasığmaz nəhəng məbləğlərlə maliyyələşdirilir.

Komitet 300-ün üzvləri Sesil Con Rods, Barney Barnato (Barney Barnato) və Alfred Beyt (Alfred Beit) müharibəni təhrik və təşkil etdilər. Rods Rotşildlərin əsas agenti idi, Rotşildlər özləri isə pulu ilk növbədə tiryək ticarətindən qamarlayırdılar. Bu talançı, fırıldaqçı və yalançı adamlar – Rods, Bamato, Oppengeymer (Oppenheimer), Coel (Joel) və Beyt – burları tarixən onlara məxsus olan, onların doğına torpağının təkində yatan qızıl və almazdan məhrum etdilər. Cənubi Afrikalı burlara, ONLARIN qızılının satışından əldə olunan MİLYARDLAR VƏ MİLYARDLARLA dollardan heç nə çatmadı.
Komitet 300 bu nəhəng xəzinə üzərində nəzarəti çox tez öz əlinə keçirdi və bu nəzarəti, öz üzvlərindən biri Ser Harri Oppengeymer vasitəsilə, indi də saxlamaqdadır. Cənubi Afrikanın orta statistik sakini qızıl və almaz hasilatından adambaşına ildə 100 $ alır. MİLYARDLAR isə Komitet 300-ün bankirlərinə axır. Bu, tarixin annallarında hərisliyin, talanın və millətin məhv edilməsinin ən iyrənc və rəzil hadisələrindən biridir. :
Böyük Britaniyanın taxt-tacı bu ağlasığmaz yalanr belə nəhəng miqyaslarda necə həyata keçirə bilmişdi? Herkulesə layiq belə bir məsələnin öhdəsindən gəlmək üçün yerlərdə, sui-qəsdçtlər ierarxiyasından gələn gündəlik təlimatları yerinə yetirən sadiq agentlərin yüksok peşəkar təşkilatı tələb olunur. Burları qeyri-sivil, insanabənzər barbar kimi qələmə verən və Böyük Britaniya vətəndaşlarını Burlar Respublikasında səsvermə hüququndan məhrum edən təbliğat kampaniyası ilk addım idi. Sonra Transvaal Respublikasının lideri Pol Kryugerə yerinə yetirilməsi mümkün olmayan tələblər irəli sürüldü. Bundan sonra isə quraşdırılmış insidentlər seriyası gəlirdi və bunlar burları qisas almağa təhrik etməli idi. Lakin bu iş alınmadı. Sonra Ceymsonun utanc gətirən reydi baş verdi. Reyd zamanı hansı isə

downloaded from KitabYurdu.org

Ceymson bir neçə yüz silahlıdan ibarət bandanı Transvaal Respublikasının üzərinə yeritdi. Bundan sonra dərhal müharibə başlandı.

Kraliça Viktoriya o dövrün (1898-ci il) ən böyük və yaxşı təchiz olunmuş ordusunu silahlandırdı. Viktoriya müharibənin iki həftə ərzində qurtaracağını düşünürdü, çünki burların müntəzəm ordusu və təlim görmüş milisi yox idi və buna görə də onlar Britaniyada aşağı siniflərdən toplanan 400.000 əsgərə qarşı duruş gətirə bilməzdi. Burların çağırış yaşlı əhalisinin sayı, fermerlər və onların oğlanları da hesablanmaq şərti ilə, 80.000 nəfərdən çox deyildi, hətta onların bəzilərinin on dörd yaşı var idi. Redyard Kiplinq də (Rudyard Kipling) müharibənin bir həftədən də az bir müddətə qurtaracağını zənn edirdi.

Lakin gözlənilənlərə rəğmən, bir əllərində tüfəng, o birində isə İncil olan burlar üç il tab gətirdilər. Kiplinq deyirdi: «Cənubi Afrikaya yola düşəndə biz düşünürdük ki, müharibə bir həftə ərzində qurtaracaq. Burlar isə bizə çox böyük dərs verdilər». Əgər **biz, Konstitusiyamizin bizə verdiyi hər şeyi məhv etmək istəyən nəhəng bədheybətə qarşı xalqımızı mübarizəyə qaldırmaq üçün, 10.000 nəfər lideri, yaxşı və sadiq insanı sıramıza qoşa bilsəydik, onda belə bir dərsi Komitet 300-ə bu gün də vermək olardı.**
1902-ci ildə müharibə qurtarandan sonra Böyük Britaniya taxt-tacı burların Transvaal və Narıncı respublikalarının qeyri-məhsuldar düzənliklərinin təkində yatan qızıl və almazdan ibarət ağlasığmaz sərvət üzərində öz nəzarətini möhkəmləndirməli idi. Bu, Kral Artur və onun cəngavərləri haqqında əfsanədəki «*Dəyirmi Masa»nın* köməyi ilə həyata keçirildi. «**Dəyirmi Masa»** - bu, tam ciddiliyi ilə desək, Komitet 300-ün işləyib-hazırladığı və Böyük Britaniya kəşfiyyatının Mİ-6 bölməsinin həyata keçirdiyi əməliyyatdır ki, Rods təqaüdü proqramı ilə birlikdə Amerikanın köksünə sancılmış xəncərdir.
«Dəyirmi Masa» Cənubi Afrikada *Sesil Rods* tərəfindən təsis edilmişdi və onu ingiltərəli Rotşildlər ailəsi maliyyələşdirirdi. Onun məqsədi Böyük Britaniya taxt-tacına loyal işgüzar liderlər hazırlamaq idi ki, bu liderlər Britaniya taxt-tacına qızıl və almazlardan ibarət sərvətin axınını təmin etməli idi. Cənubi afrikalılar burada doğulmaqları ilə hüququ çatdığı hər şeydən elə tez və effektiv surətdə məhrum edildilər ki, aşağıdakı tamamilə aydın oldu: belə işin öhdəsindən yalnız mərkəzləşdirilmiş qaydada idarə olunan komanda gələ bilərdi. Həmin mərkəzləşdirilmiş komanda **Komitet 300** idi.
Bu işin həyata keçirildiyi faktı heç bir şübhə doğurmamalıdır. 1930-cu illərin əvvəlləri üçün Britaniya taxt-tacı dünyanın ən iri qızıl və almaz ehtiyatlarını öz əllərində artıq bərk-bərk saxlamışdı. KOMİTET 300 NARKOTİKLƏRLƏ TİCARƏTDƏN GƏLƏN NƏHƏNG SƏRVƏTİ, ELƏCƏ DƏ CƏNUBİ AFRİKANIN METAL VƏ MİNERALLARINDAN İBARƏT

downloaded from KitabYurdu.org

OLAN EYNİ NƏHƏNGLİKDƏ SƏRVƏTİ ÖZ SƏRƏNCAMINA KEÇİRDİ. **Bütün dünya üzərində tam maliyyə nəzarəti quruldu.**
«Dəyirmi Masa» bu işdə həlledici rol oynayırdı. Cənubi Afrika həzmi-rabedən keçirildi və bundan sonra «Dəyirmi Masa»nın aşkar ifadə olunan vəzifəsi, Birləşmiş Ştatların müstəqillik uğrunda apardığı Amerika müharibəsindən sonra əldə etdiyi üstünlüyü heçə endirmək və ABŞ-ı yenidən Böyük Britaniyanın nəzarəti altına salmaqdan ibarət oldu. Londonlu Rotşildlərin himayə etdikləri Lord Alfred Milnerin təşkilatçılıq qabiliyyətləri bu məqsəd üçün böyük ahəmiyyət kəsb edirdi. «Dəyirmi Masa»nın üzvlərinin Şotland rituallı Masonluq prinsipləri üzrə seçilməsi prosedurundan sonra, seçilmişlərin seçilmişləri Kembric və Oksford Universitetlərində, özünün etiraf etdiyi kimi, «köhnə məktəbin kommunisti» Con Raskinin (Ruskin) və Mİ-6-nın operativ əməkdaşı T.X.Qrinin (Green) ciddi nəzarəti altında intensiv hazırlıq keçirdilər.

Rodsu, Milneri, Con Uiler Benneti (John Wheeler Bennet), A.D.Linsdeyi (A.D.Lindsay), Corc Bernard Şounu və Llitlerin maliyyə naziri Yalmar Şahtı (Hjalmar Schacht) məhz o, xristian yevangelist rahibin oğlu Qrin yetişdirib orsəyə gətirib...

Mən burada bir anlıq dayanaraq, oxuculara xatırlatmaq istəyirəm ki, **«Dəyirmi Masa» – bu, nəhəng və hər şeyi əhatə edən Komitet 300-ün yalnız BİR SEKTQRUDUR. Hətta «Dəyirmi Masan»m özü kompaniyaların, idarələrin, bankların və təhsil müəssisələrinin elə mürəkkəb qarşılıqlı çarpaz əlaqələrindən ibarətdir ki, sığorta şirkətinin təcrübəli aktuarisinə onu açmağa azı bir il vaxt lazım gələrdi.**
«Dəyirmi Masa»nın üzvləri fəaliyyət göstərdikləri bütün ölkələrdə maliyyə siyasəti və siyasi liderlər üzərində nəzarəti öz əllərinə almaq üçün bütün dünyaya yayıldılar. Bur Müharibəsində britaniyalılara qarşı döyüşən General Smats (Smuts) «dəyişdirildi» və o, Böyük Britaniya taxt-tacının Cənubi Afrikada maraqlarını dəstəkləyən aparıcı kəşfiyyat, hərbi və siyasi agentinə çevrildi. Birləşmiş Ştatları oyundan çıxarılması işi ABŞ-da son illərdə Uilyam Yandell Elliotun üzərinə düşüb. Henri Kissinceri o tərbiyə etmiş və onun, Komitet 300-ün ABŞ üzrə əsas müşaviri qismırıdə, ildırım sürətilə hakimiyyətə yüksəlişini təşkil etmişdi.
Uilyam Yandell Elliot «Oksforddakı amerikalı» idi və 11, Komitet 300-ə artıq yaxşı xidmət göstərmişdi ki, bu da Komitet 300-ə xidmətdə daha yüksək vəzifələr üçün münbit zəmindir.

Ellot 1917-ci ildə Vanderbilt Universitetini (Vanderbilt University) qurtarandan sonra RotşildlərVarburqlar *bixnk* şəbəkəsində işləmək üçün seçildi. O, «SanFransisko Federal Ehtiyat Bankı»nda işləyirdi və direktor vəzifəsinə qədər çatmışdı. Burada o,

downloaded from KitabYurdu.org

VarburqRotşildlərin kəşfiyyat /abiti kimi fəaliyyət göstərir və onlara Birləşmiş Ştatlarda izlədiyi mühüm sahələr barədə xəbər verirdi. Elliotun islcdadı «mason» müşahidəçilərin nəzərinə çarpdı və o, Rods təqatıdünə məsləhət görüldü. Elliot 1923-cü ildə Oksford Universitetinin «yuxulayan qüllələri» altındakı intriqalar şəbəkəsi və Qərbin gələcək xainlərinin gizləndikləri «Balliol Kollecinə» (Balliol College) göndərildi.
«Balliol Kollec» bu gün də «Dəyirmi Masa» üçün namizədlərin olə alınması mərkəzidir. «Balliol Kollec»in ıcktoru T.X.Qrini bu vəzifədə əvəz edən «Tavistok İnsan Münasibətləri İnstitutu»nun nümayəndəsi A.D.Lndsey lərəfindən əsaslı beyin yuyulmasına məruz qalandan sonra, Elliot «Dəyirmi Masaya» qəbul edildi və bundan sonra «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»na göndərildi. Burada o, mahiyyəti ABŞ-a qayıtmaq və akademik dairələrdə lider olmaqdan ibarət olan təyinat aldı.

«Dəyirmi Masa»nın fəlsəfəsinin əsasını, öz üzvlərini Raskinin «kütlələr» adlandırdığı ilə manipulyasiya etməyə imkan verən sosial institutlarda vəzifələrə çəkməklə, sosial siyasəti formalaşdırmaq və həyata keçirmək imkanı əldə etmək təşkil edirdi. «Dəyirmi Masa»nın üzvləri «Tavistok tnsan Münasibətləri İnstitutu»nda kurs keçəndən sonra bank işində ən yüksək vəzifələrə sızırdılar. Böyük Britaniya kral ailəsinə yaxın adam olan Lord Lekonsfild tərəfindən tərtib olunan bu kursları Robert Brand apanrdı və bir müddət sonra o, Fransanın iri «Lazard Freres» bankının başçısı oldu. «**Beynəlxalq İşlər üzrə Kral İnstitutu» Böyük Britaniya monarxiyası ilə ən sıx bağlarla əlaqəli olan idarə olub və hazırda da bu cürdür.**
**«Dəyirmi Masa» bir sıra törəmə filiallara malikdir, o cümlədən də bunlara:** mərhum Vinston Çörçillin kürəkəni və görkəmli siyasi xadim Dunkan Sendis (Duncan Sandys) tərəfindən əsası qoyulan və özünün də rəhbərlik etdiyi «Bilderberq Klubu» («Bilderbergerlər – the Bilderbergers); bankirlərin gizün klubu olan, 1983-cü ildə yazdığım «Bankirlərin Beynəlxalq sui-qəsdi» adlı işimdə ifşa etdiyim, «Ditçli Fondu» (Ditchley Foundation); «Üçtərəfli Komissiya»; «Birləşmiş Ştatların Atlantik Şurası» və «Aspen Humanitar Tədqiqatlar İnstitutu» – bu təşkilatların pərdəarxası gizlin yaradıcısı, «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nun üzvü Lord Ballok (Lord Bullock) idi və Robert Andersonun fəaliyyətinə məhz o, rəhbərlik edirdi.
«Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nun ABŞ-da əsas agenti olan Henri Kissincerin hakimiyyətə yolu – bu, Böyük Britaniya monarxiyasının Amerika Birləşmiş Ştatları Respublikası üzərində zəfər çalması hadisəsidir. Bu dəhşətli, burada danışmaq üçün həddən artıq uzun hekayədir. Lakin, bununla belə, Kissincerin şöhrətə, var-dövlətə və hakimiyyətə yüksəlişinin bəzi əsas faktlarını xatırlatmasam, bu, səhlənkarlıq olard.

downloaded from KitabYurdu.org

ABŞ ordusunda məcburi xidmətdən, qismində müharibənin dağıtdığı bütün Almaniyanı Fris Kremerin sürücüsü eninə-uzununa dolaşdıqdan sonra, Kissincer Oppengeymerlər ailəsinin sayəsində Uilton Parkda hazırlıq keçmək üçün seçildi. Həmin vaxt Kissincerin rütbəsi sıravi idi. 1952-ci ildə Kissincer «Tavistok İnsan Münasibətləri İnstitutu»na göndərildi. Burada onunla R.V.Diks (R.V.Dieks) məşğul olurdu və o, Kissincerin, sözün əsl mənasında, astarını üzə çevirdi. Bundan sonra Kissinceri artıq heç nə saxlaya bilməzdi. Onu «Beynəlxalq Münasibətlər üzrə Şura»nın Corc Franklin (George Franklin) və Hamilton Fişin (Hamilton Fish) rəhbərlik etdikləri Nyu-York şöbəsində xidmətə göndərdilər.

Hesab edilir ki, ABŞ-ın rəsını nüvo siyasəti Kissincerə hələ «Tavistokda» olduğu dövrdə təqdim olunmuşdu. «Dəyirmi Masa»nın təşkil etdiyi «Nüvə Silahı və Xarici Siyasət» seminarının gedişində Kissincer həmin layihənin rəsmiləşdirilməsində bilavasitə iştirak etdi və burada «Çevik cavab» kimi tanman doktrina irəli sürüldü qısaldılmış şəkildə MAD («ağılsız» – tərcüməçinin qeydi) adı ilə bəlli olan tam irrasionallıq.

Vilyam Yandell Elliotun sayəsində, eləcə də «Dəyirmi Masa»nın kəşfiyyat xidmətləri tərəfindən baş direktoru və Mİ-6-nın ABŞ-da səhra əməliyyatlarının şefi Con Uiler I5ennetin himayəsi ilə, Kissincer Elliotun «ən sevimli oğlu» oldu – Elliot bunu «Siyasətdə praqmatik çevriliş» adlı kitabında yazmışdı. «Beynəlxalq Harvard Seminarlarında» öyrəndiyi monetar siyasəti irəli çəkmək üçün Kissincer «Dəyirmi Masaya» kooptasiya edilmişdi.

Elliotun öyrətdiklərini Kissincer hərisliklə özünə çəkirdi; o, General Kremerin bir vaxtlar «mənim balaca sürücüyəhudiciyim» kimi qələmə aldığı adama artıq qətiyyən bənzəmirdi. Magistr Balliolun ruhundan Kissincerə vəhy gəldi və o, çürümüş Britaniya aristokratiyasının fəal şagirdi oldu. Mİ-6-da kəşfiyyat üzrə baş direktor Toynbinin fəlsəfəsini «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nda mənimsəyən Kissincer, onun müddəalarını özünün diplom işinin müdafiəsində istifadə etmişdi.

Altmışıncı illərin ortaları üçün Kissincer özünün «Dəyirmi Masa» və «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»na, yəni Britaniya monarxiyasına faydalı olduğunu sübut etdi. Mükafat olaraq və eyni zamanda da smaq qismində o, Ceyms Şlezingerin (James Schlessinger), Aleksandr Heyqin və Daniel Elsberqin (Daniel Ellsberg) daxil olduqları kiçik qrupun sərəncamma verildi. «Dəyirmi Masa», adətən, eksperimentlər seriyası keçirirdi. «Siyasi Tədqiqatlar İnstitutu»nun baş nəzəriyyəçisi Noam Çomski bu qrupla əməkdaşlıq edirdi.

Kissincer kimi, Heyq də, sürücüsü qismində olmasa da, General Kremer üçün işləyib və General Kremer Müdafiə Nazirliyində öz protojesi üçün bir sıra vakansiyalar tapa bümişdi.

downloaded from KitabYurdu.org

Kissincer Milli Təhlükəsizlik üzrə Müşavir təyin olunan kimi, General Kremer Heyqin onun mılavini təyin olunmasına nail oldu. Bir müddət sonra Ellsberq, Heyq və Kissincer «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nun Prezident Niksonu qovmaq üçün hazırladığı – o, Komitet 300-ün birbaşa göstərişlərinə tabe olmamışdı – Uoterqeyt planını hərəkətə gətudilər. Prezident Niksona psixoloji təzyiq və təsir göstərilməsi məsələsində əsas rolu Heyq oynayırdı. Prezidentin «iradəsinin yumşaldılması» üzrə bu fəaliyyətin nəticəsində Ağ Ev üzərində nəzarət faktiki olaraq Kissincerin əlinə keçdi. Yuxarıda bildirdiyim kimi, «Vaşinqton Post» qəzetindən Vudvard və Bernşteyn komandasına 1984-cü ildə məlumatları ötürən, Ağ Evdəki «dərin boğaz» ləqəbi ilə tanınan, vasitəçi məhz Heyq idi.

Niksonun Uoterqeyt qalmaqalına görə təqib olunması «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nun agentliyi və aləti olan «Dəyirmi Masa»nın o vaxt həyata keçirdiyi ən böyük çevriliş idi. Bu işin dolaşığa salınmış bütün ipləri «Dəyirmi Masaya», buradan isə «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»na və bilavasitə İngiltərənin Kraliçasına tərəf aparırdı. Niksonun alçaldılması Birləşmiş Ştatların gələcək prezidentləri üçün nümunəvi dərs və xəbərdarlıq idi ki, onlar Komitet 300-ə qarşı gedə və qalib gələ biləcəkləri fikrini ağıllarına belə gətirməsinlər. Kennedi bütün Amerika xalqının gözü qarşısında elə həmin səbəbə görə amansızcasına öldürüldü; Niksonun siyasi fiquru isə o qədər də əhəmiyyətli hesab olunmurdu ki, ona Con F.Kennedinin aqibəti layiq görülsün.

Lakin hansı metodun seçilməsindən asılı olmayaraq, Komitet 300 tədbirlər görür ki, Ağ Evin sahibi olmağa iddialı olanın şüuruna bu xəbərdarlıq çatsm: «bizim əlimizin çata bilməyəcəyi bir adam belə yoxdur». Kennedinin öldürüldüyü və Niksonun qovulduğu vaxt olduğu kimi, bu xəbərdarlığın qüvvədə qalmasına dəlaləl edən fakt, Prezident Corc Buşun davranışıdır: onun öz yiyələrinə yarınınaq səyləri ABŞ-ın gələcəyi üçün narahat olanları ciddi qayğılandıran səbəb olmalıdır.

Bu tədbirin məqsədi, «Pentaqonun sənədləri» ilə bağlı hadisədən və müdafiə strukturlarının işini əngəlləmək və atom energetikasının inkişafını ləngitmək üçün Nikson administrasiyasına Şlezingerin təyin edilməsi faktından sonra aydın oldu. Şlezinger bu rolunu, «Roma Klubu»nun; planlaşdırdığı «postindustrial sıfır artımı» strategiyası çərçivəsində Birləşmiş Ştatların deindustrializasiyasında həlledici rollardan birini oynayan, «Atom Energetikası üzrə Komissiya»da məsul vəzifədə yerinə yetirirdi. Bu andan başlayaraq biz, 30 milyon amerikalıya işini itirməsi bahasına başa gəlmiş 1991-ci il iqtisadi depressiyasının köklərini izləyə bilərik.

downloaded from KitabYurdu.org

**DÜNYA HÖKÜMƏTİ**

Komitet 300-ə və onu təşkil edən oliqarxik ailələrə sızmaq praktiki olaraq mümkün deyil. Onların üzərindən komuflyajı qaldırmaq çox çətindir. Azadlıqsevər hər bir amerikalı aşağıdakını bilməlidir: Komitet 300 artıq 200 ildən çox bir müddətdir ki, Birləşmiş Ştatların xarici və daxili siyasətini diqtə edir. Bunun ən bariz təzahürü «Trumen Doktrinası» adlandırılan proqramla bağlı hadisə idi ki, Çörçill bu proqramı «Missuri ştatının İndependens şəhərciyindən olan bu balaca adamın» başına, sözün əsl mənasında, yeritmişdi.

*Yerlərini varislərinin tutduqları, eəcə də Komitet 300-ün hazırkı üzvlərinin yalnız bəzilərinin sıyahısı budur: Ser Mark Törner (Sir Mark Turner), Cerald Villiers (Gerald Villiers), Samuil Monteqyu (Samuel Montaque), İnçkeyplər (İnchcapes), Kesuiklər (Keswisks), Pizlər (Peases), Şröderlər (Sdıroeders), Airilər (Airhes), Çörçillər (Çhurcgills), Frezerlər (Frasers), Lnzarlar (Lazars) və Cardin Matesonlar (Jardine Mathesons)*. Komitet 300-ün üzvlərinin tam siyahısı bu kitabın başqa yerində təqdim olunub; **Komitet 300-dən olan bu adamlar Prezident Vilsona Almaniyaya qarşı Birinci Dünya Müharibəsinə girməyi ƏMR ETMİŞDİLƏR; bu Komitet Ruzveltə, Birləşmiş Ştatların İkinci Dünya Müharibəsinə girməsi məqsədilə, yaponların Perl Harbora hücuma təhrik etməyi əmr etdi.**

Bu adamlar, bu Komitet bizim millətimizə Koreyada, Vyetnamda və Fars körfəzində müharibə aparmağı əmr etdi. Əsl həqiqət bundadır ki, Birləşmiş Ştatlar cari əsrdəki beş müharibədə bu idbar Komitet 300-ün naminə döyüşüb. Çox az adam istisna olmaqla, sanki demək olar heç kəs bir anlıq dayanıb və soruşmaq istəmir: «BİZ BU MÜHARİBƏLƏRDƏ NƏ ÜÇÜN DÖYÜŞMÜŞÜK?». «Vətənpərvərliyin» böyük təbili, döyüşə çağıran musiqi sədaları, yellənən bayraqlar və sarı lentlər qüdrətli millətin sanki zəkasını əlindən alıb.

Perl Harborun əlli illiyində yenidən «Yaponiyaya qarşı nifrət» kampaniyası aparılır, özü də bunu ən utanmaz və birbaşa şəkildə aparan «Sakit okean Münasibətləri İnstitutu» deyil, Buşun administrasiyası və Konqresdir. Bunda güdülən məqsəd, eynilə Ruzveltin Perl Harbora hücumu təhrik edərkən güddüyü məqsəddir: yaponlan təcavüzkar qismində qələmə vermək və iqtisadi müharibəyə təhrik etmək, sonra isə qüvvələrimizi növbəti, Yaponiyaya qarşı hərbi təcavüz fazasına hazırlamaq.

Bu plan artıq hərəkətə gətirilib; oğlanlarımızın və qızlarımızın Komitet 300-ün feodal lordlarının xeyrinə qırğına göndərilməsi yalnız vaxt məsələsidir. Biz hamının eşidə biləcəyi

downloaded from KitabYurdu.org

səslə deməliyik: «Bizi azadlıq və vətənə məhəbbət naminə yox, tez bir zamanda bütün dünyada bərqərar ediləcək tiraniya sistemi uğrunda qurban verirlər».
Bu təşkilatın qamarlaması elə güclüdür ki, 1700-cü ildən etibarən Böyük Britaniya vətəndaşlarının 95 %-i öz payı şəklində bu ölkənin milli sərvətlərinin 20 %-dən də azını almağa məcburdur. İngiltərənin oliqarxik feodal lordları məhz bunu «demokratiya» adlandırmağı xoşlayır. Bu alicənab, əsl ingilis centlmenləri faktiki olaraq son dərəcə amansızdırlar – onların Hindistanda, Sudanda, Misirdə, İraqda, İranda və Türkiyədə etdikləri Yeni Dünya Nizamı – Vahid Dünya Hökuməti dövründə hər bir ölkədə təkrar olunacaqdır. Onlar istənilən milləti və onun sorvətlərini öz imtiyazlı həyat tərzlərini təmin etmək üçün istifadə edirlər. Böyük Britaniya aristokratiyasının məhz bu sinfinin varidatı narkotika ticarəti, qızıl, almaz və silah alveri, kommersiya və sənaye, neft, kütləvi informasiya vasitələri və əyləncə industriyası ilə mürəkkəb çarpaz əlaqələrlə bağlıdır.

Böyük Britaniyanın siyasi xadimlərinin, sıravi leyboeistlərdən (lakin onların liderləri yox) başqa, əksəriyyəti litullu atıələrdəndir, onların titulları nəsilliklə keçir və atadan böyük oğula ötürülür. Bu sistem «yadların» İngillərədə siyasi hakimiyyət haqqında heç arzulamağı da ağlına gətirməməsinə zəmanət verir. Bununla belə, bəzi yadlar elitanın cərgəsinə girməyə müvəffəq olurlar.

Məsələn, Lord Qalifaksı – Böyük Britaniyanın Vaşinqtonda keçmiş səfiri, İkinci Dünya Müharibəsi dövründə Komitet 300-ün əmrlərini bizim hökumətə ötürən adamı götürün. Qalifaksın oğlu Çarlz Vud, Lord Rotşildin qan qohumu olan miss Primrozla (Primrose) ailə qurdu. Lord Sueyttlinq (Swaythling) kimi adların arxasında «İngillərə Bankının» direktoru, «Şell» neft kompaniyasının (Shell Oil Company) aksiyalarının nəzarət paketini əlində saxlayan Kraliça LI Yelizavetanın səlahiyyətli şəxsi və müşaviri Monteqyunun adı gizlənir. Onların hamısı – Komitet 300-ün üzvləridirlər. Köhnə maneələrin bəzisi bu gün artıq dağıdılıb. Titul bu gün «Roma Klubu»na düşmək üçün yeganə meyar deyildir.

Komitet 300-ün nəhəng, genişmiqyaslı və qarşılıqlı çarpaz surətdə bir-biri ilə bağlı olan banklarını, sığorta şirkətlərini, korporasiyalarını və s. qələmə almazdan əvvəl, onun nəyə nail olmaq istədiyini, onun **məqsəd və vəzifələrinin nədən ibarət olduğuna** nəzər yetirmək yerinə düşərdi. Aşağıda verilən informasiyanın hazırlanmasına təhqiqat və axtarışlardan ibarət illərlə vaxt sərf olunub. Təhqiqat və axtarışların gedişində yüzlərlə sənədlərdəki məlumatlar, eləcə də şəxsi kontaktlarını vasitəsilə öyrənmək imkanı əldə etdiyim və özündə mühüm təfərrılatları əks etdirən kağızlardakı məlumatlar tutuşdurularaq müqayisə edilib.

downloaded from KitabYurdu.org

Komitet 300 müəyyən şəxslərdən, mütəxəssislərdən, o cümlədən də iblis kultu (Cultus Diabolicus), şüurun dəyişdirilməsi üçün kimyəvi vasitələr, zəhərlərlə öldürmək, kəşfiyyat fəaliyyəti və s. üzrə yüksək səviyyəli mütəxəssis, bank sahəsi və kommersiya fəaliyyətinin bütün sahələri üzrə ekspertlərdən ibarətdir. Keçmişdə oynadıqları mühüm rolu, eləcə də bu şərəfə layiq olduqlarını sübuta yetirmiş ailə üzvlərinin onların yerini tutması faktını nəzərə alaraq, Komitet 300-ün keçmiş üzvlərini xatırlatmaq lazımdır.

*Komitetin üzvləri arasında Avropa «Qara Aristokratiyası»na (European Black Nobility) mənsub(xsus) olan qədim ailələr, Amerikanın «Şərqli liberal isteblişmentinə» (the American Eastern Liberal Establishment) aid olub Frankmasonluq və «Kəllə və Sümük Ordeni»nə (Order of Skull and Bone) daxil olan ailələr, İllüminatlar (the Illuminati) və yaxud, Komiteti üzrə ndlandırıldıqlan kimi, «KÜLƏYİ RAM EDƏN MORİA» («MORIAH CONQUERING WIND»), «Mumma Qrupu» (the Mumma Group), «Kilsələrin Milli Şurası» (The National Council of Churches), «Ümumdünya Küsələr Şurası» (The World Counsil o/' Churches), «İthaf Edilmişlərin Dairəsi» (the Circle of Initiates), «Doqquz Naməlum» (the Nine Unknoum Men), «Ümumdünya Kilsələr Şurası» (The World Counsil of Churches), «Lukus Trast» (Hıcus Trust), «Azad Olmanın İezuit Teoloqları» (Jesuit Liberation Teologists), «Sion Ağsaqqalları Ordeni» (The Order of llıc Elders of Zion), «Nazi Knyazları» (the Nasi Princes), «Beynəlxalq Valyuta Fondu» (BVF = İMF, International Monetary Fund), «Beynəlxalq Hesablaşmalar Bankı» (BHB = BİS, the Bank of International Settlements), «Birləşmiş Mülətlər fəskilatı» (BMT = U.N., the Unated Nations), «Sentral» (the Central), Britaniya «Kvator Koronati» (British Quator Coronati) Mason Lojası, İtaliyanın «P2» (Italian P2 Masonry) Mason lojası (xüsusilə də onların Vatikan ierarxiyasına daxil olan üzvləri), «Mərkəzi Kəşfiyyat İdarəsi» (MKİ – CİA, Central İntelligence Agency), «Tavistok İnsan Münasibətləri İnstitutu»nun (Tavistock Institute) seçilmiş personalı, aparıcı fondların və sığorta kompaniyalarının aşağıda verilən siyahıda adları çəkilən müxtəlif üzvləri, «Honkonq ənd Şanxay Bankinq Korporeyşn» (NSBC), «Milner Qrupu» – «Dəyirmi Masa» (the Milner Group — Round Table), «Çin Fondu» (Cini Foundation), «Almaniya Marşalı Fondu» (German Marshasll Fund), «Ditçli Fondu» (Ditchlcy Foundation), NATO, «Roma Klubu» (Club of Rome), yaşıllar hərəkatları (Environmentalists), «Müqəddəs İoann Yerusalimski Ordeni» (The Order of St. John of Jerusalem), «Vahid Dünya Hökumətinin Kilsəsi» (One World Government Church), «Sosialist İnternasionalı» (Socialist International), «Qara Orden» (Black Order), «Tule Cəmiyyəti» (Thule Society), «Anenerbe-Rozenkreyserlər» (Anenherbe-Rosicrucianists), «Qüdrətli Alilər» (The Great Superior Ones) və demək olar daha YÜZLƏRLƏ digər təşkilat daxildir.*

downloaded from KitabYurdu.org

Biz axı nə görürük? Qəribə ideyalı insanların möhkəm olmayan birliyini? Əlbəttə, yox. 150 illik tarixi olan Komitet 300-ün tərkibinə daxil olanların bəzilərinin adı dünyanın ən parlaq intellektlərinin sırasında çəkilir və onları bir yerə tam totalitar və tamamilə idarə olunan «yeni» cəmiyyət yaratmaq üçün toplayıblar. Lakin əslində bu cəmiyyət heç də yeni deyildir, **onun bütün ideyaları iblis kultlarından götürülür.** Komitə Vahid Dünya Hökumətinə doğru can atır ki, Komitənin mərhum üzvlərindən biri Herbert Uells Komitənin sifarişi ilə yazdığı və cəsarətlə «AÇIQ SUİQƏSD – DÜNYA İNQİLABI PLANLARI» (H.G.Wells, «THE OPEN CONSPIRACY – PLANS FOR A WORLD REVOLUTION») adlandırdığı işində bunu kifayət qədər yaxşı qələmə almışdı.
Bu, niyyətin cəsarətlə bəyan olunması idi, lakin, faktiki olaraq, o qədər də cəsarətli deyildi. Çünki «Böyük Alilərin», «Anenerbenin» üzvlərindən və bu gün «insayder» («insayder» – təşkilatın sirlərini bilən üzvü – tərc.) adlandırdığımız kimsələrdən başqa heç kəs Uellsə inanmadı. Budur, H.Uellsin təklif etdiklərinin bir hissəsi:

*«Düşünürəm ki, açıq sui-qəsd başlanğıcında ziyalı va bəzi hallarda varlı insanların şüurlu təşkilatı kimi meydana çıxacaqdır; dəqiq müəyyən edilmiş sosial və siyasi məqsədləri olan, mövcud siyasi aparatın əksər hissəsini ümumi razılıq əsasında saya almayan və ya ayrı-ayrı mərhələlərdə onu təsadüfi alət kimi istifadə edən hərəkat kimi - sadəcə olaraq müəyyən istiqamətdə hərəkət edən müəyyən sayda insanın hərəkatı – və onlar tezliklə, müəyyən qədər təəccüblə də olsa, hamısının irəlilədikləri istiqamətdə ümumi məqsədlərini görəcəklər. Onlar bütün mümkün vasitələrlə hökumətlərə təsir göstərəcək və onları idarə edəcəklər».*
Corc Oruellin «1984» adlı kitabı kimi, Uellsin işi də kütlələri Vahid Dünya Hökuməti lehinə təbliğ etməkdir. Əgər Komitet 300-ün niyyət və məqsədlərini cəmləsək, bu məxrəcə gələrik:

Orta Əsrlərdə olduğu kimi, heç bir seçkisiz və daimi, nəsilliklə oliqarx olanların öz aralarından lideri feodal sislem formasında seçdikləri dövrdə Vahid Dünya Hökuməti və vahid pul sistemi. Belə bir Vahid Dünyanın əhalisi, bir ailəyə düşən övladların sayının xəstəliklər, müharibələr və aclıq vasitəsilə ixtisar olunması ilə məhdudlaşdırılacaq və bu o vaxta qədər davam edəcəkdir ki, ciddi və dəqiq şəkildə müəyyən edilmiş fəaliyyət sahələrində rəhbər sinfə fayda gətirə biləcək 1 milyard əhali qalmış olsun.

Orta sinif olmayacaqdır – yalnız hökmdarlar və nökərlər. Eyni qanunlar kodeksindən istifadə edən Dünya Məhkəmələrinin hüquqi sistemi çərçivəsində bütün qanunlar eyniləşdiriləcək, Vahid Dünya Hökumətinin polisi onların icra olunmasına nəzarət edəcək, Vahid Dünyanın birləşmiş silahlı qüvvələri isə qanunları, artıq sərhədlərlə bölünməyən,

downloaded from KitabYurdu.org

keçmiş ölkələrin hamısında zorla qüvvəyə mindirəcəkdir. Sistem rifalı dövləti bazasına əsaslanacaqdır; Vahid Dünya Hökumətinə itaət edən və xidmət edən həyat üçün vacib olan vasitələrlə mükafatlandırılacaqdır; qiyam edən sadəcə olaraq acından öldürüləcəkdir və ya qanundan kənar elan olunaraq, onu öldürmək istəyən hər bir adam üçün hədəfə çevriləcəkdir. Şəxsi odlu və ya soyuq silaha malik olmaq qadağan olunacaqdır.

Din yalnız Vahid Dünya Hökumətinin Kilsəsi formasında icazə veriləcək ki, aşağıda görəcəyimiz kimi, bu, 1920-ci ildən etibarən artıq mövcuddur. Satanizm, lyusiferianlıq və qara magiya təhsilin qanuni fənləri elan ediləcək, özəl və ya kilsə məktəbləri qadağan ediləcəkdir. Xristian kilsələrinin hamısı yerlə yeksan ediləcək, xristianlığın özü isə Vahid Dünya Hökuməti dövründə keçmişdə qalacaqdır.

Elə bir vəziyyət yaradılacaq ki, bu vaxt heç bir şəxsi azadlıq və azadlıq konsepsiyalan qalmayacaq, respublikaçı idarəçirik forması və xalqların ayrılmaz suverenlk hüquqları kimi məsələlər olmayacaqdır. Milli qürur və irqi məxsusluq ləğv ediləcək, keçid mərhələsində isə hətta irqi mənsubiyyətin bildirilməsi belə ən ciddi cəzanın predmeti olacaqdır.

Hər bir adama təlqin olunacaqdır ki, o, – Vahid Dünya Hökumətinə məxsus olan varlıqdır. Bütün insanların bədəninə asan yoxlanıla bilən identifikasiya nömrəsi vurulacaqdır. Həmin identifikasiya nömrələri NATO-nun Brüsseldəki Belçika kompüterinin ümumi faylına yüklənəcək və Vahid Dünya Hökumətinin bütün idarələri üçün həmin fayla istənilən vaxt ani giriş imkanı yaradılaraqdır. Mərkəzi Kəşfiyyat İdarəsinin, Federal Təhqiqatlar Bürosunun, ştatların və yerli polisin, ABŞ-ın Vergi İdarəsinin (IRS), Fövqəladə Hallar üzrə Agentliyin (FEMA), Sosial Sığorta Agentliyinin ümumi faylları əhəmiyyətli surətdə genişləndiriləcək və bu fayllar ABŞ-ın hər bir sakini üçün yaradılan personal dosyenin məlumat bazasının əsasını təşkil edəcəkdir.

Nikah qanundan kənar elan ediləcək və bizim indi başa düşdüyümüz ailə həyatı artıq olmayacaqdır. Övladlar körpə yaşlarından valideynlərindən alınacaq və onlar nəzarətçilər tərəfindən dövlətin mülkiyyəti kimi tərbiyə ediləcəklər. Belə bir eksperiment Erix Honikerin rəhbərliyi dövründə Şərqi Almaniyada keçirilmişdi və o vaxt qeyri-loyal vətəndaş hesab edilən valideynlərin övladları onların əlindən alınırdı. Zərif cins daimi «qadın emansipasiyası» prosesi ilə əxlaqsızlaşdırılacaqdır. Azad seks məcburi olacaq.

İyirmi yaşından yuxarı yaşı olan qadınların qəbul edilmiş qaydaları pozması ciddi surətdə cəzalandırılacaq. İki uşaq doğulandan sonra qadınlara müstəqil abort etmək öyrədiləcək; müvafiq məlumatlar Dünya Hökumətinin regional kompüterlərində hər bir qadın üçün

downloaded from KitabYurdu.org

yaradılan personal dosyedə saxlanacaq. Əgər qadın iki uşaq doğandan sonra yenə hamilə qalarsa, onda onu məcburi qaydada xəstəxanaya abort etməyə göndərəcəklər və bu vaxt həmin qadın sterilizasiya olunacaqdır.

Pornoqrafiya geniş yayılmış olacaq və hər bir kinoteatrda, homoseksual və lesbiyan pornofilmlər daxil olmaqla, mütləq qaydada pornofilm göstəriləcəkdir. «Qüvvəni bərpa edən» narkotiklərin istifadə olunması məcburi olacaq – hər bir adama narkotika üçün kvota ayrılacaq və onu dünyanın bütün hər yerində Dünya Hökumətinin dükanlarından almaq olacaqdır. Şüuru dəyişdirən narkotiklər geniş yayılacaq və onların qəbul edilməsi məcburi olacaqdır. Şüuru dəyişdirən belə narkotiklər qidaya və ya içməli suya insanlardan xəbərsiz və ya razılığı ilə qatışdırılacaqdır. Dünya Hökumətinin agentlərinin idarə etdikİəri narkotik barları hər yerdə yaradılacaq və qul-insanlar bekar vaxtlarını burada keçirəcəklər. Beləliklə, elitadan çıxarılan kütlələr şəxsi iradəsi olmayan, asanlıqla tabe edilən və idarə olunan əhilləşdirilmiş heyvan səviyyəsinə və davranışına məcbur ediləcəkdir.

İqtisadi sistem oliqarxik sinfin rəhbərliyi altında qurulacaq və onlar yalnız kütləvi qul əməyi düşərgələrinin öz funksiyasını yerinə yetirmək üçün tələb olunan kəmiyyətdə qida və xidmət istehsal etməyə icazə verəcəklər. Bütün sərvətlər Komitet 300-ün elit üzvlərinin əlində cəmlənəcək. Kişi və ya qadın olmasından asılı olmayaraq, hər bir kəsin şüuruna yeridiləcəkdir ki, o, sağ qalması məsələsində tamamilə dövlətdən asılıdır. Dünya Komitet 300-ün dekretləri əsasında idarə olunacaq və onlar dərhal qanun qüvvəsinə minəcəkdir. **Boris Yeltsin Komitet 300-ün dekretlərini, Komitetin iradəsini eksperiment qismində Rusiyaya sırımaq üçün istifadə edir.**
Sənaye, onunla da birlikdə atom energetikası sistemləri tamamilə məhv edilməlidir. Yer üzündəki resurslar üzərində sərəncam hüququ yalnız Komitet 300-ün üzvləri və onların seçdikləri şəxslərdə olacaqdır. Kənd təsərrüfatı istisnasız olaraq Komitet 300-ün əlində cəmlənəcək, ərzaq məhsullarının istehsalına isə çox ciddi nəzarət ediləcəkdir. Bu tədbirlər öz bəhrəsini verməyə başlayanda, böyük şəhərlərin əhalisi məcburi qaydada uzaq rayonlara köçürüləcək, köçüb getmək istəməyənlər isə Dünya Hökumətinin, Pol-Potun Kambocada həyata keçirdiyi, eksperimental metodu üzrə məhv ediləcəklər.

Ölümcül xəstə və ahıl insanların evtanaziyası (ağrısız öldürülmə) məcburi olacaq. Şəhərlərin əhalisi, Kalerqinin işində göstərildiyi kimi, əvvəlcədən hesablanmış müəyyan səviyyədən çox olmayacaq. Yüksək ixtisaslı fəhlələr, əgər onların yaşadıqları şəhərdə əhalinin sayı çox olarsa, başqa şəhərlərə köçürüləcəklər. İxtisası olmayan digər fəhlələr isə ixtiyari qaydada seçilərək əhalisi az olan başqa şəhərlərə göndəriləcək ki, həmin şəhərlərin də «kvotası» doldurulsun.

downloaded from KitabYurdu.org

Məhdud müharibələr, sürətlə inkişaf edən ölümcül xəstəliklərin təşkil olunmuş epidemiyaları və aclıq vasitəsilə 2050-ci ilə qədər ən azı 4 milyard «faydasız yeyən» məhv ediləcəkdir. Elektrik enerjisinin, ərzağın və suyun istehsal həcmi ilk növbədə Qərbi Avropa və Şimali Amerikanın ağdərili qeyri-elitasının və yalnız bundan sonra digər irqlərin qeyri-elitasının həyatını təmin edə biləcək səviyyədə saxlanacaqdır. Dünya əhalisinin sayı idarə oluna biləcək 1 milyard nəfər səviyyəsinə çatana qədər, Kanada, Qərbi Avropa və ABŞ-ın əhalisi digər kontinentlərə nisbətən daha tez ixtisar olunacaqdır. Qalmalı olan 1 milyardın 500 milyonunu çinlilər və yaponlar təşkil edəcək. Onlar da buna görə seçiliblər ki, artıq uzun əsrlər ərzində ciddi reqlamentasiyaya məruz qalıblar və hakimiyyətə sözsüz itaət etməyə adət ediblər.

Kütlələrə, onların varlıqlarının tam şəkildə Komitet 300-ün xoş iradəsindən asılı olduğunu xatırlatmaq üçün, vaxtaşırı süni surətdə ərzaq, su və tibbi yardım qıtlığı yaradılacaq.

Sənayenin tikinti, avtomobil, metallurgiya, ağır maşınqayırına kimi sahələri məhv ediləndən sonra, ev tikintisi məhdudlaşdırılacaq, sənayenin saxlanan sahələri isə natoçu «Roma Klubu»nun nəzarəti altında olacaqdır. Eləcə də bütün elmi və kosmik tədqiqatlar məhdudlaşdırılacaq və tam şəkildə Komitet 300-ə tabe etdiriləcəkdir. Keçmiş ölkələrin kosmik silahları nüvə silahları ilə birlikdə məhv ediləcəkdir.

Bütün əsas və köməkçi farmasevtik məhsullar, həkimlər, diş həkimləri və digər tibb işçiləri mərkəzi kompüter bankının məlumatlarında qeydiyyata alınacaq və hər bir şəhər, qəsəbə və kənd üzrə məsul olan regional nəzarətçilərin xüsusi icazəsi olmadan nə dərman veriləcək, nə də tibbi yardım göstəriləcəkdir.

Birləşmiş Ştatları yad mədəniyyətə aid olan adamlarla dolduracaq və bununla Ağ Amerika qəti şəkildə diz çökdürüləcəkdir. Bu adamların ABŞ Konstitusiyasının nəyi müdafiə etdiyi barədə heç bir anlayışı olmayacaq, onların azadlıq və ədalət barədə anlayışları çox zəif olduğundan buna heç bir əhəmiyyət verməyəcəklər. Əsas qayğıları QİDA və qalmaq üçün yer olacaqdır.

«Beynəlxalq Hesablaşmalar Bankı» və Dünya Bankından başqa qalan Mərkəzi Bankların hamısının fəaliyyəti qadağan ediləcəkdir. Özəl banklar qanundankənar elan olunacaq. Yerinə yetirilən işə görə haqq Dünya Hökumətinin əvvəlcədən müəyyən etdiyi eyniləşdirilmiş şkala üzrə ödəniləcəkdir. Əməkhaqqının yüksəldilməsi ilə bağlı istənilən tələb, eləcə də Dünya Hökumətinin müəyyən etdiyi eyniləşdirilmiş standart əməkhaqqı şkalasından yayınmalar qadağan ediləcəkdir.

downloaded from KitabYurdu.org

Qeyri-elitanın əlində hər hansı məbləğdə nağd pul və ya metal pul olmayacaq. Hesablaşmaların hamısı debit kartların köməyi ilə həyata keçiriləcək və bu kartda onun yiyəsinin tanınma nömrəsi yazılacaqdır. Komitet 300-ün müəyyən etdiyi norma və qaydaları pozan istənilən şəxs, qadın və ya kişi olmasından asılı olmayaraq, həmin kartın fəaliyyətinin dayandırılması ilə cəzalandırılacaq ki, bu cəzanın müddəti nöqsanın xarakterindən və ağırlığından asılı olacaqdır.

Belə adamlar nə isə almaq istəyəndə birdən görəcəklər ki, onların kartı qara siyahıya salınıb və onlar hər hansı arzaq və ya xidmət ala bilməyəcəklər. «Köhnə» metal pullar, yəni qədim və ya itib-batmış xalqların gümüş pullarını satmaq cəhdi ölümlə cəzalandırılan ağır cinayət kimi nəzərdən keçiriləcəkdir. Köhnə pulların (söhbət metal pullardan gedir – tərc.) hamısını, eləcə də tapança, tüfəng, partlayıcı maddə və avtomobilləri müəyyən olunmuş vaxtda təhvil vermək tələb olunacaqdır. Yalnız elitaya və Dünya Hökumətinin yüksək vəzifəli funksionerlərinə şəxsi silaha, pula və avtomobilə malik olmağa icazə veriləcək.

Əgər kimsə ciddi cinayət edərsə, onda həmin adamın kartı təqdim etdiyi ilk nəzarət məntəqəsində əlindən alınacaq. Bundan sonra həmin adam ərzaq, su, ev və ixtisaslasınış tibbi yardım ala bilməyəcək və rəsmi olaraq qanundan kənar (qovulmuş) hesab ediləcəkdir. Beləliklə, qovulmuşlardan ibarət olan böyük bandalar yaradılacaq ki, onlar yaşamaq üçün vəsaitlərin ən asan tapıldığı yerlərdə məskunlaşacaqlar. Onları ovlamağa başlayacaq və ilk imkan düşən kimi dərhal məhv edəcəklər. Qovulmuşlara hər hansı şəkildə yardım edən şəxslər də öldürüləcək. Müəyyən vaxt ərzində polisə və ya hərbiçilərə təslim olmayan cinayətkarların əvəzində türmə cəzasını, onların ixtiyari qaydada seçilən qohumları çəkəcəklər.

Ərəblər və yəhudilər, Afrika tayfaları kimi fraksiya və qruplar arasında qarşıdurmalar yaradılacaq və onlara NATO və BMT-nin nəzarəti altında bir-birini qırmağa izin veriləcəkdir. Eyni taktika Mərkəzi və Cənubi Amerikada da tətbiq ediləcək. Bu cür qırğın müharibələri, Dünya Hökuməti özünü təsdiq EDƏN VAXTA QƏDƏR davam edəcək və bu müharibələr sinkxlər, pakistanlı müsəlmanlar və hind indusları kimi etnik və dini fərqləri olan böyük insan qruplarının cəmləşdikləri bütün kontinentlərdə təhrik olunacaqdır. Etnik və dini qarşıdurmalar gücləndiriləcək və kəskinləşdiriləcək. Belə qarşıdurmaların «nizamlanması» vasitəsi qismində isə amansız münaqişələr qızışdırılacaq və şirnikləndiriləcəkdir. Informasiya xidmətləri və mətbuat vasitələrinin hamısı Dünya Hökumətinin nəzarəti altında olacaq. «Əyləncələrlə» beyinlərin mütəmadi yuyulması baş verəcək ki, bu, ABŞ-da artıq həyata keçirilir və incə sənətə çevrilib. «Qeyri-loyal» valideynlərin əllərindən alınan övladlar,

downloaded from KitabYurdu.org

onları amansızlaşdırmalı olan xüsusi tərbiyə alacaqlar. Hər iki cinsə məxsus cavanlar Dünya Hökumətinin əmək düşərgələri sistemində həbs olunanlar üzərində keşik çəkmək üçün hazırlıq keçəcəklər.

Yuxarıda deyilənlərdən aydın olur ki, Yeni Dünya Nizamının vaxtı gəlib çatana qədər hələ çox iş görülməlidir. Komitet 300 bizim tanıdığımız sivilizasiyanı məhv etmək planlarını bundan çox-çox qabaq təkmilləşdirib. Bu cür planlardan bəziləri Zbiqnev Bjezinskinin «TEXNOTRON ERA» kitabından və «Roma Klubunun» əsasını qoyan Aurelio Peççeinin işlərindən, xüsusilə də onun «UÇURUM QARŞISINDA» kitabından məlum olub.

**İnsanı «DÜŞMƏN» adlandıran Peççei öz kitabında Komitet 300-ün insanı fəth etmək planlarını göstərib. Peççei milyonlarla rusun öldürüldüyü Qırmrzı Terrorun ən qızğın çağında Dzerjinskinin Sidney Reyliyə dediklərini sitat gətirib: «Nə qədər adamın öldüyü məni nə üçün narahat etməlidir? Hətta xristian İncili də deyir ki, insanın qayğısına İlahi qalacaq. Mənim üçün insan – bir tərəfdə beyin və digərində peyin fabrikindən başqa bir şey deyildir».** Emmanuil Xristos dünyanı, insana məhz bu cür vəhşi münasibətdən xilas etməyə gəlmişdi. Sidney Reyli Mİ-6-nın əməliyyat işçisi idi və Dzerjinskinin fəaliyyətinə nəzarət etmək üçün göndərilmişdi. Ehtimal edirlər ki, Reyli Rusiyadan qaçmağa cəhd edərkən dostu Feliks tərəfindən güllələnib. Böyük Britaniya parlamentinin üzvləri hay-küy salaraq Reylinin Rusiyada fəaliyyəti barədə hesabat tələb edəndə – Sidney Reyli Komitet 300-ün Bakıda neft yataqları üzərində nəzarəti ələ keçirmək planlarını və bolşevik inqilabı zamanı Komitet 300-ün Lenin və Trotskinin dəstəklənməsində həlledici rolunu ifşa edəcəyi ilə hədələyirdi – dəqiq işlənib hazırlanmış ssenari ixtira olundu. Parlamentdə Reylidən həqiqəti çəkib çıxarmağa imkan verməmək üçün Mİ-6-da, onun guya öldürüldüyü saxta hadisənin ortaya atılması daha məqsədəuyğun hesab olundu. Reyli Rusiyada yaşadığı dövrdə, adətən, bolşevik elitası üçün nəzərdə tutulan təmtəraqlı bağ mülkündə yaşayırdı.

Postindustrial Amerikanın «Atlantik Alyansı» – bu, Komitet 300 üçün bir addır – tərəfindən idarə olunmayacağı halda xaos olacağını sübuta yetirən Peççei, qlobal miqyasda əhalinin maltussayağı növlərə bölünməsini təklif edirdi. O, Sovet İttifaqının elmi-texniki hərbi aparatı ilə Qərb dünyası arasında toqquşmanı əvvəlcədən görürdü. Və nəticə etibarilə, dünyanın işləri böhranlar və qlobal planlaşdırma əsasında idarə olunsun deyə, Varşava Müqaviləsi ölkələrinə Dünya Hökuməti çərçivəsində konvergensiya təklif olundu.

downloaded from KitabYurdu.org

Postsovet məkanında baş verən hadisələr və Rusiyada azad federasiya formasında bir neçə müstəqil dövlətin meydana çıxması Peççei və «Roma Klubu»nun məsləhətlərinə dəqiqiliklə uyğundur və yuxarıda xatırlatdığım kitabların hər ikisində bu, aydın göstərilib. Güclü vahid sovet xalqı ilə müqayisədə, bu şəkildə parçalanan SSRİ-nin öhdəsindən gəlmək daha asandır. Komitet 300-ün Dünya Hökuməti üçün hazırladığı, özündə Rusiyanın parçalanmasını ehtiva edən planları indi sürətlə həyata keçməyə başlayıb. **Əgər 1991-ci ilin sonlarında Rusiyada baş verən hadisələrə Komitet 300-ün, 1960-cı illərdə həyata keçirdiyi, uzunmüddətli planlaşdırması nöqteyi-nəzərindən baxılarsa, onda onlar daha dramatik təsir bağışlayar.**
Qərbi Avropada xalqlar vahid valyutası olan bir hökumətin çərçivəsində dövlətlərin federasiyasına doğru itələnirlər. Avropa İqtisadi Sistemi buradan addım-addım Birləşmiş Ştatlara və Kanadaya köçürüləcəkdir. BMT yavaş-yavaş, lakin dönməz qaydada, Dünya Hökumətinin icraedici orqanına çevriləcək. BMT-nin siyasətini, Fars körfəzində müharibə ilə əlaqədar artıq gördüyümüz kimi, ABŞ diqtə edəcəkdir.

Eynilə belə bir hadisə Böyük Britaniya parlamentində baş vermişdi. Böyük Britaniyanın Fars körfəzində müharibədə iştirakı məsələsinin müzakirəsi gülünc dərəcədə qısa müddətdə keçdi – buna sərf olunan vaxt, palatanın iclasları arasında fasilə etmək təklifinin müzakirəsinə sərf olunan vaxt qədər idi. Parlamentin uzun tarixi dövründə bu, ilk hadisə idi ki, belə mühüm məsələnin müzakirəsinə çox az vaxt ayrılmışdı. Parlament tarixində ən əlamətdar hadisələrdən biri, faktiki olaraq, nəzərə çarpmadan keçdi.

Biz Birləşmiş Millətlər Təşkilatının müzakirəsinə çıxarılan istənilən mübahisənin nizamlaması üçün Birləşmiş Ştatların öz hərbi qüvvələrini göndərəcəyi vəziyyətə artıq çox yaxınıq. Baş Katib postundan gedən, çoxsaylı rüşvət toplayan Peres de Kuelyar BMT-nin tarixində ən sözəbaxan lider idi – o, Birləşmiş Ştatların bütün tələblərini müzakirəsiz yerinə yetirirdi. Onun varisi ABŞ hökumətinin məsləhətlərini daha böyük hazırlıqla yerinə yetirəcəkdir, Bu, Dünya Hökumətinə doğru yolda mühüm addımdır.

Bundan sonrakı iki il ərzində hər cür mübahisələrin nizamlanması üçün daha çox Haaqa Beynəlxalq Məhkəməsi istifadə olunacaqdır. O özü ilə, əlbəttə, Dünya Hökumətinin hüquq sisteminin prototipini təcəssüm etdirir ki gələcəkdə bu qalan hamısını sıxışdırıb çıxaracaqdır. Yeni Dünya Nizamında əhəmiyyətli rol oynayan Mərkəzi Banklara gəlincə, bu problem artıq demək olar həll olunub. 1991-ci ilin sonunda dünya maliyyə sistemində dominant rolu «Beynəlxalq Hesablaşmalar Bankı» (BHB) oynayır, BHB və BVF-nin

downloaded from KitabYurdu.org

rəhbərliyi altında bütün dünyada bank işinə nəzarət edəcək «Böyük Onluq» banklarının yaradılması prosesində özəl banklar sürətlə yox olur.

Avropada dotasiya alan dövlət çoxdur, ABŞ isə sürətlə dünyada dotasiya ilə dolanan ən böyük dövlətə çevrilir, İnsanlar həyatın təminatı planında dövlətdən asılı vəziyyətə düşən kimi, onlara bu vərdişi tərgizdirmək çətin olur. Bunu biz ABŞ-da keçirilən son seçkilərin nəticələrinə əsasən də müşahidə edə bilərik. Belə ki, seçkili dövlət vəzifələrini tutan şəxslərin 98 %-i yaxşı həyatdan zövq almaqda davam etmək üçün Vaşinqtona qaytarıldılar, halbuki onların reputasiyası son dərəcə nöqsanlı idi.
Yer kürəsi ərazisinin dörddə üçündə şəxsi odlu silaha yiyələnmək artıq qadağan olunub. Yalnız ABŞ-da əhali hər cür silaha yiyələnmək hüququna malikdir, lakin bu hüquq yerli qanunlar və ştatların qanunvericiliyi əsasında sürətli templərlə ixtisar olunur ki, bu da bütün vətəndaşların silah gəzdirməklə bağlı konstitusion hüququnu pozur. 2010-cu il üçün ABŞ-da şəxsi silaha malik olmaq artıq keçmişin işi olacaqdır.

EYNİ TƏRZDƏ TƏHSİL DƏ HƏYƏCAN DOĞURAN SÜRƏTLƏ DAĞIDILIR. MÜXTƏLİF HÜQUQİ SÜRÜNDÜRMƏÇİLİKLƏRİN KÖMƏYİ VƏ MALİYYƏLƏŞMƏNİN ÇATIŞMAZLIĞI SƏBƏBİNDƏN ÖZƏL MƏKTƏBLƏR BAĞLANMAQ MƏCBURİYYƏTİNDƏ QALIR. ABŞ-da təhsilin standartlatrı elə aşağı səviyyəyə düşüb ki, onu çətinliklə təhsil adlandırmaq olar. Bu, yuxarıda təsvir etdiyim plana uyğundur. Dünya Hökuməti uşaqlarınızın yaxşı təhsil almasını istəmir.

Milli özünüdərkin sürətlə dağılması baş verir. Dünya Hökumətinin planlaşdırdığı və İraq və Liviya xalqlarına qarşı aparılan müharibələr kimi genosid müharibələri ilə bağlı hallardan başqa, vətənpərvərlik artıq mədh olunmur. İrqi qürur indi artıq ittiham olunur və dünyanın bir çox ölkələrində, O CÜMLƏDƏN DƏ BİRLƏŞMİŞ ŞTATLARDA, BÖYÜK BRİTANİYADA, QƏRBİ AVROPADA VƏ KANADADA – BAŞQA SÖZLƏ, AĞ İRQİN YÜKSƏK KONSENTRASİYASINA MALİK OLAN BÜTÜN ÖLKƏLƏRDƏ qeyri-qanuni hərəkət hesab olunur.

İkinci Dünya Müharibəsi qurtarandan sonra respublika formalı dövlət üsul-idarəsinin gizlin cəmiyyətlərin rəhbərliyi altında yüksək templərlə dağıdılması baş verir. ABŞ-ın iştirakı ilə devrilən hökumətlərin siyahısı uzundur və məlumatsız insana respublika formalı üsul-idarəyə üstünlük verən (belə hesab edilir) unikal konstitusiyası olan bir ölkənin hökumətinin bu cür fəaliyyətlə məşğul olduğu ilə razılaşmaq çətindir, lakin faktlar hər şeyi öz yerinə qoyur.

downloaded from KitabYurdu.org

Bu məqsəd Komitet 300 tərəfindən yüz il əvvəl qoyulmuşdu. ABŞ bu cür hökumətlərə həmlələr edib və hətta, Birləşmiş Ştatların respublikaçı bazasının özünün inadla sarsıdılmasına baxmayaraq, indi də bunu davam etdirir. Ceyms Karterin hüquq üzrə məsləhətçisi Lloyd Katlerdən (Lloyd Cutler) başlayaraq bütöv bir sıra konstitusiya hüquqşünası fəaliyyət göstərir və onların məqsədi ABŞ Konqresini, xalq təmsilçiliyini təmin etməyən parlament sistemi ilə əvəzləməkdir. Bu iş, belə bir dəyişiklik proqramma uyğun olaraq, 1979-cu ildən aparılır. Bu işə sadiqliyi sayəsində Katler Komitet 300-ə üzv qəbul edilib. Parlament formasının tamamlanmış layihəsi Komitet 300-ə 1993-cü ilin sonları üçün təqdim olunmalıdır.

Yeni parlament sistemində parlamentin üzvləri öz seçiciləri qarşısında məsuliyyət daşımayacaq, lakin parlament rəhbərlərindən asılı olacaq və onlara verilən əmrə uyğun səs verəcəklər. Beləliklə, xəyanətkar bürokratik və hüquqi fəaliyyət sayəsində konstitusiya şəxsiyyətin azadlığı ilə birlikdə ləğv olunacaqdır. İnsanın əvvəlcədən nəzərdə tutulan deqradasiyası məhdudiyyətsiz seks praktikasının köməyi ilə sürətləndiriləcək. SIS (Secret Intelligence Service, SİS = MKX, Məxfi Kəşfiyyat Xidməti, Böyük Britaniya) və Mİ-6 xidmətləri vasitəsilə fəaliyyət göstərən ingilis taxt-tacı seksual degenerasiyanın yeni kultlarını artıq hazırlamaqıladır. Artıq bildiyimiz kimi, bu gün fəaliyyət göstərən kultInrın hamısı oliqarxik hökmdarlara işləyən Böyük Britaniya kəşfiyyatı tərəfindən yaradılıb.

Biz tamamilə yeni seksual degerativ kultların yaradıhnlısının hələ uzaq gələcəyin işi olduğunu düşünə bilərik. Lakin məndə informasiya var ki, bu iş 1992-ci il üçün başa çatdırılmalıdır. 1994-cü ildə «canlı şoular» ən adlı-sanlı əyləncə klublarında adi tamaşaya çevriləcəkdir. Hazırda bu «əyləncə» forması üçün tam samballı imicin yaradılması prosesi gedir.

Hollivudun və əyləncələr dünyasının görkəmli simaları tezliklə belə fikilərlə çıxış etməyə başlayacaqlar ki, bu və ya digər klubda «canlı seks-şoular» təşkil etmək sadəcə olaraq zəruridir. Lesbiyançılıq və homoseksualizm nümayiş etdirilməyəcək. Cəmiyyət üçün məqbul olan yeni «əyləncəyə» geteroseksual cinsi aktların açıq nümayişi daxil olacaq ki, mətbuatda bunlar haqqında, Brodvey şouları və ya kinofilmlərin son premyeraları ilə bağlı edildiyi kimi, şərhlər dərc olunacaqdır.

Mənəvi dəyərlər üzərinə misli görünməyən hücum öz pik həddinə 1992-ci ildə çatacaq. Pornoqrafiya artıq «pornoqrafiya» yox, yaşlılar üçün seksual əyləncə adlandırılacaqdır. Bu tipdə şüarlar geniş yayılacaq: «Əgər hamı bununla məşğul olursa, onu gizlətmək nəyə

downloaded from KitabYurdu.org

lazımdır?! Seksin nümayişinin eybəcər və iyrənc olması haqqında köhnə fikirləri kənara ataq». Seksual ehtirasın bu məhdudiyyətsiz növünü sevən insanların zirzəmilərdə və dalanlarda yerləşən miskin pornosalonlara getməsinə artıq ehtiyac olmayacaq. Bunun əvəzində varlı və görkəmli adamların gəldikləri ali sinif üçün olan feşenebelli klublar ictimailəşdirilmiş seksual tamaşaları «bədii» əyləncə növünə çevirəcəklər. Daha pisi budur ki, bəzi kilsə «liderləri» bunu məsləhət görəcək.

**«Tavistok İnsan Münasibətləri İnstitutu» tərəfindən yaradılan nəhəng, hər yerə sirayət edən dəhşətli sosial psixiatriya aparatı və onun geniş filiallar şəbəkəsi yalnız bir orqanın idarəsi altındadır və 1992-ci ilin astanasında da həmin orqan öz nəzarətini həyata keçirməkdə davam edir. Bu, sui-qəsdçilər ierarxiyası olan vahid orqan KOMİTET 300 adlanır. Bu, hakimiyyəti olan struktur və hakimiyyət mərkəzidir. Onun hakimiyyəti ayrıca götürülmüş istənilən dünya liderinin və ya hökumətinin, o cümlədən də ABŞ hökumətinin və onun prezidentlərinin hakimiyyətindən üstündür – mərhum Con F.Kennedi buna əmin oldu. Kennedinin öldürülməsi Komitet 300-ün aksiyası idi və biz buna hələ qayıdacağıq...**
***Komitet 300 - bu, sıralarına İngiltərə Kraliçasının, Niderland Kraliçasının, Danimarka kraliçasının və Avropanın kral ailələrinin daxil olduqları və toxunulmazrəhbər sinfin nümayəndələrindən ibarət olan tamamilə gizlin cəmiyyətdir.*** Venesiya Qara Qvelflərin matriarxı Kraliça Viktoriyanın vəfatından sonra, bu aristokratlar bütün dünya üzərində hakimiyyət əldə etmək üçün «aristokratiyanın nümayəndələri qeyri-aristokrat, lakin korporativ biznesin çox güclü liderləri ilə bütün dünya miqyasında «paya» girməli olduqlarını qərara aldılar. Buna görə də tam hakimiyyətin qapıları, İngiltərə kraliçasının «sadə təbəə» adlandırmağa üstünlük verdiyi kəslər üçün açılmış oldu.
Kəşfiyyatda iş təcrübəmə əsasən bilirəm ki, **xarici dövlətlərin başçıları bu, hər şeyə qadir qrupu «Maqlar» adlandırır.** Stalin onlar üçün özünə münasib ad fikirləşmişdi: «Qara Qüvvələr». «Sarayayaxın yəhudi» («hofjuden» – court Jew) dərəcəsindən yüksəyə heç vaxt qalxa bilməyən prezident Eyzenxauer isə bu qüvvələri tamamilə saya almırdı və onları «Hərbi-sənaye kompleksi» adlandırırdı. Stalin SSRİ-də adi və nüvə silahlarının çox yüksək səviyyədə olmasına çalışırdı, çünki «Ailə» adlandırdığı qüvvəyə etibar etmirdi. Onda olan anadangəlmə şübhələnmə və Komitet 300-dən qorxusu, demə, yaxşı əsaslandırılmışdı.
Fərdi azadlığa və bəşəriyyətin azadlığına bu, ən qorxulu təhlükə barədə xəbərdar etməyə cəhd edənləri diskreditasiya etmək üçün kütləvi əyləncə vasitələri, xüsusilə də kinodan istifadə olunur. Azadlıq – insan İlahi tərəfindən verilən bu qanunu daim pozmağa və ya ləğv etməyə

downloaded from KitabYurdu.org

çalışır. Lakin hər kəs azadlıq əldə etməyə elə can atır ki, indiyə qədər heç bir sistem bu hissi insanın ürəyindən qopara bilməyib. İnasanın azadlığa can atma hissini kütləşdirmək və zəiflətmək üçün SSRİ-də, Böyük Britaniyada və ABŞ-da keçirilən eksperimentlər öz məqsədinə nail olmadı ki, olmadı.

Lakin Dünya Hökumətinin və Yeni Dünya Nizamının gəlişi ilə Allah tərəfindən verilən azadlığa can atma hissini insanın şüurundan, vücudundan və ruhundan qovub çıxarmaq üçün genişmiqyaslı eksperimentlər başlanacaqdır. Bizim artıq indi hiss etdiklərimiz, bizi hələ qarşıda gözləyənlərlə müqayisədə boş şeydir. **Ruha hücumlar hazırlanan saysız-hesabsız eksperimentlərin qayəsi budur** və mən təəssüflə deməliyəm ki, ABŞ-ın müxtəlif təşkilatları dəhşətli eksperimentlərdə aparıcı rol oynayacaqlar. Bu cür eksperimentlər Betesdəki Hərbi-Dəniz hospitalı və Kaliforniyadakı Vakavil türməsi kimi yerlərdə kiçikmiqyaslı səviyyədə artıq keçirilib.
Geniş prokatda Ceyms Bond haqqında «Qətllər bürosu», «Matareze dairəsi» və s. kimi filmlər göstərilib. Bu filmlər fantastikadır və onların xüsusi təyinatı bu cür təşkilatların mövcud olduğu haqqında həqiqəti gizlətməkdən ibarətdir. Gerçəklikdə isə həmin təşkilatların fəaliyyətinin miqyasları elə genişdir ki, bu, Hollivudun məhsuldar yazarlarının ən cəsarətli fantaziyalarını da üstələyir.

**«Qətllər bürosu» tamamilə realdır. Büro Avropa və ABŞ-da yeganə məqsəd üçün fəaliyyət göstərir – bu, yüksək vəzifəli personalara digər bütün təsir vasitələri özünü doğrultmayanda, onların öldürülməsi barədə Komitet 300-ün göstərişlərini yerinə yetirməkdir. Kennedinin qətlini məhz PERMINDEX həyata keçirmiş və bunu «ziyanvericilərlə mübarizədə» ingilis kraliçasının uzun illər əsas agenti olmuş Ser Uilyam Stefensonun rəhbərliyi altında etmişdi.**
Mərkəzi Kəşfiyyat İdarəsinin muzdlu agenti olan Kley Şou PERMINDEX kompaniyasını Yeni Orleandakı «Ticarət mərkəzi»ndən idarə edirdi. Yeni Orleanın keçmiş prokuroru Cim Harrison Kennedinin öldürülməsi məqsədi ilə hazırlanan sui-qəsdin təhqiqatında Kley Harrisona lap yaxınlaşdı. Lakin bundan sonra Harrisonla «ciddi söhbət aparıldı» və Kley Şounun Kennedinin öldürülməsi məqsədini güdən sui-qəsddə iştirakı olmadığı etiraf olundu. Kley Şounun MKİ-nin digər muzdlu agenti Cek Rubinin aradan qaldırıldığı üsulla zərərsizləşdirilməsi faktı onların hər ikisi xərçəng xəstəliyinin sürətlə inkişaf edən formasına yoluxma nəticəsində ölmüşdülər – Harrisonun düzgün yolda olduğunu kifayət qədər inamla təsdiq edir.

downloaded from KitabYurdu.org

İkinci «qətllər bürosu» İsveçrədə yerləşir və yaxın vaxtlaradək bir qaranlıq fiqur tərəfindən idarə olunurdu, özü də bu adamın 1941-ci ildən sonra çəkilən fotoşəkli mövcud deyildir. Bu büronun əməliyyatları İsveçrənin «Qara Aristokratları», Komitet 300-ün çevik əməliyyat təşkilatı olan «Lombard Odier Cenevrə Bankı»nın («Lombard Odier Bank of Geneva») mülkiyyətçisi olan Oltramar (Oltramaire) ailəsi tərəfindən maliyyələşdirilirdi və bu, görünür, hazırda da davam edir. ABŞ ordusunun «G2» kəşfiyyat xidmətinin dosyesinə görə, büroda kontakt saxlanılan əsas şəxs Jak Sustel (Jacques Soustelle) idi.

Bu qrup həm də Allen Dalles və Komitet 300-ün mühüm üzvü, eləcə də Texasın iri neft hasilatçısı Jan Menil (Jean de Menil) ilə sıx bağlı idi. «G2» kəşfiyyatının məlumatları göstərir ki, bu qrup Yaxın Şərqdə silah alveri ilə fəal məşğul olub. Bundan başqa, bu «qətllər bürosu» General de Qollun öldürülməsi üçün ən azı 30 cəhd edib ki, Jak Sustelin bunlara bilavasitə aidiyyəti olub. Peruda Komitet 300 üçün kokain istehsalçılarını müdafiə edən «Sendero Luminoso» (Sendero Luminoso — ispanca «İşıqlı yol») qiyamçı qrupunun əlaqə saxladığı şəxs də elə həmin Sustel idi.

«Qətllər bürosunun» bütün əsas planları DGSE-nin (Fransa kəşfiyyatı – keçmiş SDECE) əla işi sayəsində alt-üst olandan sonra, bu iş, «Şakal» kod adı altında, Mİ-6-ya (Military Intelligence Department Six – Hərbi Kəşfiyyatın 6-cı bölməsi – bu idarə həm də «Məxfi Kəşfiyyat Xidməti» (MKX = SİS) adı ilə tanınır) – tapşırıldı. SDECE ali təhsil müəssisələrindən çoxlu ağıllı gənci işə qəbul etmişdi və buna görə də Mİ-6 və KQB-nin agentləri bura girə bilməmişdi. Bu idarənin xarici agentlərin ifşa edilməsi ilə bağlı fəaliyyəti bütün ölkələrin məxfi xidmətlərinin qısqanclıq predmeti idi. Məhz bu qrup «Şakalı» müəyyən edib, onu son məqsədinə qədər izlədi və o, General de Qollun avtomobil kortejinə atəş açmazdan əvvəl onu məhv etdi.

De Qoll hökumətində fəaliyyət göstərən sovet «köstəbəyini» məhz SDECE ifşa etmişdi. Yeri gəlmişkən, bu agentin həm də Lenqlidə Mərkəzi Kəşfiyyat İdarəsinin əlaqələndiricisi olduğu məlum olmuşdu. De Qolla nifrət edən Allen Dalles SDECE-ni diskreditasiya etmək üçün onun agentlərindən biri olan Roje De Lueti (Roger De Louette) 12 milyon dollar dəyərində heroin yükü ilə tutdurdu. Ciddi və bacarıqlı «sorğu-sualdan» sonra De Luet «etiraf» etdi, lakin ABŞ-da narkotika qaçaqmalçılığı ilə nə üçün məşğul olduğunu izah edə bilmədi. Bunun kobud şəkildə saxtalaşdırılmış iş olduğu dərhal nəzərə çarpırdı.

Federal Təhlükəsizlik Bürosu, «Məxfi Kəşfiyyat Xidınəti» və MKİ De Qollun müdafiəsi, xüsusilə də onun avtomobil kortejlərinin qorunması üzrə SDECE-nin metodlarının tədqiqinə

downloaded from KitabYurdu.org

əsaslanaraq, Prezident Kennedinin keşikçilərini necə zərərsizləşdirmək və 1963-cü din noyabrında Dili Plazada PERMINDEX-in üç atıcısı üçün qətli necə asanlaşdırmaq lazım olduğunu dəqiq bilirdi.

Casus belletristikası altında ört-basdır edilən FAKTIN daha bir nümunəsi ilə Leon Urisin «Topaz» romanında rıastlaşırıq. Burada SDECE-nin aşkar etdiyi və KQB-nin MKİ ilə əlaqələndiricisi kimi ifşa edilən həmin KQB agenti – Tiro de Vosjohnin (Thyraud de Vosjoli) fəaliyyəti lıaqqında hesabat verilir. MOSSAD-ın (İsrailin kəşfiyyat idarəsi) fəaliyyəti haqqında belletristika formasında mövcud olan hesabat çoxdur, özü də onların demək olar hamısı faktlara əsaslanır.

**MOSSAD VƏ Mİ-6**

MOSSAD-ı həm də «İnstitut» adlandırırlar. Özündən müştəbeh olan bir çox yazıçı, xüsusilə də sağçı-xristian dairələrində çox hörmətli olan bir yazıçı, bu idarə haqqında absurd çıxışlar edir və bunlar da həqiqət kimi qəbul olunur. Hər şeyi onun təcrübəsizliyinin ayağına yazmaq olar, çünki o, xüsusi kəşfiyyat hazırlığı keçməyib. Ancaq bu ona bütün mətn boyunca «mossadçıların adlarını» səpələməyə mane olmur.

Dezinformasiyanın bu şəkildə ortaya atılması adətən Amerikanın sağçı vətənpərvər qruplarına qarşı istifadə olunur. MOSSAD başlanğıcda üç qrupdan ibarət olub: Hərbi Kəşfiyyat Bürosu, Xarici İşlər Nazirliyinin Siyasi Departamenti və Təhlükəsizlik İdarəsi (Şerut Xabitaxon). Komitet 300-ün üzvü olan David Ben Qurion onları birləşdirmək üçün Mİ-6-dan əhəmiyyətli yardım almışdı.

Lakin müvəffəqiyyət əldə olunmadı və Mİ-6-dan olan Ser Uilyam Stefenson 1951-ci ildə MOSSAD-ı vahid xidmətə çevirdi ki, onun tərkibində İsrailin Xarici İşlər Nazirliyinin Siyasi Departamentinin şöbəsi, eləcə də casusluq və «çirkli işlər» üçün xüsusi qrup var idi. Böyük Britaniya kəşfiyyatı sonrakı dövrlərdə «Sapayet Maktal» (Sapayet Maktal) adlanan xidmətə təlim keçmək və texnika və s, təmin etməklə kömək etdi. «Britaniyanın Xüsusi Aviasiya Xidmətinin» (XAX = SAS, Britain's Special Air Service) nümunəsi əsasında yaradılan «Sapayet Maktal» həm də İsrailin Baş Qərargahının kəşfiyyat bölməsi kimi tanınır. MOSSAD-ın bu bölməsi neç vaxt Öz adı ilə adlandırılmır, sadəcə, «bu oğlanlar» kimi tanınır.

«Bu oğlanlar» sadəcə olaraq Böyük Britaniyanın «Xüsusi Aviasiya Xidməti» kəşfiyyat idarəsinin filialıdır, XAX daim onlara məşqlər, yeni fəaliyyət formaları ilə bağlı təlimlər keçir. Birləşmiş Fələstin Təşkilatının (BFT) liderlərini öldürən və Adolf Eyhmanı oğurlayan məhz «oğlanlar» idi. «Oğlanlar» və faktiki olaraq MOSSAD-ın bütün agentləri hər an döyüş

downloaded from KitabYurdu.org

hazırlığı vəziyyətində fəaliyyət göstərirlər. Dünyanın hər bir ölkəsində yəhudi icmasının olması MOSSAD-a digər kəşfiyyat xidmətləri qarşısında çox böyük üstünlük verir.

MOSSAD sosial və kriminal dosyeləri əldə etməklə adına kompromat olan yerli yəhudiləri ələ almaq və ONLARI HAVAYI ÖZÜNƏ İŞLƏTMƏYƏ qadirdir. MOSSAD ABŞ-ın hüquq-mühafizə orqanlarının və kəşfiyyat idarələrinin arxivlərindən istifadə etmək imkanı cəhətdən də üslünlüyə malikdir. ABŞ-ın «Hərbi-Dəniz Kəşfiyyatı İdarəsi» MOSSAD-ın istəklərini yerinə yetirir, özü də İsrail buna görə heç bir xərc çəkmir. Əgər MOSSAD-ın milyonlarla amerikalının, hətta siyasətlə heç cür əlaqəsi olmayan amerikalıların da, həyatının bütün tərəfləri barədə necə çox bildiyi nə vaxtsa aşkarlanarsa, Birləşmiş Ştatların vətəndasları şoka düşər, hiddətlənər və təşvişə düşərdilər.
MOSSAD-ın ilk başçısı olan Royben Şiloah (Reuben Shiloach) Komitet 300-ün üzvlüyünə daxil edilmişdi, lakin onun davamçısının da bu imtiyazdan istifadə etdiyi bəlli deyildir. Bu fikrin xeyrinə şans çoxdur ki, o, bu imtiyazdan istifadə edir. MOSSAD yüksək ixtisaslı dezinformasiya xidmətinə malikdir. Onun Amerika «bazarına» çıxardığı dezinformasiyanın həcmi narahatlıq yaradır, lakin cəmiyyətin bu dezinformasiyanı bütövlüklə və tamamilə həzm etməsi daha böyük narahatlıq yaratmalıdır.

«Olimpiyaçılar»ın dünya miqyasında kəşfiyyat xidmətləri, əyləncə industriyası, nəşriyyat fəaliyyəti, ictimai rəyin yaradılması və televiziya «xəbərləri» üzərində həyata keçirdikləri nəzarətin əhatə dairəsini biz, MOSSAD-ın «mikrokosmu»nun nümunəsində əyani surətdə görürük. Ted Törner (Ted Turner) bu yaxınlarda Komitet 300-də yer alıb. Bunu o, CNN «xəbərlər» (daha dəqiq olsaq, saxta xəbərlərin quraşdırılması) proqramını yaratdığı üçün mükafat qismində alıb. Komitet bütün dünyada insanlara ÖZÜNƏ SƏRF EDƏN NƏ İSTƏSƏ DEMƏK üçün hakimiyyətə, imkanlara və vasitələrə malikdir və böyük əksəriyyət də deyilənə inanacaq.

Hər hansı bir tədqiqatçının qarşısına bu, insanın təxəyyülünü heyrətə gətirən mərkəzi idarə qrupu çıxanda o hər dəfə ya müvəffəqiyyətlə satın alınır, ya da «Tavistok İnsan Münasibətləri İnstitutu»nda «xüsusi təsirə» məruz qalır və bundan sonra həmin yazıçı Ceyms Bond haqqında hadisələr tipində hər cür fantastika yazmağa başlayır. Başqa sözlə, **bu adamın enerjisinin istiqaməti dəyişdirilərək tələb olunan məcraya yönəldilir,** özü isə səxavətli mükafat alır. Lakin, əgər Con F.Kennedi kimi insan dünyadakı hadisələri kimin istiqamətləndirdiyi ilə rastlaşırsa və onu satın almaq mümkün olmursa, bu halda onu öldürürlər.

downloaded from KitabYurdu.org

Kennedi ilə bağlı hadisədə qətl çoxsaylı insanın toplaşdığı yerdə hamının gözü qarşısında və son dərəcə qəddarcasına həyata keçirilmişdi. Bu, dünyanın bütün liderlərinə itaətdən çıxacaqları təqdirdə baş verə biləcək hadisə ilə bağlı aydın xəbərdarlıq idi. Papa I İoann səssiz-küysüz öldürülmüşdü, çünki o, Vatikan ierarxiyasındakı masonlar vasitəsilə Komitet 300-ə yaxın adam idi. Onun yolunun davamçısı olan Papa II İoann arzuolunmaz fəaliyyətə son qoyması üçün ictimaiyyət qarşısında təhqirə məruz qalmışdı və o, ondan tələb olunanı yerinə yetirdi. Biz aşağıda Vatikanın bəzi liderlərinin bu gün Komitet 300-də iclaslarda iştirak etdiklərini də görəcəyik...

Ciddi tədqiqatçını Komitet 300-ün izindən azdırmaq asandır. Çünki Böyük Britaniyanın Mİ-6 (XAX = SİS) kəşfiyyatı «Yeni Era» (New Age), yoqa, Dzenbuddizm, magiya, «Apallonun Delfiya Müqəddəs Kilsəsi» (Aristotel Onun üzvü idi) kimi «ruh üçün oyunların» geniş spektrinin və hər cür növlü yüzlərlə kiçik «kultların» yayılmasına şərait yaradır və buna yardım edir. Böyük Britaniya kəşfiyyatının «istefaya çıxan», lakin işin içində qalan agentlərinin bir qrupu sui-qəsdçilər ierarxiyasını «İks Gücü» («Force X») termini ilə işarələndiriblər və elan ediblər ki, o, KQB-yə, Vatikanın kəşfiyyatma, MKİ-yə, ONI, DGSE, ABŞ-ın Hərbi Kəşfiyyatına, Dövlət Departamentinin Kəşfiyyat Xidmətinə və hətta ABŞ-ın bütün kəşfiyyat xidmətləri arasında ən yüksək məxfilik dərəcəsi olan «Müli Kəşfiyyat Ofisi» (MKO = ORIR, Office of National Reconnoissance) kimi təşkilatlara sıza bilən supergüclü kəşfiyyat xidmətinə malikdir.

Prezident Trumen «Milli Kəşfiyyat Ofisi» ilə təsadüfən toqquşana qədər, MKO-nun varlığı Komitet 300-ün üzvlərindən başqa bir ovuc adama bəlli idi. Çörçillin MKO-nun əsasının qoyulmasında əli olub və Trumen onun varlığını aşkar edəndə o, bərk hiddətlənmişdi. Çörçill Trumeni Komitet 300-ün istənilən başqa nökəri ilə müqayisədə daha çox «İndependens («müstəqillik» – tərc.) şəhərciyindən olan hər hansı bir müstəqilliyi olmayan öz balaca adamı» hesab edirdi. Bu onunla əlaqədardır ki, Trumenin hər bir addımına masonlar tərəfindən nəzarət edilirdi. Hətta bu gün belə MKO-nun illik büdcəsi Konqresə mə lum deyil və o yalnız Konqresin seçilmiş üzvləri qarşısında hesabat verir. Lakin «Milli Kəşfiyyat Ofisi» Komitet 300-ə sözsüz tabe olan orqandır və onun məlumatları hər bir neçə saatdan bir mütəmadi olaraq Komitet 300-ə ötürülür.

Beləliklə, Komitet 300-ün müxtəlif orqanlarında və bölmələrində mövcud olan bütün saxta mistifikasiyalar Komitetin özünün varlığı ilə bağlı şübhələri aradan qaldırmaq üçündür, lakin biz heç bir vəchlə şübhələnməməliyik ki, o hər halda mövcuddur. Baxın, nəyi nəzərdə tutduğuma daha bir misal – əsasında çox populyar film çəkilən «ŞAKAL GÜNÜ» kitabı.

downloaded from KitabYurdu.org

Kitab gerçək hadisələrdən bəhs edir. Hadisələrin gerçək iştirakçılarının və hadisələrin cərəyan etdiyi yerlərin adı aşkar səbəblərdən dəyişdirilsə də, Mİ-6-nın bir agentinə General De Qollun öldürülməsi tapşırığının verilməsi haqqında hadisə tamamilə həqiqidir. Komitet 300-lə əməkdaşlıq etməkdən imtina edən General De Qollu – o, Komitetin varlığı barədə gözəl bilirdi, çünki onun üzvü olmağa dəvət olunmuşdu – idarə etmək mümkün deyildi. De Qoll Fransanın NATO-dan çıxdığını elan etdikdən və dərhal, Fransanın özünə məxsus «zərbə qüvvəsi» adlandırılan, nüvə qüvvələrini yaratmağa başlayanda konflikt kulminasiya həddinə çatdı.

Bu, Komitet 300-ü özündən elə çıxardı ki, General De Qollu öldürmək tapşırığı verildi. Lakin Fransanın məxfi kəşfiyyat xidməti «Şakal» planının üstünü aça və De Qollun təhlükəsizliyini təmin edə bildi. Mİ-6-nın – əlavə edim ki, Mİ-6 Komitet 300-ün əsas məxfi xidmət orqanıdır – gizlin əməliyyatlar haqqında söhbət gedən hesabatlarının işığında Fransa kəşfiyyatının işi möcüzə təsəvvürünü yaradır.

«Hərbi Kəşfiyyatın Altıncı Bölməsi»nin (Mİ-6) yaradılnıası Kraliça I Yelizavetanın hər cür çirkli əməliyyatlar üzrə əlaltısı olan Ser Frensis Uolsinqhemin (Sir Francis Walsingham) adı ilə bağlıdır. Yüz illərlə mövcud olduğu vaxt ərzində Mİ-6 elə böyük təcrübə toplayıb ki, dünyanın heç bir kəşfiyyat xidmətində bununla heç uzaqdan-uzağa belə müqayisə edilə biləcək heç nə yoxdur. Mİ-6-nın agentləri informasiyanı planetin bütün künc-bucaqlarında toplayır və gizlin əməliyyatlar yerinə yetirirdilər. Əgər bu əməliyyatlar üzərindən məxfilik pərdəsi götürülsə və bunlar aşkar edilsəydi, hətta ən məlumatlı adamı da heyrətə gətirərdi. Bax məhz buna görə Mİ-6 Komitet 300-ün həlledici xidməti hesab olunur.

Mİ-6 rəsmi olaraq mövcud deyil, onun büdcəsi kraliçanın şəxsi fondlarından və «fərdi fondlardan» doldurulur və deyilənlərə görə, ildə 300-350 milyon dollar təşkil edir. Lakin onun dəqiq məbləğini heç kəs bilmir. Mİ-6 özünün indiki formasında 1991-ci ildə, Ser Mensfild Kamminq (Sir Mansfield Cumming) ona rəhbərlik etdiyi vaxtdan mövcuddur. Kral donanmasının kapitanı olan Kamminqin adı həmişə «K» hərfi ilə işarə olunurdu. Ceyms Bond «M»nin şöhrəti də bax bundan başlanıb.

Mİ-6-nın fəaliyyətinin hər hansı bir rəsmi tarixi yoxdur – bu, ciddi sirdir, hərçənd Bercessin, Maklinin, Bleykin, Blantın (Burgess, Maclean, Blake, Blunt) ifşa olunması Mİ-6 zabitlərinin mənəvi ruhuna böyük xələl gətirmişdi. Başqa xidmətlərdən fərqli olaraq, Mİ-6-nın gələcək işçilərini universitetlərdən və digər təhsil müəssisələrindən yüksək ixtisaslı «talant ovçuları» seçir ki, seçimin səviyyəsini Rods təqaüdçülərinin timsalında – onları «Dəyirmi Masa»nın

downloaded from KitabYurdu.org

üzvü etdilər – qiymətləndirmək olar. Namizədlərə edilən tələblərdən biri xarici dilləri bilməkdir. Namizədlər sərt «qan təmizliyi» yoxlamasına məruz qalırlar.

Belə bir qorxunc qüvvə tərəfindən dəstəklənən Komitet 300 ifşa olunmaqdan qorxmaya bilər və bu, hələ onilliklər ərzində davam edəcək. Komitetin varlığı ehtimalına inanmağa, onun ətrafında hökm sürən ağlasığmaz məxfilik mane olur. Kütləvi informasiya vasitələrindən heç biri bu sui-qəsdçi ierarxiyasını heç vaxt hətta xatırlatmayıb və buna görə tamamilə təbiidir ki, insanlar onun varlığına şübhə edirlər.

**Komitet 300 daha çox Böyük Britaniya monarxının, hazırda Kraliça II Yelizavetanın nəzarəti altındadır.** Hesab edirlər ki, Kraliça Viktoriya Komitetin idarə olunması sirrinin saxlanması ilə bağlı əsl paranoyadan əzab çəkirdi. O, «qəssab Cekin» törətdiyi qanlı cinayətlərin yerində qoyulan MASON yazılarının tapılması faktını gizlətmək üçün səylərini əsirgəmirdi. Çünki həmin yazılar Komitet 300-ün Şotland rituallı Masonluğun yüksək dərəcəli üzvü olan bir nəfər tərəfindən həyata keçirilən «eksperimentlərlə» əlaqəsinə işarə edirdi. Komitet 300 dünyanın hər bir ölkəsində, o cümlədən də SSRİ-də korporativ maraqları olan britaniyalı aristokratiya üzvləri ilə doludur.

**KOMİTET 300-ün STRUKTURU**

**Komitet 300 aşağıdakı struktura malikdir:**

«Susseks Universitetinin» nəzdində olan «Tavistok İnsan Münasibətləri İnstitutu» və onun London filialı «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»na məxsusdur və onun tərəfindən idarə olunur. «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nun Amerikada «saraya yaxın yəhudisi» Henri Kissincerdir. İkinci Dünya M'üharibəsindən sonra adını dəyişərək «ULDUZLAR QRUPU» qoyan «QARTAL VƏ ULDUZ QRUPU»na bir-biri ilə kəsişən və yaxın sahələr üzrə – (1) sığorta, (2) bank işi, (3) daşınmaz əmlak, (4) əyləncələr, (5) kibernetika, elektron əlaqə vasitələri və s. də daxil olmaqla yüksək texnologiyalar – fəaliyyət göstərən iri beynəlxalq kompaniyalar daxildir.

Bank biznesi fəaliyyətin əsas istiqaməti olmasa da, xüsusilə də bankların klirinq palataları rolunu oynadığı və narkopulların yuyulması üçün vasitə olduğu rayonlarda həyati dərəcədə vacib işdir. Bank sahəsində adı ən «bərk səslənənlər» «İngiltərə Bankı», «Federal Ehtiyat Sistemi», «Beynəlxalq Hesablaşmalar Bankı», Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı və «Honkonq ənd Şanxay Bankinq Korporeyşn» (NSBC) banklandır.
«Amerikan Ekspress Bank» – bu, narkopulların yuyumıası vasitəsidir. Bu bankların hər birinin filiallan var və ya bütün dünyada yüzlərlə və minlərlə böyük və xırda bank onların nəzarəti altındadır.

downloaded from KitabYurdu.org

Komitet 300-ün şəbəkəsinə minlərlə böyük və xırda bank daxildir ki, onların arasında «Banca Commerciale İtaliana», «Banka Privata», «Banko Ambrosiano», «the Netherlands Bank», «Barclays Bank», «Banko del Colombia», «Banco de İbero-Amerika» kimi bankları göstərmək olar. «Banka del la Svizzeria İtaliana» (BSİ) xüsusi maraq doğurur, çünki bu bank «uçan kapitalların» ABŞ-a investisiyası ilə məşğul olur – işlər əsas etibarilə dollar və ABŞ obliqasiyaları ilə aparılır. Bu bank Venesiya «Qara Aristokratiyasının» «uçan kapitallarının» mərkəzi olan «neytral» Luqanoda izolyasiyada yerləşir. Luqano nə İtaliyanın, nə də İsveçrənin ərazisinə daxildir və kölgəli «uçan kapitalla» əməliyyatlar üçün kölgəli zonadır. «Banka del la Svizzeria İtaliana» bankında böyük aksiya paketinə malik olan Corc Boll (George Ball) bankın nüfuzlu «insayderi» (insayder – təşkılatın sirləri barədə məlumatlı olan şəxs) və ABŞ-da bankın təmsilçisidir.

«Bank of Credit and Commerce International» (BCCI), «Uanca Nationale Del Lavoro» (BNL), «Banco Mercantil de Mexico», «Banco Nacional de Panama», «Bangkok Metropolitan Bank», «Bank Leumi» (İsrail), «Bank Hapoalim» (İsrail), «Standard Bank», «Bank of Geneva», «Bank of Ireland», «Bank of Scotland», «Bank of Montreal», «Bank of Nova Scotia», «Banque Paris et Pays Bas», «British Bank of the Middle East», «the Royal Bank of Canada» – bunlar «ixtisaslaşmış» bankların böyük siyahısında olanların yalnız bəziləridir.

Cənubi Afrikadan olan Oppenqeymerlər Rokfellerlərlə müqayisədə qat-qat «ağır çəki kateqoriyasında» çıxış edir. Məsələn, bütün dünyada qızıl və almaz hasilatı və satışı ilə məşğul olan nəhəng «Anglo American Corporation» korporasiyasının sədri olan Harri Oppengeymer 1981-ci ildə Şimali Amerikanın bank bazarına çıxmaq niyyətində olduğunu bəyan etmişdi. Oppengeymer ABŞ-da iri bankların – bunların arasında «Citiqrup» bankı da var idi – səhm paketlərinin alınması məqsədilə xüsusi olaraq yaradılan kompaniyaya tezliklə 10 milyard dollar investisiya yatırdı. Oppengeymerin «Minoqrup» adlandırılan investisiya kompaniyası Bermudda – Böyük Britaniya Kral nəslinin qoruğunda – öz filialını yaratdı. «Minoqrup»un Direktorlar Şurasına «Citiqrup» bankından Volter Vriston (Walter Wriston) və onun baş hüquq məsləhətçisi Robert Kler (Robert Clare) daxil oldu.

Qiymətli metal və minerallar sahəsində Oppengeymerlə yarışan yeganə kompaniya «Consolidated Gold Fields of South Africa» idi. Lakin Oppengeymer 28 % payla ən iri səhmdar kimi ona nəzarəti ələ keçirdi. Beləliklə, qızıl, almaz, platin, titan, mis, dəmir filizi və eləcə də əksəriyyəti ABŞ üçün mühüm strateji əhəmiyyət kəsb edən 52 adda metal və mineral Komitet 300-ün əlinə keçmiş oldu.

downloaded from KitabYurdu.org

Komitet 300-ün Cənubi Afrikadan olan erkən üzvlərindən biri, Sesil Con Rodsun planı bax belə idi və bu plan artıq həyata keçirilib. Onun həyata keçirilməsi Cənubi Afrikada, «burlar» adlandırılan minlərlə ağ fermerin və onların ailələrinin qanının axıdılması ilə başlandı. Birləşmiş Ştatlar və eləcə də qalan bütün dünya əli qoynunda durub seyr etdiyi vaxt, bu kiçik xalq tarixdə ən qəddar hərbi genosidə məruz qaldı. Vaxtı çatanda Komitet 300 Birləşmiş Ştatlar üçün də belə bir tale hazırlayıb və həmin vaxt artıq çox da uzaqda deyil.

Sığorta kompaniyaları Komitet 300-ün biznesində həlledici rol oynayır. Bunların arasında Venesiyada «Assicurazioni Generali» və «Riunione Adriatica di Sicurta» kimi əsas sığorta kompaniyaları da vardır. Bu kompaniyalar dünyada müvafiq olaraq birinci və ikinci yeri tuturlar, onlar öz bank hesablarını «Beynəlxalq Hesablaşınalar Bankı»nda İsveçrə qızıl franklarında saxlayırlar. Onların hər ikisi çoxsaylı investisiya bankına nəzarət edir ki, həmin bankların Uoll Stritdə səhmlərdə dövriyyəsinin həcmi, ABŞ investorlarının dövriyyəsindən iki dəfə coxdur. Sığorta biznesinin bu iki nəhənginin Direktorlar Şurasında həlledici rolu oynayan Komitet 300-ün üzvləri bunlardır: Roma və Venesiya «Qara Aristokratiyasından» olan, öz şəcərəsini imperator Yustiniandan davam edən Custiniani (Giustiniani) ailəsi, «Hambros (Merchant) Bank»dan olan Ser Coselin Hamro; şəcərəsi altı əsr hesablanan və Venesiya «Qara Aristokratiyasının» ən qədim Luzattilərinə gedib çıxan Pyerpaolo Luzatti Fegiz (Pierpaolo Luzzatti Fequiz) və «Qara Aristokratiyanın» qədim ailələrindən olan Ortolani ailəsindən Umberto Ortolani (Umberto Ortolani).

Komitet 300-ün Venesiyanın «Qara Aristokratiyasının» qədim ailələrindən olan digər üzvləri və «Assicurazioni Generali» və «Riunione Adriatica di Sicurta» sığorta şirkətlərində İdarə Heyətinin üzvləri bunlardır: Doria ailəsi (Doria) – İspaniya Qabsburqlarının maliyyəçiləri; Eli de Rotşild (Elie de Rothschild); Baron Avqust fon Fink (August von Finck – Almaniyanın ikinci ən varlı adamı, dünyasını dəyişib); öz şəcərəsini qədim Romanın eyni familiyalı senatorundan gətirən «Qara Aristokratiyanın» qədim Orsini ailəsindən Franko Orsini Bonakassi (Franco Orsini Bonacassi); şəcərəsi qüdrətli Hersoq de Albaya gedib çıxan Alba (Alba) ailəsi və Belçikalı Rotşildlər ailəsinin kuzeni Baron Pyer Lambert (Pierre Lambert).

Böyük Britaniya Kraliçasının nəzarət etdiyi ingilis kompaniyalarından «Eagle Star» («İql Star» – «Qartal Ulduzu»), Amerikanın sığorta şirkətlərinin əksəriyyətinin, o cümlədən də «Allstate Insurance» kompaniyasının mülkiyyətçisi olan və onlara nəzarət edən «Prudential Insurance Company»ni göstərmək lazımdır. Bu siyahının başında, çox güman, Mİ-6-nın ən qüdrətli örtuk-pərdəsi olan «Eagle Star» durur. «Eagle Star» böyüklüyünə görə

downloaded from KitabYurdu.org

«Assicurazioni Generali» ilə çəkişə bilməsə də, görünür, bu şirkət heç də ondan az vacib deyil, çünki onun mülkiyyətçisi kral ailəsidir və «Eagle Star», Komitet 300-ün nominal başçısı olaraq, çox böyük təsir göstərir.

«Eagle Star» yalnız Mİ-6 üçün deyil, həm də «Hill-Samuels», «N.M.Rothschild and Sons» («N.M.Rotşild və oğulları» – qızıla qiymətlərin «fiksatorlarından» biri, buna Londonda hər gün rast gəlmək olar) və «Barclays Bank» («Afrika Milli Konqresinin» (AMK) maliyyə mənbələrindən biri) da daxil olmaqla, ən iri Britaniya bankları üçün də örtük-pərdə qismində çıxış edir. Kifayət qədər böyük dəqiqliklə demək olar ki, ən nüfuzlu britaniyalı oliqarxik ailələr «Eagle Star» kompaniyasını Komitet 300-ün siyasətinə müqavimət göstərənlərə qarşı «qara əməliyyatları» həyata keçirmək üçün vasitə kimi yaratmışlar.

Mərkəzi Kəşfiyyat İdarəsindən fərqli olaraq, Mİ-6-nın yüksək rəhbərlərinin adlarının açıqlanması Böyük Brilaniya qanunları ilə ciddi cinayət hesab olunur. Buna görə də aşağıda Mİ-6-nın rəhbər zirvəsinin siyahısının yalnız bir hissəsi verilir – onlar həm də Komitet 300-ün indiki (və ya keçmiş) üzvləridir: Lord Hartli Şoukross (Lord Hartley Shawcross), Ser Brayan Edvard Mauntin (Sir Brian Edward Mountain), Ser Kennet Keys (Sir Kenneth Keith), Ser Kennet Stronq (Sir Kenneth Strong), Ser Uilyam Stefenson (Sir William Stephenson), Ser Uilyam Vaysman (Sir William Wiseman).

Adıçəkilən şəxslərin hamısı Komitet 300-ün həlledici kompaniyalarının işinə çox dərin cəlb olunublar (ya da əvvəllər cəlb olunmuşdular) və kitabın gedişində görəcəyimiz kimi, həmin kompaniyalar bütün fəaliyyət sahələrində məşğul olan minlərlə şirkətlə qarşılıqlı surətdə bağlıdırlar. Bu kompaniyalardan bəzilərinin siyahısı budur: «Rank Organization», «Xerox Corporation», «ITT», «IBM», «RCA», «CBS», «NBC», «BBC and CBC» telekommunikasiyalar sahəsində, «Raytheon», «Textron», «Bendix», «Atlantic Richfield», «British Petroleum», «Royal Dutch Shell», «Marine Midland Bank», «Lehman Brothers», «Kuhn Loeb», «General Electric», «Westinghouse Corporation», «United Fruit Company» və bir çox başqaları.
Mİ-6 bu kompaniyaların böyük hissəsinə Böyük Britaniya kəşfiyyatının Nyu-Yorkda, RGA kompaniyasının binasında – bura Mİ-6-nın rəhbəri Ser Vilyam Stefensonun mənzil-qərargahı olub – yerləşdirilən rezidentləri vasitəsilə rəhbərlik edir. «Radio Corporation of America» (RCA) – bu, «General Electric», «Westinghouse», Böyük Britaniya taxt-tacının maraqları naminə fəaliyyət göstərən «Morgan Guarantee and Trust» və «United Fruit» kompaniyaları tərəfindən hələ 1919-cu ildə Böyük Britaniya kəşfiyyatının mərkəzi kimi təşkil olunmuş müəssisədir. RCA-nın ilk prezidenti – Ouen Yanq C.P.Morqanın adamı idi və

downloaded from KitabYurdu.org

«Yanq Planı» onun adı ilə adlandırılmışdı. 1929-cu ildə RCA-ya David Sarnoff (David Sarnoff) rəhbər təyin olundu – o, 1919-cu ildə keçirilən Paris Konfransında (bu konfransda qalib gələn «müttəfiqlər» məğlub edilən Almaniyanın kürəyinə xəyanətkarcasına xəncər saplamışdı) Ouen Yanqın köməkçisi olmuşdu.

Uoll-Stritdə bank və makler kontorlarından ibarət bütöv bir şəbəkə fond bazarında Komitet 300-ün maraqları naminə əməliyyatlarla məşğul olur. Bunlardan ən mühümləri «Blyth», «Eastman Dillon», «the Morgan Groups», «Lazard Freres» və «Kuhn Loeb Rhodes» şirkətləridir. Uoll-Stritdə ümumiyyətlə, hər şey «İngiltərə Bankı»nın nəzarəti altında baş verir, onun üçün təlimatlar isə Morqanın qrupları vasitəsilə instansiyalar üzrə ötürülür və bundan sonra əsas broker evləri tərəfindən həyata keçirilir ki, onların yüksək icraçı rəhbərləri bu direktivlərin yerinə yetirilməsinə tam cavabdehdirlər. «Drexel Burnham Lambert» kompaniyası «Morgan Guarantee» kompaniyası tərəfindən müəyyən edilən limitləri ötüb keçənə qədər Komitet 300-ün favoritləri sırasında idi. Əsas broker evlərinin hamısı 1981-ci ildə Komitetə satıldı, «Phibro» isə («Fibro») «Salomon Brothers» ilə birləşdi. «Phibro» – bu, Oppongeymerin «Anglo American Corporation» şirkətinin işgüzar rıçağıdır. Bu idarəetmə mexanizmi sayəsində Komitet 300-ün öz üzvləri və geniş yayılan korporasiyalar şəbəkəsi üçün Uoll-Stritdə təmin etdiyi investisiyaların dövriyyə sürəti, «insayder» olmayan xarici investorların dövriyyə sürətini iki dəfə üstələyir.

Xatırlayaq ki, dünyanın ən varlı ailələrinin bəziləri Avropada yaşayır, buna görə də onların Komitet üzvləri arasında üstünlüyə malik olması təbiidir. Bir vaxtlar Almaniyanın bütün poçt sisteminin mülkiyyətçisi olan Fon Turn və Taksis (Von Thurn und Taxis) ailəsi ilə müqayisədə Devid Rokfeller kasıb qohum kimi görünür. **Fon Turn və Taksis sülaləsinin 300 il yaşı var və bir-birinin ardınca onun bütün nəsillərinin Komitet 300-də yeri olub və bu yeri onlar indi də tuturlar.** Komitet 300-ün Venesiya «Qara Aristokratiyasına» məxsus ən varlı ailələrinin bir çoxunun adını biz artıq çəkmişik, digər adlar isə, biz onların müxtəlif sahələrdə fəaliyyəti ilə rastlaşanda, çəkiləcəkdir. İndi biz Komitet 300-ün amerikalı üzvlərinin adlarını çəkəcəyik və onların Böyük Britaniya Taxt-tacı ilə əlaqələrini izləməyə çalışacağıq.
Bütün bu faktları necə təsdiq etmək olar? Bunların bir coxunu işdə təsdiq etmək qeyri-mümkündür, çünki inforınasiyanın hamısı birbaşa kəşfiyyat xidmətlərinin dosyesindən götürülüb. Lakin əməlli-başlı əziyyət çəksən, onda bu faktların heç olmasa bir hissəsini təsdiq edən çoxlu mənbə tapmaq olar. Bu iş özündə «Dan və Brodstrit korporasiyaları üzrə məlumat kitabı» (Dun and Broadstreet Reference Book of Corporations), «Standard and Poor's» reytinq agentliyinin materialları, Böyük Brtaniya və Amerikanın «Kim kimdir?»

downloaded from KitabYurdu.org

(«Who's Who») almanaxlarında üzüntülü axtarışları, eləcə də kəsişən adlar və onların korporativ əlaqələri ilə bağlı informasiyaların analizi üzrə gərgin çoxsaatlıq əmək ehtiva edəcəkdir.

Komitet 300-ün korporasiyaları, bankları və sığorta kompaniyaları fəaliyyət strategiyası və koordinasiyası sahəsində ağla gələ bilən bütün aspektlər üzrə vahid idarə və nəzarət altxnda fəaliyyət göstərir. Komitet – dünyada YEGANƏ təşkil olunmuş hakimiyyət iierarxiyasıdxr və o özlərini nə qədər güclü və müdafiə olunmuş hesab etsələr belə, bütün hökumətləri və şəxsiyyətləri üstələyir. O maliyyə, müdafiə, eləcə də bütün çalarları və tipləri ehtiva edən siyasi partiyaları əhatə edir.

Elə bir təşkilat yoxdur ki, Komitet onun üzərində nəzarət qura bilməsin, özü də bu təşkil olunmuş dünyəvi dinlərə də aiddir. Deməli, bu, hakimiyyət mərkəzi Londonda və London Sitisinin maliyyə mərkəzlərində yerləşən hət şeyə qadir OLİMPİYAÇILAR QRUPUDUR. Onlar bütün mineralların, metalların və qiymətli daşların, kokain, tiryək və farmasevtik narkotiklərin mülkiyyətçisidir, hər cür kult və rok-musiqi onların nəzarəti altındadır**.** **Britaniya Taxt-tacı – bu, hər şeyin başlanğıcında duran nəzarət mərkəzidir.** Bir məsəldə deyildiyi kimi: «Hər bir kökədə onların barmağı var» («They have a finger in every pie»).
**Heç bir şübhə yoxdur ki, rabitə və telekommunikasiya sahələrinə sərt qaydada nəzarət olunur.** RCA-ya qayıdaraq, biz, onun direktoratının Böyük Britaniya və Amerikanın tanınmış hökumət və ictimai xadimlərindən ibarət olduğunu, «Beynəlxalq Münasibətlər üzrə Şura» (CFR), NATO, «Roma Klubu», «Üçtərəfli Komissiya», frankmasonçuluq, «Kəllə və sümüklər», «Bilderbergerlər», «Dəyirmi Masa», «Milner Cəmiyyəti» və «İezuit-Aristotel Cəmiyyəti» (Jesuits-Aristotle Society) və s. bu kimi təşkilatlarda da mühüm postların elə onlar tərəfindən tutulduğunu aşkar edirik. Londona köçən David Sarnoff, həmin vaxtda isə Nyu-Yorkda RCA-nın binasına köçən Vilyam Stefenson da onların arasında idi.
Amerikanın əsas üç telekompaniyasının hər biri, xüsusilə də onlardan birincisi olan «National Broadcasting Company» (NBC = MYK, Milli Yayım Kompaniyası) RCA-nın əsasında meydana çıxıb. Ondan dərhal sonra 1951-ci ildə «American Broadcasting Company» (ABC = AYK, Amerika Yayım Kompaniyası) meydana çıxdı. Üçüncü iri televiziya kompaniyası «Columbia Broadcasting System» (CBS) oldu ki, onun baakompaniyalarında ulduğu kimi, burada da Böyük Britaniya kəşfiyyatı lıaşçılıq edirdi və indi də başçılıq etməkdə davam edir. Vilyam Peyli (William Paley) beyinlərin kütləvi surətdə vuyulması texnikasına

downloaded from KitabYurdu.org

«Tavistok İnsan Münasibətləri İnslilutu»nda yiyələnib və yalnız bundan sonra o, CBS-nin rəhbəri olmaq üçün kifayət qədər kvalifikasiyalı mütəxəssis hesab olunub.
Birləşmiş Ştatlar xalqı bircə biləydi ki, bizim əsas televiziya kompaniyalarının verilişləri Böyük Britaniya senzurasına məruz qalır, onların verdikləri bütün informasiya isə əvvəl razılıq almaq üçün Londona göndərilir... Qeyd etmək maraqlı olardı ki, «Stenford Tədqiqat İnstitutu» tərəfindən yazılan və «Tavistokun», «Dolça Sui-qəsdi» kimi tanınan kəşfiyyat xarakterli məruzəsinin maliyyələşdirilməsində hər üç televiziya kompaniyası iştirak edib.

Əsas telekompaniyaların hər üçü Komitetdə təmsil olunub. Onların Nyu-York ştatının Roçester şəhərində yerləşən kütləvi kommunikasiyalar sahəsinin nəhəngi olan «Xerox Corporation» («Kseroks Korporasiyası») ilə sıx əlaqələri mövcuddur. «Xerox Corporation» kompaniyasının nümayəndəsi Robert M.Bek (Robert M.Beck) Komitetin üzvüdür. Bek həm də «Londonun Prudential Assurance Company Limited» kompaniyasının törəməsi olan «Prudential Life Insurance Company» şirkətinin direktorlarından biridir. «Xerox Corporation» kompaniyasının İdarə Heyətinə həm də «American Express Company» şirkətindən – bu şirkət «yol çekləri» vasitəsilə narkopulların yuyulmasının əsas kanallarından biridir – Hovard Klark (Howard Clark), ABŞ-ın keçmiş Maliyyə Naziri Vilyam Saymon (William Simon) və Komitet üçün Panama kanalı müqavilələri haqqında danışıqları aparan Sol Linovits (Sol Linowitz) daxildir. Linovits Komitet üçün dəyərli adamdır, çünki o, «Marine Midland Bank» və «Honkonq ənd Şanxay Bankinq Korporeyşn» (HSBC) vasitəsilə narkopulların yuyulması üzrə çox böyük təcrübəyə malikdir.
«Kseroksun» Direktorlar Şurasının daha bir üzvü Robert Sproull (Robert Sproull) bununla çox böyük maraq doğurur ki, o, «Roçester Universiteti»nin direktoru olarkon, Mərkəzi Kəşfiyyat İdarəsi vasitəsilə iş görən «Tavistok İnsan Münasibətləri İnstitutu»na «MK-Ultra» adı altında LSD ilə 20 illik eksperiment proqramının keçirilməsi üçün, universitetin otaqlarından və avadanlığından istifadə etməyə icazə vermişdi. ABŞ-ın başqa 85 universiteti də öz otaqlarını və avadanlığını eyni məqsədlə təqdim etmişdilər. Nəhəng olçülərinə baxmayaraq, «Kseroks» «Rank Organization» ilə müqayisədə – bu, Londonda yerləşən kompaniyaların konqlomeratıdır və Kraliça Yelizavetanın ailəsinin üzvlərinin tam nəzarəti altındadır – cırtdan kimi görünür.

Aşağıda «Rank Organization» konqlomeratının Direktorlar Şurasının ən mühüm üzvlərinin adları çəkiləcəkdir ki, onlar həm də Komitet 300-ün üzvləridir:

downloaded from KitabYurdu.org

***Lord Helsbi*** (Lord Llelsby), «Midland Bank»ın narkopulların kliring palatası – sədri. Helsbi həm də «Imperial Group» və «Commercial Finance Corporation» kompaniyalarının Direktorlar Şurasında postlar tutur.
***Ser Arnold Frans*** (Sir Arnold France), London metropolitenini idarə edən «Tube Investments» kompaniyasının direktorudur. Frans həm də ABŞ-ın «Federal Ehtiyat Sisteminə» daxil olan bankları sərt nəzarətdə saxlayan «İNGİLTƏRƏ BANKI»nın direktorlarından biridir.
***Ser Dennis Maunten*** (Sir Dennis Mountain), «Eagle Star» kimi qüdrətli qrupun sədri və kral ailəsinin maliyyə kompaniyalarından biri olan «English Property Corp» kompaniyasının direktorlarından biridir.
«Rank Organization» konqlomeratının Direktorlar Şurasının üzvlərindən biri, çox hörmətli ***Anqus Ogilvidir*** (Angus Ogilvie). Şotland ritallı Masonluğun başçısı olan Hersoq Kentskinin bacısı Şahzadə Aleksandra ilə evlənən «Kompaniyalar Knyazı» Ogilvi, Kraliça Böyük Britaniyanı tərk edəndə onun əvəzində ölkədə qalan adamdır. Ogilvi həm də «İngiltərə Bankı»nın direktorlarından biri və nəhəng «LONRHO» konqlomeratının sədridir. Rodeziyada Yan Smit rejimini məhz «LONRHO» kompaniyası sarsıtmışdı ki, Robert Muqabe onun yerini tutsun. Bunun bahası Rodeziyanın xrom yataqları idi ki, dünya bazarına çıxarılan xromun ən keyfiyyətlisi məhz burada hasil edilir.
***Siril Hamilton*** (Cyril Hamilton), «Standard and Chartered Bank»ın (Lord Milner və Sesil Rodsun qocaman bankı) direktoru və «İngiltərə Bankı»nın İdarə Heyətinin üzvüdür. Hamilton həm də «Xerox Corporation», «Malta International Banking Corporation» («Malta Cəngavərlərinin Bankı») korporasiyalarının Direktoılar Şurasının üzvü, Cənubi Afrika ölkəsinin ən iri banklarından olan «Standard Bank»ın direktorlarından biri, eləcə də «Banque Belge d’Afrique» bankının Direktorlar Şurasının üzvüdür.
***Lord O’Brien*** (Lord O’Brien of Lotherby), «British Bankers Association» («Britaniya Banklar Assosiasiyası») bankının keçmiş prezidenti, nüfuzlu «Morgan Grenfell» investisiya bankıran direktoru, «Prudential Assurance»nin Direktorlar Şurasının üzvü, «J.P.Morgan Bankının», «İngiltərə Bankının», «Beynəlxalq Hesablaşmalar Bankının» Direktorlar Şurasının üzvü, həmçinin də «Unilever» kimi nəhəng konqlomeratın Direktorlar Şurasının üzvüdür.
***Ser Rey Cedds*** (Reay Geddes), avtomobil şinlərinin islehsalı üzrə nəhəng «Dunlop» və «Pirelli» kompaniyalarının Direktorlar Şurasının sədri, «Midland Bank» və «International Bankının» Direktoılar Şurasının üzvü, eləcə də «İngiltərə Bankının» Direktoılar Şurasının üzvüdür.
Bu nüfuzlu adamların neçəsinin «İngiltərə Bankının» direktoru olduğuna diqqət yetirin – bu, Amerikanın maliyyə siyasətinə asanlıqla nəzarət etməyə imkan verir.

downloaded from KitabYurdu.org

Bu təşkilatların və idarələrin, kompaniya və bankların əksəriyyəti qarşılıqlı surətdə bir-biri ilə elə bir dərəcədə bağlıdır ki, onları bir-birindən ayırmaq demək olar mümkün deyil. RCA-nın Direktorlar Şurasında yer tutan «Atlantic Richfield» kompaniyasının prezidenti Tornton Bredşou (Thornton Bradshaw) həm də NATO-nun, «World Wildlife Fund»un («Vəhşi Təbiətin Ümumdünya Fondu»), «Roma Klubu»nun, «Aspen Humanitar Tədqiqatlar İnstitutu»nun və «Beynəlxalq Münasibətlər üzrə Şura»nın üzvüdür. Bredşou həm də NBC telekompaniyasının sədridir. RCA-nın ən mühüm funksiyası isə hələ də Böyük Britaniya kəşfiyyatının maraqlarına xidmət etməkdir.

Senator MakKartinin Mərkəzi Kəşfiyyat İdarəsinin fəaliyyətinin araşdırılması üzrə təzəcə başladığı təhqiqatın dayandırılmasında həlledici rolu məhz Komitet 300un oynadığı faktı geniş kütlələrə məlum deyildir. Əgor MakKarti bu işdə uğur qazana bilsəydi, onda, çox ola bilsin, Kennedi bu gün də sağ-salamat olardı.

MakKarti təhqiqat üzrə öz komissiyasına sorğu-sual üçün Vilyam Bandini (William Bundy) çağırmağa hazırlaşdığını bildirəndə, Vaşinqton və London bir-birinə dəydi. Əgər onu and altında ifadə verməyə məcbur etsəydilər, Bandi Böyük Britaniyanın oliqarxik dairələri ilə onların ABŞ hökumətindəki kuzenləri arasında mövcud olan «xüsusi münasibətləri» faş edə bilərdi.

Buna yol vermək olmazdı. «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»na MakKarti ilə qurtarmaq tapşırığı verildi. «Beynəlxalq İşlər üzrə Kral İnstitutu» MakKartiyə hücuma başçılıq etmək üçün Allen Dallesi – Böyük Britaniyanın dekadent cəmiyyətinə tamamilə valeh olan adamı – seçdi. Dalles MakKartinin işini Patrik Limana və Riçard Helmsə tapşırdı. MakKartiyə qarşı fəaliyyəti müqabilində Helms bir müddət sonra MKİ-nin direktoru postu qismində mükafat aldı.

Prezident Eyzenhauer MakKartinin MKİ-yə bu güclü hücumunu dəf etməyi, «Beynəlxalq Münasibətlər üzrə Şura»nın üzvü və London cəmiyyətinin sevimlisi General Mark Klarka (Mark Clark) tapşırdı. Klark «Agentliyin Fəaliyyətinin Araşdırılması üzrə Xüsusi Komitə»nin yaradılmasının zəruri olduğunu bəyan edəndən sonra, təşəbbüs MakKartinin əlindən alındı. «Beynəlxalq İşlər üzral Kral İnstitutu» tərəfindən təlimatlandırılan Klark Konqresin Nəzarət Komissiyasına «hökumətin kəşfiyyat agentliklərini vaxtaşırı yoxlamağı» məsləhət gördü. Hər şej Amerika üçün dərin faciə və MakKartinin təsadüfən Komitet 300 və onun Birləşmiş Ştatların həyatının bütün aspektlərini idarə etməsi ilə rastlaşa biləcəyindən qorxan britaniyalıların qələbəsi ilə başa çatdı.

downloaded from KitabYurdu.org

«Lehman Brothers» və «Kuhn Loeb's» banklarının keçmiş sədri ***Piter G.Peterson*** (Peter G.Peterson) Mİ-6-nın keçmiş şefi Vilyam Vaysmana xidmət etmişdi və Böyük Britaniyanın kral dairələrində yad adam deyildi. Piterson Böyük Britaniya kəşfiyyatının daha bir filialı – «AspenHumanitar Tədqiqatlar İnstitutu» ilə bağlıdır.
***Con R.Petti*** (John R.Petty) «Marine Midland Bank»ın prezidenti və Direktorlar Şurasının sədridir. Bu bankın narkotika ticarəti ilə əlaqəsi, «Honkonq ənd Şanxay Bankinq Korporeyşn» onun üzərində nəzarəti ələ alandan hələ çox-çox əvvəl qurulmuşdu. «Honkonq ənd Şanxay Bankinq Korporeyşn» bankı isə, çox güman, tiryək ticarətində bir nömrəli bankdır və bu mövqeni 1814-cü ildən tutur.
Lakin Komitet 300-ün mövcudluğuna dair mənim təklif edə biləcəyim ən yaxşı dəlil – bu, «Rank Organization» konqlomeratlarıdır ki, o «Eagle Star» ilə birlikdə, mahiyyət etibarilə, BRİTANİYA TAXT-TACI deməkdir. «Rank Organization» həm də Mİ-6-nın qara əməliyyatlar mərkəzidir. Komitet 300-ün bu iki kompaniyası Ülyahəzrət Kraliçanın dominionu olan Kanadaya tam şəkildə nəzarət edir və öz direktivlərinin həyata keçirilməsi üçün «saraya yaxın yəhudi» – Bronfmanlar ailəsindən istifadə edir.

Nominal olaraq Bronfmanlar ailəsinin mülkiyyətində olan «Trizec Holdings» kompaniyası, əslində İngiltərə kraliçasının Kanadadakı mülkiyyətidir. Cənubi-Şərqi Asiyada bütün tiryək ticarəti bu və ya digər şəkildə Bronfman imperiyası ilə bağlıdır. Bu imperiya həm də heroinin Amerikaya gətirildiyi kanallardan biridir. Kanada müəyyən mənada İsverçrəyə bənzəyir – təmiz, ayaq dəyməyən qarlı landşaftlar, çox gözəl təbiət mənzərələri. Lakin bütün bunların altında genişmiqyaslı heroin ticarətinin çirkab və idbarlığından ibarət qalın təbəqə vardır.

Bronfmanlar – bu ailə Mİ-6-da «birinci eşelonun adamları» adlandırılan, müəyyən mənada, «şəbəkə qoruyucularıdır». Onlara Londondan «kabinet adamları» («deskmen» – hərfi tərcümə, «yazı masası adamları» – Mİ-6 kəşfiyyatçılarının mənzil-qərargahdan təşrif buyuran nəzarətçiləri müəyyən etmək üçün istifadə etdikləri jarqon ifadədir) nəzarət edir. Ailənin başçısı Edqar Brofman dəfələrlə «Moskvadakı mərkəzə» – Moskvada Dzerjinski meydanı, ev 2-də yerləşən KQB Baş İdarəsi Mİ-6-da üstüörtülü belə adlandırılırdı – göndərilmişdi.

Aşağı səviyyədə Moskva ilə kontaktlar üçün Bronfman, çox güman, kifayət qədər faydalı adam idi. Bronfman heç vaxt Mİ-6-nın ştat üzrə agenti olmayıb və buna görə də ona heç vaxt fərdi «parol» – agentlər arasında qarşılıqlı identifikasiya üçün açar-söz – verilməyib və bu da Bronfmanlar ailəsinin işgüzar başçısını bərk narahat edirdi. Belə bir mərhələ də olub ki, nəzarətçilər ailənin bəzi üzvlərinin özlərini şübhəli apardıqlarını güman edib, buna görə də

downloaded from KitabYurdu.org

ailəyə «baxanlar» («watcher» – kəşfiyyatçılara məxsus jarqonda xarici müşahidə üzrə mütəxəssisləri ifadə edir) qoşulmuşdu. Lakin yalnız bu müəyyən edildi ki, Bronfmanlardan biri Birləşmiş Ştatlardan olan və Edqar Bronfmanın rolundan xəbəri olmayan «kuzenə» (Mİ-6-nın MKİ üçün termini) ağzından nə isə qaçırıbmış. Bu səhvi tez düzəltmək mümkün olmuşdu.

«Eagle Star» kompaniyasının iki direktoru – onlar da Mİ-6-nın həlledici əməkdaşlarından idi – Bronfmanlar ailəsini müharibə qurtarandan altı ay sonra nəzarət altına almışdı. Kitabın əvvəlində artıq rast gəldiyimiz Ser Kennet Keyt (Sir Kenneth Keith) və Ser Kennet Stronq (Sir Kenneth Strong) «Trizec Holdings» kompaniyasını təsis edərək Bronfmanlar ailəsini «qanuniləşdirdilər». Özünün «birinci eşelonunun» fəaliyyətini kommersiya kompaniyaları vasitəsilə təşkil etmək sahəsində Mİ-6-nın dünyada tayı-bərabəri yoxdur.

İsveçrədə olduğu kimi, Kanadanın da çirkli tərəfi vardır. Lakin Komitet 300 bunu kənar nəzərlərdən, 1913-cü ildə Böyük Bitaniyada qəbul olunmuş qanundan sözbəsöz köçürülən, «Rəsmi sirlər haqqında Akt» maneəsi ilə yaxşıca gizlədib. Narkotiklər, çirkli pulların yuyulması, cinayətlər və reket – bütün bunların üstü bu biabırçı aktla örtülüb.

Çoxlarına məlum deyil ki, Taxt-tacın agentləri tərəfindən ürəkləri istəyən şəkildə interpretasiya oluna bilən «Rəsmi sirlər haqqında Akt» üzrə ittiham olunanlara hətta ölüm hökmü də kəsilə bilər və 1980-ci ildən başlayaraq mən bununla bağlı dəfələrlə çıxış etmişəm.

Kanada Cənubi Afrika və ya Hollandiya, və yaxud da Belçikaya bənzər deyil; Kanada həmişə İngiltərə kraliçasının önlüyünün bağlarına bağlı vəziyyətdə olub və indi də bu vəziyyətdə qalmaqdadır. Biz müəyyən edə bildik ki, Kraliça Yelizavetanın arzularının yerinə yetirilməsi Işində Kanada həmişə hamıdan irəlidə gedir. Kanadanın qoşunları, Bur müharibəsi də (1899-1902-ci illər) daxil olmaqla, Ülyahəzrət Kraliçanın apardığı bütün müharibələrdə iştirak edib.

Amerikadakı analoqu kimi, «Kanada Beynəlxalq İşlər tnstitutu» da «Beynəlxalq İşlər üzrə Kral İnstitulu»nun kreaturasıdır və Kanadanın siyasətini idarə edir. 1925-ci ildə bu institutun əsası qoyulan vaxtdan etibarən Kanadanın Dövlət Katibi postunu onun üzvləri tutur. Perl Harbora hücuma şərait yaratmış idarə olan «Sakit okean Münasibətləri İnstitutu» Kanadada razılıqla qəbul edildi. Bu hadisə, Ouen Lattimor (Owen Lattimore) və onun əməkdaşlarına qarşı 1947-ci ildə dövlətə xəyanət ittihamı irəli sürüləndən və onlar məhkəmə qarşısına gətirilmələrini gözləməyərək Birləşmiş Ştatları tərk edəndən sonra baş vermişdi.

downloaded from KitabYurdu.org

«Kanada Beynəlxalq İşlər İnstitutu», İkinci Dünya Müharibəsinin sonunda Mİ-6-da ikinci adam olan Ser Kennet Stronq vasitəsilə «Rank Organization» ilə bağlıdır. «Müqəddəs İonn Yerusalimski Ordeni»nin üzvü olaraq, Ser Kennet Stronq Kanadada «Rank Organization» və Böyük Britaniya taxt-tacının kommersiya maraqlarına nəzərən ikinci adamdır. O, «Hong Kong and Shanghai Banking Corporation» bankından sonra ən inkişaf etmiş narkobanklardan biri olan «Bank of Nova Scotia» («Yeni Şotlandiyanın Bankı») bankının Direktorlar Şurasının üzvüdür. Kanadada heroin ticarətindən gələn pullar bu bank vasitəsilə yuyulur.

Kanadada bir nömrəli adam isə «Müqəddəs İonn Yerusalimski Ordeni»nin yüksək dərəcəli üzvü Ser Brayan Edvard Mauntindir. Burada xatırlatmaq yerinə düşərdi ki, Böyük Britaniya İkinci Dünya Müharibəsinə Birləşmiş Ştatların qoşulmasını istəyəndə, müvafiq əmri çatdırmaq üşün Prezident Ruzveltlə görüşə Lord Biverbruk və Ser Brayan Mauntin göndərilmişdi. Ruzvelt tabe oldu və ABŞ Hərbi-Dəniz Qüvvələrinə hərbi əməliyyatları Qrenlandiyadakı hərbi bazadan başlamaq əmrini verdi – Perl Harbordan doqquz ay əvvəl Almaniyanın sualtı gəmilərinə hücumlar məhz buradan həyata keçirilirdi. Bu, Konqresi xəbərdar etmədən və onun razılığı olmadan edilmişdi.

Kanada ilə «Rank Orqanization» arasında qarşılıqlı münasibətlərdə daha bir əhəmiyyətli ad, «Honkonq ənd Şanxay Bankinq Korporeyşn» bankının Kanadada ekvivalenti, narkopulların yuyulması çirkabına batmış «Bank of Nova Scotia» bankının Direktorlar Şurasının üzvü Ser Kennet Keyt idi. Başqaları kimi o, da Londonun qocaman qəzetləri olan «Tayms» və «Sandi Tayms» qəzetlərinin Direktorlar Şurasına daxil idi. «Tayms» artıq 100 ildən çoxdur ki, xarici siyasətdə, maliyyə işlərində və İngiltərənin siyasi həyatında kral ruporudur.

Ser Kennet nominal olaraq üzvü olduğu «Kanada Beynəlxalq İşlər İnstitutu»nun adından çıxış edərək, Komitet 300-ün bir çox üzvləri kimi, Mİ-6 ilə Honkonqdan və Çindən tiryək göndərilməsinin idarə ierarxiyası arasında fırlanırdı. Üstəlik də, o, «Hill Samuel» bank evinin Direktorlar Şurasının üzvü olduğu üçün, ona tez-tez Honkonq və Çində olmağını izah etmək problem deyildi. Onun Mİ-6 dairəsindən kənarda ən yaxın əməkdaşlarından biri, Böyük Britaniyanın istər mühafizəkar, istərsə də leyboristlərdən olan bütün baş nazirləri üzərində Komitet 300 tərəfdən bilavasitə nəzarətçi olan Ser Filipp de Zuleta (Sir Philip de Zuleta) idi. Ser Kennet Stronqun narkotiklərlə əlaqəli olan bütün hər şeyə, o cümlədən də terrorizmə, tiryək iştehsalına, qızıl bazarlarına, çirkli pulların yuyulmasına və bütün narkobiznesin mərkəzi – Böyük Britaniya taxt-tacının bank əməliyyatlarına aidiyyəti vardır.

downloaded from KitabYurdu.org

Böyük Britaniya taxt-tacının Kanada üzərində nəzarəti Ser Uolter Qordonun (Walter Gordon) rəhbərliyi altında həyata keçirilir. Kraliçanın şəxsi nəzarət kontorunun – bu, həm də «Məxfi Şura» (Privy Council) kimi tanmır – keçmiş üzvü olan – Qordon «Sakit okean Münasibətləri İnstitutu»nu «Kanada Beynəlxalq İşlər İnstitutu» vasitəsilə dəstəkləyirdi. Keçmiş maliyyə naziri olan Qordon Komitet 300-ün seçdiyi mühasibatçıları və vəkilləri ölkənin əsas üç bankına – «Bank of Nova Scotia», «Canadian Imperial Bank» və «Toronto Dominion Bank» – işə qəbul etdirə bilmişdi.

Çirkli narkopulların yuyulması üzrə, birbaşa Çinə giriş kanalı olan, əməliyyatlar arasında həcminə görə ikinci yeri tutan əməliyyatı Komitet 300-ün Qordona tabe olan casuslar şəbəkəsi bu üç «taxt-tac bankı» vasitəsilə koordinasiya edirdi. Qordon ölən gününə qədər Ceyms Endikotta (James Endicott), Çester Ronninqə (Chester Ronning) və Pol Linnə (Paul Linn) nəzarət edib. Mİ-6 bu adamları Kanadada «Çin üzrə ən yaxşı mütəxəssis» kimi müəyyən etmişdi. Onların hər üçü Çjou En Layla sıx işləyirdilər. Necə olmuşdusa, Çjou En Lay Kamal Əbdul Nəsirə demişdi ki, o, Böyük Britaniya və ABŞ-ın başına, onların Çinlə etdiyini gətirərdi, yəni onları heroin narkomanı millətinə çevirərdi. Vyetnamda amerikalı əsgərlərdən başlayan Çjou En Lay öz vədini demək olar yerinə yetirdi. Canadanın heroin-narkotik halqasında başqa bir fəal əməkdaş Con V.Cilmer (John D.Gilmer) və Con Robert Nikolson (John Robert Nicholson) idi. Onların hər ikisi «Müqəddəs İonn Yerusalimski Ordeni»nin üzvüdür.
***Lord Hartli Şoukross*** - «Beynəlxalq Işlər üzrə Kral İnstitutu»nun Direktorlar Şurasının üzvü və Susseks Universitetinin – yaxşı ad çıxarmayan «Tavistok İnsan Münasibətləri İnstitutu» burada yerləşir – fəxri rektoru olub və Kanada ilə sıx bağlı idi. Ehtimal edirlər ki, o, bilavasitə Kraliça II Yelizavetaya tabe olurdu.
«Rank Organization» korporasiyasının ABŞ-da keçirdiyi əməliyyatlara gəlincə, bunlardan ən müvəffəqiyyətlisini «Metropolitan Life Insurance Company» və «New York Life Insurance Company» sığorta şirkətlərinin mülkiyyətçisi olan «Corning Group» kompaniyasının fəaliyyəti hesab etmək olar. Komitet 300-ün üzvləri olan Amori Houton (Amory Houghton) və onun qardaşı Ceyms Houton (James Houghton) adları çəkilən sığorta şirkətləri, eləcə də «Corning Glass», «Dow Corning» və «Corning International» vasitəsilə artıq çox uzun müddətdir ki, Böyük Britaniya taxt-tacına xidmət edirlər. Onların hər ikisi «İBM»in və «Citiqrupun» Direktorlar Şurasının üzvüdür. Ceyms Houton «Priston Ən Yeni Tədqiqatlar İnstitutu»nun («Princeton Institute for Advanced Studies»), eləcə də «Kral Beynəlxalq İşlər İnstitutu» və «Beynəlxalq Münasibətlər üzrə Şura»nın dayağı hesab edən «C.Pyerpont Morqan Kitabxanası»nın («J.Pierpont Morgan Library») Direktorlar Şurasının üzvü, həmçinin də CBS telekompaniyasının direktorlarından biridir.

downloaded from KitabYurdu.org

Merilend ştatında «Uayi Plantasiyası» kimi tanınan yüzlərlə akr sahəni Böyük Britaniya taxt-tacının «Aspen Humanitar Tədqiqatlar İnstitutu»na məhz Houton qardaşlarından biri hədiyyə etmişdi. «Corning Glass» kompaniyasının Idarə Heyətində həmçinin də Bostonun Anqlikan (yepiskopal) Kilsəsinin yepiskopu da əyləşib. Bütün bunlar bu qrupa, sığorta şirkətlərinin icraçı məmurlarına xas olan təkəbbürlü görkəm verir. Aşağıda biz görəcəyik ki, Ceyms Houtonla yanaşı, Keyt Fanston və Con Harper də – onların hər ikisi «Corning Glass» kompaniyasının İdarə Heyətində təmsil olunub – «Metropolitan Life İnsurance Company» sığorta şirkətini idarə edənlərin arasındadırlar.

Komitet 300-ün təkcə bu strukturunun bir-birinə sıx nüfuz etməsi və bir-biri ilə sıx qarşılıqlı əməkdaşlığı sui-qəsdçilər iearxiyasının sərəncamında olan və hamının, o cümlədən də Birləşmiş Ştatlar prezidentinin qarşısında diz çökdüyü hakimiyyətin nəhəngliyi barədə təsəvvür yaradır.

YÜZLƏRLƏ kompaniyadan biri olan bu Amerika şirkətinin – Birləşmiş Ştatların biznes və siyasətinin bütün aspektlərinə daxil olmağa can atan kompaniyaların funksionerləri və rəhbərlərnin bütöv şəbəkəsi haqqında hələ heç danışmırıq – Böyük Britaniya kəşfiyyatı ilə qarşılıqlı sıx əlaqə şəraitində Kanadada, Uzaq Şərqdə və Cənubi Afrikada işləri necə həyata keçirdiyini qeyd etmək vacibdir.

«Metropolitan Life Insurance Company» Komitet 300-ün nəhəngi – «Assicurazioni Generale» ilə müqayisə oluna bilməz. Lakin, bununla belə, bu kompaniya, Houtonun hakimiyyətinin ABŞ və Kanadanın bütün işgüzar spektrinə nə dərəcədə bərqərar olduğunu parlaq surətdə nümayiş etdirir. Houtonun təsir dairəsi «R.H.Masy» (sıravi işçiləri kompaniyanın kommunizmin təəssübkeşi olduğunun əlaməti kimi qırmızı bant artıq gəzdirmirlər), «the Royal Bank of Canada», «National and Westminster Bank», «Intertel» (kinli və alçaq özəl kəşfiyyat agentliyi), «Canadian Pacific», «The Reader's Digest» (sovet jurnalı), «RCA», «AT&T», «the Harvard Business School» («Harvard Biznes Məktəbi»), «W.R.Grace Shipping Company», «Ralston Purina Company», «U.S.Steel», «Irving Trust», «Consolidated Edison of New York and ABC» və davam edərək, «Hong Kong and Shangai Bankinq Corporation» bankına qədər sirayət edir.

«Rank Organization»nun ABŞ-da uğurlu kompaniyalarından biri də «Reliance Insurance Group» sığorta şirkətidir. «Strateji Bombardmanların Planlaşdırılması İdarəsi»nin tərkib hissəsi olaraq «Reliance Insurance Group», «Tavistok İnsan Münasibətləri İnstitutu»nun ABŞ-da tətbiq etdiyi beyinlərin yuyulması, ictimai rəyin formalaşdırılması, müşahidə,

downloaded from KitabYurdu.org

seçkilərin təşkili və sistemli təhlili üçün ilkin struktur bazanı təşkil edir. Mənzil-qərargahı Filadelfiya ştatında olan «Reliance Insurance Company» «Strateji Bombardmanların Planlaşdırılması İdarəsi»nə Birləşmiş Ştatlarda xəyanətkar fəaliyyəti başlamağa imkan verən korporativ struktur yaratdı. Artıq 45 ildir ona qarşı qəddarcasına psixoloji müharibə aparıldığı isə Birləşmiş Ştatlar xalqının heç ağlına da gəlmir.

ABŞ-a qarşı aparılan bu müharibənin həlledici simalarından biri Komitet 300-ün «Wilkie, Farr and Gallagher» hüquq firmasından olan David Byalkin (David Bialkin) idi. Byalkin uzun illər ərzində «Antidiffamasion Liqa»ya rəhbərlik edib. «Antidiffamasion Liqa» Böyük Britaniya kəşfiyyatının strukturudur. Onu ABŞ-da Mİ-6 təsis edib və burada «Antidiffamasion Liqaya» «Tavistokdan» olan Sual Ştaynberq (Saul Stemberg) və Erik Trist (Eric Trist) rəhbərlik edib. ***Sual Ştaynberq*** - London ailəsi olan Cekob Rotşildin nümayəndəsi və işgüzar tərəfdaşıdır.
«Reliance Corporation» – Eli Blek (Eli Black) Nyu-Yorkdakı göydələnin 44-cü mərtəbəsindən «yıxılandan» sonra onun yerini tutan Karl Lindnerin (Carl Lindner) doğma evi olmuşdu. «Reliance Corporation» Maks Fisberin (Max Fisber) rəhbərlik etdiyi Boston və Nyu Orleanda yerləşən çox güclü «United Fruit Company» kompaniyası ilə qarşılıqlı fəatıyyətdədir. Maks Fisberin özünü işə, sözün əsl mənasında, çirkabdan yumaq lazım gəlmişdi, çünki o, Detroytun cinayətkar dünyasının görkəmli fiquru idi. «United Fruit Company» artıq uzun müddətdir ki, ABŞ-a heroin və kokain gətirilməsi üçün kanal rolunu oynayır və bu, Kanadadan narkotiklərin ABŞ-a gətirilməsinə başçılıq edən «Rapid American Corporation» kompaniyasından olan Misbulam Riklisin təcrübəli rəhbərliyi altında həyata keçirilir. Xatırlatmaq lazımdır ki, bütün bunlar yalnız bircə, bir çox nisbətən xırda kompaniya və təşkilatla sıx bağlı olan, kompaniyanın bayrağı altında baş verir ki, onlar hamısı birlikdə Komitet 300-ün nəzarəti altında olan dəqiq toxunmuş vahid şəbəkəni təşkil edir.

**İCTİMAİ RƏYLƏ MANİPULYASİYA**
«Reliance Group» baş kompaniyanın şöbəsidir və onun əsas vəzifəsi, birbaşa «Tavistok İnsan Münasibətləri İnstitutu» ilə bağlı olan «ictimai rəyin manipulyatorları» vasitəsilə Amerika xalqının beynini yumaqdan ibarətdir. «Leasco» assosiasiyalaşmış daha bir kompaniyadır və o «AT&T» (American Telephone & Telegraph), «Disclosure Incorporated», «Western Union International», «Imbucon Ltd.» və «Yankelovich, Skelly and White» kompaniyaları ilə sıx əməkdaşlıq edir.

downloaded from KitabYurdu.org

***Daniel Yankeloviç*** (Daniel Yankelovich) – ictimai rəyin yaradılması və seçkilərin keçirilməsi üzrə korporativ strukturun, Edvard Berneysdən (Edward Bernays) iqtibas gətirsək, «sosial, iqtisadi və siyasi həyatın problemləri üzrə rəy yaradan» nəhəng aparatın imperatorudur. Bu, indiyə qədər Səddam Hüseyn barədə heç nə eşitməyən və Iraqın haradasa Yaxın Şərqdə yerləşdiyi barədə dumanlı təsəvvürləri olan amerikalıların əksəriyyətini gözünü qan tutmuş və İraqın bir millət kimi məhv edilməsini tələb edən adamlara çevirmiş elə həmin o nəhəng aparatdır.
Yankeloviç Ikinci Dünya Müharibəsi dövründə topladığı biliklərin hamısını tam həcmdə istifadə etdi. Öz sahəsində Yankeloviçin tayı-bərabəri yoxdur və buna görədir ki, onlar ABC kompaniyasının keçirdiyi rəy sorğularının nəticələrində həmişə «ictimai rəyin» avanqardında gedirlər. Birləşmiş Ştatların əhalisi də, alman yaşayış kvartalları kimi, hədəfə çevrilib, yalnız hücuma məruz qalan onun sağlam düşüncəsi və reallıq hissidir. Bu metodika, əlbəttə, müəyyən kəşfiyyat təşkilatlarının, o cümlədon də Mərkəzi Kəşfiyyat İdarəsinin standart hazırlıq proqramının bir hissəsini təşkil edir.

Yankeloviçin vəzifəsi Amerikanın milli dəyərlərini dağıtmaq və onları Yeni eranın – «Dolça Erasının» dəyərləri ilə əvəz etmək idi. Yankeloviç Komitet 300-ün ən əsas ictimai rəy yaradıcısı olduğu üçün o, şübhəsiz, öz işini parlaq surətdə yerinə yetirir.

***Con Neysbitin*** (John Naisbitt) «Tendensiyalar Haqqında Məruzə» işindən verəcəyimiz sitat, bu fəaliyyətdə hansı metodlardan istifadə olunduğu və hansı nəticələr gözləndiyini aydın göstərir. Neycbit prezident Lindon Consonun, «Eastman Kodak», «IBM», «Amercian Express», «Siyasi Tədqiqatlar Mərkəzi», «Chase Manhattan bank», «General Motors», «Louis Harris Polls» kompaniyalarının, Ağ Evin, «Həyatın Sığortalanması İnstitutu»nun, «Amerika Qırmızı Xaçı»nın, «Mobil Oil», «British Petroleum» və Komitet 300-ün bir çox digər kompaniya və təşkilatlarının müşaviri idi. Onun Mİ-6-nın «Tavistok İnsan Münasibətləri İnstitutu»nun prosedurlarından götürülən metodologiyası, əlbəttə, unikal deyildir:
*«Mən bizim metodologiyanı qısaca təsvir edim. Müştərilərimiz üçün «Tendensiyalar haqqında Məruzə» işlənib- hazırlanarkən, biz, əsas etibarilə, lokal hadisə və davranışların monitorinqi sisteminə əsaslanırdıq. Bu cəmiyyətin nə dərəcədə «baş-ayaq» qurulduğu bizi bərk heyrətləndirdi, ona görə də biz Vaşinqtonda və ya Nyu-Yorkda baş verənləri yox, yerlərdə baş verənləri izləyirdik. Hadisələr Los-Ancelesdə, Tampda, Hartfordda, Viçitada, Portlenddə, San-Diyeqoda və Denverdə başlanır. «Baş-ayaq» çevrilmiş cəmiyyət nöqteyi-nəzərindən bu, çox vacibdir».*

downloaded from KitabYurdu.org

*«Həmin tendensiyaların müəyyən edilməsində istifadə olunan izləmə konsepsiyası öz başlanğıcını Ikinci Dünya Müharibəsi dövründən götürür. O vaxt kəşfiyyatlardakı ekspertlər düşmən ölkələr haqqında elə informasiyanın əldə edilməsi metodunu tapmaq istəyirdilər ki, adətən bu cür informasiyanı ictimai rəy sorğularında alırlar. Pol Lazarfeldin (Paul Lazarsfeld) və Qorald Lasvellin (Harold Laswell) rəhbərliyi altında bu cəmiyyətlərdə baş verənlərin monitorinqi metodu işlənib-hazırlandı ki, bura həm də gündəlik mətbuatın məzmununun təhlili də daxil idi».*

*«İctimai şüurun vəziyyətinin monitorinqi üzrə bu metod kəşfiyyat xidmətlərinin ən sevimli metodu olaraq qalmaqda davam etsə də, bütün dünyada mətbuatın təhlil olunmasına ölkə hər il mliyonlarla dollar xərcləyir... Cəmiyyətdə dəyişikliklərin monitorinqi üzrə bu sistemin belə yaxşı işləməsinin səbəbi bundan ibarətdir ki, qəzetlərdəki «xəbərlər bloku» – bu, bağlı, dəyişməz sistemdir. İqtisadi mülahizələrə görə qəzetlərdə xəbərlər bloku daimi dəyişməz ölçülərə malik olur.*

*Buna görə də xəbərlər blokunda nə isə yeni bir şey meydana cıxırsa, onun ölçülərinə müvafiq olaraq köhnə nə isə oradan yox olmalı və ya dəyişməlidir. Burada qapalı sistem daxilində məcburi seçim prinsipi işə düşür. Belə vəziyyətdə ictimai şüur həmişə ortaya atılan yeni «problemlərə» keçir və köhnələri tez unudur. Biz həm yeni «problemləri», həm də cəmiyyətin artıq maraq dairəsində olmayan problemləri izləyirik.*

*Çox guman ki, (Aşkar olan budur ki,) bütövlükdə cəmiyyətlər, elə insan fərdləri kimidir. Mən dəqiq sayını bilmirəm, lakin insan eyni vaxtda şüurunda yalnız müəyyən sayda problem və qayğı saxlaya bilər. Əgər yeni problem və qayğdar əlavə olunursa, onda bu vaxt köhnələr sadəcə olaraq sıxışdırılıb şüurdan çıxarılır. Biz, amerikalılar üçün indiki anda nəyin aktual olduğunu və onların nədən imtina etdiklərini izləyirik.*

*Birləşmiş Ştatlar industrial cəmiyyətdən sürətlə informasiya cəmiyyətinə keçir və bunun nəticələri 19-cu əsrdə kənd təsərrüfatı cəmiyyətindən sənaye cəmiyyətinə keçidlə müqayisədə daha dərin olacaqdır. 1979-cu ildən başlayaraq ABŞ-da əsas peşə-fəhlə və ya fermeri əvəz edən klerk işi oldu. Bu sonuncu təsbit özündə Birləşmiş Ştatların qısa tarixini ehtiva edir».*

Təsadüfi deyildir ki, Neysbit «Roma Klubu»nun üzvü və Komitet 300-ün «ən yüksək funksionerlərından» biridir. Həmçinin də o, «Yankelovich, Skelly and White» kompaniyasının baş vitse-prezidentləri siyahısına daxildir. Neysbitin məşğul olduğu iş tendensiyaların qabaqcadan göstərilməsi yox, onların YARADILMASIDIR. Birləşmiş Ştatların maşınqayırma sahəsindən başlayaraq ölkənin industrial bazasının necə dağıdıldığını biz artıq görmüşük. 1982-ci ildə mən «Polad industriyasının ölümü» adlı iş yazmışdım və orada bildirmişdim ki, 1990-cı illərin ortalarında ABŞ-da polad istehsalı

downloaded from KitabYurdu.org

geriyə artıq yol olmayan nöqtəyə qədər aşağı düşəcək, avtomobil və evtikmə industriyası da onun yolu ilə gedəcəklər.

Bütün bunlar artıq baş verib və bu gün şahidi olduğumuz heç də qeyri-kompetent iqtisadi siyasətin meydana çıxardığı müvəqqəti iqtisadi zəifləmə deyildir. Bizim industrial bazamızın şüurlu surətdə dağıdılması və ölkənin onurğa sütununu təşkil edən Amerikanın unikal orta sinfinin məhv edilməsidir ki, sonuncunun varlığı industrial inkişaf və sabit məşğulluqdan asılıdır.

Bu, ciddi surətdə 1991-ci ilin yanvarında başlanan iqtisadi tənəzzülün depressiyaya çevrilməsinin səbəblərindən biridir ki, bunun nəticəsində biz altmışıncı və yetmişinci illərdə dünyanın tanıdığı Birləşmiş Ştatları, ola bilsin, artıq heç vaxt görməyəcəyik. İqtisadiyyat, hər halda 1995-1996-cı illərədək – Birləşmiş Ştatlar tənəzzül başlanan vaxtadək olduğundan tamamilə fərqli bir cəmiyyətə çevrilənə qədər, depressiyadan çıxmayacaqdır.

İctimai rəyi yaradanlar Birləşmiş Ştatlara qarşı aparılan bu müharibədə heç də az rol oynamırlar; biz uzağagedən bu dəyişikliklərin həyata keçirilməsində Komitet 300-ün rolunu, eləcə də ictimai rəyin həmişə yalnız gözəgörünməz hökumətin siyasətini ifadə etməsi üçün sosial mühəndislərin sistemli analizi necə istifadə etdiklərini tədqiq etməliyik. Bütün bunlar necə və harada başlanıbdır?

Londonun Uaytholl küçəsində yerləşən Böyük Britarliya Müdafiə Nazirliyində toplayıb və öyrənə bildiyim birinci Dünya müharibəsinə aid olan sənədlərdən belə çıxır ki, Komitet 300 «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»na hərbi informasiya ilə manipulyasiya etmək barədə tapşırıq vermişdi. Bu məsələ Lord Nortklifə (Lord Northcliffe), Lord Rotmerə (Lord Rothmere) və Mİ-6-nın «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nda agenti olan Arnold Toynbiyə (Arnold Toynbee) tapşırılmışdı. Lord Rotmerin ailəsi hökumətin müxtəlif niyyətlərinə dəstək verilməsi üçün istifadə olunan bir qəzetin sahibi idi və hesab edilirdi ki, bu qəzet ictimai rəyi, xüsusilə də müharibə əleyhdarlarının artmaqda olan sıralarında mövcud olan rəyi dəyişdirə biləcəkdir.

Layihə Vellinqton Hausda – bura Hersoq Uellskinin şərəfinə belə adlandırılıb – yerləşirdi. Rotmer və Nortklifə köməyə amerikalı mütəxəssislər, o cümlədən də Edvard Berneys və Uolter Lipmman verildi. Bu qrup müharibəyə kütləvi ictimai dəstəyin, xüsusilə də oğulları kütləvi şəkildə Flandriyada qırılmalı olan fəhlə sinfi arasında dəstəyin, səfərbər edilməsi metodlarını işləyib hazırlamaq üçün «beyin həmlələri» keçirirdi.

downloaded from KitabYurdu.org

Lord Rotmerin qəzetini istifadə edərək ictimai şüurun manipulyasiyası üçün yeni metodlar sınaqdan çıxarılmışdı və təqribən 6 aydan sonra aydın oldu ki, bu metodlar kifayət qədər effektlidir. Tədqiqatçılar aydınlaşdırdılar ki, **problem haqqında sadəcə rəy söyləməkdən fərqli olaraq, problemlə bağlı mülahizələri qəbul və problemi dərk etmək üçün qabiliyyətə əhalinin yalnız kiçik bir hissəsi malikdir.** Lord Rotmerin sözlərinə görə, Böyük Britaniya əhalisinin 87 %-nin müharibəyə münasibəti məhz belə idi və bu prinsip yalnız müharibəyə münasibətdə deyil, ümumiyyətlə, cəmiyyətdə mövcud ola bilən istənilən problemə münasibətdə də özünü tamamilə doğruldur.
**Beləliklə, irrasionallıq ictimai şüurun ən yüksək səviyyəsinə qaldırılmış oldu.**Manipulyatorlar bunun üzərində oynamağa başladılar və bunda məqsəd istənilən vəziyyətdə insanın hərəkətlərini müəyyən edən reallıq hissini zəiflətmək və onu başqa istiqamətə yönəltməkdən ibarət idi. Müasir industrial cəmiyyətin problemləri nə qədər mürəkkəbləşirdisə, insanların şüurunu yayındırmaq və başqa istiqamətə yönəltmək getdikcə daha asan olurdu. Bunun nəticəsində **biz elə bir vəziyyətə düşdük ki, fəndgir manipulyatorların insan kütlələrində yaratdıqları tamamilə motivsiz rəylər obyektiv elmi faktlar kimi qəbul olunmağa başladı.**
Belə dərin nəticə ilə, sözün əsl mənasında, toqquşan manipulyatorlar müharibə ərzində onu bir-birinin ardınca sınaqdan çıxarmağa başladılar. Odur ki, Fransada döyüş meydanlarında yüz minlərlə gəncin ölməsinə baxmayaraq, qanlı müharibəyə ictimai müqavimət demək olar yox dərəcəsində idi. Həmin dövrün qeydləri göstərir ki, 1917-ci il üçün, elə Birləşmiş Ştatların müharibəyə qarışması ərəfəsində, müharibənin əsas ağırlığını daşıyan britaniyalı fəhlələrin 94 %-i almanların, onların monarxını və ölkələrini məhv etmək istəyən, dəhşətli irq olduğu və onları yer üzündən silməyin zəruriliyi barədə manipulyatorların yaratdığı rəydən başqa, nəyin uğrunda döyüşdükləri barədə heç bir, hətta dumanlı olsa belə, anlayışa malik deyildilər.

O vaxtdan heç nə dəyişməyib. Çünki 1991-ci ildə biz kütləvi informasiya vasitələrinin yaratdıqları eynilə həmin vəziyyətlə qarşılaşdıq və bu vəziyyət prezident Buşun Amerika xalqının 87 %-nin tam razılığı ilə İraq xalqına qarşı genosid müharibəsini başlayarkən konstitusiyanı həyasızcasına pozmasına imkan verdi. Vudro Vilsonu tərifləmək olar, – əgər indi bu yerinə düşürsə, – çünki o, ictimai rəyin manipulyatorları ilə bir komandada oynayır və onların metodlarını öz nəzarətçisi polkovnik Hausun (House) onun qulağına pıçıldadıqlarını həyata keçirmək üçün istifadə edirdi.

Prezident Vilsonun, daha doğrusu polkovnik Hausun göstərişi ilə «Kril Komissiyası» (Creel Commission) adlandırılan qurum yaradıldı. Məlum olduğu qədər bu, seçkilər və kütləvi

downloaded from KitabYurdu.org

təbliğat məqsədilə ABŞ-da «Beynəlxalq İşlər üzrə Kral İnstitutunun» metodologiyasını istifadə edən ilk təşkilat idi. Psixoloji müharibənin aparılması üzrə Vellinqton Hausda təkmilləşdirilən eksperimentlər eyni müvəffəqiyyətlə İkinci Dünya Müharibəsi dövründə də istifadə olunmuşdu; bunlar ABŞ-a qarşı 1946-cı ildə başlanan genişmiqyaslı psixoloji müharibədə də daim istifadə olunur. Metod dəyişməyib, dəyişən yalnız hədəfdir. İndi fokusda almanların yaşayış kvartalları yox, Birləşmiş Ştatların orta sinfidir.

Tez-tez baş verdiyi kimi, sui-qəsdçilər sevinclərini gizlədə bilmədilər. Birinci Dünya Müharibəsindən sonra, daha dəqiq olsaq, 1922-ci ildə Lippman «BeynəlxaIq İşlər üzrə Kral İnstitutunun» həyata keçirdiyi işi «İCTİMAİ RƏY» adlı kitabında ətraflı işıqlandırdı:

*«İctimai rəy dolayısı, gözəgörünməz və sirli faktlarla rastlaşır ki, bunlarda aşkar və aydın olan heç nə yoxdur. İctimi rəyin münasibət göstərdiyi situasiyalar yalnız ideyalar kimi, insanın şüurunda obrazlar kimi, özü, başqaları, onların ehtiyacları, məqsədləri və münasibətləri haqqında özünün fərdi təsəvvütləri kimi bəllidir – bütün bunlar elə ictimai rəydir. İnsan qruplarının və ya bu qrupların maraqlarından fəaliyyət göstərən ayrı-ayrı adamların təsir göstərdikləri bu obrazlar böyük hərflə yazılmalı olan İCTİMAİ RƏYDİR. Tez-tez belə də olur ki, iusanların şüurundakı obrazlar real həyatda üzləşdikləri faktlara münasibətdə onları azdırır».*
Təəccüblü deyil ki, «Bitlz» bizim sahillərə çatanda və heç nədən şübhələnməyən ölkənin başının üstünü alanda, Lippman ABŞ xalqını «Bitlz»ı «sevməyə» məcbur etmişdi. «Bitlz» bütün sutka ərzində radio və televiziyada gedən təbliğatın dəstəyi ilə nisbətən qısa vaxt ərzində «populyar» oldu. Radiostansiyaların metod və fəndləri özündə «Bitlz» musiqisi verilişləri barədə təsəvvür olunan dinləyicilərdən guya gələn yüzlərlə müraciətlərdə əvvəl «on ən yaxşı mahnı», sonra isə 1992-ci ildə «qırx ən yaxşı mahnı» üçün «xitparadların» yaradılmasını ehtiva edirdi.

Lippmanın həmvətəni Edvard Berneyz (Edward Bernays) 1928-ci ildə «İCTİMAİ RƏYİN KRİSTALLAŞMASI» («CRYSTALLIZİNG PUBLIC OPINION») adlı kitab yazdı. Elə həmin il onun ikinci kitabı da nəşr edildi və bu kitab sadəcə, «TƏBLİĞAT» adlandırıldı. Berneyz bu kitabda Vellinqton Hausdakı təcrübəsini qələmə alır. Berneyz «usta-manipulyator» Herbert Uellsin yaxın dostu idi və Berneyz onun çoxsaylı kvaziromanlarını kütləvi şüurun idarə olunması metodlarını daha dəqiq ifadə etmək üçün vəsait qismində istifadə etmişdi.
Herbert Uells cəmiyyətin aşağı təbəqələrinin dəyişdirilməsində oynadığı rolundan əsla utanmırdı və əsas etibarilə də ona görə ki, o, Böyük Britaniyanın kral ailəsinin üzvlərinin yaxın dostu idi və Ser Eduard Qrey (Sir Edward Grey), Lord Holdeyn (Haldane), **Sesil**

downloaded from KitabYurdu.org

**Kraliça I Yelizavetanın şəxsi katibi və məşuqu olduğu vaxtdan etibarən Britaniya monarxiyasını nəzarət altında saxlayan yəhudi əsilli Sesillər ailəsindən olan Robert Sesil (Robert Cecil), Leo Eymeri**(Leo Amery), Mİ-6-dan olan Helford MakKinder (Halford MacKinder) – MakKinder sonralar Londonun İqtisadiyyat Məktəbinin rəhbəri olmuşdu və onun şagirdi Bryus Lokhart (Bruce Lockhart) bolşevik inqilabı dövründə Lenin və Trotskinin, hətta Lord Alfred Milner kimi qüdrətli insanın da nəzarətçisi olmuşdu – kimi ən yüksək səviyyəli siyasətçilərlə birlikdə çox vaxt keçirirdi.
Herbert Uellsin vaxt keçirmək üçün ən çox sevdiyi yerlərdən biri, nüfuzlu «Sent Ermins» hotelində görüş yeri olan «Koeffisent Klub» (Coefficient Club) idi. Bura yalnız seçilmiş centlmenlər buraxıhrdı. Onlar burada ayda bir dəfə görüşürdülər. Yuxarıda adları çəkilən şəxslərin hamısı bu klubun, eləcə də «Soulz Klub»un (Souls Club) üzvləri idilər. Uells bildirirdi ki, istənilən ölkəni məğlub etmək olar, özü də bunu birbaşa qarşıdurma vasitəsilə yox, insan şüurunu – Uellsin «şəxsiyyət arxasında gizlənən psixiki dərinliklər» adlandırdığını – dərk etmək yolu ilə etmək mümkündür.

Belə güclü dəstəyə malik olan Berneyz öz «TƏBLİGATINI» nəşr etdirmək üçün özünü kifayət qədər inamlı hiss edirdi:
*«...Sivilizasiya get-gedə daha da mürəkkəbləşdikcə VƏ GOZƏGÖRÜNMƏZ HÖKUMƏTİN ZƏRURİLİYİ GETDİKCƏ DAHA AYDIN TƏZAHÜR EDƏNDƏ elə texniki vasitələr kəşf olunur və inkişaf etdirilir ki, ONLARIN SAYƏSİNDƏ İCTİMAİ RƏYİ NƏZARƏTDƏ SAXLAMAQ MÜMKÜN OLUR (burada və yuxarıda seçmə müəllifindir). Sərəncamda mətbuat və qəzetlər, telefon, teleqraf- radio və aeroplan olanda istənilən ideya çox tez, hətta ani surətdə bütün Amerikaya yayıla bilər...».*(Hələ kəşf edilməli olan televiziyanın bunu nə qədər yaxşı edəcəyini Berneyz hələ bilmirdi.)
***«...Kütlələrin təşkil olunmuş adətləri və rəyləri ilə şüurlu və ağıllı manipulyasiya demokratik cəmiyyətin mühüm elementidir. Bu gözəgörünməz mexanizmlə manipulyasiya edən kəslər GÖZƏGÖRÜNMƏZ HÖKUMƏTİ təşkil edir və BİZİM ÖLKƏDƏ HƏQİQİ HAKİM İQTİDAR DA ODUR...».***
Berneyz öz mövqeyini möhkəmləndirmək üçün Herbert Uellsin «Nyu-York Tayms» qəzetində dərc etdirilən məqaləsindən iqtibas gətirib. Herbert Uells bu məqaləsində «...siyasi proseslərin yeni dünyasını açan, ümumi sxemi rəsmiləşdirməyə və onu təhrifdən və xəyanətdən qorumağa (gözəgörünməz hökuməti) imkan verəcək...» müasir rabitə vasitələri ideyasını həvəslə dəstəkləyir.

«TƏBLİĞATDA» yer alan açıq söhbəti davam edək:

downloaded from KitabYurdu.org

*«Bizi idarə edir, bizim şüurumuzu məqsədyönlü surətdə formalaşdırırlar, bizim zövqlərimiz eyniləşdirilib, özümüzün hesab etdiyimiz ideyaları bizə, haqqında heç vaxt eşitmədiyimiz adamlar sırıyırlar. Bizim buna münasibətimizdən asdı olmayaraq fakt faktlığında qalır ki, həyatımızın demək olar hər bir aktında, siyasət və ya biznes sahəsində, ictimai davranışımız və ya etik təfəkkürümüzlə bağlı – fərqi yoxdur, üzərimizdə az sayda, bizim yüz iyirmi milyonun bir zərrəsini təşkil edə biləcək qədər az sayda, lakin kütləvi şüurun proseslərini və kütlələrin davranışının sosial modellərini anlayan insan hökmranlıq edir. İctimai şüuru idarə edən və köhnə sosial qüvvələrin qarşısını alan cilovlar məhz onların əlindədir, eləcə də DUNYA UZƏRİNDƏ NƏZARƏTİN QURULMASININ yeni üsullarını da onlar kəşf edirlər...»* (seçmə müəllifindir).
Berneyzin «ictimai şüuru idarə edən cilovları əllərində saxlayan...» «**ONLARIN»** kim olduğunu dünyaya deməyə cürəti çatmadı. Lakin biz bu kitabda «**nisbətən az sayda olan şəxslərin», Komitet 300-ün** varlığını açmaqla onun qəsdən yol verdiyi xətanı düzəldəcəyik. Berneyz öz işi müqabilində «Beynəlxalq Münasibətlər üzrə Şura»nın üzvlərinin ümumi alqışını qazandı və onlar Bemeyzin CBS telekompaniyasının rəhbəri olmasına səs verdilər. Vilyam Paley onun «şagirdi» oldu və nəhayət, ictimai rəyin formalaşdırılması üzrə «yeni elmin» bütün biliklərini qavrayaraq, Berneyzi əvəz etdi. Bunun sayəsində CBS ictimai rəyin formalaşdırılması üzrə fəaliyyət sahəsində lider oldu və CBS radio və televiziyası bu aparıcı rolu artıq heç kimə keçmədi.
Berneyzin qələmə aldığı kimi «nisbətən az sayda şəxsin» siyasi və maliyyə nəzarəti bir sıra gizlin cəmiyyətlər, əsas etibarilə də Şotland rituallı Masonluq və ola bilsin daha əhəmiyyətli «Müqəddəs İoann Yerusalimskinin Cəngavərləri Fəxri Ordeni» vasitəsilə həyata keçirilir.
*«Müqəddds İoann Yerusalimskinin Cəngavərləri Fəxri Ordeni»* - bu, Komitet 300-ün daimi nəzarətini təmin etmək üçün həyati dərəcədə vacib olan sahələrdə malik olduqları təcrübəyə görə(!) Böyük Britaniya monarxı tərəfindən bu şərəfə layiq görülən, seçilmişlərin qədim Ordenidir.
1986-cı ildə dərc olunan «Müqəddos İoann Yerusalimski Ordeni» adlı işimdə Ordeni aşağıdakı kimi təsvir etmişəm:

*«...Beləliklə, onun məqsədləri, elə özünün «Sarğı Ordeni» kimi daxili orqanları tərəfindən («Sarğı Ordeni» – Britaniya kral ailəsinin fahişələşdirilmiş oliqarxik kreaturasıdır və suveren «Müqəddəs İoann Yerusalimski Ordeni»nin uğrunda çıxış etdiyi işləri heçə endirir) təhrif olunduğu hallar istisna olmaqla, gizlin cəmiyyət deyildir».*
Nümunə qismində ateist *Lord Piter Karrinqtonu* (Lord Peter Carrington) nəzərdən keçirək. O, özünü Anqlikan Kilsəsinin təəssübkeşi kimi qələmə verir, lakin «Oziris Ordeni»nin (Order of Osiris) və digər iblisanə sektaların, o cümlədən də masonluğun üzvüdür. O,

downloaded from KitabYurdu.org

Vindzor qəsrində İngiltərənin Kraliçası Ülyahəzrət II Yelizaveta tərəfindən rəsmi olaraq «Sarğı Cəngavəri» adına ithaf edilib. *Ülyahəzrət II Yelizaveta* – o, qvelflərin «Qara Aristokratiyası»na mənsubdur, həmçinin də Anqlikan Kilsəsinin başçısıdır, hərçənd ona dərin nifrət bəsləyir.
Komitet 300 Lord Karrinqtona Rodeziyada hökuməti devirməyi və Anqolanın, eləcə də Cənubi-Qərbi Afrikanın mineral sərvətlərinin London Sitisinin nəzarəti altına verməyi, Argentinanı diz çökdürməyi və NATO-nu Komitet 300-ə məxsus olan sol yönümlü siyasi təşkilata çevirməyi tapşırmışdı.
Xristianların müqəddəs «Müqəddəs İoann Yerusalimski Ordeni»nə qır-saqqız kirni yapışan bir «yadmənsubiyyətli» sima da görürük (mən «yadmənsubiyyətli» sözünü, yəhudilərin müqəddəs kitabı – Əhdi-Ətiqin orijinalında verilən və hər hansı bir adamın əsil-nəcabətini göstərən mənada işlədirəm) – bu, mayor Lui Mortimer Blumfild, Con F.Kennedinin öldürülməsi planını həyata keçirməyə kömək etmiş şəxsdir. Biz Malta xaçını qürurla gəzdirən bu «yadın» fotosəklini görürük, bu həmin xaçdır ki, onu «Sarğı Ordeni» cəngavərləri geyimlərinin qollarında gəzdirirlər.

**Beynimizi elə güclü yuyurlar ki, biz Böyük Britaniya kral ailəsinin guya vur-tut xoş, ziyansız və kaloritli ictimai institut olduğuna inanır və bu, Böyük Britaniya monarxiyası adlandırılan institutun korrupsiyaya nə dərəcədə uğradığını və buna görə də necə təhlükəli olduğunu heç təsəvvür belə etmirik. «Sarğı Ördeni» cəngavərləri ölkənin və xalqın onlara göstərdiyi etimada kobud şəkildə xəyanət edən və ən korrupsiyalasmış ictimai xadimlərdən ibarət olan ƏN YAXIN DAXİLİ dairəni təşkil edirlər.**
*«Sarğı Ordeni» cəngavərləri* - onlar Komitet 300-ün liderləri, Kraliça II Yelizavetanın «Gizlin Şura»sının ən etibarlı üzvləridir. Bir neçə il əvvəl, «Müqəddəs İoann Yerusalimski Ordeni» haqqında material axtardığım vaxt, mən Oksforda, onun magistrlərindən biri, Böyük Britaniyanın qədim və müasir ənənələri üzrə mütəxəssis ilə söhbət etməyə getmişdim. O, mənə «Sarğı Cəngavərləri» haqqında belə dedi – onlar **Ülyahəzrətin** çox şərəfli «Müqəddəs İoann Yerusalimski Ordeninin»**müqəddəslərinin müqəddəsi, elitasının elitasıdır.** İzn verin deyim ki, tam məlumata malik olmayanlar üçün «Sarğı Ordeni» kimi cəmiyyətlər özlərinin ilkin görkəmini indiyə qədər saxlasalar da, bu, həqiqi xristian döyüşçüsü Pyer Jerar (Peter Gerard) tərəfindən əsası qoyulmuş həmin ilkin «Sarğı Ordeni» deyil, ələ keçirilmiş və daxildən dağıdılmış bir çox gözəl cəmiyyətlərdən biri ilə baş vermiş tipik haldır.
Oksforddan «Viktoriya və Albertin Muzeyinə» (Victoria and Albert Museum) yollandım və Lord Palmerstonun, Çində «tiryək sülaləsinin» əsasını qoyanlardan birinin, kağızlarını

downloaded from KitabYurdu.org

öyrənmək imkanı əldə etdim. **Öz taylarının bir çoxu kimi, Lord Palmerston da yalnız mason deyil, həm də qnostisizmə ithaf edilmiş adam idi... İndiki «kral ailəsi» kimi, Palmerston da özünü xristian kimi qələmə verirdi, lakin faktiki olaraq o, iblisin nökəridir. İblisçilərin bir çoxu Böyük Britaniya aristokratiyasının lideri olub və Çində tiryək ticarətində çox böyük varidat toplayıblar.**

Viktoriya muzeyindəki sənədlərdən öyrəndim ki, Kraliça Viktoriya Ordenin əsasını qoyan Pyer Jerarın katolik kilsəsi ilə əlaqəsini qırmaq üçün 1885-ci ildə «Müqəddəs İoann Yerusalimski Ordeni»nin adını dəyişərək, onu «Şərəfli Protestant Yerusalimski Ordeni» («Protestant Most Venerable Order of Jerusalem») adlandırdı. Ordendə üzvlük, varidatını Çində tiryək ticarətində toplamış istənilən oliqarxik ailə üçün açıq idi və istənilən tamamilə dekadent ailə «yeni ordendə» yer ala bilərdi.

Həmin şərəfli centlmenlərin bir çoxu «quru qanun» dövründə Kanadada əməliyyatlara nəzarət edərək, ABŞ-a iri viski partiyaları göndərirdilər. Bu qrupda ən görkəmlisi Komitet 300-ün üzvü Qraf Heyq idi. Sonralar o, öz alkoqol biznesini qoca Co Kennediyə ötürmüşdü. Viski istehsalçıları da, «quru qanunun» özü də Böyük Britaniya taxt-tacının kreaturası idi və taxt-tac bu işdə Komitet 300-ün üzvləri vasitəsilə hərəkət edirdi. Amerikada «quru qanun» indiki narkoticarətin xələfi olan eksperiment idi və indi də həmin dövrün dərsləri, tezliklə leqallaşdırılmalı olan narkotiklərin ticarətində istifadə olunur.

Kanada marşrutu ən çox Uzaq Şərqdəki heroin təchizatçıları tərəfindən istifadə olunur. Böyük Britaniya monarxiyası bu haqda məlumatın ictimailəşməməsi üçün bütün səylərini ortaya qoyur. Öz hakimiyyətindən istifadə edən Kraliça Yerlizaveta Kanadanı kraliçanın ŞƏXSİ təmsilçisi olan general-qubernator vasitəsilə (qəribədir, müasir kanadalılar bu dərəcədə arxaik idarəetmə formasına necə dözürlər) və aşağı düşən xətt üzrə «Gizlin Şura» (müstəmləkəçilik epoxasının daha bir arxaik qalığı) və Kanadada biznesin bütün sahələrini öz nəzarəti altında saxlayan «Müqəddəs İoann Yerusalimski Cəngavərləri» vasitəsilə idarə edir.

Kanadada britaniyalılara qarşı müxalifət yatırılıb. Kanada dünyada ən ciddi məhdudiyyət qanunlarına, o cümlədən elə İngiltərənin Lordlar Palatasının ölkəyə sırıdığı, necə deyərlər, «nifrət cinayətləri» adlandırılan qanunlara malikdir. Hazırda Kanadada «nifrət cinayətlərində» ittiham olunan insanlara qarşı müxtəlif mərhələlərdə olan dörd iri məhkəmə prosesi aparılır. Bunlar Fintanın (Finta), Keeqstranın (Keegstra), Sundelin (Zundel) və Rossun (Ross) işləri ilə bağlı proseslərdir. Yəhudilərin Kanadaya nəzarət etdiklərinə (bunu

downloaded from KitabYurdu.org

Bronfmanlar həyata keçirirlər) dəlalət edən sübutları tapmağa və onları açmağa cürət edən istənilən adam dərhal həbs olunacaq və üzdəniraq, «nifrət cinayətləri» adlandırılan əməldə ittiham olunacaqdır. Bu, dünyanın idarə olunması piramidasının ən zirvəsində, sözün hərfi mənasında, əyləşmiş Komitet 300-ün hakimiyyətinin miqyasları barədə müəyyən təsəvvür yaradır.

Bunun həqiqiliyinə dəlalət edən fakt, **Komitet 300-ün «Dəyirmi Masanın» bayrağı altında «Beynəlxalq Strateji Tədqiqatlar İnstitutu»nu yaratmasıdır** (BSTİ = İİSS, International Institute for Strategic Studies). Bu institut özü ilə Mİ-6 və «Tavistok İnsan Münasibətləri İnstitutu»nun «qara təbliğat» və «yaş işlər» (kəşfiyyat jarqonunda insan qanının axıdılması ilə bağlı olan aksiyalar belə ifadə olunur), nüvə texnologiyaları və terror aktları əməliyyatlarının həyata keçirilməsi üçün silah təcəssüm etdirir. **Onun «qara təbliğatı» və informasiyası dünya mətbuatı vasitəsilə ani olaraq yayılır, eləcə də birbaşa hökumətlərə və hərbi idarələrə ötürülür.**
**Səksən yeddi iri informasiya agentliyi, eləcə də beynəlxalq qəzet və jurnalların 138 baş redaktoru və aparıcı jurnalisti «Beynəlxalq Strateji Tədqiqatlar İnstitutu»nun üzvüdür.** İndi siz qəzet rubrikasının və ya köşəsinin sevimli aparıcısının öz informasiyasını haradan aldığını və öz rəyini nə yolla formalaşdırdığını artıq bilirsiniz. Cek Andersonu (Jack Anderson), Tom Uikeri (Tom Wicker), Sem Donaldsonu (Sam Donaldson), Con Canselleri (John Chancellor), Meri MakQrourini (Mary McGrory), Seymur Herşi (Seymour Hersh), Flora Lyuisi (Flora Lewis), Entoni Lyuisi (Anthony Lewis) və digərlərini xatirladınızmı? «Beynəlxalq Strateji Tədqiqatlar İnstitutu»nun ötürdüyü bütün informasiya, xüsusilə də Prezident Səddam Hüseynin qaralanması və ya Liviya üzərinə tezliklə başlanacaq hücuma bəraət qazandırılması, eləcə də FAT-ın (Fələstin Azadlıq Təşkilatı) ittiham olunması məqsədilə və s. «hadisələrin ssenarisi» hər bir konkret hal üçün sifarişlə xüsusi olaraq quraşdırılır. Seymur Herşin dərc etdirdiyi Mey Leydə (Mai Lai) qırğın haqqında hadisə birbaşa «Beynəlxalq Strateji Tədqiqatlar İnstitutu»ndan çıxıb – bunu ona görə qeyd edirəm ki, heç kəs Herş tipli adamların «jurnalist təhqiqatını» özlərinin keçirdiyi barədə yanlış fikrə düşməsin.
**«Beynəlxalq Strateji Tədqiqatlar İnstitutu» (STBİ)** – bu, Lippman və Berneyzin müəyyən etdikləri kimi, **ictimai rəyin formalaşdırılmasının ən yüksək eşelonudur.** Hazırda ictimai rəyin formalaşdırılmasında əsas rolu kitablar yox, seçilmiş jurnalistlərin rəyini dərc edən qəzetlər oynayır. **«Beynəlxalq Strateji Tədqiqatlar İnstitutu» yalnız rəyin yaradılması üzrə koordinasiya mərkəzi kimi deyil, həm də həmin rəylərin və ssenarilərin maksimal dərəcədə geniş auditoriyaya çatdırılmasının mexanizmi kimi yaradılıb ki,** buna, məsələn, kitabların köməyi ilə

downloaded from KitabYurdu.org

nail olmaq mümkün deyildir. «Beynəlxalq Strateji Tədqiqatlar İnstitutu» – bu, Komitet 300-ün idarələrinin qarşılıqlı bağlılığının və qarşılıqlı fəaliyyətinin parlaq nümunəsidir. «Beynəlxalq Strateji Tədqiqatlar İnstitutu»nun yaradılması ideyası 1957-ci ildə «Bilderbergerlərin» görüşündə meydana çıxmışdı. Xatırlatmaq vacibdir ki, *Bilderberq konferensiyası* - bu, Mİ-6-nın «Beynəlxalq İşlər üzrə Kral İnstitutunun» rəhbərliyi altında gördüyü işin nəticəsidir. Konferensiya ideyasını Lord Tvidsmuirin (Tweedsmuir) oğlu Alister Buçan (Alastair Buchan) irəli sürmüşdü. Buçan o vaxt «Beynəlxalq İşlər üzrə Kral İnstitutu» Şurasının sədri, «Dəyirmi Masa»nın üzvü, həmçinin də kral ailəsinə çox yaxın olan bir adam idi. Bu konferensiya Leyboristlər Partiyasının lideri Dennis Hili (Dennis Healey) mehribanlıqla öz sıralarına qəbul etdi. İştirakçıların arasında həmçinin Fransua Düşan (Francois Duchene) da var idi ki, onun ustadı Jan Mane Duşene (Jean Monet Duchenes) Kolumbus şəhərində yerləşən «Tavistok İnsan Münasibətləri İnstitutu»nun rəhbəri H.V.Diksin (H.V.Dieks) himayədarlığı ilə «Üçtərəfli Komissiya»ya rəhbərlik edirdi. İctimai rəyin formalaşdırılması üzrə bu nəhəng təbliğat aparatının rəhbər şurasına aşağıda göstərilən şəxslər və təşkilatlar daxildir:

***Frenk Kitson*** (Frank Kitson), bir vaxtlar «İrlandiya Respublika Ordusu»nun yarıhərbi birləşmələrinin nəzarətçisi olub. Bu adam Keniyada «Mau-Mau» üsyanını hazırlayıb və həyata keçirib.

«Lazard Freres» («Lazar Qardaşları») bankı, ***Robert Ellsvortla*** (Robert Ellsworth) təmsil olunub.

«N.M.Rotşild» kompaniyası, ***Con Loudonla*** (John Loudon) təmsil olunur.

***Pol Nitşe*** (Paul Nitze), «Schroeder Bank»ı təmsil edir. Nitse «Silahlar Üzərində Nəzarət Haqqında» Müqavilənin bağlanmasında mühüm rol oynayıb. Bunu da demək vacibdir ki, silahlanma HƏMIŞƏ «Beynəlxalq Işlər üzrə Kral İnstitutu»nun nəzarəti altında olub.

***K.L.Zulsberger*** (C.L.Sulzberger), «Nyu-York Tayms» qəzetindən.

***Stensfild Törner*** (Stansfield Turner), «Mərkəzi Kəşfiyyat İdarəsi»nin keçmiş direktoru.

***Piter Kalvakoressi*** (Peter Calvocoressi), «Penguin Books» nəşriyyatını təmsil edir.

«Beynəlxalq İşlər üzrə Kral İnstitutu», ***Endryu Şoenbergerlə*** (Andrew Shoenberg) təmsil olunur.

Jurnalist və reportyorlar, konkret olaraq, ***Flora Lüis*** (Flora Lewis), ***Drü Middlton*** (Drew Middleton), ***Entoni Lüis*** (Anthony Lewis), ***Maks Frenkel*** (Max Frankel).

***Deniel Ellsberq*** (Daniel Ellsberg).

***Henri Kissincer*** (Henry Kissinger).

***Robert Boui*** (Robert Bowie), «Mərkəzi Kəşfiyyat İdarəsi»nin (National Intelligence Estimates – Kəşfiyyat və

downloaded from KitabYurdu.org

Qiymətləndirmə üzrə Milli İdarə) bölməsinin sabiq direktoru.

**NIKSONUN ISTEFASI**

«Bilderbergerlərin» 1957-ci ildə baş tutan görüşündən sonra Kissincer Manhettendə «Dəyirmi Masa»nın ofisini açmaq barədə təlimat aldı. Bu ofisin nüvəsini Heyq, Ellsberq, Qalperin, Şlezinger, MakNamara (McNamara) və MakBandi qardaşları (McBundy) təşkil edirdi. Kissincerə Nikson administrasiyasında icraedici vəzifələrin hamısını «Dəyirmi Masa»nın o üzvləri ilə doldurmaq tapşırılmışdı ki, önlar «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»na və deməli, İngiltərə kraliçasına sadiq olsunlar. Kissincerin əməliyyatların mərkəzi kimi «Pyerre» hotelini (Hotel Pierre), Niksonun adamlarının toplaşdıqları keçmiş yeri, seçməsi təsadüfi deyildi.

Kissincerin və «Dəyirmi Masa»nın əməliyyatının mahiyyəti bundan ibarət idi: «Beynəlxalq İşlər üzrə Kar İnstituru»nun sədri Endrü Şoenberqin (Andrew Schoenberg) sərəncamına əsasən kəşfiyyata aidiyyəti olan təşkilatların hamısının fəaliyyəti blokadaya alınmış və bunun nəticəsində Nikson birbaşa operativ məlumat almaq imkanından məhrum edilmişdi. Bu o demək idi ki, AMERİKA VƏ XARİCİ KƏŞFİYYAT XİDMƏTLƏRİNDƏN, ELƏCƏ DƏ ABŞ-ın BÜTÜN HÜQUQ-MÜHAFİZƏ ORQANLARINDAN, O CUMLƏDƏN DƏ «FEDERAL TƏHLÜKƏSİZLİK BÜROSU»NUN BEŞİNCİ ŞÖBƏSİNDƏN DAXİL OLAN BÜTÜN OPERATİV İNFORMASİYA Prezidentə təqdim olunmazdan əvvəl, bunları Kissincer və onun əməkdaşları alırdılar. Bu cür vəziyyət ABŞ-da Mİ-6-nın nəzarəti altında olan bütün terrorçu təşkilatlar və əməliyyatlar haqqında informasiyanın tam şəkildə gizlin saxlanmasına zəmanət verirdi. Bu, Qalperinin kompetensiyası dairəsində idi.

Bu metodologiya üzrə işləyən Kissincer dərhal Prezident Niksonun üzərində hegemonluq qura bildi. Nikson Kissincer qrupu tərəfindən çirkaba salınandan və vəzifəsindən qovulandan sonra isə Kissincer, nə Uotergeytdən əvvəl, nə də ondan sonra heç kəsdə olmayan, misilsiz səlahiyyətləri uzurpasiya etdi. Çox nadir hallarda dərc etdirilən həmin hüquq və səlahiyyətlərin bəziləri bunlardır:

Kissincer Qalperinə «Milli Təhlükəsizlik üzrə Memorandum No.l» (National Security Decision Memorandum No.l) haqqında mətnin hazırlanmasını əmr etdi, Qalperin isə «Dəyirmi Masanın» üzvləri vasitəsilə həmin mətni faktiki olaraq hazır şəkildə birbaşa «Beynəlxalq İşlər üzrə Kar İnstitutu»ndan aldı. Bu Memorandum Kissinceri «Nəzarət Şurası»nın (Verification Panel) sədri etməklə, ona ABŞ-da ali hakimiyyət səlahiyyətləri verdi. Buradan «Strateji Silahların Məhdudlaşdırılması Üzrə» aparılan danışıqların

downloaded from KitabYurdu.org

hamısına rəhbərlik Pol Nitşe, Pol Uornke (Paul Warnke) və Cenevrədə «Silahlar Üzərində Nəzarət Missiyası»nda toplaşan bir topa xəyanətkar vasitəsilə həyata keçirilirdi.
Bundan başqa, Kissincer «Vyetnam üzrə Xüsusi Təhqiqat Qrupu»na (The Vietnam Special Studies Group) təyin edilmişdi ki, hərbi və mülki məruzələrin, o cümlədən də Vyetnamdan daxil olan kəşfiyyat məlumatlarının hamısı burada öyrənilir və qiymətləndirilirdi. Kissincer həmçinin, ən yüksək məxfilik dərəcəsi olan «40 Komitəsi» üzərində nəzarət hüququnu tələb etdi və bunu da aldı. Həmin agentliyin vəzifəsi, gizlin təxribat fəaliyyətini harada və nə vaxt başlamaqdan və sonra da özünün işə saldığı əməliyyatları izləməkdən ibarət idi.

Bu arada (Bunlarla yanaşı,) Kissincer, bütün hər şeyi öz nəzarəti altında saxladığı barədə təsəvvür yaratmaq üçün, «Federal Təhlükəsizlik Bürosu»na hamının, hətta özünün ən yaxın əməkdaşlarının da telefon danışıqlarını dinləməyi əmr etdi. Onun dairəsindən olan adamların əksəriyyəti telefon danışıqlarının dinləndiyindən xəbərdar idilər. Lakin bu tədbirlər gözlənilmədən az qala Kissincerin özünü zərbə altına qoymuşdu: Mİ-6-nın agenti, Henri Brendon adlı bir kimsənin telefonunun dinlənməsi əmr edilmişdi və özü isə bu haqda məlumatsız, üstəlik də Londonun «Tayms» qəzetinin reportyoru imiş. O vaxt Kissinceri az qala postundan aşırdacaqdılar, çünki Londonun «Tayms»ı ilə bu cür rəftar etməyə heç kəsə icazə verilməyib.

Ellsberqin fəaliyyəti və bunun ardınca baş verən Uotergeyt haqqında tam söhbət bu kitabda nəql edilmək üçün həddindən artıq uzundur. Bircə bunu demək kifayətdir ki, Kissincer Ellsberqi, o, hələ Kembricdə təhsil alarkən ələ alındığı gündən öz nəzarəti altında saxlayıb. Vyetnamda müharibənin davam etdirilməsi lehinə həmişə sərt xətt yeridən Ellsberq tədricən radikal solçu fəala «çevrildi». (Onun bu «çevrilməsi», Dəməşqə gedərkən Apostol Pavlın tarixi təcrübəsindən yalnız bir qədər az möcüzəli idi.)

ABŞ-da yeni solların bütün spektri – bu, «Dəyirmi Masa» və «Siyasi Tədqiqatlar İnstitutu» vasitəsilə hərəkət edən Britaniya Mİ-6 kəşfiyyatının gördüyü işin nəticəsidir. «Siyasi Tədqiqatlar İnstitutu» respublikaçı dövlət quruluşu olan bir çox ölkənin siyasətinin dəyişməsində aparıcı rol oynayıb və bu fəaliyyətini Cənubi Afrikada, eləcə də Cənubi Koreyada hətta indi də davam etdirməkdədir. «Siyasi Tədqiqatlar İnstitutu»nun (STİ) bir çox əməliyyatları mənim 1990-cı ildə dərc olunan «STİ – yeni baxış» («IPS – Revisited») adlı kitabımda işıqlandırılıb.

«Siyasi Tədqiqatlar İnstitutu»nun əsas vəzifəsi nəticədə xaos meydana çıxaran fikir ayrılığı toxumlarını səpmək və dezinformasiya yaymaqdır. Amerikanın gəndərinə qarşı yönələn bu

downloaded from KitabYurdu.org

cür proqramlardan biri, narkotiklərin yayılması üzərində qurulub. «Siyasi Tədqiqatlar İnstitutu»nun nəzarəti altında olan «birinci eşelən təşkilatlarının» fəaliyyəti, Niksonun avtomobil kortecinin daşa basılması kimi hər cür çirkin aksiyaların, eləcə də ölkədə terror partlayışlarının təşkil olunması nəticəsində elə bir yalan və aldanış mühiti yaradılırdı ki, bu, milyonlarla amerikalı KQB, QRU («Qlavnoye Razvedıvatelnoye Upravleniye» SSRİ Silahlı Qüvvələrinin Baş Kəşfiyyat İdarəsi – tərc), eləcə də Kubanın DGİ kəşfiyyat xidmətinin səyləri ilə ABŞ-ın dəhşətli təhlükəyə məruz qaldığına inanmağa məcbur etdi. Həmin uydurulmuş agentlərin bir çoxunun Corc MakQovern vasitəsilə Demokratlar Partiyası ilə sıx bağlı olduğu haqqında şaylə dövriyyəyə buraxılmışdı. Faktiki olaraq bu, Mİ-6-ya layiq olduğu şöhrəti gətirən nümunəvi dezinformasiya kampaniyalarından biri idi.

Haldeman (Haldeman), Erlixman (Ehrlichman) və Niksonun ən yaxın köməkçiləri baş verənlərin əsl səbəblərini bilmirdilər, buna görə də Şərqi Almaniyanın, Sovet İttifaqının, Şimali Koreyanın və Kubanın terrorçuları hazırladıqları və onların ABŞ-da əməliyyatları maliyyələşdirdikləri barədə bəyanatlar Ağ Evdən seli axmağa başladı. «Siyasi Tədqiqatlar İnstitutu»nun ABŞ prezidentinin əleyhinə fəaliyyət göstərməsi ilə bağlı şübhələri hələ bir kənara qoyaq, mən heç Niksonun STİ haqqında ümumiyyətlə, nə isə bildiyinə belə inana bilmirəm. Fars körfəzində başlanan müharibə dövründə də biz belə bir dezinformasiya kampaniyasının təsirinə məruz qaldıq məlumat verilirdi ki, bütün rənglərdən olan terrorçular ABŞ-a hücum çəkməyə və mümkün olan hər şeyi partlatmağa hazırlaşırlar.

Prezident Nikson sözün əsl mənasında məlumatsızlıq zülmətinə qərq edilmişdi. O, heç Kissincerin şagirdi David Yanqın (David Young) «informasiya sızmalarının» izlənməsi ilə bağlı işini Ağ Evin zirzəmisində oturaraq yerinə yetirdiyini belə bilmirdi. David Yanq Oksfordun məzunudur və «Dəyirmi Masa»nın «Milbank Tweed» hüquq firması kimi kompaniyaları vasitəsilə uzun müddət Kissincerlə bağlı olmuşdlı. Prezident Nikson Mİ-6 və «Beynəlxalq İşlər üzrə Kral İnstitutu»nun, deməli, Böyük Britaniya kral ailəsinin rəhbərliyi altında ona qarşı çıxış edən qüvvələr qarşısında layiqli rəqib deyildi.

«Uotergeyt işinə» gəlincə isə, burada Nikspnun yalnız bir günahı var idi: o, öz ətrafında baş verənləri bilmirdi. Ceyms MakKord hakim Con Sirikə öz «etirafmı» edəndə, MakKordun ikili oyun apardığı Niksona aydın olmalı idi. O, gərək Kissincerin MakKordla daim saxladığı əlaqələr barədə məsələni qaldıraydı, Belə olsaydı, hadisələrin inkişafmın qarşısı alınar və Mİ-6-nın Uotergeyt əməliyyatı bütünlüklə iflasa uğrayardı.

downloaded from KitabYurdu.org

Nikson özünün prezident hakimiyyətindən sui-istifadə etmirdi. Onun günahı bundadır ki, o, ABŞ Konstitusiyasını müdafiə etmədi və xanım Ketrin Meyer Qrexemi və Ben Bredlini çevriliş hazırlamaq məqsədilə sui-qəsddə suçlamadı. Ketrin Meyer Qrexemin şəcərəsi çox şübhəli idi və bunu hətta «Bu qadın qətli qələmə alıb» serialındakı «Cessika Fletçer» də tez bir zamanda müəyyən edə bilərdi. Lakin «Dəyirmi Masamn» nəzarətçiləri, hətta bunu bildikləri halda da, bütün səylərini cəmləyib həqiqətin üzə çıxmamasına çalışırdılar. «Vaşinqton Post» qəzetinin rolu fasiləsiz «ifşaların» köməyi ilə ehtirasları qızışdırmaqla Prezident Niksona, hətta onun günahını sübuta yetirən hər hansı bir dəlil olmasa da, etimadsızlıq mühitini yaratmaqdan ibarət idi.

Mətbuatın çox böyük hakimiyyəti – Lippman və Berneyz bunu öncədən çox düzgün söyləyirdilər – özünü onda göstərdi ki, öz əri Filipp L.Qrexemi öldürməkdə (rəsmi versiyaya görə o, intihar edib) çoxdan şübhəli bilinən xanım Qrexem tamamilə əxlaqlı qadın kimi təqdim olunmuşdu. Qiyamda və dövləti xəyanətdə ittiham edilməli olan digər xainlər – bunlar Kissincer, Heyq, Qalperin, Ellsberq, Yanq, MakKord, Cozef Kalifano və STİ-dən Homski, eləcə də MakKordun evinə basqın edərək onun bütün kağızlarını məhv edən MKİ agentləri idi. Bir daha təkrar etmək lazımdır ki, burada qələmə almağa imkanımız olmayan bir çox digər əməliyyatlar kimi, Uotergeyt də Komitet 300-ün Birləşmiş Ştatlar üzərində TAM NƏZARƏTİNİ nümayiş etdirirdi.

Nikson Erl Vorren (Earl Warren) və Vorren üçün ev tikdirən bəzi mafiya bosları ilə oturub-dursa da, bu o demək deyildir ki, onu alçaltmaq və Uotergeyt qalmaqalı vasitəsilə rüsvay etmək lazım idi. Mənim Niksona mənfi münasibətim, onun 1972-ci ildə «Raket Əleyhinə Müdafiə Sisteminin Məhdudlaşdırılması Üzrə» rüsvayçı Müqaviləni can-başla imzalaması və onun Leonid Brejnevlə mehriban-dostluq münasibətləri ilə izah olunur. Bütün bu işdə ən xoşagəlməz uğursuzluqlardan biri, Uotergeyt materialları üzrə «sızılan» informasiyanın Edvard Kennediyə ötürülməsini təşkil edən «İNTERTEL»in çirkin rolunu ifşa etməyin mümkün olmaması idi. «İNTERTEL» – bu, «Corning Group» kompaniyasının özəl iyrənc kəşfiyyat agentliyidir. «İNTERTEL» tipli özəl kəşfiyyat agentlikləri ABŞ-da mövcud olmaq hüququna malik olmamalıdır. Onlar bizim şəxsi həyat hüququmuza TƏHLÜKƏ yaradır və azad insanları təhqir edirlər.

Günah həm də, Prezident Niksonu, onun üzərinə atılmış polad izolyasiya torundan, nəzərdə tutulan kimi, müdafiə etməli olan adamların üzərinə düşməlidir. Niksona sadiq olan adamlar arasında kəşfiyyat üzrə mütəxəssis çox az idi və üstəlik də, onlar Böyük Britaniya kəşfiyyat xidmətlərinin əməliyyatlarının necə dəqiqliklə hazırlandığını bilmirdilər; onlar

downloaded from KitabYurdu.org

faktiki ofaraq heç təsəvvür də etmirdilər ki, «Uotergeyt işi» əvvəldən axıra qədər Böyük Britaniya kəşfiyyatının əməliyyatıdır. Con F.Kennedinin öldürülməsi kimi, Uotergeyt işi də özü ilə Amerika Birləşmiş Ştatlarına qarşı dövlət çevrilişi və sui-qəsd təcəssüm etdirirdi. İndi bu fakt etiraf olunmasa da, əminəm, bütün məxfi sənədlər bir vaxtlar, nəhayət, dərc olunanda tarixə düşəcəkdir ki, bu iki sui-qəsd – biri Kennediyə, o biri isə Niksona qarşı – həqiqətən də mövcud olmuşdu və bunların nəticəsində də Birləşmiş Ştatlar respublikasının üzərində durduğu institutlar və təməl əsaslı surətdə sarsıdılıb.

Xam kimi və hökumətə qarşı fəaliyyətdə başqalarından daha çox günahkar olduğuna görə həqiqətən də damğalanmalı olan adam – general Aleksandr Heyqdir. Bu klerk, özünün kağız-kuğuz karyerası ərzində bir dəfə də olsun döyüş meydanında orduya komandanlıq etməyən qərargah polkovniki, ali səviyyəli gözəgörünməz paralel hökumətin əli ilə gözlənilmədən siyasi səhnəyə atılmışdı. Prezident Nikson bir dəfə onun haqqında belə demişdi ki, o, Kissincerdən icazə almadan heç tualetə də getmir.

Heyq «Dəyirmi Masa»nın məhsulu idi. O, Ülyahəzrətin ABŞ-da ən etibarlı adamlarından biri, «Dəyirmi Masa»nın üzvü Cozef Kalifanonun diqqətini özünə cəlb etmişdi. Demokratik Milli Konvensiyanın hüquq məsləhətçisi olan Cozef Kalifano GECƏ BASQINI BAŞ VERƏN GÜNDƏN FAKTIKI OLARAQ BIR AY ƏVVƏL Alfred Bolduindən MakKordun evinə «su çəkənlər» adı ilə basqın edənlərdən biri – müsahibə almışdı. Kalifano Bolduinlə öz arasındakı söhbət haqqında memorandum yazmaqla kifayət qədər axmaq olduğunu göstərdi – burada MakKordun keçmişi barədə bəzi detallar əks olunmuş, həmçinin də MakKordun Bolduini nə üçün öz «komandasına» daxil etdiyi haqqında danışılırdı.

Bundan da pisi o idi ki, Kalifanonun memorandumunda Niksonla «Növbəti Seçkilər üzrə Komitə» arasında aparılan və dinlənilmiş telefon danışıqlarının təfərrüatlı açıqlanması da əks olunmuşdu; bütün bunlar həmlə (gecə basqını) ƏRƏFƏSİNDƏ baş vermişdi. Kalifanonu on federal cinayətdə ittiham etmək olardı, lakin bunun əvəzində o, etdiyi cinayətlərin məsuliyyətindən yaxasını qurtardı. Riyakar Sem Ervin Uotergeyt dinləmələrində «Azlıqlar Şurası»ndan olan Fred Tompsona bu inandırıcı sübutları təqdim etməyə imkan vermədi və bunu, onların «həddindən artıq hipotetik» olması kimi gülünc bəhanə ilə əsaslandırdı.

Kissincer «Dəyirmi Masa»nın əmri ilə polkovnik Heyqi meteor sürətilə «dörddulduzlu» general rütbəsinə yüksəltdi – hərbi xidmət üzrə bu yüksəliş ABŞ-ın hərbi tarix annallarında ən sürətlisi idi və bunun nəticəsində Heyq 280 nəfər ordu generalı və ABŞ-ın yüksək rütbəli zabitinin başı üzərindən adlamış oldu.

downloaded from KitabYurdu.org

«Heyqin xidmət üzrə» bu sayaq «irəliləməsi» nəticəsində 25 nəfər yüksək vəzifəli general istefaya getməyə məcbur oldu. Heyq Prezident Niksona VƏ BİRLƏŞMİŞ ŞTATLARA xəyanəti müqabilində sonralar mükafat olaraq «ŞimaliAtlantik Təşkilatı Müqaviləsi»nin (NATO) silahlı qüvvələrinin baş komandanı kimi nüfuzlu vəzifə aldı, hərçənd o, NƏ VAXTSA BU POSTU TUTANLAR ARASINDA ƏN SƏRİŞTƏSİZ KOMANDAN idi. Burada da o, NATO ölkələri və ABŞ-ın 400 nəfərdən çox yüksək generalının başı üzərindən keçmişdi.

Bu təyinat haqqında xəbər SSRİ Silahlı Qüvvələrinin ali komandan heyətinə çatanda, marşal Oqorkov Varşava Müqaviləsindəki üç sovet generalını Şərqi Almaniyadan yanına çağırtdırdı və onlar bir-birinə gözaydınlığı verərək gecəyarıyadək şampan vurdular. Heyqin NATO-nun Silahlı Qüvvələrinin komandanı olduğu müddət ərzində Sovet İttifaqı Silahlı Qüvvələrinin elitar peşəkar kadrları, bütün ömrü boyu yalnız peşəkar hərbçi olan insanlar, Heyqə qarşı son dərəcə nifrətlə yanaşır və onu açıq-açığına «NATO-nun ofis meneceri» adlandırırdılar. Onlar bilirdilər ki, Heyq öz təyinatı ilə Birləşmiş Ştatların hərbçilərinə yox, «Beynəlxalq İşlər üzrə Kral İnstihıtu»na borcludur.

